**Azərbaycan Milli Elmlər Akademiyası**
**akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu**

**Əmmar Abbasov**

# Müasir dünyada islamofobiya və onun təzahür formaları

**Bakı-2018**

*Azərbaycan Milli Elmlər Akademiyası*
*akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun*
*Elmi Şurasının qərarı ilə çap olunur.*

**Elmi redaktor:** *i.ü.f.d.* **M.Babaşlı**

**Rəyçilər:** *i.ü.f.d.* **A.Həbibov**
*fəl.ü.f.d.* **E.Məmmədov**

**Ə. Abbasov. "Müasir dünyada islamofobiya və onun təzahür formaları".**
Bakı, "Papirus NP" nəşriyyatı, 2018, 184 səh

**İSBN978-9952-37-083-6**

© akad. Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutu, 2018

# MÜNDƏRİCAT


**Giriş** ........................................................................................ 4

**I FƏSİL**
**İslama qarşı mübarizə tarixindən** ......................................... 12

1.1.İslama qarşı mübarizə tarixindən ......................................... 12

1.2.İslamofobiya müstəvisində Azərbaycanda islamın ümumi vəziyyəti .......................................................................... 15

**II FƏSİL**
**Müasir dünyada islamofobiya ................................................ 89**

2.1.İslama qarşı çıxışlar, Quran, dövlət, din xadimləri və alimlərin onlara tutarlı cavabları89 ...........................................

2.2.Ərəb alimlərinin islamofobiyaya münasibəti .................... 138

**Nəticə** ...................................................................................... 172

**İstifadə edilmiş ədəbiyyat** ..................................................... 176

# GİRİŞ

Son dövrlərdə qınanılası hal kimi nə qədər dini zəmində təxribatçılıq-separatçılıq ünsürü kimi sui-istifadə yolu ilə qanlı-qadalı fitnə-fəsadlar törədilsə də, din əslində insanları birliyə, həmrəyliyə, dinc, yanaşı yaşamağa, sülhə çağırmaq missiyasına xidmət edir. Təsadüfi deyil ki, 2017-ci il ölkəmizdə "İslam Həmrəyliyi" ili kimi elan olunmuşdur və bu çağırış özü də insanları barışa, sülhə, əmin-amanlığa səsləmək məqsədi daşıyır.[1]

Dünyada 1,7 milyard insan islam dininə mənsub olub, tək Allaha inanır. Dünya əhalisinin hər dörd nəfərindən biri müsəlmandır. İslam milli, dini, cinsi ayrı-seçkiliyi qəbul etmir. Əməli bir din kimi özünü göstərən islama dünyanın hər yerində başqa din nümayəndələri tərəfindən böyük maraq var və islam dininə olan meyillənmə bu gün də davam edir.

Belə vəziyyət Qərbdə bu dinə qarşı barışmazlıq, nifrət yaradıb və onlara (qərblilərə) bu din haqqında cürbəcür təhqiramiz fikirlər söyləməyə imkan verib. Məsələn, onlar islam peyğəmbəri Məhəmmədi (s) cadugər, şeytan və s., onun ardıcıllarını isə quldur, qəsbkar, terrorçu adlandırırlar və var qüvvələri ilə islama qarşı mübarizə aparırlar[2].

Elmi-texniki inkişaf əsri olan XX əsr, eyni zamanda, mədəniyyətlərarası və dövlətlərarası dözümsüzlüyün də "inkişaf" əsri olmuşdur. Çox təəssüf ki, bu proses sürətlə inkişaf edir, dünyanın müxtəlif bölgələrində dini dözümsüzlük və fanatizm halları tüğ-

---

[1]Şakir Abdullayev, folklorşünas. Kredo qəzeti,26 noyabr 2016-cı il, s.15.

[2] Эсмеральда Гасанова. Критика богословами современной Турции попыток искажения Ислама на Западе. Azərbaycan şərqşünaslığı. jurn. № 1 (15) 2011, s. 37.

yan edir. Son dövrlərdə, xüsusilə Qərbdəki bəzi dairələr məqsədyönlü şəkildə dözümsüzlüyü yalnız islamla və müsəlman dünyası ilə əlaqələndirərək, islamı "dözümsüzlük" dini, müsəlmanları isə başqa dinlərin nümayəndələrinə qarşı dözümsüz insanlar kimi təqdim edirlər. Halbuki tarixə nəzər yetirdikdə bunun tam əksinin şahidi oluruq. Orta əsrlərdə İslam dünyası dini və mədəni rəngarənglik baxımından dünyanın ən nümunəvi bölgəsi olmuş, xristianlıq, yəhudilik, zərdüştilik, mandeizm, hinduizm və s. dinlərə mənsub olanlar İslam dünyasında sülh şəraitində yaşamışlar[1].

XX əsrdə dindən uzaqlaşmaqla deyil, coğrafi və texniki kəşflər sayəsində, qətliam və qarətlər nəticəsində əldə etdikləri var-dövlətlə inkişafının əsasını qoyan Qərb yenə həmin imkanlarla İslam dünyasını daha da parçalayaraq müstəmləkə halına gətirməyə və nəticədə onların sahib olduqları sərvətləri talan etməyə müvəffəq oldu[2].

Daim Sovet dövləti ilə mübarizə aparan başda ABŞ olmaqla, Qərbin kapitalist dövlətləri – İngiltərə, Almaniya, Fransa, Danimarka, habelə Kanada və s. dövlətlər Sovet hökuməti dağıldıqdan sonra öz tənqid hücumlarını yönəltməyə vasitə və məkan axtarırdılar. ABŞ-dakı 2001-ci il 11 Sentyabr hadisəsi bu fürsəti onlara hədiyyə etdi. Hadisənin müsəlmanlar tərəfindən törədildiyi irəli sürüldü. Bununla əlaqədar olaraq son dövrlər bəzi siyasi, psixoloji və fərdiyyətçi səbəblərdən islam dininə qarşı təzyiqlər artmaqdadır. İslama xas olmayan əməlləri ona aid etmək və bu yolla müsəlmanlara qarşı mübarizə aparmaq bir çox cəmiyyətlərdə vəzifə halını almışdır. Bunlar islamofobiya məfhumu ilə konkret şəkildə ifadə olunur.

[1]Aqil Şirinov. Azərbaycanda tolerantlıq ənənəsi. Nurlar, Bakı, 2015. Ön söz, s. 3.
[2]Aslan Həbibov.Vəhdət naminə. Məzhəblərarası dialoq.Bakı, 2014.

Elmi anlayışda islamofobiya – islama qarşı mənfi reaksiyaların müxtəlif formalarının ümumi adı olub, ksenofobiyanın (insanın əcnəbilərdən, yaxud özündən fərqli olan insanlardan qorxması və ya "özünü qorxan kimi göstərməsi" və onlara nifrət etməsi) növlərindən biridir. Bu mənfi reaksiyalara – təzyiqlər, müsəlmanların ünvanına tənqidi yanaşmalar, islam təhsilinə və sosial praktikasına həqarət əks etdirən münasibətlər daxildir[1].

Orta əsrlərdə Avropada tək hakim mədəniyyət xristianlıq idi. Bu dövrdə Avropada dözümsüzlük hökm sürürdü. Xristianlığı yaymaq və digər dinləri ortadan qaldırmaq üçün aparılan Səlib yürüşləri də bu dövrdə baş vermişdir. 1184-cü ildə Papa III ilə imperator Fridrik Barbarossa inkvizisiya məhkəmələrinin qurulmasına qərar vermiş və Papa IX Gregorius isə onu sistemli qurum halına gətirmişdir[2].

İslam dininə qarşı hərəkatlar tarix boyu olmuşdur. Hələ orta əsrlərdə bir sıra dini, siyasi və sosial səbəblərdən meydana çıxan Səlib yürüşləri şərqə istiqamətlənərkən burada vahid qüvvə – islam dini ilə üz-üzə gəlmişdi. Bu yürüşləri şərtləndirən əsas səbəb məhz islam dinini öz məqsədlərinə real təhlükə görmələri idi. Bir müddət sonra İspaniyada baş verən tarixi hadisələr, inkvizisiya hərəkatları və digər prosesləri islamofobiyanın ilkin təzahürləri hesab etmək olar[3].

"İslamofobiya" sözündən ilk dəfə 1922-ci ildə şərqşünas Etyen Dine özünün "Qərbin gözündə Şərq" essesində istifadə edib. Müəllif Səlib yürüşlərindən Avropa müstəmləkəçiliyinə qə-

---

[1]Novruz Nuriyev. İslamofobiya-antiislam siyasətinin təzahürü. Dövlət və Din jur.nöm.4(33), aprel 2015, s. 47.
[2]Aslan Həbibov. Azərbaycanın cənubunda dini tolerantlıq və ya birlikdə yaşama mədəniyyəti. Azərbaycanda tolerantlıq ənənəsi. Nurlar, Bakı, 2015, s. 52.
[3]Ziya Bünyadov. Dinlər, təriqətlər, məzhəblər. Bakı, 1997, s. 126; Novruz Nuriyev. İslamofobiya..., s. 47.

dər olan dövr ərzində İslam dünyası ilə Qərb arasındakı münaqişələri xarakterizə edərkən bu ifadəni işlətmişdir[1].

"İslamofobiya" kəlməsi "islam" və yunan dilindəki "phobos" (yunan mifologiyasında "dəhşət tanrısı"na verilən addır) sözündən törəmişdir, termin kimi islam barədə yanlış fikir formalaşdırmaq və müsəlmanlara qarşı irqçilik münasibəti göstərmək deməkdir. Başqa sözlə, islamofobiya "islama kin, nifrət və düşmənçilik bəsləmək", "müsəlmanlara nifrət etmək" mənasını daşıyan irrasional qorxunun adıdır. Bu hal özünü müsəlmanlara qarşı mənfi davranışlar, ayrı-seçkilik şəklində daha çox göstərir[2].

Tarixdə islamofobiyanı qüvvətləndirən səbəblərdən biri Səlib yürüşləri olmuşdur. Bəzi tədqiqatçılar isə hesab edir ki, islamofobiyanın tarixi Konstantinopolun (İstanbulun) türklər tərəfindən fəthi ilə başlamışdır. Konstantinopol (İstanbul) fəth olunarkən Şərqi Romadan  bir səyyah belə deyirdi: "Konstantinopol türklərin əlinə keçdi və mədəniyyət bitdi. Yaxşılıq, gözəllik, sənət adına nə varsa, bitdi və Günəş batdı. Dünyanın sonu gəlib çatdı"[3].

1997-ci ildə İngiltərədə "Runnymede Trust" təşkilatı tərəfindən hazırlanan "İslamofobia: A Challenge for Us All" adlı raportda islamofobiyanı ortaya çıxaran əsas amillər belə sıralanmışdır:

1. İslamın əsası monolitdir, qapalı dindir;
2. İslam digər mədəniyyətlərlə ortaq dəyərləri olmayan dindir;
3. Qərb dünyasında islam barbar, irassional, ibtidai və cinsi ayrı-seçkiliyə yol verən din kimi tanınır;

---

[1]Novruz Nuriyev. İslamofobiya..., s 48.

[2]M.Ali Kirman. İslamofobinin Kaynakları: Batılı mı, Doğulu mu? S. 25-35; Mehman İsmayılov. İslamofobiya: Kimdir günahkar? "Dövlət və Din" ictimai fikir toplusu, № 10 (39), oktyabr 2015, s. 7-10.

[3] Beyazit Akmak. Moral Dünyası, yanvar, 2011; Mehman İsmayılov. İslamofobiya..., s. 7.

4. İslam mərhəmətsiz, ədavətə çağıran, terrora dəstək verən, mədəniyyətlər arasına nifaq salan dindir;

5. İslam dini etiqadı hərbi və siyasi mənfəətlər üçün istifadə edən siyasi ideologiyadır;

6. Müsəlmanların Qərblə bağlı tənqidləri qəbuledilməzdir və dərhal rədd olunmalıdır;

7. İslam sünnilik xaricindəki digər islam cərəyanlarını rədd etdiyi üçün ayrı-seçkilik dinidir;

8. İslama qarşı olmaq təbiidir və başadüşüləndir[1].

Oxucu yuxarıdakıların sübutsuz və absurd olduğunu görür. Bu, gördüyünüz kimi hələ 2001-ci il 11 Sentyabr hadisələrindən neçə il əvvəl qərara alınmış fikirlərdir.

Vellington Universitetinin professoru Artur Buehler soruşur: "Qərb "müsəlman düşüncəsini" formalaşdırarkən nə üçün əsasən "şiddət" məsələsi üzərində dayanır? Niyə "şiddəti" ön plana çəkir?" Daha sonra sualına belə cavab verir: "Xristian-Qərb dünyası öz qaranlıq tərəfi olan şiddəti islama – müsəlmanlara aid etdirir." O qeyd edir ki, Freyd fərdlərdə əksetdirmə prinsipini müasir psixologiyaya gətirmiş, fərdlərin etiraf edilməmiş mənfi xüsusiyyətlərini başqa insanlara əks etdirdiyini ortaya qoymuşdur. Bu cür mənfi xüsusiyyətlərə psixologiyada "qaranlıq tərəf" deyilir[2].

Yeri gəlmişkən, islamın qeyri-müsəlmanlara qarşı münasibətinə nəzər yetirin. Peyğəmbər (s) qeyri-müsəlmanlara zülm edənlərin barəsində demişdi: "Kim bir zimmiyə (müsəlman ölkəsində yaşayıb islamı qəbul etməyənə, himayə olunana) zülm edib, onu

[1]İslamofobia: A Challehge for Us All. London. Runnymede Trust 1997, 7, s. 4-5; Mehman İsmayılov. İslamofobiya..., s. 8.

[2]Artur F.Buehler. Islamofobia: A Projection of the West`s dark Side, Islam and Civilirational Renewal, 24 (2011), s. 639-646; Mehman İsmayılov. İslamofobiya..., s. 9-10.

gücü çatmadığı şeydə öhdəçi edərsə, ona düşmən kəsilərəm (Beyhəqi)”.

Xəlifə Ömər ibn əl-Xəttab (r) belə vəsiyyət etmişdi: “Məndən sonra gələn xəlifəyə vəsiyyət edirəm ki, zimmilərlə xeyirxah davransın, onlara verəcəyi vədə əməl etsin, onları qorusun və gücləri çatmadığı şeydə onları mükəlləf etməsin”[1].

Belə faktları müsəlman olmayan vicdanlı insanlar da təsdiqləyirlər. Məsələn, Patriarx Efoyape yazır: “Dünyaya nəzarət etmələrinə Rəbbin imkan verdiyi ərəblərin bizlərlə necə davrandıqlarını siz də bilirsiniz. Onlar xristianların düşmənləri deyildirlər; millətimizi tərifləmiş, keşiş və müqəddəslərimizi öymüş, kilsə və monastrlarımıza kömək əli uzatmışlar”[2]. Uol Dyurant qeyd edir: “Xristianlara, zərdüştilərə, yəhudi və sabiilərə Əməvi xilafəti dövründə elə bir tolerant münasibət mövcud idi ki, bunun bənzərinə dövrümüzün xristian ölkələrində rast gələ bilmirik. Sözügedənlər dini ayinlərinin icrasında azad idilər. Kilsələri və məbədlərinə sahib çıxa bilirdilər... Alimləri, hakim və qanunları olan bir muxtariyyətə sahib idilər”[3].

İslam, doğrudan da, tolerantlıq və qarşılıqlı güzəşt dinidir. Lakin o, prinsipsiz bir təslimçilik dini deyildir. Kənar təsirlər onun başlıca təməl prinsiplərinə xələl gətirmək təhlükəsi yaratdıqda islam sərt müdafiə mövqeyinə çəkilir və heç bir mübarizə üsulundan çəkinmir. Beləliklə, müxtəlif radikal islam hərəkatları meydana gəlir.

---

[1]Saleh ibn Hüseyn əl-Ayid. İslam ölkələrində qeyri-müsəlmanların hüquqları. Bakı, 2010, s. 6 (Tərcümə edən və redaktoru: Elvüsal Məmmədov).

[2]Artur Stenli. İslama görə zimmilər. Tərcümə edən: Həsən Həbəşi. Qahirə: Dar əl-məarif nəşriyyatı, 1967, s. 158; Saleh ibn Hüseyn əl-Ayid. İslam ölkələrində..., s. 8.

[3]Uol Dyurant. Sivilizasiya hekayəsi. Tərcümə edən: Məhəmməd Bədran. Qahirə, 1964-1967, s. 130-131; Saleh ibn Hüseyn əl-Ayid. İslam ölkələrində..., s. 8.

Müasir dövrdə xristian Qərbinin müsəlman aləmində apardığı xristianlaşdırma siyasətində başlıca məqsəd islam birliyini zəiflətmək və buraya yad ünsürlər daxil etməklə onun yad mədəniyyətlərə müqavimət göstərmək qabiliyyətini zəiflətməkdir[1].

Belə ki, 11 Sentyabr hadisəsindən sonra Qərb dövlətləri islama qarşı hücuma keçdilər. İslam terror təşkilatı, müsəlmanlar isə terrorçu elan edildilər, bütün mübarizə vasitələri ilə islamı qaralamağa girişdilər. Müsəlman ölkələri – Misir, Liviya, İraq, Əfqanıstan, Pakistan, Yəmən, Suriyada baş verən hadisələr məlumdur. Bu azmış kimi, müqəddəsatlarımızı təhqirə başladılar, islamın qorxunc bir hərəkat olduğunu, islamofobiyanı, ksenofobiyanı, islamofaşizmi bütün dünyaya yaymağa başladılar. Müsəlmanları günahkar elan edib öz çirkin əməllərini, Ben Laden, İŞİD (DİŞ) hərəkatlarını irəli verdilər. Bir fikirləşin, onların dediyi kimi İŞİD islam hərəkatıdırsa, o, niyə müsəlman ölkələrinə qənim kəsilib, islam ölkələrinin tarixi abidələrini, insanlarını məhv edir? Doğru deyirlər ki, terrorun dini yoxdur, terrorçu (qatil) müsəlman deyil.

İslamofobiyanın törətdiklərinə misal olaraq Avstriyada təkcə 2015-ci ildə islamofobiya, ksenofobiya və s. zəminində 1156 cinayət baş verdiyini söyləmək olar[2]. Dünyanın ən demokratik saydığı ölkənin başçısı Tramp müsəlmanlara qənim kəsilib, onların Amerikaya gəlməsinə qadağa qoyub. O, bu qərarını hələ dövlət başçısı seçilməmişdən elan etmişdi və elə ona görə də səs çoxluğu qazanmışdı. Bu, o deməkdir ki, islamofobiya Amerika və Qərbdə ayrı-ayrı fərdlər tərəfindən deyil, ümumiyyət tərəfindən irəli sürülür.

---

[1] S.M.Musayev. "İslamda tolerantlığın əsas prinsipləri". Elmi konfransın materialları. Bakı, 12-13 may 2004-cü il, s. 18; Ramiz Mürsəlov. Dini dözümlülük (tolerantlıq): mahiyyəti və əsas prinsipləri. "Hikmət" elmi araşdırmalar toplusu, № 14, 2009-cu il, s. 130.

[2]Televiziya verilişlərindən.

Fəxrlə deyə bilərik ki, ölkəmiz tarixən üç səmavi dinin nümayəndələrinin dostluq şəraitində yaşadığı və dini zəmində (təkcə qəsbkar erməni xislətini nəzərə almasaq) heç bir qarşıdurmanın baş vermədiyi məkandır. Azərbaycan müsəlman dünyasında müxtəlif islam məzhəblərinin nümayəndələri arasındakı qardaşlıq münasibətləri baxımından da öz nümunəvi təcrübəsi ilə seçilir. Belə ki, islamın iki böyük məzhəbinin nümayəndələri (şiələr və sünnilər) tarixən ölkəmizdə məzhəbçilik qəliblərini aşaraq qardaşlıq şəraitində yaşamış və yaşamaqdadırlar[1].

[1]Aqil Şirinov. Azərbaycanda tolerantlıq ənənəsi, s. 4.

# I FƏSİL
# İSLAMA QARŞI MÜBARİZƏ TARİXİNDƏN

## 1.1.İslama qarşı mübarizə tarixindən

Əvvəldən də islam və müsəlmanlara qarşı nifrət bəsləyən xristian və yəhudilər peyğəmbər adlandırdıqları Nostradamusun "XXI əsr müsəlman əsridir" fikrindən sonra lap sərsəm vəziyyətinə düşərək hər vasitə ilə müsəlmanları və islamı qaralamağa can atır, hətta bütün bəşəriyyətə peyğəmbər göndərilmiş Məhəmməd rəsulullaha (s) cürbəcür qara yaxır, onun karikaturalarını çəkir, Allahın Zəbur, Tövrat və İncildən sonra nazil etdiyi müqəddəs Qurani-Kərimi "Şeytan ayələri" adlandırırlar. İslama və müsəlman dövlətlərinə qarşı müxtəlif yollarla, gizli-açıq düşmənçilik edib təxribat aparırlar. Gah qloballaşma, gah insan haqlarının qorunması, gah da insan azadlığı pərdəsi altında ABŞ, İngiltərə, Fransa və digər Qərb ölkələri müsəlmanları sıxışdırır, cürbəcür zərərli viruslar, taliban, Ben Laden hərəkatı, İŞİD (DİŞ) və s. kimi qruplar yaradıb müsəlman dövlətlərinin canına salır və sonra da guya onlarla mübarizə aparmaq adı ilə islam ölkələrinə zərbələr endirirlər ki, müsəlmanlar onlardan üstün olmasın. Hazırda Suriya, İraq, Liviya, Əfqanıstan və başqa Şərq ölkələrindən milyonlarla qaçqın bombalanan vətənlərindən didərgin olub, Qərb ölkələrinə üz tutublar. Haqlı olaraq ingilis xalqı onları dəstəkləyərək qeyd edir ki, bunlar bizim bombalarımızın dəhşətindən öz vətənlərini tərk edib bizim ölkələrə qaçırlar.

Bizə gəlincə, artıq 25 ildir ki, Azərbaycan torpaqlarının 20%-dən çoxunu zəbt edib, milyondan çox əhalisini didərgin salan,

uşaq, qoca, qadına məhəl qoymayıb qətliam edən (xristian) erməniləri bütün xristianlar dəstəkləyirlər, baxmayaraq ki, BMT-nin ermənilərin tutduğu torpaqlardan qeyd-şərtsiz çıxmaları haqqında dörd qətnaməsi var. Ancaq nə qətnamələri yerinə yetirir, nə də bunu onlardan tələb edirlər.

Səlib yürüşlərindən başlayaraq (1095) xristianlar və yəhudilər islam və müsəlmanlara qarşı hər cür çıxışlarla özlərini göstərmişlər.

Hələ Peyğəmbər (s) vaxtından Şərqdə müsəlmanlar və yəhudilər dinc, yanaşı yaşayırdılar. Onların (yəhudilər və xristianların) bəziləri islamı qəbul etmişdilər. Etməyənlər isə onların həyatlarını, mal-mülkünü qorumaq üçün dövlətə cizyə adlanan himayə pulu – can vergisi verirdilər. Və qeyd olunan cizyə "əlsiz-ayaqsız", qocalar, əlillər, dilənçilər və qullardan alınmırdı. O ancaq həddi-büluğa çatmış kişilərdən alınırdı. VIII əsrin əvvəllərinə qədər kahinlər də cizyədən azad idilər. Müsəlman ordusunda vuruşan qeyri-müsəlmanlar da cizyədən azad idilər. Vergi verənin maddi vəziyyətindən asılı olaraq, cizyənin qanuni məbləği ildə 12, 24, 48 dirhəm qızıl, mübadilə ölkələrində isə 2-4 dinar idi.

Bütün bu xoş hallara baxmayaraq, 1095-ci ildə Fransanın Klermon şəhərində Papa II Urbanın "Müqəddəs torpağın (Qüdsün) kafirlərdən azad edilməsi" çağırışı ilə bütün xristian dövlətlərinin qoşulduğu hərbi kampaniyanı həyata keçirməyə başladılar və bu, Səlib yürüşü (xaç yürüşü) kimi fasilələrlə 200 il çəkdi. Yürüşlərin əsas məqsədi xristianlığı yaymaq və yeni ərazilər işğal etmək idi.

Səlib yürüşünün başlanmasının şahidi olmuş abbat Nojanlı Qvibert vəziyyəti belə təsvir edir: "Klermon şurası bitdikdən sonra Fransanın bütün əyalətlərində onun haqqında böyük xəbərlər yayıldı. Papanın sözlərini eşidən hamı öz qonşularını və qohumlarını xəbərdar etməyə yollanırdı və onları "Allahın yoluna daxil olmağa" çağırırdı. Qrafların istəkləri aşıb-daşırdı. Cəngavərlər yalnız yürüş haqqında düşünürdü. O zaman kasıblar da bütün əm-

laklarını dəyər-dəyməzə, demək olar ki, havayı satmağa başladılar. Dünən heç hara getmək istəməyənlər bir gündən sonra digərləri ilə yola düşürdü. Müharibə və səfər fikri ilə alışıb-yanan qocalar, uşaqlar da onların arxasınca gedirdilər. Hamı müharibəni alqışlayır, hamı müqəddəsliyin arzusundadır."

Xaç yürüşünü görən başqa bir şahid – Bizans imperatorunun qızı, tarixçi Anna Komnik özünün "Aleksiada" kitabında yazır: "Adriatikin o tayında, Herakl sütunlarına (Cəbəlüttariq boğazı) qədər yaşayan bütün barbarlar, bütün Qərb bir yerdə Asiyaya köməyə (hücuma) başladılar. Onlar ailələri ilə gəlirlər və bütün Avropanı keçiblər"[1].

Səfərə ilk olaraq müntəzəm ordular deyil, əsasən sıravi xalqdan təşkil edilmiş dəstələr çıxmışdı. Fransanın Amyen şəhərindən olan keşiş Pyerin və cəngavər Valterin rəhbərlik etdiyi 20000-lik ordu 1096-cı ilin may ayında yürüşə başladı. Macarıstan və Bizansı keçib, oktyabr ayında indiki Türkiyənin İznik şəhəri yaxınlığında onlar səlcuqlar tərəfindən darmadağın edildi və ordudan az adam geri qayıda bildi.

Xaçpərəstlər yenidən 110 minə yaxın cəngavər və əsilzadələrdən ibarət ordu topladılar. Orduya bulonlu Qodfrid, tuluzlu Raymond və tarentli Boemund başçılıq edirdi. Anadoluda səlcuqları məğlub edən səlibçilər 1098-ci ilin mart ayında ilk dövləti Edessa (Urfa) qraflığını qurdular. Xristianlar yürüş zamanı ermənilərdən də böyük dəstək aldılar. Antakiyanı mühasirə edən səlibçilərə şəhərdə yaşayan Firuz adlı bir erməni kömək edib, darvazaları Boemundun üzünə açdı. Urfa qraflığını yaradarkən də ermənilər səlibçilərə kömək etdilər, çünki satqınlıq onların qanlarındadır, həmişə türkləri məhv etməyə çalışırlar.

[1] az.wikipedia.org

15 iyul 1099-cu ildə onlar əsas məqsədləri olan Qüdsü aldılar. Qüdsü alarkən çoxlu dinc sakini qətl edən səlibçilər hətta Məscidü-l-Aqsa və Qübbətu-s-Saxra məscidlərində gizlənən, həmçinin şəhərdə yaşayan yəhudilərə də divan tutdular (Əslində isə guya yəhudiləri müdafiə etməyə gəlmişdilər). Hadisələrin şahidi tarixçi Raymond işğaldan sonrakı gün Qüdsün mərkəzindən keçərkən hər tərəfi örtən cəsədlərin arasından və küçə boyu axan qanın içindən keçməyə məcbur olduğunu yazmışdı. Bütün Fələstin ərazisini ələ keçirən səlibçilər burada bir neçə dövlət qurdular[1].

## 1.2.İslamofobiya müstəvisində Azərbaycanda islamın ümumi vəziyyəti

Hazırkı dövrdə elə həmin hadisələrin davamı olaraq Qərbdəki bir çox mərkəzlərin xərclədikləri milyonların hesabına Azərbaycan əhalisini xristian etməyi qarşılarına məqsəd qoymuş Avropanın müxtəlif ölkələrindən gəlmiş emissarlar, görünür, öz əqidələrini yaymaq üçün başqa bir yol tapmadıqlarından islam həqiqətlərini təhrif edən, bəzən isə dini müqəddəsatımıza toxunan iddialarla dolu onlarla kitab yazmışlar. Həmin kitabları yüz min tirajlarla respublikamızın hər tərəfinə bütün sosial təbəqələr arasında yaymışlar. Çox təəssüf ki, xristian missionerlərin uydurduqları bu iddialar dini bilgisizlik və islamdan xəbərdarsızlıq səbəbilə bir çox adı müsəlman olan həmvətənlərimiz tərəfindən həqiqət kimi qəbul edilərək beyinlərinə yerləşdirilmiş və ağızdan-ağıza yayılmağa başlamışdır[2].

İslam haqqında yetərli bilik sahibi olmayan müsəlmanları aldadıb, onları öz dinlərinə meyil etdirmək məqsədi ilə bəzi xris-

[1]az.wikipedia.org
[2]H.Orucov. Azərbaycanda din. Bakı, 2012, s. 19.

tian təbliğatçılarının islam haqqında bir sıra əsassız iftiralar söyləmələri tarix boyu davam edərək bu günümüzə qədər gəlmişdir. Onlar Peyğəmbərimiz Hz. Məhəmmədin (s) Allahın elçisi olduğunu çox gözəl bildikləri halda, sırf inad, qərəz və həsədləri üzündən qəbul etməmiş, müxtəlif iftiralarla qarayaxma yolunu tutmuşlar[1].

Yazdıqları ədəbiyyatda (Аллах в Исламе, Исцеление сломанной ветви Авраама, Yolunu azmışların duası və s.) onlar islam dinini, Peyğəmbərimizi (s), Quranı, Allahı, bütün islam müqədəssatını alçaq bir şəkildə təhqir etmiş və islam dininin ünvanına olmazın iftira və böhtan yağdırmışlar.

Allahı "oğul sahibi etmək" yolu ilə öz dinlərinə belə iftira edən xristianlar deyilmi? Lakin bu cəhdlərin nəticələri barədə Allah-Təala Qurani-Kərimdə belə deyir: "Ağızlarıyla (yalan sözləri-lə) Allahın nurunu (islamı) söndürmək istəyirlər. Fəqət kafirlər xoşlanmasa da, Allah nurunu tamamlayacaqdır. Müşriklər istəməsələr də, dinini bütün dinlərə üstün qılmaq üçün Peyğəmbərini (s) hidayət və haqq ilə göndərən Odur" (Saf, 8-9).

Bütün dinlərin sonuncusu və tamamı olaraq göndərilən islam dini Tövrat və İncildə olan gerçəkləri olduğu kimi qəbul etməklə bərabər, onların hansı məsələlərdə təhrif edildiyini də bildirmiş, insanlığın səadət və salamatlığı üçün yeni hökmlər gətirmişdir. Ona görə "Allah yanında yeganə din islamdır" (Ali İmran, 19) və islamdan başqa heç bir din Allah tərəfindən qəbul edilməyəcəkdir.

Son iki əsrdə təriqətçi xristian təşkilatlarının bütün Şərqdə apardığı təbliğat müəyyən izlər qoysa da, tam iflasa uğramışdır. Və əksinə, yüz minlərlə xristian dönüb müsəlman olmuşdur. Nəinki Fələstin, Livan, Misir, Suriyada yaşayan xristian ərəblər, hətta Amerika, Hollandiya, Avropada yaşayan xristianlar bu gün is-

[1]İslam: Təhriflərə cavab. Bakı, 1997, s. 4.

lama üz tuturlar. Çünki islam heç vaxt digər dinlərə qarşı böhtan və təhqiri özünə rəva bilməmiş, onların etiqadına hörmətlə yanaşmışdır. İslam Hz.İbrahimi, Hz.Musa və Hz.İsanı da öz peyğəmbəri kimi tanımış, Tövrat və İncili Allahın endirdiyi bir Kitab hesab etmişdir[1].

Bütün bunlara uyğun olaraq Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Hidayət Orucov dinin dövlətdə və ümumiyyətlə, həyatda necə mühüm rol oynadığını ətraflı olaraq göstərir: "Bəzən ilk baxışdan mədəniyyətlə bağlı olan məsələ ictimai mahiyyətdən uzaqlaşdırılaraq siyasi din müstəvisinə keçirilir və bununla da dinin adından dövlət əleyhinə qərəzli, hətta bəzən cinayətkar məqsədlərdə yararlanırlar. Lakin Azərbaycan Respublikasının təcrübəsi göstərir ki, dövlət-din münasibətlərindəki dünyəvilik və mənəvi dəyərlərə arxalanmaq prinsipi özünü tam doğruldur"[2].

Qədim dövrdən başlamış bu günədək ümumdünya sistemində gedən dəyişikliklər məhz sivilizasiyaların dialoqundan keçmiş, "Silah və Kitab" mübarizəsində "İlahi Söz" amili mühüm rol oynamışdır. Azərbaycan əhalisi arasında istər şiə, istər sünni, istər qarışıq olsun həqiqi mənada tolerantlıq mövcuddur. İnsanların bir-biri ilə münasibətdə məzhəb məsələsini əsla gündəmə gətirmədiyi, orta dəyərlərə sahib hərəkət etdikləri açıq şəkildə görünür. Dünyaya nümunə ola biləcək bu davranışı nəinki tolerantlıq, hətta vəhdətə doğru bir addım kimi dəyərləndirsək, yanılmarıq. Dövrümüzdə bu cür münasibətə möhtac olduğumuzu diqqətə aldığımızda insanın necə böyük bir işin öhdəsindən gəldiyini açıq görə bilərik. Azərbaycanda tolerantlığın ən önəmli səbəbi islam dininin özüdür. İslamda tolerantlığın mövcudluğuna başqa bir dəlil Hz.Peyğəmbə-

[1]İslam: Təhriflərə cavab. Bakı, 1997, s. 6-7.
[2]Hidayət Orucov. Azərbaycanda din, s. 13.

rin (s) davranışlarıdır. Onun Mədinəyə hicrətindən sonra Mədinə Konstitusiyasının (misaq) qəbulu, burada yaşayan yəhudilərə ümmətin üzvləri kimi münasibət göstərilməsi yüksək dözümlülüyün təzahürüdür. İslamaqədərki peyğəmbərlərə və Kitablara iman gətirilməsinin zəruriliyi, əvvəlki dinlərin də qibləsinin tanınması, qeyri-müsəlmanlarla hikmət və gözəl moizə ilə söhbət aparılması barədə Quran hökmlərindən savayı, Peyğəmbərin (s) xəstə yəhudiyə baş çəkməsi, yəhudinin yanında girov qoyub, borc götürməsi, yəhudinin cənazəsi yaxından aparılarkən ayağa qalxması islamda dözümlülük ənənələrinin ən gözəl nümunələrindəndir. Peyğəmbər(s) Nəcrandan gələn xristian heyətini qəbul edərkən bəzi müsəlmanların etirazına baxmayaraq, xristianların məscidə girib, ibadətlərini yerinə yetirmələrinə icazə vermişdi. Ərəb ölkələrində Peyğəmbərin (s) tolerantlıq ənənəsi indi də davam edir, onların çoxunda başqa din nümayəndələri yaşayırlar.[1] Bu bucaq altında nəzər yetirəndə hər hansı ölkənin çoxmillətli və çoxkonfessiyalı olması təəccüb doğurmur. Amma milli-dini zəmində tarix boyu heç bir çaxnaşmaya yol verilməməsi faktı maraqla qarşılanır. Yenə də Azərbaycanın dövlət-din tarixindən çıxış edərək demək mümkündür ki, bunu təkcə mədəniyyətlərin və dinlərin təmas nöqtələrinin məhz könüllü yaxınlaşması, qarşılıqlı və səmimi əməkdaşlığın təntənəsi kimi dəyərləndirmək lazım deyil, vaxtında qəbul edilmiş qanunların, dövlət və din xadimlərinin sağlam mövqelərinin də bu məsələdə faydası çoxdur. Bunun nəticəsidir ki, tarixən Azərbaycan Respublikasında çoxsaylı xalqların və millətlərin yaşamasına və etnik tərkibin müxtəlif olmasına baxmayaraq, minilliklər boyu heç bir milli azlıq Azərbaycandan başqa əraziyə köçürülməmiş, hər xalq və millət milli-dini kimliyini qoruyub saxlamışdır[2].

[1]Aslan Həbibov, yenə orada, s. 64-66.
[2]Yenə orada.

Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycanda tolerantlığın gözəl nümunəsi islam dinidir. Respublikamızda islama hörmət olaraq məzhəblərarası çəkişmə yoxdur. İkinci səbəb Əhli-beyt sevgisidir. Başqa məzhəb sahibləri qarşılıqlı olaraq müqəddəsləri hörmətlə yad edirlər. Üçüncü səbəb irfani ənənədir. Azərbaycanda bir çox sufi alimlər insanları pəhrizkarlığa, təmizliyə, xeyirxahlığa çağırmışlar. Onlardan Nizami Gəncəvini, Seyyid Yəhya Bakuvini, Həmzə Nigarini, Seyid Cəmaləddin Gilanini, Şeyx Zahid Gilanini və s. göstərmək olar. Dördüncü səbəb din xadimlərinin fədakarlıarınıını və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin birgə fəaliyyətini qeyd etmək olar. Azərbaycan tarix boyu müxtəlif dinlərə ev sahibliyi etmişdir. İnsanlar sonda islam ilə tanışmış, onlar heç bir zorakılıq olmadan, könüllü şəkildə yeni dini qəbul etmişlər. İslamdan sonra belə buradakı başqa dinlər mövcudluğunu saxlamışlar. Tarixən xalqımız tolerantlığı ilə dünyada məşhurdur. Bu ölkədə hər kəs istədiyi dini seçməkdə və həmin dinə uyğun ibadət etməkdə sərbəstdir. Heç kəs seçiminə görə təzyiqə məruz qalmamışdır.[1]

İnsanpərvərlik bugünkü dünyanın mədəniyyət ölçüsüdür. Ona görə də gündəlik həyatımızda din mədənilik, əxlaq norması, insanpərvərlik məzmunu kimi iştirak etdiyindən hər dövlət onun saflığına və dürüstlüyünə tam dəstək verməlidir. Onu hesaba almamaq, "din olmaz", yaxud "özgə din heç olmaz", – deyərək bir-birimizdən uzaqlaşmaq, yaxud ateizm ideyası yaymaq bəşərilik anlayışının təməlinə zəiflik əlaməti qatmaq deməkdir.

İnsanları birləşdirən, hətta bir-birinə yaxınlaşmağa məcbur edən başqa problemlər də var: beynəlxalq terrorizm və ekstremizm, dini radikallıq, separatçılıq, özgə torpaqlarının işğalına haqq qazandırmaq meyilləri, digər din mənsublarının tarixi-dini

[1]Aslan Həbibov, yenə orada, s. 66-71.

inanc yerlərinin dağıdılması, ənənəvi dəyərlərin təbliğinin qarşısına çəkilən süni maneələr, demoqrafiya məsələləri, aclıq və səfalət, uşaq ölümü, enerji böhranı, təbii fəlakətlər, sülhün qorunması və s. onlarla problem – bunlar ayrı-ayrı dövlətləri, müxtəlif konfessiya mənsublarını məsləkdaş edə bilər. Belə məsələlərdə tarixi təcrübə, tarixin ibrət dərsləri gələcək üçün örnək olmalıdır.

Bu çətin vəziyyətdən çıxış yolu vəhdətdədir. Vəhdət birlik, bərabərlik və həmrəylik içində olmaq deməkdir. Müxtəlif ideologiya və inanclara sahib olanların ortaq məxrəcə gəlmələri, müştərək məqamlarda eyni görüş və strategiyanı izləmək üçün birlikdə olmaları deməkdir. Vəhdət bəzilərinin düşündüyü kimi insanın öz dünyagörüşünü tərk edib başqasının dünyagörüşünü qəbul etməsi deyildir. Bir qrupun öz inancını yox edibbaşqa bir qrupla birləşməsi deyildir. Bir məzhəbin, bir ideologiyanın öz inancından imtina edib başqa bir inanc və ideologiyanı qəbul etməsi də deyildir.

Birinci Dünya müharibəsindən sonra islam ölkələri istilaya məruz qalıb, müstəmləkə halına gəldikdə sünni və şiə alimləri çıxış yolunu vəhdətdə gördülər. Bu dövrdə Seyid Cəmaləddin Əfqaninin səylərini qeyd edə bilərik. Müsəlmanların birləşməsinin vacib olduğunu vurğulayan Cəmaləddin Əfqani yazırdı: "Ey əcəm əhli! Elm qəhrəmanlarımızı yada salın, islami əsərlərinizə diqqət yetirin. İslami vəhdətin bünövrəsi olun, necə ki əvvəldə onu qorudunuz. İslam vəhdətini irəli çəkməklə başqa müsəlman millətləri qabaqlayın".

II Dünya müharibəsindən sonra qan və göz yaşında boğulmuş dünyanın bir parçası olan müsəlmanların bu fəlakətdən qurtulmaları üçün yeni bir addım lazım idi. Bir qrup şiə və sünni alim tərəfindən yaradılan "Dar ət-təqrib beynə məzahib əl-islamiyyə" (İslam məzhəblərini yaxınlaşdırma evi) təşkilatı məhz bu dövrdə fəaliyyətə başladı[1].

[1]Aslan Həbibov. Vəhdət naminə, s. 22-25.

Əslində günümüzdə bu cür vəhdətə çağıran qurum və şəxslərə daha çox ehtiyac var. Xüsusilə müsəlman dünyasında yayılmağa başlamış sünni-şiə ayırmadan, özləri kimi düşünməyən və inanmayanları təkfir edən (kafir hesab edən) və qətllərini vacib sayan, bu şüurla minlərlə müsəlmanın başını heyvan başı kimi kəsən radikal cərəyanların qarşısında dayana bilmək üçün vəhdətə ehtiyac var. Yenə Avropada islamın yüksəlişini dayandırmaq məqsədilə müsəlmanları daim mənfi mənada reklam edən qüvvələri susdurmaq üçün vəhdətə ehtiyac var. Xülasə, kimliyindən və məqsədindən asılı olmayaraq, dünyada islamofobiyanın yayılmasına xidmət edən bütün qüvvələrə cavab verə bilmək üçün vəhdətə ehtiyac var.[1]

Xristianlar iddia edirlər ki, Quran indiki Tövrat və İncili təsdiq edir. Bəs nə üçün müsəlmanlar onları qəbul etmirlər? Fikir düz deyil. Quran Tövrat və İncili indiki şəkildə təsdiq etmir, Allahın onları nazil etdiyi şəkildə təsdiq edir. Quranda işarə edilən Tövrat indiki Əhdi-Qədim deyil. Bu, qədim İbrani qeydlərinə xristianların verdikləri bir addır. Bu xüsusda katoliklərlə protestantlar arasında belə, tam bir anlaşma yoxdur[2].

Amerikada nəşr olunan "Awake" (Oyan) jurnalının 8 iyul 1957-ci il tarixli nömrəsində Karl Ceyms yazır ki, "Kitabi-müqəddəs"də (İncildə) 20 min xəta var. Hətta Qərbdə etiraf olunan bu həqiqət İncillərin necə təhriflərə uğradıqlarını açıq göstərir[3].

Xristianlar deyirlər: "Müsəlmanlar bizdəki təslis (Müqəddəs üçlük) inancını anlamırlar. Kor-koranə "Allah birdir" deyib, təslisin və İsa peyğəmbərin ilah olduğunun dərin mənasını qavramırlar". Qurani-Kərimdə İsa peyğəmbər (ə) özü təslisi rədd edib, hər şeyin yaradıcısının Allah olduğunu söyləyir (Maidə, 116).

[1] Aslan Həbibov. Vəhdət naminə, s. 32-33.
[2] İslam: Təhriflərə cavab, s. 8.
[3] Yenə orada, s. 8.

Əslində xristianlıq bütünlükdə tək Tanrıya inanan dinlər arasındadır. Xristianlığın söykəndiyi Əhiddə həssas bir şəkildə üzərində qurulan Tövhid inancında xristianların mərkəzi olan Qüdsdə aralarında sıxışıb qaldıqları hind və yunan mədəniyyətlərinin təsiri ilə Tövhidə zidd olan fikir və düşüncələr yaranmışdır. Təslisin xristianlığa girməsi əslində xeyli sonra olmuşdur. 325-ci miladi ilində toplanan "Nikey məclisində" hələ təslis yox idi[1].Rasionalist P.Leoruks  bu barədə belə deyir: "Əsl varlıq Allahdır demək istəyiriksə, bu təqdirdə yalnız İsa deyil, bütün insanlar Allahın uşaqlarıdır. İsa "Mən Allahın oğluyam" deyirsə, (İsa peyğəmbərin (ə) belə söz demədiyini yuxarıda qeyd etmişik) bu, dünyada böyük bir vəzifə almasındandır. İsa bütün fanilərdən ziyadə Allaha doğru yüksəlmiş və özündəki ilahi toxumu inkişaf etdirib, bəşəriliyini yox etməyilədir ki, Allahın oğludur. İsanı insanlardan ayrı bir varlıq, bir uluhiyyət olaraq anlamaq bir bütpərəstlik olar. "İsa Allahdır" yox, "İsanın qəlbində Allah təcəlli etməkdədir" de. İbadət İsaya deyil, Tanrıyadır. Barnaba İncilininin 70-ci babında deyilir: İsa, ona: "Sən Allahın oğlusan" deyən Petrusa çox hirsləndi. Onu acıladı, ona: "Dəf ol, məndən uzaqlaş! Sən Şeytansan və mənə pislik etmək istəyirsən" dedi. Sonra həvarilərə dönərək "Mənə belə söyləyənlərə yazıqlar olsun! Çünki Allah mənə bunlara lənət etmək əmrini verdi!" buyurdu. Allah-Təala buyurur: "Onlar (yəhudi və xristianlar) xaxamlarını və rahiblərini Allahdan ayrı rəblər edənlər Məryəm oğlu Məsihi özlərinə rəbb etdilər. O isə onlara yalnız tək Tanrı olan Allaha ibadət etmələrini əmr etmişdir. Ondan başqa Tanrı yoxdur. O, onların ortaq qoşduqlarından çox üstün və uzaqdır!" (Tövbə, 31)[2].

[1]İslam: Təhriflərə cavab, s. 16.
[2]Yenə orada, s. 8.

Xristianlar iddia edirlər ki, islamda demokratiya yoxdur, din dövlətdən ayrılmamışdır və müsəlmanlar Allaha və şəriətə kölə kimi itaət edirlər. Bu da xristianların islama bir hücum növüdür. İslamda hansı demokratiya yoxdur? İslamda yunan və Roma dövlətindəki "Antik demokratiya" yoxdur, heç elə demokratiya islama lazım da deyil. Çünki Romada əsirlər və hürlər vardır. Qadınlar isə insan sayılmırdılar. Antik demokratiyada əsarət, istehsal vasitələrinin müəyyən bir növünü təşkil edirdi. Burada əsirlər ya öldürülür, ya da yeyilirdi. Sonrakı dövrlərdə əsirlərin işlədilməsi buna nisbətdə böyük bir təkamüldür. Təəccüblü burasıdır ki, bir filosof belə bu əsarət mexanizminə qarşı çıxmamışdır. Qərbin ən böyük filosofu Aristotel belə, kölələri insan ilə heyvan arasında bir yerdə yerləşdirmişdir. Onun fikrincə, kölələrin vəzifəsi yunanlara, yəni avropalılara xidmət etməkdir. Eynən yəhudilərin məntiqi kimi (yəhudi olmayanlar yəhudilərə xidmət edəcəkdir). Bunu Amerika və Qərbin çəkdiyi kinofilmlərdə də görmək olar ("Viktoriya və Abdul" və s.). İslam isə əsirlərə öz yeməyindən yedizdirməyi və geydiklərindən geydirməyi əmr edir. İslam kölələri azad etməyi tövsiyə edir. Hətta islamda kölə azad etmək bir ibadət sayılır. Digər tərəfdən isə XIX əsrin ortalarınadək xristian aləmi qadınları insan belə saymadıqları halda islam Peyğəmbəri (s) on dörd əsr əvvəl "Cənnət anaların ayaqları altındadır" deyərək Qərbin bu gün belə qadınlara verə bilmədiyi ən yüksək qiyməti vermişdir. Qərblilərə görə, bütün bu insani və mədəni dəyərləri, düşüncəni, bilgini, inam və sənəti müstəmləkə Şərqə öyrətmək onların vəzifəsidir. Bunun əvəzində isə şərqlilərin payına düşən qərbli olan bu insanlıq tacirlərinə xidmət etmək, onların ehtiyaclarını təmin etmək üçün gecə-gündüz çalışmaqdır. Bunu onlar demokratiya adlandırırlar. Başqa bir "demokratiya" – Amerikaya ilk gələn xristianlar orada yaşayan üç min hindunun kəlləsini kəsib içinə saman doldurmaq yolu ilə işgəncə verərək qətlə

yetirmişlər və əllərinə keçirdikləri Amerika torpaqlarında işləmək üçün Afrikadan gətirdikləri yüz milyondan çox zənci kölənin Hind və Sakit Okeanın azğın dalğaları arasında məhv olmalarına səbəb olmuşdular. İslam belə "demokratiya"nı qəbul etmir. İslamda ərəbin əcəmə, əcəmin də ərəbə üstünlüyü olmadığı kimi, qərblinin də şərqliyə bir üstünlüyü yoxdur. İnsanı ən yüksək varlıq olaraq tərif edən və onu Allahın yer üzündəki xəlifəsi olaraq görən islam Amerika demokratiyasını da rədd edir. Çünki bu demokratiyada ancaq Amerikanın mənafeləri üstün tutulur[1]. İslam isə dünyada sözün əsl mənasında həm maddi, həm də mənəvi cəhətdən insanlar arasında bərabərliyi, ədaləti, birliyi, qardaşlığı və bir-birinə mərhəmət prinsiplərini gerçəkləşdirmək üçündür. İslamda zülmə, istismara, bir qrupun digərləri üzərində diktatorluq etmələrinə imkan yaradan demokratiya anlayışı yoxdur. Müsəlmanların və dünyanın bütün zülm çəkən məzlum insanlarının tək müdafiəçisi islamdır. İmperialist qərblilərin qorxularının səbəbi də budur. Son bir çarə olaraq avropalılar haqsız və əsassız bir şəkildə islamı qaralamaq, ona böhtan atmaq üçün əllərindən gələni edirlər.

Xristianlar islamda qadının sosial həyatda yeri olmadığını deyirlər. İslamda qadının cəmiyyət içində xidmət etməsini və ictimai vəzifə daşımasını qadağan edən heç bir hökm yoxdur. Xəlifə Ömər bilgi və qabiliyyət sahibi olan Şifa bint Abdullah adlı səhabə xanımın görüşlərinə qiymət verib, ona hörmət edər və vaxtaşırı təftiş üçün ona ticarət-bazar işlərini də həvalə edərdi[2].

Xristianlar iddia edirlər ki, islam çox geridə, VII əsrdə qalıb. İslamda yeniliyə uyğunluq yoxdur. Elm və təhsil əzbərçilikdən ibarətdir. Bu, islamın elm və tərəqqiyə əngəl olduğunu iddia edən XIX əsrdən bu yana Qərbin tədqiqatçı və missionerlərinin

[1]İslam: Təhriflərə cavab, s. 37-38
[2]İbn Abdilbərr. İstiab, IV, s. 340; İslam: Təhriflərə cavab, s. 45

təkrar etdikləri bir iddiadır. Bu iddianı Qərbdə ilk irəli sürənlərdən biri Ernest Renandır. O, 1883-cü ildə Sorbonna Universitetində konfransda "İslam və elm" mövzusunda oxuduğu məruzədə demişdi: "İslam fanatiklikdir, elmə nifrət etmədir, vətəndaş, cəmiyyət düşmənliyidir. İslam "Allah Allahdır" kimi qısır, qapalı dairəsini sürdürmək üçün insan beynini kiçildən, onu hər cür seçmə düşüncəyə və rasional araşdırmaya qapayan bəsit, semitik, zehni rahatsız edən bir məhsuldur"[1]. Bu iddianın əsassızlığı bu gün məhz orientalistlər, qərb elm və mədəniyyət tarixi araşdırmaçıları tərəfindən ortaya qoyularaq isbat edilmişdir. Renan kimi əsassız düşüncə və fikir sahibləri özlərində, xristianlıqda olanları islama aid etməyə utanmırlar. İslam bütün başqa sahələrdə olduğu kimi, elm sahəsində də xristianlıqdan tam fərqli görüşə sahibdir. Mövcud olan xristianlıq dinielmi inkar və qadağan etdiyi halda, islam dini elmi təqdir və təbliğ etməyi əmr edir.

İslamın elmi zehniyyəti əvvəlcədən islamın müqəddəs mətni olan Qurani-Kərim tərəfindən açıqca ortaya qoyulmuş və təşviq edilmişdir. "Elm" kəlməsi və ondan törəyən isim və feillər Quranda 750-yə qədərdir. Elm ilə yaxından əlaqəli olan "hikmət", "kitab", "anlama", "ağıl" və s. terminlər isə bu rəqəmə aid deyil. Quran özündən əvvəlki dövrü "cahiliyyə", yəni savadsız adlandırdığı halda, Quran dövrü "elm dövrüdür". Kəlam, fiqh, hədis, təfsir, təsəvvüf və islam fəlsəfəsi Quranın elmi zehniyyətidir. Astronomiya, tibb, fizika, riyaziyyat, coğrafiya kimi bir çox elm sahələrindəki kəşflərə müsəlman alimləri imza atmışlar. İbn Sinanın "Qanun" kitabı əsrlərlə Avropa universitetlərində "Tibbin İncili" adı altında öyrənilmişdir. Əli bin İsanın gözə aid yazdığı "Təzkirə" kitabı XIX əsrin ortalarınadək bu sahədə tək kitab idi. Cəbr elminin təməlini Xarəzmi qoyub. Triqonometriya elmini inkişaf

[1]İslam: Təhriflərə cavab, s. 51

etdirən Əbülvəfa və Nəsirəddin Tusi olmuşlar. Dünyanın həm öz oxu, həm də Günəş ətrafında fırlandığını ilk dəfə Biruni isbat etmişdir və s.

Avropada cəhalət hökm sürdüyü, elm ilə düşmənçilik edildiyi, elm adamlarının öldürüldüyü və yandırıldığı inkvizisiya dövrlərində müsəlman alimlərinin etdikləri elmi axtarışlar və kəşflərin bəzilərini göstərək: ilk kağız fabriki – 794-cü ildə Bağdadda Harun ər-Rəşidin vəzirinin oğlu İbn Fəzl tərəfindən qurulmuşdur. Belə bir fabrik Misirdə 800-cü ildə, Əndəlüsdə 950-ci ildə inşa edildi. Avropada isə 1100-cü ildə Bizansda, 1102-ci ildə Siciliyada, 1228-ci ildə Almaniya və 1309-cu ildə İngiltərədə qurulmuşdur. Kağız isə kitabın xammalıdır[1]. Burada şərhə ehtiyac yoxdur.

İbn Sina 29 müxtəlif elm sahəsindəki ixtiraları ilə avropalı alimlərə öndərlik edə bilər. Həkim kimi İbn Sina qədər bilən Razi (864-925) çiçək və qızdırma xəstəliklərini kəşf edib, bu mövzuda ilk elmi əsər yazan adam olmuşdur. Fateh Sultan Məhmədin tərbiyəçisi Ağşəmsəddin (1389-1459) mikrobu kəşf etmişdir. İbrahim Cəssar 1000 il əvvəl cüzamın səbəb və müalicəsini, İbn Hatrib isə vəbanın bir yoluxucu xəstəlik olduğunu elmi yolla ortaya qoymuşdur. Gözdəki retina təbəqəsinin ixtiralar funksiyasından ilk dəfə bəhs edən İbn Rüşddür (1126-1198). Əmmar isə 9 əsr bundan əvvəl özünəxas üsulla göz əməliyyatlarını aparmışdır. Əli bin Abbasın "Kitabu-l-Məlik"i ibb ensiklopediyası kimi müasir dövrdə də heyranlıqla oxunmaqdadır. Kiçik qan dövranını Avropa alimlərindən 300 əvvəl İbnu-l-Nəfis (1210-1288) kəşf etmişdir. Bütün bunlar o vaxt baş verirdi ki, Avropada həkimi sehrbaz, xəstəxananı isə şeytan yuvası hesab edirdilər, cərrahi əməliyyat aparmaq istəyən həkimləri təqib edirdilər. İlk xəstəxana 707-ci ildə müsəlman hökmdarlarından Vəlid bin Əbdülməlik tərəfindən

[1]İslam: Təhriflərə cavab, s. 53-55.

qurulmuşdur. Xəstəxananın bütün xərcləri dövlət tərəfindən ödənilirdi. Müsəlmanların riyaziyyatdakı böyük xidmətləri Avropanı indi də heyran edir. Prof. Jak Risler "Renessansımızın (intibahımızın) riyaziyyat müəllimləri müsəlmanlardır" deyərkən, fransız professoru E.F.Qautye "Yalnız cəbri deyil, digər riyaziyyat elmlərini də Avropa mədəni dairələri müsəlmanlardan almışlar" söyləyir. "Əl-Cəbr və-l-Müqabələ" əsərini (780-850) Xarəzmi yazmış, "Algebra" ondan düzəldilmişdir. Jak Rislerə görə triqonometriyanın gerçək mənada əsasını qoyan Bəttanidir (858-929). Sinusu da müsəlmanlar tapıb, ona "Seyb" deyirdilər, qərblilər onu yunanca "Sinus" adlandırıblar. "Tangens", "Kotangens" və "Kosekansı" triqonometriyaya Əbülvəfa (940-998) vermişdir. Triqonometriyadan ilk ciddi əsəri isə Nəsirəddin Tusi (1201-1274) yazmışdır.

Müsəlman alimlərini ən çox maraqlandıran elm sahəsi astronomiyadır. İslam ölkələrinin demək olar ki, hər böyük şəhərində bir rəsədxana var idi. Bu rəsədxanalarda müsəlmanlar elə gözəl kəşf və tədqiqatlar aparmışdılar ki, onlar Cordano Bruno (1546-1640), Kopernik (1473-1543), Qaliley (1564-1642) kimi alimlərə ilham qaynağı oldular. Ulduzların yeri, yüksəkliyi və aralarındakı məsafəni ölçmək haqqında ilk əsəri Maşallah yazıb. Yerin sahəsinin ölçüsü haqda "Biruni qaydası" Avropada tanındı. IX-X əsrlərdə Musa qardaşları Dünyanın çevrəsini ölçmüşdülər. Fərqaninin astronomiyaya aid əsərləri Avropada 700 il dərs kitabı oldu. Günəşin üzündəki ləkələri də o kəşf etmişdir. Lalanda görə, dünyanın 20 ən məşhur astronomu arasında yer tutan Bəttaninin "Sabi cədvəlləri" Kopernik (1473-1543) dövrünə qədər əsas qəbul edilirdi[1]. Hökmdar olmasına rəğmən özünü elmə həsr etmiş Topal Teymur oğlu Uluqbəy (1394-1494) Səmərqənddə böyük bir rəsədxana tikdirdi. Elmi fəaliyyəti ilə dövrünün ən böyük astronomu oldu.

[1]İslam: Təhriflərə cavab, s. 55-59.

Yaşadığı yüz il ərzində Batlamus ləqəbini qazanan Əli Quşçu (XV əsr) imal və nub tropik əyrilərini bugünkünə çox yaxın hesablamışdı. Onları ilk doğru hesablayan isə Fərqani olmuşdur. Əhməd bin Musa "Mükəmməl nizamlar" adlı əsərində 1000-ə qədər avtomatik nəzarət sistemli alətin şəklini çəkmişdi. Əbul İsmail əl-Cəzəri (XII əsr) "Kitabu-l-hiyəl" adlı əsəri ilə kibernetikanın qurucusu oldu. Farabi (870-950) sürətin fiziki izahını verdi. 880-ci ildə Firnas quş tükü və qumaşdan (parça) hazırladığı təyyarəsi ilə uzun müddət havada qaldı. Qərbdə isə 1903-cü ildə Opvile Rayt qardaşları təyyarə ilə uça bildilər. Araşdırmalar göstərir ki, islam alimləri Nyutondan əvvəl Yerin cazibə qüvvəsini kəşf etmişlər. Atomda böyük bir enerjinin olduğunu, parçalana biləcəyini və parçalandığı zaman "Bağdadı alt-üst edə biləcək bir gücə sahib olduğunu" ilk dəfə irəli sürən, "kimyanın atası" adını qazanan Cabir bin Həyyandır (721-805). Nəsirəddin Tusinin tələbəsi Qütbəddin Şirazi Dekartdan 300 əvvəl göyqurşağı hadisəsini düzgün bir şəkildə izah etmişdi. Eynşteynin (1879-1955) üzərində tədqiqat apardığı, ancaq sona çatdıra bilmədiyi zəif elektromaqnit qüvvələrin birləşmiş sahə nəzəriyyəsinə görə prof. Əbdülssəlam (1926-1979) Nobel mükafatını aldı. Cabir kimyada Pristley (1733-1804) və Lavosyer (Lanvazye) (1743-1794) kimi alimlərdən daha əhəmiyyətlidir. Cordano onu dünyanın 12 dahisi arasında görmüşdür. Bəşir Brantdan əvvəl fosforu kəşf etmişdir. Konstantin adlı bir Papa (1016-1087) Əli bin Abbasın "Kitabu-l-Məlikin" alıb italyancaya çevirib, öz əsəri kimi "Liber Poteqni" adı altında satışa çıxartdı. Bu saxtakarlığı 40 il sonra Stepan adlı bir keşiş sübut etdi. XIII əsrdə Seviliyada müsəlmanların əsərlərini mənimsəməyi qadağan edən qanun verilmişdi[1]. Bu gün Qərb öz mədəniyyətinin üstünlüyünə görə islam elmi və mədəniyyətinə borcludur.

[1]İslam: Təhriflərə cavab, s. 60-64.

Fransız riyaziyyatçısı və tarixçisi Libri (1803-1869) “Tarixdən müsəlmanları silsək, elmi renessansımız (intibahımız) əsrlərcə geri qalar” demişdir. Qustav isə həqiqəti belə ifadə edir: “Avropanın qara bir barbarlıq içində qaldığı dövrdə Bağdad və Kordova kimi islamın hökm sürdüyü iki böyük mərkəz öz işığı ilə dünyanı aydınlandıran mədəniyyət ocaqları idi”[1].

Bütün bu yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Avropa mədəniyyəti bir növ islam mədəniyyətinin məhsuludur. Prof. Qautye (1864-1940) aşağıdakı ifadələri ilə diqqəti cəlb edir: “Renessansın ilk təzahürləri elə bir dövrdə partladı ki, barbarlıqdan oyanmaqda olan Avropa islam mədəniyyətinə bitkin bir hörmətlə baxmaqda idi. Təkrarı imkansız bir örnək qarşısında casarətini itirmiş Qərbin qolları yanına düşdü”. Bu sözlərin sahibi coğrafiyaşünas alim Qautye Qərbin islam mədəniyyətinin bu hədiyyələrini unutmasını nankorluq hesab edirdi. Müsəlmanları belə bir kəşf və ixtiralara sövq edən, şübhəsiz, Qurani-Kərimin ilk əmrinin “OXU” ilə başlaması, Quranın mahiyyətində bütün elmlərə işıq tutması və ayrıca hədisi-şəriflərlə elmə sövq edilməsi burada başlıca rol oynamışdır. Peyğəmbərimizsə (s) demişdi: “Elmi beşikdən qəbrədək öyrən”. İbn Rüşd islam düşüncə və elm tarixində cığır açmış elm adamı ikən Avropada alimlər “İbnrüşdçülük” (Averroizm) ilə təqib edilirdilər. Hodqsona görə bütün mədəniyyətlərin beşiyi Asiyadır. Avropa isə digər mədəniyyətlərin səviyyəsinə ancaq XVI əsrdə yetişə bilmişdir. Qərbdəki mədəniyyətə isə XIX əsrdə duyulan sonsuz etimad artıq mövcud deyil. İki dünya müharibəsindən nüvə müharibəsi təhlükəsinə qədər bir çox həqiqət XIX əsrdə elm və texnologiyanın yaratdığı təhlükəsizlik duyğusunu çoxdan ortadan qaldırmışdır[2].

---

[1]İslam: Təhriflərə cavab, s. 65.
[2]Yenə orada, s. 66.

Bəşəriyyət islamın və Quranın göstərdiyi insanlıq mərtəbəsinə hər zaman möhtacdır. Bu mənada Quran irəlidə, insan və insanlıq isə onun arxasınca gedir. İslamdan sonra yeni bir din gəlməmiş, xristianlıq və o biri dinlər isə islamdan daha çox qədimdir. Odur ki, dinlərlə müqayisədə islamın geridə qalmasını söyləmək açıq-aşkar qərəzçilikdən başqa bir şey deyildir. İslam bu gün yeddinci əsrdə olduğu kimi qalıbsa, deməli o, xristianlıq və digər dinlər kimi təhrif olunmamışdır. “Şübhəsiz ki, Quranı sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən, artırıb-əksiltmədən) qoruyub saxlayacağıq!” (Hicr, 9). Bu ayə Allah kəlamı üçün məkan və zaman anlayışlarının olmadığını, bütün zaman və məkan üçün keçərli olduğunu bir daha təsdiq etmiş olur.

Xristianların bəziləri iddia edirlər ki, islamda humanizm yoxdur, bağışlanma yoxdur, yalnız cəza var. İnsanlar Allahdan mərhəmət gözləmirlər. Absurd. İslama görə insan yaradılmışların ən şərəflisidir. Bir insanın haqsız yerə canına qıyan, bütün insanları öldürmüş kimidir.

İslamın özünəxas bir hüquq sistemi var. Yəhudilərin müqəddəs mətni olan Tövrat təhrif olunsa da, yəhudulikdə də bir sistem (şəriət) vardır. Xristianlıqda isə hüquqi bir sistem yoxdur. Çünki xristianlığın müqəddəs mətnləri Hz.İsadan əsrlər sonra əsassız biliklərlə dəyişdirilərək, keşişlər tərəfindən yazılmış, İncilin əsli qalmamışdır. Bu gün ən qədim İncil mətnləri yunancadır. Halbuki Hz.İsanın ana dili yunan dili deyildi. Quran necə ərəbcə nazil edilibsə, elə də qalıb. Bu gerilik yox, əsillikdir. Quranda qisasın olmasını da xristianlar cəza kimi göstərirlər. Qisasda ədalət vardır. Gözə-göz, dişə-diş... Quranda “Sizin üçün qisasda həyat vardır” (Bəqərə, 179) deyilir. Yəni qisası fikirləşən başqasının canına qəsd etməz, qorxar. Qisas təkcə islamda deyil, xristianlıqda da var. Kitabi-Müqəddəs adı alan mətnlərin Əhdi-Ətiq (Tövrat) qismində də qisas əmr edilib (Belə ki, xristianların qisasın əleyhi-

nə söz deməyə haqları yoxdur. Çıxış, Levililər, Təsniyə bölümləri). Misirdə bir xristian missioner ətrafına topladığı kütləyə qisası pisləyərək, xristianlığın islamdan üstün din olduğunu və insana şəfqətlə yanaşdığını deyir. Hətta xristianlığın insanın sağ yanağına vuran kimsəyə o biri yanağını çevirməsini tövsiyə etdiyini izah edir. Oradan ötən bir müsəlman missionerin bu sözlərini eşidərək ona yaxınlaşır və üzünə yaxşı bir sillə vurur. Dərhal özünü müdafiəyə keçən missionerə nə üçün digər yanağını çevirmədiyini soruşanda "Bu gün İsanın deyil, Məhəmmədin dediyi həyata keçirilir", - cavabını verir. Olmuş bu hadisə xristian missionerlərinin ikiüzlülüklərinə sübutdur[1].

Xristianların "İslamda qisas var, rəhmlilik yoxdur" iddialarına Rəhimlilərin ən Mərhəmətlisi Allah-Təalanın Quranda nazil etdiyi bir ayədə deyilir: "Ey mənim (günah görməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmətindən ümidsiz olmayın. Allah (tövbə edənlərin) bütün günahlarını bağışlar. Həqiqətən O, bağışlayan və rəhmedəndir" (Zümər, 53). İslamda günahları ancaq Allah bağışlaya bilər. Peyğəmbər də bunu edə bilməz. Xristianlıqda isə guya keşiş günahları bağışlaya bilir. Bu xüsusda məşhur ingilis alimi Toynibinin Misirdə qarşılaşdığı hadisə maraqlıdır. O, bir dilənçi ilə qarşılaşır və soruşur: "Sən hansı dindənsən?" Deyir ki, müsəlmandır. "Sənə sədəqə versəm, mənim üçün nə edərsən?" – Toynibi soruşur. "Dua edərəm", – deyir, Toynibi: "Allah qəbul edərmi?" Dilənçi: "Mən dua edərəm, Allah istəsə qəbul edər, istəməzsə, qəbul etməz". Toynibi bunu eşitdikdə: "Ən aşağı səviyyəli bir müsəlmanı belə yalnız Allah əfv edir. Halbuki bizim mədəni zənn etdiyimiz keşişlər özləri kimi bir insanı əfv edirlər. Nə qəribə və axmaq bir haldır", – deyir[2].

[1]İslam: Təhriflərə cavab, s. 76.
[2]Yenə orada, s.78.

Bəzi xristian ideoloqları iddia edirlər ki, Quran yəhudi və xristianların sözlərindən formalaşmışdır. Əvvəla, yəhudi və xristianların yox, Tövrat və İncilin sözlərindən demək lazım idi. İkincisi isə onların hamısını, Zəbur da daxil olmaqla, Allah-Təala nazil etməyibmi? Onlardakılar Allahın sözləri deyildirmi? Əlbəttə, onlar bir-birlərinə oxşayacaqlar. İslamdanqabaqkı dövr cahiliyyət dövrü adlanır. Belə olduqda, cahil toplum Quran kimi bir əlçatmaz nemət yarada bilərdimi? Əlbəttə, onu o biri səmavi kitablar kimi Allah-Təala nazil etmişdir. Quranın bəyanına, fəsahət və bəlağətinə Vəlid bin Muqirə, Əbu Cəhl, Utbə bin Rəbiə və b. Heyran qalmışdılar. Ona nə ad verəcəklərini bilmirdilər. Bir çoxları şeir yazmağı tərk etmişdi. "Bəqərə" və "Ali-İmran" surələri nazil olduqdan sonra Kəbə divarlarına asılan ən gözəl şeirlər yerə salınmışdı. Artıq bu şeirlərin Quran qarşısında bir dəyəri qalmamışdı. Ədəbiyyat yarışmaları özü-özünə ortadan qalxdı. Quran nə şeir, nə də nəsr idi. Vəzn və qafiyə onda yox idi. Bir gecə islamın qatı düşmənləri Əbu Süfyan, Əbu Cəhl və Əhnəs b. Şüreyk bir-birindən xəbərsiz Peyğəmbərin (s) evinin yanına onun oxuduğu Qurana qulaq asmağa gəldilər. Quranı bir xeyli dinlədikdən sonra bir-birini gördülər və çaşdılar. Sonra bir daha bura gəlməyəcəklərinə söz verdilər. Ertəsi gün bu hadisə yenə təkrar oldu. O biri gün də. Quran Allah kəlamı olduğuna görə bu insanlar ondan ayrıla bilmirdilər[1]."Quranda Hz. Məryəm Hz. Musanın bacısıdır yazılıb" sözləri də yalandır. Quranda Hz. Məryəmə "Ey Harunun bacısı" deyə müraciət olunur[2].

Xristianlar Peyğəmbər (s) vaxtı Quranın düz yazıldığını, ondan sonra isə onun təhrif olunduğunu söyləyirlər. Quranın nazil olunmasından 14 əsrdən çox keçməsinə baxmayaraq, hələ ona bənzər bir şey yarada bilməyən Allah düşmənləri Qurana iftiralar

[1]İslam: Təhriflərə cavab, s. 78.
[2]Yenə orada, s. 81.

söyləyirlər. Quranın himayəçisinin Allah olduğuna inanmaq istəmirlər. Tövrat və İncil isə İsadan (ə) sonra insanlar tərəfindən, əlbəttə ki, səhvlərlə yazılmışdır. İncillər Hz.İsanın Hz.Məryəmdən atasız olaraq doğulduğunu qəbul etməyib, Məryəmin daha əvvəl nişanlı olduğu Yusif ən-Nəccarı onun əri və İsanın (ə) atası olduğunu göstərirlər.

Xristianlar iddia edirlər ki, Məhəmməd (s) peyğəmbər haqqında Tövrat və İncildə heç bir xəbər yoxdur, Barnaba İncili saxtadır, Məhəmməd (s) peyğəmbərin möcüzələri yoxdur, o, "Mən sadəcə ərəblərin peyğəmbəriyəm demişdir", o, peyğəmbər ola bilməz. Bəs İncillərin hamısının insanlar tərəfindən yazıldığını niyə demirlər? Barnaba İncili isə onların ən qədimidir. Deməli, o, həqiqətə çox uyğun ola bilər. Lakin Tanrı bu İncildə Məhəmmədi peyğəmbərlikdə müjdələdiyi üçün bugünkü xristianlar onu qəbul etmirlər. İslam peyğəmbəri Məhəmmədin (s) Tövrat və İncildə bildirildiyindən daha açıq dəlil Tövrat verilən Hz.Musanın və İncil verilən Hz.İsanın peyğəmbər olduqları Quranda bildirilmişdir. Məhəmməd (s) peyğəmbərə Allah-Təalanın verdiyi möcüzə isə Qurani-Kərimdir və orada Musa və İsa peyğəmbərlərə verilən möcüzələr də qeyd olunub. Quran tək hərfi belə dəyişdirilməyən, günümüzə qədər gəlib çıxmış yeganə ilahi kitabdır. Elm və texnologiyanın bir neçə əsr sonra kəşf etdiyi bilgilərin hamısı əslində Quranda mövcuddur. Məgər İslam Peyğəmbərinə (s) göndərilmiş bütün bunlar möcüzə deyilmi? Bu gün Hz. İsa, Hz. Musa və başqa peyğəmbərlərin möcüzələrini kimsə təkzib etsə, bunları sübut etməyə dəlilimiz yoxdur. Lakin onlar haqqında Quranda məlumat olduğu üçün biz onlara inanırıq. Hz. Məhəmməd (s) peyğəmbərə Quranda göndərilmiş möcüzələr isə göz qabağındadır. Peyğəmbərin (s) mərhəmətli olmadığını söyləyənlər isə iftira edir. Allah Peyğəmbərə (s) müraciətlə: "Səni aləmlərə ancaq rəhmət olaraq göndərdik" deyir (Ənbiya, 107). Peyğəm-

bərimiz (s) Məkkəni fəth edəndə bütün keçmiş düşmənlərini əfv etmişdi[1]. Bu, yuxarıda deyilənə cavabdır. Hz. Məhəmməd (s) təkcə müsəlmanlara deyil, bütün bəşəriyyətə peyğəmbər göndərilmişdir (Səba, 28).

Xristianlar iddia edirlər ki, islamda cihad ölkələri fəth etmək, insanları zorla müsəlmanlaşdırmaq, müşrikləri öldürmək və ya onları alçaldaraq onlardan cizyə almaqdır. Yenə yalan. Cizyə haqqında qeyd etmişik. İslam insanların düşüncə, inanc və davranışlarını islah edəcək bütün fəaliyyətlərini cihad adlandırır. Cihad islam və insan arasındakı əngəllərin qaldırılmasıdır, ilk baxışda könülləri fəth edir. Öncə könüllər fəth edilir, sonra isə ölkələr. İslam bir millətin faydası üçün digərini yox etməz. Eyni şəkildə bir azlığın və ya toplumun hər hansı ölkəni əldə etməsini, istila etməsini də məqsəd olaraq qarşıya qoymaz. İslamın qayəsi torpaq almaq, ölkə fəth etmək deyil. Bilavasitə Allahın hidayətini və nicatını insana çatdırmaqdır. İslam bir bölgənin deyil, bütün dünyanın səadət və rifahını istəyir. Cihadın əsas qayəsi müsəlmanın öz xalqını, ölkəsini, vətənini, ailəsini, namusunu və şərəfini müdafiə etməkdir. Hz. Fatimənin "Allah-Təala cihadı islamın izzəti qərar verdi" sözləri mübarizəsiz izzətin olmadığı fikrini təsdiq edir. "Müsəlmanlar islamı güclə qəbul etdirirlər" iddiası da o biri yalanlar kimidir. Belə davranış, əksinə xristianlara aiddir. 700 il Əndəlüsdə (İspaniya) islam hakimiyyətdə olduğu halda, niyə indi orada bir nəfər də müsəlman yoxdur? Çünki oradakı müsəlmanlara ya xristian olmaq, ya da ölüm təklif olunmuşdu. Ancaq Osmanlı İslam idarəsi Balkanlarda 500 il ərzində bütün dinlərə mövcud olmaq şəraiti yaratmışdı. İspaniyada islam dövlətinin süqutundan sonra müsəlmanlarla yanaşı, yəhudilər də oradan sürgün edildilər, onlara Osmanlı dövləti himayədar oldu. Xristianlar bu-

[1]İslam: Təhriflərə cavab, s. 86-96.

na nə deyəcəklər? XXI əsrin bugünkü günlərində indi Ermənistan adlanan Azərbaycan torpaqlarında, Qarabağda ermənilərə sığınacaq vermiş azərbaycanlı müsəlmanlara özlərinin torpaqlarında zülm edən, uşaq, qadın, qocalara rəhm etmədən işgəncə verən ermənilər xristian deyillərmi? Bu gün Ermənistan adlanan ərazidə və Qarabağda öz torpaqları olmasına baxmayaraq, bir nəfər müsəlman-azərbaycanlı olmadığı halda, Bakıda 30 minə qədər erməni yaşayır. Budurmu xristianların azadlıqsevərliyi? Üstəlik hələ bir xristian dövləti belə, ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarından çıxmağını tələb etməyib. Əksinə, bu işğalı uzatmaq və müsəlman azərbaycanlıları qırmaq, uşaqlara, qadınlara, qocalara işgəncə vermək üçün ermənilərə milyonlarla dollarlıq silahlar verirlər. Budurmu xristianların sülhsevərliyi? İsa (ə) sizlərə beləmi əmr etdi? Peyğəmbərimizin (s) isə yəhudilərə qarşı davranışı Qüreyş və islamın digər düşmənlərinə olan münasibətindən daha xəfif və daha yumşaq idi. Bütpərəst ərəblər Rəsulullaha (s) qarşı olan mücadilələrində məğlub olduqdan sonra yəhudilərlə birgə hərəkət edən bir küfr ittifaqı yaratdılar. Onlar Mədinəni zəbt edib, müsəlmanları məhv etmək istəyirdilər, ona görə Peyğəmbər (s) onları qabaqlayıb, Xeybərdəki yəhudiləri cəzalandırdı. Bir xristian olan Sir Arnold "İslama dəvət" adlı əsərində yazır ki, miladın 637-ci ilində yunanlar Roma dövləti ilə birləşməkdənsə, müsəlman ərəblərlə birləşməyi qəbul etmişdilər. Roma onları öz məzhəblərinə qatmaq istəyirdi. İslam isə onlara inanc və ibadət azadlığını verdi.

Tarix boyunca müsəlmanlar qurduqları dövlətlərdə əsgərlik və cihad etdikləri halda, onların təbəələri olan yəhudi və xristianlar ölkənin iqtisadi və ticarət həyatını əllərində saxlamışlar. Müsəlmanlar cizyə aldıqları ölkənin haqlarını qoruya bilməyib geri çəkildikdə, aldıqları cizyəni geri qaytarmışlar. İstanbuldakı Darul-Əczədə yəhudi, xristian və müsəlman ayrı-seçkiliyi olmadan

hamısına məccani xidmət edilməsi və hər biri üçün ayrı-ayrı - kilsə, həvar və məscid kimi məbədlər tikilməsi və bu günədək davam etməsi faktdır.

İslam ölkələrində xristianlar və yəhudilər müsəlmanlardan az vergi verirlər. Onlar ancaq cizyə verirlərsə, müsəlmanlar - xums, zəkat, uşr və könüllü sədəqələr verirlər. Cizyə müsəlman ordusunun etdiyi məsrəfləri qarşılamaq üçün əsgərlik çağına gəlmiş qeyri-müsəlmanlardan alınan cüzi miqdarda bir vergidir.

Avropa şərqşünasları və missionerlər cihadı müşrikləri öldürmək kimi tanıdıb, islama üz tutanları yoldan çıxarmağa çalışırlar. Onlardan soruşmaq gərəkdir - Peyğəmbər (s) Məkkəni fəth etdikdən sonra neçə müşrik öldürdü? Onlar Peyğəmbərin (s) yanına gəldikdə onlardan soruşdu: “Necə hökm verməmi gözləyirsiniz?” Onlar: “Yaxşılıqla, ədalətlə”, - deyə cavab verdilər. Peyğəmbərimiz (s) onları sərbəst buraxdı. Ona böyük zərərlər vermiş Hindi, Vəhşini və islamın neçə böyük düşmənini müsəlman olduqları üçün əfv etdi. Peyğəmbərimiz elə bir rəhmət bulağı idi ki, gecə basqınları və soyğunlarını qadağan etmişdi. İlk müsəlman türk dövləti olan Qaraxanlıların sultanı Sauq Buğra Xan bir iranlı sayəsində müsəlman olmuşdur. Səlcuqların babası Səlcuq Cəndə getmiş və orada islamı tanıyaraq müsəlman olmuşdur[1]. Deməli, islam heç bir dövrdə özlərini mədəni, humanist və mərhəmətli hesab edən, amma tam bir vəhşi kimi hərəkət edən avropalıların etdiyi kimi özünü zorla qəbul etdirməmişdir. Bosniyada olanları kimin ayağına yazaq? Müsəlmanlarınmı? Amerikada 15-20 milyon qırmızı dərili hindunu xristian olmadıqları üçün qətl edən xristianların heç müsəlmanlara deyil, öz dinlərindən olan insanlara- qarşı da dözümləri yoxdur.

[1]İslam: Təhriflərə cavab, s. 99-104.

Səlib yürüşlərindən sonra Avropanın Şərqə qarşı mübarizəsini 1453-cü ildə Konstantinopolu fəthetmiş Türkiyəyə qarşı hücum haqqında Quttenberqin 1454-cü ildə çıxan broşurası yenidən alovlandırdı[1]. Bu kitabı və xüsusilə də Lüterin "Türklərlə müharibə" əsərini antimüsəlman ədəbiyyatının yaranmasının əzəli hesab edirlər. Lüterin kitabında Quran "zorakılıq dərsliyi", türklər isə "qatillər və zorakılar" adlandırılırlar[2].

12 sentyabr 2006-cı ildə Almaniyanın Höteburq Universitetində Bizans imperatoru Emmanuel II Paleoloqa[3] həsr olunmuş çıxışında XVI Papa Benedikt Quranın (2, 257) ayəsinin islamda məcburilik olmadığını bildirdiyini şübhə altına almışdı. Quranda isə bildiyimiz kimi (16, 126) Allah yoluna ağılla dəvət qeyd edilir. XVI Papa Benedikt bunun islamın zəif olduğu vaxtda həyata keçirildiyini deyir. İslam qüvvətlənəndən sonra müsəlmanlar qəddarlıq, zorakılıq, "qılınc və odla" başqa xalqlara islamı təlqin edirdilər. Papanın bu fikri dünya müsəlmanlarını çox narahat etdi. Misir ilahiyyatçısı Yusuf Qardavi "İslam qılınc gücünəmi yayıldı? Papaya cavab", professor Həsən Onat "Türk yurdu" jurnalında (№230, oktyabr, 2006, s. 26 ) "Papanın sözləri dini deyil, siyasidir" başlıqlı məqaləsilə Papaya kəskin cavab verdilər[4].

"Papanın sözlərini söz azadlığı kimi qəbul etmək olarmı?" sualına Həsən Onat cavab verib ki, bu mümkün deyil, çünki bu, adi adamın yox, dünya katoliklərinin başçısının sözləridir. Belə mənsəb sahibi səhv etməməlidir. O, öz fikrini bilərəkdən 11

---

[1] А.В.Сагодеев. Гуманистические идеи в исламе и классической мусульманской культуре. Газ. «Бакинский рабочий», 06.06.1991; Эсмеральда Гасанова. Критика…, с. 37.

[2] Мартин Лютер. Война с турками; Эсмеральда Гасанова. Критика…, с. 37.

[3] Poleoloqlar sülaləsi XI əsrdən Bizansa səkkiz imperator verib. Onların axırıncısı 1453-cü ildə Konstantinopol fəth edilərkən ölən I Konstantin olmuşdur. Эсмеральда Гасанова. Критика…, с. 37.

[4] Эсмеральда Гасанова. Yenə orada.

Sentyabrın 6 illiyində çıxış edərək söyləmişdi və “islamofobiya”, “radikal islam”, “islamofaşizm” müstəvisində demişdi. Bunlar islamı “zorakılıq və terror dini” kimi qiymətləndirirlər. Onat Səlib yürüşlərinə haqq qazandıran XVI Papa Benediktin və Buşun sözlərində paralelləri də qeyd edir. Jurnalistlərin XVI Papa Benediktin yunan fəlsəfəsi ilə tərbiyələnən və İncilin yunan fəlsəfəsi ilə uyğunluğunu qeyd edən bir bizans imperatoru haqqında fikri ilə əlaqədar sualına Onat cavab vermişdir ki, “Əgər islam və müsəlmanlar olmasaydılar, qərb mədəniyyəti, intibahı, reformaları olmazdı. Qərb bütün bunlarla islam dini, İbn Sina, İbn Rüşd və s. ilə tərcümələr əsasında tanış olmuşdur[1].

XVI Papa Benedikt çıxışı zamanı II Papa İoann Pavel və Vatikanın yeddi qabaqcıl kardinallarının və kilsənin bütün bəşəriyyətə qarşı etdiyi günahlara görə üzr istəmələrini nəzərdən qaçırıb[2].

Yeri gəlmişkən, xristianların müsəlmanların başlarına gətirdikləri müsibətlər haqqında onların özlərinin qələmə aldıqlarını nəzərdən keçirək.

Məşhur Rokfellerlərdən olan David (Devid) Rokfellerin (1915-1996) Türkiyədə 2013-cü ildə “Yüz ilin etirafları” adlı kitabı[3] işıq üzü görmüşdür. David, çox yəqin ki, bu yazını ölümündən bir az əvvəl qələmə almışdır, Allah yanında özünün və ABŞ-ın günahlarından əzilərək. David “Cidanı çuvalda gizlətmək olmaz” atalar misalını dərk edərək, ABŞ və Qərbi Avropanın XX əsrdə Yer kürəsi əhalisinin başına gətirdiyi oyun və fəlakətləri açıb gös-

---

[1]Prof. Dr. Hasan Onat. “Papanın sözleri dini değil, siyasi”. s. 14, “Türk Yurdu” Ekim, 2006, cilt 26, sayı 230, Sözleri Ömer Bekeç-Mehmet Ekiz; Эсмеральда Гасанова. Yenə orada.

[2]Yaşar Nuri Öztürk. Türkiyeyi Kemiren ihanet Allah ile Aldatmak (35 baskı). İstanbul, 2008, s. 70-71. “Cumhuriyyət” qəz. 24 may, 2000-ci il; Эсмеральда Гасанова. Yenə orada.

[3]David Rokfeller. Yüz ilin etirafları. Türkiyə, 2013 (“Kredo” qəzeti, 14 may, 2014).

tərmişdir. Onların əsas hədəfi isə türklər və Türkiyə olmuşdur. Türkiyə onlar üçün çox "əhəmiyyətlidir" və bu əhəmiyyət aşağıdakı kimi qeyd edilir: 1) Böyük İsrail Dövləti sularının böyük bir qisminin qaynaqları Türkiyə ərazisindədir; 2) Türkiyə Avropa və Asiya arasında körpüdür; 3) Türkiyə müsəlman aləmində öncül və demokratik bir ölkədir. David yazır ki: "İslamı yıxmaq istəyiriksə, Türkiyədən başlamalıyıq. Bu türklər birləşib bir araya gəlsələr, qarşısında heç bir güc dayanmaz. Bu üzdən belə bir olacağa qarşı ajanlarımız (agentlərimiz) hər an tətikdə gözləyirlər. Türk (islam) dövlətləri arasında ən ufaq bir yaxınlaşma sezdikdə bunun qarşısını alırıq". Türkiyənin ABŞ və Qərbi Avropa üçün "əhəmiyyətli" olmasının dördüncü səbəbi ölkənin bor yataqlarına görə ən zəngin ölkə olmasıdır və gələcəkdə bor neftdən də qiymətli bir əmtəədir". "Türkləri yıxmağın ən ümdə, beşinci səbəbi onların mədəniyyətin beşiyi olmasıdır. Türklər miladdan öncə 4000-ci illərdə Orta Asiyada yaşanan fəlakətdən sonra oranı tərk edib, Mesopotamiya və ondan şimal yolları ilə Avropaya gələn dünyada ən ali irq kimi qəbul edilmiş Arilərdir. Avropadakı finlər və macarlar da türk kökənlidir". Sonra David qeyd edir: "Mədəniyyətin beşiyi olan türkləri qəbul edə bilməzdik, intriqa ilə bu mədəni miraslara əl qoyub, onları bütün dünyada barbar, haqq-hüquq tanımayan bir toplum olaraq tanıtdıq və bizim çalışmalarımız Türkiyədə fahişəlik, rüşvət, oğurluq, haram qazanca səbəb oldu". David Rokfeller şumerlərin də türk olduğunu və 6000 il tarixli mədəniyyətə malik olduqlarını qeyd edərək yazır ki, biz şumer mədəniyyətini örtbasdır etmək üçün m.ə. 2000-ci illərdə, yəni şumerlərdən 1500 il sonra təşəkkül tapmış yunan mədəniyyətini dünyada ilk mədəniyyət olaraq tanıtdıq. Misirlilər də öz piramidalarını şumer mədəniyyətindən 1000 il sonra qurmuşlar. Şumerlərin mədəniyyətindən xəbərdar olana qədər ingilisləri mədəni bilirdim"[1].

[1]David Rokfeller. Yüz ilin etirafları,yenə orada.

80-ci illərdə Türkiyədə baş verən siyasi və ideoloji vəziyyəti D.Rokfeller belə təsvir edir: "Pravokatorların əli ilə Türkiyədə sağ və sol ideoloji cəbhələr arasında dava qızışdı. Ölkəyə qoyduğumuz embarqo nəticəsində xalq canından bezmiş, yağ və duza möhtac olmuşdu. Küçələrdə hər gün 50-60 adam öldürülürdü. Bütün ölkə terror qorxusu altında idi. Minlərlə türk uydurma ideologiyanın əsasında can verdi. Vaxt çatanda bir zərbə ilə bütün bunlar kəsildi, çünki pravokatorların işi qurtarmış, onlar geri çağırılmışdı". Bütün bunlar ölkəyə bizim (ABŞ-ın) bəyəndiyi bir "xilaskar" gətirmək üçün idi. Bu Turqut Özal idi. O, ölkənin qapılarını sonuna qədər bizim üzümüzə açdı. Şirkətlərimiz bu bazara ac qurdlar kimi hücum çəkdilər. Qardaş, dost, ailə kimi anlayışlar unuduldu, pullular etibar sahibi oldular. Kürd dövləti məsələsini işə saldıq. Ölkə iflic vəziyyətinə düşdü. 50-ci illərdə də belə etmişdik. Adnan Menderesi hakimiyyətə gətirdik. "Marşal yardımı" ilə onlara borc verdik və sonda onu da iflasa uğratdıq". David Rokfeller sonra qeyd edir: "Mədən, neft, qaz kimi zəngin yeraltı sərvətləri olan Şərq və Qafqaza hakim olmaq istəyiriksə, Türkiyə əlimizin içində olmalıdır. Orta Şərq indi-indi əlimizdə sayılır. Qafqaz və Orta Asiya yaxınlarda zərbələrə tab gətirməyib ovucumuzun içinə düşəcəklər".

Amerikada Rokfellerlərlə yanaşı, Rotşildlər də var. Rokfellerin "Dünya ölkələrini necə ələ gətirmək istəyirik?" sualına Rotşild belə cavab verib: "Birinci Dünya müharibəsi Avropada bizə qarşı olan imperatorluqları, ən əvvəl Osmanlı imperatorluğunu dağıtmaq, Orta Şərqdəki neft yataqlarını ələ keçirmək və İsrail dövlətinin yolunu açmaq üçün ortaya salınmışdı". İsrailin qurucusu Tedor Heriz,II Əbdülhəmidin yanına gedib Fələstin torpaqlarını Rotşild ailəsinin köməyi ilə satın almaq istəyir. Sultan rədd cavabı verir. Sultanların çoxu yadelli qadınlara evlənirdilər, Hürrəm Sultan da onlardan biri idi. Onun əli ilə "Osmanlının çöküş dövrü başladı. Mason təşkilatlarının əli ilə üsyanlar başladı. Xəzi-

nə plansız xərclərlə tükəndi” (Eyni ilə Qarabağın indiki vəziyyəti. Erməni arvadlar və onlardan olan uşaqların fəaliyyəti. Məlumata görə, indi Bakıda 30 minə yaxın erməni yaşayır).

David Rokfeller sual verir: “Nə səbəbə Şimali Amerika və Qərbi Avropa varlı bir həyat sürür, dünyanın 5 milyard əhalisi bizim 1 milyard insan üçün çalışır?” Özü də cavab verir: “Çünki bizim irqimiz seçilmiş irqdir, digərləri isə sadəcə kölədirlər. Onların işbirlikçi (bizimlə birgə iş görən) rəhbərləri bizim əmrlərimizi yerinə yetirirlər”[1].

İslam dininin yayılması, müxtəlif xalqlar arasında əsas inam mənbəyinə çevrilməsi işində Osmanlı və Səfəvi imperiyalarının din siyasətlərinin rolu danılmazdır. XI əsrdən başlayaraq türklərin Kiçik, Ön, Mərkəzi Asiyada, Qafqazda hakim siyasi qüvvəyə çevrilmələri, onların ideoloji silah olaraq islam dinindən istifadə etmələri, beləliklə, Avropa və Asiya ölkələrini birləşdirən beynəlxalq tranzit ticarət yollarını nəzarət altına almaları xristian dünyasını, xüsusilə də Roma papalarını daim həyəcan içində saxlamışdır. 1095-ci ildə Roma papası Urbanın fitvası ilə başlanmış Səlib yürüşləri, XVI əsrdə və XVII əsrin birinci yarısından davam etmiş Osmanlı-Səfəvi müharibələri əslində xristian dünyasının əsrlərlə keçirdiyi “həyəcanın” nəticəsi idi. 1453-cü ildə İstanbul fəth edildikdən sonra xristian dünyasının həyəcanı daha da artmışdı. Elə bunun nəticəsi idi ki, Roma papası II Piy Osmanlı sultanı I Məhmədə öz təbəələri ilə birlikdə xristianlığı qəbul edəcəyi təqdirdə, onun bütün Avropanın böyük və əbədi himayədarı elan olunacağını vəd etmişdi. Belə bir müraciətin edilməsinin səbəblərindən biri işğal qorxusu idisə, digər əsas səbəb islam dininin sürətlə yayılacağı, beləliklə, bütün Avropanın siyasi-iqtisadi, dini nəzarətdən çıxması ehtimalı idi.

---

[1]David Rokfeller. Yüz ilin etirafları,yenə orada.

Avropanın siyasi və dini dairələri istər Səfəvilər, istərsə də Osmanlı imperiyalarında qeyri-müsəlmanlara olan yüksək səviyyədə dözümlülükdən, yəni tolerantlıqdan xəbərdar idilər. Əsl həqiqət isə bundan ibarətdir ki, bəzi Avropa siyasətçiləri söhbət islam dinindən düşən zaman istər orta əsrlərdə, istərsə də bu gün öz nifrətlərini gizlədə bilmirlər. XVI əsrdə Avropada başlayan reformasiya hərəkatının bu qitənin xristian və yəhudi əhalisi üçün hansı fəlakətlərlə nəticələnməsi məlumdur. 1572-ci ildə Parisdə məşhur Varfolomey gecəsi zamanı dini təriqət ayrı-seçkiliyi səbəbilə 30 mindən çox insanın qətlə yetirilməsi, İspaniya və İtaliyada yəhudilərə qarşı inkvizisiya məhkəmələrinin qurulması təkcə orta əsrlərdə deyil, elə bu gün də bəzi Qərb ölkələrində tolerantlıqdan, dini dözümlülükdən danışmağa heç bir əsas vermir. Min ildən artıq dövr ərzində bütün türk dünyası tarixində və ilk növbədə Azərbaycan tarixində qeyri-müsəlmanlara qarşı heç bir dözümsüzlük halı qeydə alınmamışdır. XIX əsrin birinci yarısında Azərbaycanın iki yerə bölüşdürülməsi və Rusiya imperiyası tərəfindən işğal olunmuş Şimali Azərbaycanda 1824-cü ildən (1918-1920-ci illəri çıxmaq şərti ilə) 1991-ci ilədək yürüdülən dini siyasət öz əksini tapmışdır[1].

Çar Rusiyası şimali Azərbaycanı işğal etdikdən sonra burada apardığı din siyasəti müstəmləkəçilik siyasətinin tərkib hissəsinə çevrilmişdi. Müstəmləkəçi idarə aparatı Şimali Azərbaycanı mümkün olduqca çox talan etmək, burada milli dövlətin yaranmasına imkan verməmək, öz forpostlarını daha da gücləndirmək prinsiplərini etnik-dini qısqanclıqla həyata keçirirdi. Bu məqsədlə Çar Rusiyası XIX əsrin 30-cu illərinədək Qacarlar və Osmanlı imperiyasının tərkibində yaşayan ermənilərin, o cümlədən özünün təsiri altındakı ərazilərdə məskunlanmış almanların, bidətçi təriqətlə-

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 18-19.

rə mənsub rusların Azərbaycan ərazisinə köçürülməsi planını həyata keçirmiş, məqsədli şəkildə xristianlaşdırma siyasəti aparmışdır. Şimali Azərbaycan ərazilərində erməni dövləti yaratmaq Rusiya imperiyasının, həmçinin bəzi digər Avropa dövlətlərinin çoxdankı planı idi. Bu planın reallaşdırılması üçün mərhələ-mərhələ məkrli işlər görülmüşdür[1].

Bu dövr haqqında Bakının qazisi olmuş Mircəfər əl-Bakuvi özünün "Kəşfül-həqaiq" əsərində ürək yanğısı ilə yazır. O, İngiltərənin müsəlmanlara qarşı zülmü haqda qeyd etsə də, çarizmə də işarə edirdi. General Sisianov özünü "Bütün xristianların müdafiəçisi" adlandırıb, "müsəlman zülmü altında əzilən xristianları" birləşib iğtişaşlar törətməyə çağırırdı[2].

Rus çarizmi Azərbaycanı işğal edərkən sünni-şiə məsələsindən istifadə edir, ermənilərdən dəstək alırdı[3].

Azərbaycan torpaqlarının bölüşdürülməsi məqsədi ilə Rusiya imperiyası ilə Qacarlar dövləti arasında 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsinə əsasən ermənilərin İrandan Azərbaycana köçürülməsi üçün lazımi şərait yaradılmışdı. Bu dövrdə nəinki ermənilərin Azərbaycan torpaqlarına köçməsinə imkan verilir, hətta burada daimi məskunlaşmaları üçün onlara böyük güzəştlər edilirdi. Rus tədqiqatçısı K.N.Şavrov yazırdı: "1828-1830-cu illər ərzində Cənubi Qafqaza 40 mindən çox İran və 84 min Türkiyə ermənisi köçürdük və onları erməni əhalisinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirdik, onlara 200 min desyatindən çox xəzinə torpağı

---

[1]Hidayət Orucov. s. 19.

[2]Əli Rza oğlu Fərhadov. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda islami maarifçilik və islahatçılıq hərəkatı (Mir Məhəmməd Kərim Mircəfər əl-Bakuvinin "Kəşfül-həqaiq" əsəri haqqında dissertasiya, Bakı, 2016, səh. 3-10).

[3]Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Çapa hazırlayanlar: K.Şərifli, A.A.Ramazanzadə. Bakı, 1993, s. 4, 197; Əli Fərhadov, yenə orada.

ayrıldı". Xristianlığın pravoslav və protestant konfessiyalarına mənsub əhalinin Şimali Azərbaycanda məskunlaşdırılması da məhz bu dövrə təsadüf edir. Çar Rusiyası alman koloniyalarını, pravoslavları və pravoslavlığa zidd təriqət mənsublarını 1828-1830-cu illərdən başlayaraq Mərkəzi Rusiyadan əyalətlərə, o cümlədən Cənubi Qafqaza, əsasən də Şimali Azərbaycan ərazilərinə dayaq sayılacaq forpostların yaradılması məqsədi ilə yerləşdirmişdi. Onlar bu ərazilərdə məskunlaşmaqla bərabər, öz dini dəyərlərini bərpa edərək, imkanları daxilində yayırdılar və Şimali Azərbaycanın bir neçə bölgəsində kilsələr tikərək sərbəst ibadət edirdilər. Elə hallar olurdu ki, yerli kəndlilərin istifadəsindəki torpaqların bir qismi onlardan alınıb gəlmələrə verilirdi. Bu da Şimali Azərbaycan kəndlərində aztorpaqlı və tamamilə torpaqsız kəndlilərin sayının artmasına, müflisləşməyə səbəb olurdu. Bu minvalla XIX yüzilliyin birinci yarısında Rusiyadan köçürülənlər Şimali Azərbaycanda bir sıra xristian mənşəli kəndlərin əsasını qoymuşdular.

Çar Rusiyasının Şimali Azərbaycanda güclənmək siyasətində rus zadəganları nümayəndələrinin də bura köçürülməsi istəyi vardı. Bəzi yüksək rütbəli çar məmurları belə düşünürdülər ki, müstəmləkə ölkəsində çarizmin etibarlı arxası ancaq həmin ərazidə kök salacaq rus zadəganları ola bilərlər. Ona görə də yerli bəylərə tiyul (Səfəvilər dövlətində bəylərə verilən şərti torpaq sahibliyi) hüququ əsasında ayrılmış torpaqların onların əlindən alınıb rus zadəganlarına verilməsi nəzərdə tutulmuşdu. Çar höküməti bu təklifi bəyənib, əvvəl Qazax, Şəmşəddil və Borçalıda yaşayan bəylərin onlara verilmiş torpaqlar və həmin torpaqları becərən kəndlilər üzərindəki hüququnu ləğv etmişdi. Çar bu qanunu sonra bütün Kaspi vilayəti bəylərinə də şamil etmək fikrində idi. Lakin rus zadəganları arasında bu yerlərə köçüb gəlmək həvəsində olanlar tapılmamışdı[1].

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 138-139.

Çarizm xristianlığa mənsub əhalini Şimali Azərbaycana köçürməklə burada xristianlığın yayılacağını, müsəlman din xadimlərinin cəmiyyətdəki mövqelərini itirəcəklərini düşünürdü. Çünki imperiya hakim dairələri Şimali Azərbaycanı işğal etməyə başladığı dövrdən etibarən müsəlman dindarlara müstəmləkə siyasətini həyata keçirməyə mane olan qüvvə kimi baxırdı. Buna görə də çar hökuməti ilk növbədə ruhaniləri "zərərsizləşdirməyi" qarşısına məqsəd qoymuşdu. Çarizmin dinlə bağlı siyasəti də elə bu prinsipə söykənirdi. Nəticədə, Şimali Azərbaycanın işğalı ilə müsəlman ruhaniliyin sosial-siyasi və hüquqi durumu pisləşməyə başlamış, əsrlər boyu malik olduqları bir sıra hüquq və imtiyazdan məhrum edilmişdilər.

İşğal dövründə Çar Rusiyası tərəfindən müxtəlif bölgələrin əhalisinə, o cümlədən dindarlara münasibətdə ayrı-seçkiliyə yol verilirdi və bu da səbəbsiz deyildi. Çünki Rusiya imperiyasının işğalçılıq siyasətinə qarşı müqavimətin səviyyəsi bölgələrdə fərqli idi. Belə ki, ruslara siyasi müqavimət göstərən xanlıqlarda nüfuzlu təbəqənin, həmçinin dindarların hüquq və imtiyazları daha da məhdudlaşdırılır, onlar təqiblərə məruz qalır, süni suçlanmalarla sürgün, yaxud edam edilirdilər. Lakin silahlı müqavimət göstərməyən xanlıqlarda çar hökuməti daha ehtiyatlı siyasət aparır, imtiyazlı təbəqənin hüquqlarını məhdudlaşdırmaqda tələsmirdi. İşğala qarşı çıxanların önündə, əsasən, ruhanilər gedirdi, onlar əksər vaxtlarda etirazların təşkilatçısı, bir çox hallarda isə rəhbəri olurdular.

Məsələn, müstəmləkə zülmünə qarşı ilk üsyan 1826-cı ildə Gəncə şəhərində baş vermişdi. Lakin hökumət dairələri onu amansızcasına yatırmışdı. Car-Balakən əhalisi də üsyan etmişdi. Ümumiyyətlə, XIX yüzilliyin birinci yarısında müstəmləkə zülmünə qarşı ən böyük üsyan 1837-ci ildə Qubada olmuşdu. Üsyanın hərəkətverici qüvvəsi kəndlilər, Quba şəhər əhalisi, bəy və ruhani nümayəndələri idi. Ruhanilərin baş verən üsyanlarda apa-

rıcı qüvvə olması işğalçı ordunun başında dayanan yüksəkçinli zabitlərin nəzərindən yayınmırdı[1].

Bu dövrdə çarizmin ruhanilərə münasibətini, ümumiyyətlə, din siyasətini mərkəzi hökumət müəyyənləşdirmirdi. İşğal dövrü yeni başladığı üçün çar hökuməti qəti və uzunmüddətli qərar qəbul etməkdən ehtiyatlanırdı. Əslində hökumətin din siyasəti ilə bağlı planı da yox idi. Ona görə də bu sahədə qərar qəbul etmək, dindarlarla necə davranmaq yerli məmurların əlində toplanmışdı. Onların bu sahədə qəbul etdikləri qərarlar bir çox hallarda eksperiment xarakteri daşıyırdı.

Bu dövrdə mülki məhkəmələrlə yanaşı şəriət məhkəmələri də fəaliyyət göstərirdi. Hər əyalətdə ruhani başçıları qazilər idilər. Onlar şəriət məhkəmələrinə başçılıq edir, nikah, boşanma, vərəsəlik və s. kimi işlərə baxırdılar. Mülki məhkəmələrə isə komendantlar rəhbərlik edirdi, ali ruhanilər onlardan tam asılı vəziyyətə gətirilmişdilər. Onlar bütün məsələləri komendantla razılaşdırmağa məcbur idilər. Bu dövrdə ruhanilərin və məscidlərin sayı azaldılmış, xums vergisi (gəlirlərin beşdəbiri qədər verilən dini vergi) könüllü elan edilməklə demək olar ki, ləğv edilmiş, bir sıra ruhanilərin üzərinə vergi və mükəlləfiyyətlər qoyulmuşdu. Hökumətə qarşı hər hansı əməldə təqsirli bilinən din xadimlərinə ən ağır cəzalar verilirdi.

İşğalın ilk illərində Osmanlı imperiyasının və Qacarlar dövlətinin Şimali Azərbaycana təsiri çox böyük idi. Bu təsir bütün sahələrdə, xüsusilə ruhanilərin həyat və fəaliyyətində özünü daha qabarıq şəkildə göstərirdi. Çar hökuməti başa düşürdü ki, Qafqazın müsəlman əhalisinin İslam dünyası, xüsusilə Osmanlı imperiyası və Qacarlar dövləti ilə din sahəsində əlaqələrini kəsməyəcəyi təqdirdə ciddi problemlə üzləşəcəkdir. İşğaldan sonra baş verən üs-

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 140.

yanlar, həmin üsyanlarda Osmanlı dövlətindən və İrandan gəlmiş şəxslərin, həmçinin ruhanilərin iştirakı bunu bir daha təsdiqləmişdi. Əslində, çar məmurları işğala başladıqları ilk gündən Şimali Azərbaycan əhalisinin İslam dünyası, eləcə də İran və Türkiyə ilə münasibətlərini zəiflətmək üçün bütün tədbirlərə əl atmışdı. 1823-cü ildə Qafqaz şeyxülislamı, 1832-ci ildə isə Qafqaz müftisi vəzifələrinin təsis edilməsi həm də bu məqsəddən irəli gəlirdi[1].

XIX əsrdə Çar Rusiyası Azərbaycanı dini cəhətdən idarə etmək üçün komissiya təşkil etdi, onun vəzifəsi aşağıdakı kimi idi:

- cəmiyyətin möhtəməl müxalifətçi təbəqəsi olan ruhanilər üzərində hökumət üçün nəzarət vasitəsi təmin edilsin;
- ruhani təbəqəsi arasında “cəm olma ruhunun möhkəmlənməsinin qarşısı alınsın;
- ən nufuzlu müsəlman ruhanilərinin maddi maraqlarını hakimiyyətə xidmətlə əlaqələndirmək yolu ilə onlar hökumətdən bilavasitə asılı vəziyyətə salınsın.

1867-ci il təlimatında şeyxülislam və müfti üçün nəzərdə tutulmuş səlahiyyətlər onlara dini işləri şəxsən idarə etmək imkanı verirdisə, sonrakı təlimatlarda bu iş onların sədrliyi altında yaradılmış idarələrə həvalə edilmişdi.

Xanlıqlar dövründən başlayaraq Azərbaycan Xalq Cümhuriyyətinin süqutunadək Şimali Azərbaycan ruhaniliyinin tarixi ilə bağlı tədqiqat işi aparan Rəsul Hüseynli çarizmin ruhanilərlə bağlı siyasətində iki xəttin, hərbi-zorakı və çevik-siyasi xətlərinin özünü büruzə verdiyini yazır. Müəllif qeyd edir ki, “hərbi-zorakı” xəttin tərəfdarları müsəlman ruhhaniləri xanlıqlar dövründəki hüquq və imtiyazlardan məhrum edərək, onları nüfuzdan salmağa çalışırdılar. Əslində, “çevik-siyasi” xəttin tərəfdarları ilə “hərbi-zorakı” xəttin tərəfdarları arasında elə bir prinsipial fərq olmamış-

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 140-141.

dır. Sadəcə, "çevik-siyasi" xəttin tərəfdarları müsəlman ruhanilərin hüquq və imtiyazlarını tədricən məhdudlaşdırmağı daha məqsədəuyğun sayır, imperiyaya sədaqətli ruhanilər formalaşdırmaq yönündə fəaliyyət göstərirdilər. Bir sözlə, XIX əsrin əvvəllərindən 40-cı illərinədək davam edən dövrdə "hərbi-zorakı", 40-cı illərin ortalarından isə "çevik-siyasi" xəttin tərəfdarları üstün mövqe tuturdular.

"Hərbi-zorakı" xətt tərəfdarlarının üstün mövqe tutduqları , yəni XIX əsrin 40-cı illərinədək, ruslaşdırma siyasəti məqsədyönlü və intensiv xarakter almışdı. Çar hökuməti müsəlman ruhaniliyini nüfuzdan salmaq, burada güclənmək məqsədi ilə təkcə qeyri-müsəlmanları Şimali Azərbaycana köçürməklə kifayətlənmir, həmçinin müsəlman əhalinin Osmanlı Türkiyəsi, Qacarlar dövləti və ərəb ölkələrindəki həmməzhəbləri ilə mənəvi əlaqələrini məhdudlaşdırır, islam dininə məxsus müqəddəs yerlərə edilən ziyarətlərin qarşısını alırdı.

Bu dövrdə çarizm Şimali Azərbaycanda nəinki müsəlman ruhanilərin, həm də Alban katolikosluğunun da hüquqlarını məhdudlaşdırmışdı. Nəticədə, çar hökuməti 1836-cı ildə rəsmi olaraq Alban katolikosluğunu ləğv edərək, erməni-Qriqoryan kilsəsinin tabeçiliyinə vermişdi. Hökumətin bu addımı atmasında erməni-ruhani başçılarının həlledici məkrli rolu olmuşdu.

Çar məmurları ruhanilərin hüquq və imtiyazlarını məhdudlaşdırmaqla kifayətlənmir, bir çox hallarda xalqın dini inanclarına qarşı təhqiramiz ifadələrə yol verir, ruhaniləri xalqın gözündən salmağa çalışırdılar. Şimali Azərbaycanın Çar Rusiyası tərəfindən işğalının nə kimi nəticələr gətirməsi və dini inancımıza hörmətsizlik göstərməsi Gəncədən seçilmiş millət vəkili İsmayılxan Ziyadxanovun 1906-cı ildə Rusiya Dumasında çar məmurlarının önündə söylədiyi nitqdə çox aydın ifadə olunmuşdur: "Cənubi Qafqaz yüz il bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir. Bu

yüz il ərzində biz müsəlmanlar həmişə əsir müamiləsi (münasibəti) görmüş və bu sifətdə hər təqibata məruz qalaraq, hər cür haqq və hüquqdan faydalanmaz kölə vəziyyətinə endirilmişik. Sözün həqiqi mənasında yüz il içində biz gözləri hər bir şeyi görən hökumətin şiddətli və əleyhimizə mənfi düzəlmələri altında yaşamağa məcbur edilmişik. Siyasi, sosial və iqtisadi sahənin hansı sahəsi ələ alınırsa alınsın, hər birində bizim haqqımızda haqsızlığın hökm sürdüyünü görmüş olacaqsınız. Ölkəmiz istila edilər-edilməz, dərhal milli varlığımıza təcavüzə qalxınıldı. Dinimizə və müqəddəsatlarımıza müdaxilə edildi".

Çar məmurları çalışırdılar ki, Şimali Azərbaycan dindarlarını və məscidlərini müsəlman dünyasının, xüsusilə Türkiyə və İran ilahiyyatçılarının, dini mərkəzlərinin tabeliyindən və mənəvi təsirindən çıxararaq, onların Şimali Qafqazda genişlənməkdə olan müridizmə[1] dəstək verməsinin qarşısını alsınlar, həmçinin bu hərəkatın əleyhinə olanlardan istifadə edərək, ruhaniləri xalqın gözündən salsınlar, onların əhaliyə təsir imkanlarını heçə endirsinlər.

Lakin islam dininə və müsəlman dindarlara sərt münasibət, onlara qarşı aparılan birtərəfli siyasət Çar Rusiyasına baha başa gəlmişdi. Müxtəlif vaxtlarda baş verən üsyanlar sübut etmişdir ki, ruhanilərin əhali arasında olan hörməti bütün təsirlərə baxmayaraq, hələ də çox böyükdür və onlar aparıcı qüvvənin tərkib hissəsi kimi nüfuz sahibidirlər. Digər tərəfdən, komendant idarə üsulu Peterburqun bu vasitə ilə yerlərdə hakimiyyəti möhkəmləndirmək ümidlərini doğrultmamışdı. Komendantların yerlərdəki özbaşınalığı təkcə geniş xalq kütlələrinin deyil, hətta monarxiyanın əsas istinadgahı olan feodalların, bəylərin də narazılığına səbəb olmuşdu.

[1]Müridizm (qatı təsəvvüf cəmiyyəti) XIX əsrdə Azərbaycanda, xüsusilə də Şimali Qafqazda Şeyx Şamilin başçılığı altında geniş yayılmışdı. Azərbaycanda İsmayıl Şirvani (1782-1848) müridizmin əsasını qoyub. Onun müridləri Seyid Nigari (1805-1885) və əl-Qumği olmuşlar. Əl-Qumğinin müridləri isə Qazi Məhəmməd və Şeyx Şamil olmuşlar (Əli Rza oğlu Fərhadov. Dissertasiya, s. 10-15).

Vəziyyət daha da gərginləşə bilərdi, buna görə də XIX əsrin 40-cı illərindən etibarən çarizmin dinlə bağlı siyasətində yeni mərhələ başlamışdı. Bu niyyətlə 1842-ci ildə Cənubi Qafqaza mərkəzi hökumətdən xüsusi komissiya göndərilmişdi. Beləliklə, çarizmin din siyasətində "çevik siyasət" xətt tərəfdarları üstünlük qazanaraq, müsəlman ruhaniliyinin təşkili ilə bağlı hazırlanan layihələrdə ruhanilərin əvvəlki hüquq və imtiyazlarının qismən bərpası, şəriət məhkəmələrinin fəaliyyət dairəsinin genişləndirilməsi, imperiyaya sədaqətlə qulluq göstərən din xadimlərinin mükafatlandırılması, vəzifədə olan bütün ruhanilərə xəzinədən məvacib ayrılması və s. nəzərdə tutan rəsmi sənədlərin hazırlanıb qəbul edilməsinə müvəffəq olunmuşdu. Din xadimlərinə belə münasibət XIX əsrin ortalarından daha geniş yayılmışdır. Artıq çar hökuməti özünə sadiq din xadimlərinin dairəsini genişləndirmişdi. Lakin, bununla belə, ruhanilərin böyük əksəriyyəti əqidəsinə, dünyagörüşünə və cəmiyyətdə apardığı maarifləndirmə işinə görə imperiya üçün hələ də "təhlükəli şəxslər" sayılırdı.

Dini sahədə aparılan siyasət 1842-ci ildən yeni mərhələyə qədəm qoymasına baxmayaraq, çar hökuməti uzun müddət müsəlman ruhaniliyinin sosial-iqtisadi və siyasi-hüquqi statusu məsələsini həll etməmişdi. Nəhayət, çar II Aleksandr 5 aprel 1872-ci il tarixli fərmanı ilə "Cənubi Qafqaz Şiə və Sünni Məzhəblərinin müsəlman Ruhani İdarələri haqqında" əsasnamələrini təsdiq etdi. Sonralar bu əsasnamələrə bəzi dəyişikliklər edilsə də, sənədin əsas müddəalarına toxunulmamışdı. Çarizmin süqutuna, daha doğrusu, Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasınadək bu sənəd qüvvədə qalmışdı[1].

Həmin dövrdə imperiyanın din siyasətinin əsas istiqamətlərini Daxili İşlər Nazirliyinin Ruhani İşləri üzrə Departamenti

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 146-148.

müəyyənləşdirirdi. Əslində, dini sahənin Daxili İşlər Nazirliyinə tapşırılması çarizmin dinə olan münasibətinin nəticəsi idi. Bu fakt təsdiqləyir ki, çar hökuməti din xadimlərindən, xüsusilə müsəlman ruhanilərdən ehtiyatlanır, onları nəzarətdə saxlamağa çalışır və onların qarşısını kəsən qüvvə kimi güc strukturunu görürdü. Rusiya imperiyası Ruhani İşləri Departamenti XX əsrin əvvəllərindən Çar Rusiyası müsəlmanları arasında milli-mənəvi, siyasi-ideoloji sahələrdə baş verən hadisələrin mahiyyətini "dövlət mənafeyi nöqteyi-nəzərindən düzgün qiymətləndirmək və tatar-müsəlman (azərbaycanlı) təsirinə qarşı tədbirlər hazırlamaq məqsədi ilə" əlaqədar idarənin, təşkilatların nümayəndələrindən ibarət qurum üçün bir sıra müşavirələr keçirmiş və tədbirlər hazırlamışdı. Həmin vaxtlar yerli müsəlman əhalinin milli-dini təsirlərdən təcrid olunması üçün tədbirlərin başlıca olaraq üç əsas istiqamətdə aparılması nəzərdə tutulurdu:

1) Əsasını "dini-maarifçilik tədbirləri" təşkil edən missionerlik fəaliyyətinin genişləndirilməsi,
2) "Mədəni-maarif tədbirləri" müstəvisində müsəlmanların rus mədəniyyətinə cəlb edilməsi,
3) "İnzibati tədbirlər", yəni müsəlman mətbuatı, məktəbləri və idarələri üzərində nəzarətin gücləndirilməsi.

XIX əsr boyu imperiyanın din siyasətində aparıcı istiqamətlər xristianlaşdırma, ruslaşdırma və din xadimləri üzərində daimi nəzarətin həyata keçirilməsi olmuşdur. Bu istiqamətlərdə siyasət XIX əsrin sonu – XX əsrin əvvəllərində də davam etdirilmişdir. Başqa sözlə, bu dövrdə çarizmin dinlə bağlı siyasəti əsasən, XIX əsrin birinci yarısında müəyyənləşdirilmiş tezislərlə aparılırdı. Lakin həmin dövrün özünəməxsus xüsusiyyətləri də var idi. Çünki XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycan müsəlmanlarının Avropa mədəniyyəti ilə yaxından tanış olmaq imkanları xeyli genişlənmiş, Qərb dəyərlərinə rəğbət güc-

lənmiş, maarifçilik işləri geniş vüsət almış və milli ruhda böyüyən gənclik formalaşmağa başlamışdı[1]. Bütün bunlar islam dininin təbliğində dövrün tələblərini nəzərə almağı zəruri etmiş, islam dini bayrağı altında mübarizə aparan milli qüvvələrin ideoloji fəaliyyətində yeni mərhələyə keçidə zəmin yaratmışdı. Bu dövrdə çar hökuməti orqanlarını ən çox narahat edən, müsəlmanlar arasında milli-azadlıq mübarizəsi fikrinin dirçəlişi idi. Çarizm bu sahədə islam dininin böyük rol oynadığını dərk edir, müsəlman cəmiyyətinin yeni keyfiyyət dəyişikliyi mərhələsinə keçməsinin qarşısını almağa, ən pis halda bu prosesi ləngitməyə çalışırdı.

Mətbuat üzərində ciddi nəzarəti həyata keçirmək çarizmin din siyasətinin tərkib hissəsi idi. XIX əsrin sonu – XX əsrin əvvəlləri elə bir dövr idi ki, mətbuat imperiya ərazisində yaşayan bütün müsəlmanların həyatında mühüm təbliğat-təşviqat vasitəsinə çevrilmişdi. Ona görə də senzorlar islamı təbliğ edən mətbu orqanlarındakı yazılara ciddi nəzarət edir, bəzi hallarda onların nəşrini dayandırır, yenilərinin nəşrinə icazə vermişdi. Hətta, vəziyyət elə həddə çatmışdı ki, bəzi hallarda ruhaniliklə bağlı rəsmi xəbərlərin də dərc edilməsinə icazə verilmirdi.

Çarizmin diqqətlə yanaşdığı məsələlərdən biri də dini vəzifələrə ruhanilərin təyinatı idi. Hökumət savadlı, dini-milli dəyərlərin təəssübkeşi kimi çıxış edən din xadimlərinə etimad göstərmirdi. Yüksək vəzifələrə seçilən ruhanilərin islam dini qanunlarını nə dərəcədə bilməsi maraqlı deyildi, onlar üçün əhəmiyyətli olan ruhanilərin Rusiya imperiyası qanunlarını və rus dilini bilmələri idi.

Çar hökuməti islam dininə dair biliklərlə müqayisədə rus dili və Rusiya qanunlarına üstünlük verməklə, müsəlman ruhanilərini özünə daha sədaqətli etmək, onları xalqdan uzaqlaşdırmaq, dini

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 148-149.

baxımdan savadlı olmayan şəxsləri yüksək dini vəzifələrə təyin etməklə savadsızlığı yaymaq, əhalinin etimadsızlığını artırmaq idi.

İtaətkar ruhaniləri qiymətləndirmək və onların xidmətlərindən istifadə etmək çarizmin çoxdan sınaqdan çıxardığı üsullardan biri idi. Çarizmə tərəfdar çıxan ruhanilərə təqaüd, hətta hərbi rütbə və medallar verilir, "ağ padşaha" yaxşı münasibəti olmayan ruhanilər isə təqib olunurdular. Məsələn, 1822-ci ildə general Yermolovun göstərişi ilə "ruspərəst" olmayan Tiflis axundu Qaçarlar İranına sürgün edilmişdi. Axund Tanrıverdinin yeganə günahı ondan ibarət idi ki, axtarış zamanı evindən "axund" titulunun alınması barədə iranlı müctəhid tərəfindən imzalanmış vəsiqə tapılmışdı.

1828-ci ildə rus qoşunları Təbriz şəhərini işğal edərkən çar generalı Paskeviç müsəlman ruhanilərini və dindarları rus taxt-tacına hörmət etməyə çağırmaq məqsədilə şöhrətpərəst müctəhid Ağa Mir Fəttaha Cənubi Qafqaz şiələrini sakitləşdirmək, "məlun Qacarları pisləyib", Rusiya imperiyasını tərifləmək üçün Tiflisə köçməyi təklif etmişdi. Bu din xadiminin köməyi ilə müsəlmanlardan ibarət dörd süvari polku yaradılmış və Türkiyəyə qarşı müharibələrdə onlardan istifadə edilmişdi. Müctəhidin "xidmətləri" yüksək qiymətləndirilmiş, əvvəlcə ona "brilyantlarla bəzədilmiş qızıl medal", sonra "Birinci Dərəcəli Müqəddəs Anna" ordeni, qızıl pulla iki min manat təqaüd ayrılmış, Tiflis şəhərində malikanə, Şirvanda illik gəliri 5360 rubl olan 15 kənd bağışlanmışdı.

1872-ci ildə təsdiqlənmiş ruhani idarələri haqqında əsasnamələrdə müxtəlif müddəalar öz əksini tapmışdı. Ruhani idarələrinə nəzarəti müxtəlif vaxtlarda müxtəlif vəzifələr daşıyan bir çox çar məmurları həyata keçirirdilər. Din xadimlərinin mükafatlandırılması zamanı ruhani idarəsinin işi ilə bağlı məsələlərdə məhz həmin məmurların rəyləri əsas götürülürdü. Osmanlı Türkiyəsi ilə əlaqəsi olan din xadimləri təqib edilirdilərsə, həmin dövlətə qarşı fəaliyyət göstərənlər, əksinə çar hökuməti tərəfindən mükafatlandırılırdı. Məsələn, 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsi zamanı Quba əhali-

sinə təsir göstərərək yerli hökumət orqanlarına kömək göstərmiş 6 nəfər din xadimi qızıl və gümüş medallarla təltif edilmişdir.

Ruhani vəzifə tutmaq istəyən hər kəs yerlərdəki çar məmurlarına “Mən hökumət tərəfindən qadağan olunmuş heç bir icmaya, müridizm və başqa təriqətlərə mənsub deyiləm və bundan sonra da mənsub olmayacağam” məzmunlu iltizam verməli, bunun əvəzində isə onlardan – “Yaxşı davranışlı insandır, hökumət tərəfindən qadağan olunmuş cəmiyyətlərə aidiyyəti yoxdur” – məzmunlu şəhadətnamə almalı idilər.

Dini rəhbərlər bütün vasitələrlə özlərinin imperiyaya sədaqətli olduqlarını sübut etməyə çalışırdılar. Müfti Hüseyn Əfəndi Qayıbov və Şeyxülislam Əbdüssəlam Axundzadə Cənubi Qafqaz ruhaniliyi üçün yazdıqları tövsiyyənamələrlə Rusiya imperiyasının maraqlarını təmin etməyə çalışırdılar. Qayıbov “Ümumi müslimin-müvəhhədin Zaqafqazə tövsiyənamə” adlı 9 hissədən ibarət hazırladığı sənəd əsasında 1896-1897-ci illərdə Cənubi Qafqazın sünni məzhəbli müsəlmanları arasında vəzlər (moizələr) etmiş və islam dini ruhaniliyi, müsəlmanların siyasi vəziyyəti və s. haqqında mülki işlər üzrə Qafqaz Baş İdarəsinə böyük həcmli hesabat təqdim etmişdi. Müfti öz “Tövsiyanamə”sində rəsmi müsəlman ruhaniliyinin vəzifələrindən danışır, onları şeyxlərə, dərvişlərə, zahidlərə və müridlərə qarşı mübarizəyə çağırır və izah edirdi ki, adları çəkilənlərin hərəkəti, həyat tərzi şəriətə və dövlətə ziddir. “Tövsiyyənamə”də başqa ölkələrdən gələn müsəlman ruhaniləri, dərvişlər, seyidlər yalançı, riyakar adamlar kimi qələmə verilir və onlara sədəqə, zəkat, fitrə vermək möminlərə qadağan edilirdi. Zaqafqaziya (Cənubi Qafqaz) şeyxülislamı Əbdüssəlam Axundzadənin şiə məzhəbli müsəlmanlara və ruhanilərə “Tövsiyənaməsi” müftinin “Tövsiyənaməsi” ilə eyni məzmunda olduğundan hər iki sənədin eyni mərkəzdə hazırlanması ehtimal olunur[1].

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 152.

1917-ci il fevral burjua inqilabı ilə devrilən Çar monarxiyasının milli – dini zülmünə məruz qalmış Şimali Azərbaycanın milli demokratik qüvvələrinin Bakını siyasi mərkəzə çevirmək üçün təşkilatlanmasında Təzəpir məscidi mühüm rol oynamağa başlamışdı.

Çarizm müsəlmanların dini birliyinin qorunması əvəzinə məzhəb fərqini şişirtməklə sünni-şiə başçılarını bir-birinə qarşı qoymuşdu. Azərbaycan ziyalıları isə vaxtilə iki məzhəb arasında çarizm tərəfindən qızışdırılan ixtilafları aradan qaldırmaq üçün Qafqaz Müsəlmanlarının Qurultayının çağırılmasını qərara almışdılar. Bu qərar hər iki məzhəbin din xadimləri tərəfindən razılıqla qarşılanmış və 1917-ci ilin aprelində "İsmailliyə" binasında (indiki AMEA-nın Rəyasət Heyətinin binası) möhtəşəm toplantı keçirilmişdi. Üç gün davam edən qurultaya Şimali Azərbaycanın bütün qəzalarından, o cümlədən Dağıstan, Basarkeçər, Borçalıdan da nümayəndələr gəlmişdilər. Qurultay qurtarandan sonra bütün iştirakçılar nümayişkaranə Təzəpir məscidinə gedib, orada yüzlərlə ruhani, molla, seyid, axund, qazi ilə birlikdə şeyxülislam və müftinin iştirakı ilə Cümə namazı qılmışdılar. Sonra isə sünni-şiə ixtilafına son qoymaq üçün şeyxülislamla müfti qucaqlaşıb, bir-birini öpmüş, Qurana əl basıb and içmişdilər ki, çarizm tərəfindən qızışdırılan bu ədavəti aradan qaldırmağa çalışacaqlar.

Lakin Çar Rusiyası da yarana biləcək təhlükəni yaxşı təhlil edərək, bu kimi halların qarşısını almaq məqsədilə müxtəlif qabaqlayıcı tədbirlər həyata keçirməkdə idi. 1910-cu ildə Rusiya imperiyasının Daxili İşlər nazirinin Çar Nazirlər Şurasına göndərdiyi məktubunda deyilirdi: "Bir çox daxili və xarici siyasətçilərin təsiri altında axır zamanlarda Krım, Volqaboyu, Qafqaz və Zauralye tatar-müsəlman əhalisi arasında milli-dini təbliğatın gücləndiyi özünü göstərir. Təkcə Rusiyadakı müsəlman aləminin dini və mədəni müstəqilliyinə deyil, həm də dövlətin şərq ucqarlarındakı bütün müxtəlif tayfalı və müxtəlif etiqadlı "yadları"n tatarlaşma-

sına və müsəlmanlaşmasına cəhd edilməsi yolunda müəyyən istiqamət şəklini alan bu təbliğat dövləti narahat etməyə bilməz”.

İngilis şərqşünası Sir Tomas Arnold yazır: “İndiyədək biz qeyri-müsəlmanlara zorla islamı qəbuletdirmə cəhdləri haqda heç nə eşitməmişik. İndiyədək bizə xristianlığın aradan qaldırılmasını məqsəd güdən müntəzəm zülmlər haqda heç bir fakt çatmayıb. Xəlifələr bu iki yoldan birinə yol açsaydılar, xristianlığın kökünü kəsərdilər. Necə ki, belə asanlıqla Ferdinand və İzabella İspaniyadan islamı uzaqlaşdırmış, XIV Luis Fransada protestantları cəzalandırmış, yəhudilər də 350 il ərzində İngiltərəyə buraxılmamışdılar[1].

Şam xristianları Şamı fəth etmiş Əbu Übeydə Amir bin əl-Cərraha məktub yazıb demişdilər: “Ey müsəlmanlar, siz bizə dindaşlarımız olsalar da bizanslılardan daha sevimlisiniz. Siz daha vəfalı, daha mərhəmətlisiniz. Zülmkar deyilsiniz və bizi layiqli şəkildə idarə edirsiniz. Ancaq onlar (bizanslılar) bizə işimizdə və evimizdə zalımlıq edirlər”[2].

Çarizm isə bir tərəfdən, təbəəliyindəki müsəlman xalqlarına qarşı təcrübədə sınadığı pravoslav-şovinist təbliğatını gücləndirir, digər tərəfdən, xarici müsəlman ölkələrindəki missionerlərin, rəsmi nümayəndəliklərinin köməyi ilə islam aləmini öyrənir, İngiltərə və Fransa kimi müstəmləkəçi ölkələrin müsəlman vilayətindəki hökmran metodlarına yiyələnir, islam ideologiyasına qarşı mübarizə pərdəsi altında xalqların milli-mədəni dirçəlişinə qarşı mübarizə aparmaq üçün daha ətraflı, düşünülmüş planlar hazırlayırdı.

Çar Rusiyası Daxili İşlər Nazirliyi, onun Dini İşlər üzrə Departamenti Rusiya müsəlmanları arasında milli-mədəni, siyasi-ideoloji sahələrdə baş verən hadisələrin mahiyyətini “dövlət məna-

---

[1]Tomas Arnold. İslama çağırış. Tərcümə edən İbrahim H., Abidin Ə. “Məktəbə ən-nəhzə əl-mısriyyə” nəşriyyatı, 1970, s. 98-99; İslam ölkələrində.... s. 30.

[2]Əl-Əzdi əl-Bəsri. Şamın fəthi, s. 97; Əhməd Məhəmməd əl-Hufi. İslamın comərdliyi. Qahirə: “Nəhzə Misir” Nəşriyyat və Çatdırılma Müəssisəsi, 1998, s. 57; İslam ölkələrində.... s. 30-31.

feyi nöqteyi-nəzərindən düzgün qiymətləndirməklə tatar-müsəlman təsirinə qarşı əks tədbirlər hazırlamaq" məqsədilə müvafiq idarələrin, təşkilatların nümayəndələrindən ibarət adamlarla müşavirələr keçirir, tədbirlər hazırlayırdı. Bu tədbirlərdən birində (1910-cu ildəki xüsusi müşavirənin qərarında) deyilirdi: "Müsəlmanlıq spesifik bir mədəni hadisədir. Öz dini təliminə uyğun, tarixən yaranmış spesifik həyat tərzinə malikdir. Xüsusi mədəni-tarixi ənənəsi və beynəlxalq mədəni mərkəzi olan müsəlmanlıq tam halında götürülərsə, o, islam dinini qəbul etmiş ayrı-ayrı xalqların, tayfaların fərdi xüsusiyyətlərini iflic etmiş və onları möhkəm halda birləşdirmişdir. islama iman gətirən xalqların hamısı ümumi Avropa prinsiplərinin əksinə olan tayfa milliyyətçiliyini, din millətçiliyini irəli sürürlər. Xüsusilə, Rusiyada məhəmmədiyyəyə etiqad edən tayfalar öz təkamülünün ümumi gedişində xüsusi, fərdi məişətlərinə deyil, bu xüsusi dünyagörüşün mənbəyini təşkil edən dinə əsaslanırlar. Müasir islam mətbuatı, incəsənəti, elmi, ədəbiyyatı islama inanan bu və yaxud başqa tayfanın fütuhatı kimi deyil, sanki qanı, dili və həyat şəraiti bir olan müsəlman aləminin mədəni nailiyyəti kimi yenidən yaradılır".

Bütün bunların Rusiya dövləti üçün dəhşətli təhlükə törətdiyini bildirən qərarda isə ölkə ərazisində yaşayan18 milyondan artıq müsəlmanın birləşməsi təhlükəsindən narahatlıq ifadə edilmişdi. İttihadi-İslam ideologiyası isə bu ərəfədə Çar Rusiyasının bütün əyalətlərində xüsusi rəğbət qazanmaqda idi.

İttihadi-İslam ideya-siyasi cərəyanının banisi böyük azərbaycanlı mütəfəkkir Seyid Cəmaləddin Əfqani (1839-1897) idi. Əfqaninin ideya-siyasi baxışları qısa müddətdə islam ölkələrində geniş yayılmış, özünə xeyli tərəfdar toplamış, geniş kütlələrin siyasi fəaliyyət istiqamətinə çevrilmişdi, müstəmləkəçi ölkələr dairəsində isə əks reaksiya yaratmışdı. O, İran, Əfqanıstan, Hindistan, Misirdə yaşamış, Paris, London, Peterburqda olmuş, bütün həyatını

panislamizm ideyalarının təbliğinə həsr etmişdir. Londonda o, "Əl-Hafiqeyn", Parisdə "Əl-Urvat əl-Vusqa" jurnallarını dərc etdirirdi. Avropa dövlətləri hökumətləri Misir və Hindistanda panislamizm ideyalarının yayıldığından çəkinərək jurnalları bağladılar[1].

Rusiya imperiyasında islam birliyi ideyasına, onun hər cür təzahürünə qarşı panislamizm damğası vurulur, əleyhinə amansız mübarizə aparılırdı. Pravoslav əhaliyə daha geniş hüquqlar verilməklə bərabər, müsəlmanlar arasında xristianlığın zorla yayılması, müsəlmanların hüquqlarının tapdanılması kimi vasitələrdən də istifadə edilirdi. Təsadüfi deyildi ki, Rusiya dövlətinin Daxili İşlər naziri P.Stolıpin 1911-ci ilin yanvar ayının 15-də Çar Rusiyası Nazirlər Şurasına "Müsəlman əhalisi arasında panislamizm və pantürkizm təsirinə əks təsir tədbirləri haqqında" mövzusunda hazırlanmış məruzə də təqdim etmişdi[2].

Azərbaycan Xalq Cümhuriyyətində isə Cəmaləddin Əfqaninin irəli sürdüyü ittihadçılıq ancaq islam dini konsepsiyası kimi qalmadı, Şimali Azərbaycanda yeni və fərqli motivlərlə zənginləşdi, milli dünyagörüşü ilə çulğalaşdı və Əlibəy Hüseynzadənin timsalında "türkləşmək, islamlaşmaq və avropalaşmaq" kimi səsləndirilən ideya Azərbaycan Xalq Cümhuriyyətinin bayrağında öz əksini tapdı.

Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının 1918-ci ilin may ayının 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsində AXC-nin milli, dini, ictimai vəziyyətindən, cinsindən, məzhəbindən asılı olmayaraq, bütün vətəndaşları öz hüquqları daxilində sosial-siyasi bərabər hüquqlarla təmin etdiyini elan etmiş, daxilində yaşayan bütün millətlərə sərbəst inkişafları üçün geniş imkan açmışdı.

---

[1] Э.Ю.Гасанова. Идеология буржуазного национализма в Турции. Баку, 1966, s. 31; К вопросу о национализме. Мир Ислама, т. II, 1913, s. 6.
[2] Hidayət Orucov. Azərbaycanda din, s. 157.

XX əsrin əvvəllərində Təzəpir məscidi binasında ölkənin taleyi ilə bağlı məsələlər barədə müraciətlər səsləndirilirdi. 1918-ci il mart soyqırımınadək Lənkəran, Bakı və Gəncədə hazırlanan milli ordunun əsgərlərinə ilk xeyir-dua Təzəpir məscidində verilmişdi. Belə tədbirlər adətən cümə günü keçirilir və Cümə namazına gələnlər tədbiri ruh yüksəkliyi ilə qarşılayırdılar. Bakı Soveti isə tədbirə etiraz olaraq, din xadimlərini milli hissləri qızışdırmaqda ittiham edirdi.

Erməni Milli Şurası, Daşnaksutyun rəhbərliyi və Bakı Soveti Azərbaycan xalqının birliyinin təmin olunmasında Təzəpir məscidinin rolunu yaxşı bilirdilər. Ona görə də mart ayının 31-də müsəlman əhalisinə qarşı soyqırıma başlayan daşnak-bolşevik birləşmələri "İsmailiyyə" binasını, "Kaspi" qəzetinin redaksiyasını və mətbəəsini, orada yenicə çap olunmuş Qurani-Kərimin 5 min nüsxəsini yandırmışdılar[1]. Bunu şərh etməyə acizəm!

Türk-müsəlman əhalisinə qarşı soyqırıma əvvəldən hazırlıq görən erməni-daşnak qüvvələri şəhərdə şaiyə yaymışdılar ki, guya din xadimlərinin fitvası ilə müsəlmanlar rus millətindən olanları qırır, evlərini yandırırlar (Qeyd etmək lazımdır ki, Sovet Rusiyasının rəhbəri V.İ.Leninin 16 dekabr tarixli qərarı ilə Bakı Sovetinin başçısı,"Daşnaksutyun" partiyasının Bakı komitəsinin üzvü, Qafqaza fövqəladə komissar təyin edilən Stepan Şaumyan 1918-ci ilin martına qədər Moskva Hərbi Dairəsindən beş min tüfəng, iki aeroplan, iki zirehli maşın və 31,3 milyon rubl vəsait almış və Bakıda azərbaycanlı əhaliyə qarşı soyqırım siyasəti yeritmidi). Ermənilər rus matroslarını bu şaiyəyə inandıra bilmiş və matroslar gəmilərdən uzaqvuran toplarla Bakı məhəllələrini atəşə tutmuşdular. Çəmbərəkənddə bir neçə tikili, o cümlədən məktəb, hərbi xəstəxana və yetimxana top atəşi nəticəsində dağıl-

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 159.

dılmışdı[1]. Ermənilər rus matroslarını Təzəpir məscidini topa tutmağa çağırdılar. Fitnəyə uyan ruslar məscidi atəşə tutdular, birinci mərmi məscidin həyətində partlayır. Həyətdə çaxnaşma düşür, din xadimlərindən biri ağ bayraq götürüb, məscidin damına qalxır ki, daha atmasınlar. İkinci mərmi məscidin qabağına düşür, qəlpələrdən məscidin şüşələri çilik-çilik olur. Üçüncü mərmi məscidin yan divarına dəyib, onu dağıdır. Ruslar ancaq onlara qarşı heç bir qırğının olmadığına əmin olandan sonra atəşi kəsirlər.

1918-ci il mart-aprel aylarında baş vermiş türk-müsəlman soyqırılmalarının təhqiqini aparan Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində qeyd olunmuşdur ki, Bakının keçmiş rəisi Ter-Mikaelyants Təzəpir məscidinə pənah aparmış əliyalın azərbaycanlı əhaliyə hər cür zorakılıq etməyi, hətta lazım gələrsə, məscidi belə yandırmağı əmr etmişdi. Xoşbəxtlikdən daşnak-bolşevik birləşmələri bu məkrli niyyətlərini həyata keçirə bilməmişdilər.

1918-ci il aprelin 25-də Bakıda təşkil edilmiş Xalq Komissarları Soveti şəhərin dini qurumlarına, o cümlədən Təzəpir və Əjdərbəy (Göy məscid) məscidlərinə nəzarət edilməsi haqqında dekret imzalasa da, dindar əhali qadağalara baxmayaraq, dini mərasimlərin yerinə yetirilməsinə fasilə verməmişdi.

Bakı Soveti rəhbərliyi Təzəpir məscidinin mollalarından tələb etmişdi ki, Şimali Azərbaycan torpaqlarını bolşevik-daşnak qüvvələrindən azad etməyə gələn türk əsgərlərinin hərəkətlərini lənətləyən fətva versinlər. Hətta onlar məzhəb fərqini də şişirdərək, osmanlı əsgərlərinin Bakıya daxil olmasını bağışlanmaz günah kimi qələmə vermək istəyirdilər. Bakı Soveti rəhbərliyinin bu cəhdləri də baş tutmamışdı[2].

---

1

[2]Hidayət Orucov. Azərbaycanda din, s. 161.

Din xadimlərinin rəyinə görə çarizm məzhəb ayrılığından istifadə edərək, Azərbaycanın din xadimləri arasında düşmən münasibətlər yaratmaq istəyirdi. Ona görə də Gəncədə qərarlaşan hər iki məzhəbin ruhani başçıları hökumətin mövqeyini gözləmədən Osmanlı Türkiyəsi nümunəsi əsasında Zaqafqaziya müsəlmanları Ruhani İdarəsinin "Məşixət" adı altında yenidən qurulması təşəbbüsü ilə çıxış etmişdilər. Şeyxülislam və müftinin 1 sentyabr 1918-ci il tarixli birgə qərarı ilə hər iki idarə "Məşixət" adlanan vahid bir qurumda birləşdirildi. Bakı, Qafqaz İslam Ordusu tərəfindən düşmən qüvvələrdən azad olunduqdan az sonra isə "Məsixət" Bakıya köçürülmüşdü.

Çar hökumətinin şeyxülislam təyin etdiyi M.Ə.Pişnamazzadə 1918-ci ilin dekabrın 11-də vəzifəsindən istefa verdi. Sosial təminat və dini etiqad naziri Musa Rəfibəyovun sərəncamı ilə 48 yaşlı Axund Ağa Əlizadə Qafqaz müsəlmanlarının birgə idarəsinin sədri və şeyxülislam təyin olundu. Yeni şeyxülislam məzhəb ayrı-seçkiliyini rədd edən, mütərəqqi fikirli, milli heysiyyəti güclü olan, parlamentin işinə kömək edən bir şəxs idi.

1918-ci ilin martında erməni-daşnak quldurlarının törətdiyi soyqırım nəticəsində millətlə yanaşı, planlı və məqsədyönlü şəkildə xalqın mədəniyyət abidələri də məhv edilirdi. Erməni-daşnak quldurları bolşevik vandalları ilə birlikdə "İsmailiyyə"ni talan edib yandırmışdılar.

Ümumiyyətlə, bütün dinlərə, xüsusən də islam dininə düşmən olan bolşevik-kommunist ideologiyası əhalinin milli-dini dəyərlərinə yağı kəsilmişdi. Sovet hakimiyyətinin dinə münasibətinin başlıca prinsipi onun dövlətdən ayrılması idi. Lakin buna baxmayaraq, Sovet dövlətinin ilk illərində yeni quruluşun ideoloqları islam dininin özünəməxsuzluqlarını və dindarların heysiyyətlərini nəzərə almaq məcburiyyətində idilər[1].

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 163-166.

1920-ci ilin may ayında Azərbaycan İnqilab Komitəsinin "Vicdan azadlığı" haqqında dekretinə görə Xalq Maarif Komissarlığının (XMK) tabeliyindəki bütün dövlət məktəblərində dini təlimlərin tədrisi və hər hansı dini mərasimin keçirilməsi qadağan olunmuş, Dini İşlər üzrə Nazirlik ləğv edilmişdi. XMK-nın xüsusi əmri ilə tədris müəssisələrinin və məktəb şuralarının sədri vəzifəsini tutan dini dərəcəli şəxslər vəzifələrindən azad edilmişdilər. Sovet dövləti böyüməkdə olan nəslin təhsil və tərbiyə işini XMK-nın sərəncamına vermiş, bütün dövlət və qeyri-dövlət məktəblərində hər hansı bir dini mərasimin keçirilməsi qadağan olunmuşdu.

Sovet hakimiyyətinin ilk illərində hökumət dindarları ələ almaq məqsədi ilə (dindarlar və xalqın xeyrinə) müxtəlif siyasi aksiyalar həyata keçirirdi. Dindarlar özləri də (Axund Ağa Əlizadə, qazi Əbdürrəhim Hacızadə və b.) Volqaboyu əhalisinin aclıq keçirdiyi vaxt dünya müsəlmanlarını onlara köməyə çağırmışdılar.

XX əsrin iyirminci illərinin sonu-otuzuncu illərinin əvvəllərində SSRİ hökuməti Azərbaycan SSR-də də islam dininə hücumlara başlamışdı. Bu işə, əsasən, yuxarı sinif şagirdləri, tələbələr, ədəbiyyat və incəsənət xadimləri cəlb edilmişdilər. Dövlət, dini işlərdə vətəndaşın vicdan azadlığı barədə özünün elan etdiyi prinsiplərdən uzaqlaşmağa başlamışdı. Dindarlara münasibətdə inzibatçılıq tətbiq olunurdu. Elə buna görə də 1924-cü ildə Bakıda yaradılan "Allahsızlar" cəmiyyəti zəhmətkeşlərin geniş dairəsini öz tərəfinə cəlb edə bilməmişdi.

İllər keçdikcə dinlə mübarizə daha geniş vüsət almış, məscidlərin müsadirə edilməsi irimiqyaslı kompaniya formatına keçmişdi.

1928-ci ilin dekabrında AK(b)P Mərkəzi Komitəsinin iclasında "Kəndlilərə mədəni ehtiyacları üçün verilmiş məscidlər haqqında" məsələyə baxılmış, nəticədə bir sıra məscidlər mədəni-maarif müəssisələrinə çevrilmişdi. Müxtəlif idarələrə məscidlərdən minbərləri çıxartmaq, dini lövhələrin üstünü malalamaq və

məscidlərin hissə-hissə boşaldılması üçün əmrlər verilmişdi. Azərbaycan SSR-də məscid və mədrəsələrin bağlanmasına, din xadimlərinin təqib olunmasına göstərişlər gəlmişdi. Quran zərərli bir kitab kimi qadağan edilmişdi. Azərbaycan SSR qəzalarında məscidlər dağıdılmış, ya da anbar, kitabxana və yaxud başqa xidmət yerinə çevrilmişdi. Lənkəran qəzasında yüzlərlə məscid dağıdılaraq, tikinti materialı kimi istifadə olunmuşdu. AK(b)P-nın II qurultayında N.Nərimanovun "Bizdə elə kommunist müsəlmanlar var ki, kəndə girən kimi adamları məsciddən qovur və əmr edir ki, məscidləri bağlayın. Bu faktdır və belə kommunistlər fəxr edirlər ki, guya böyük iş görürlər. Onlar elə güman edirlər ki, bizim inqilabımızı genişləndirir və möhkəmləndiririrlər. Mən belələrini əksinqilabçı adlandırıram, çünki bunlar bizim işlərimizi korlayırlar" deməsinə baxmayaraq, 1929-cu ildə VII Ümumazərbaycan Sovetlər qurultayına seçki kampaniyası dövründə Azərbaycanda 400 məscid bağlanmışdı. Aprel 1929-cu il AK(b)P-nin VII qurultayının məscidlər və din xadimlərinə qarşı əyintilərə görə çox canfəşanlıq edənlərə xəbərdarlıq edilməsinə baxmayaraq, zor işlədilməsi, komsomolçuların mollalara hücumu, hətta onları döymələri, məscidlərə basqın olunması, məscid xadimlərinin təhqiri və s. bu kimi hadisələr adi hal almışdı[1].

Kommunist partiyası rəhbərliyi ateist mövqeyə sadiq qalaraq, dinin rolu və əhəmiyyətini ictimaiyyətin gözündən salmaq üçün müxtəlif vasitələrdən istifadə edirdi. Bakıda dinin tarixini öyrənmək, tədqiq etmək əsasında onun əleyhinə təbliğat kampaniyası aparmaq, "mürtəce" rolunu göstərən materiallarla onu geniş xalq kütləsi qarşısında ifşa etmək "elmi-praktiki" kampaniyaya çevrilmişdi. Otuzuncu illərin sonlarında formal olaraq Azərbaycanda cəmisi 20 məscid fəaliyyət göstərirdi. 1954-cü ilin

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 169-170.

sentyabrında Bibiheybət məscidi partladılmış, Əmircanda Murtuza Muxtarov məscidi, Əjdərbəy məscidi, İçərişəhərdə Cümə məscidi bağlanmışdı. 1934-1938-ci illərdə Azərbaycan SSR-də 27458 nəfər repressiyaya məruz qalmışdı ki, onların içərisində çoxlu din xadimləri var idi. Repressiyaya məruz qalan və güllələnənlər arasında Nargin adasında qətlə yetirilən Qurani-Kərimi Azərbaycan dilinə ilk tərcümə edənlərdən biri – 85 yaşlı Bakı qazisi Mir Məhəmməd Kərimağa da var idi.

Dövlət Arxivində 1934-cü ildə Moskvaya göndərilən hesabatın nüsxəsi qalıb. Orada Bibiheybət məscidi, Aleksandr Nevski kilsəsi və onlarla başqa dini məbədlərin "zəhmətkeş əhalinin xahişi ilə" məhv edilməsi əsaslandırıldıqdan sonra Təzəpir məscidinin, Müqəddəs Məryəmin Miladı baş kilsəsinin təyinatı dəyişdirilərək onların saxlanılması məsləhət görülüb.

Beləliklə, iyirminci illərin əvvəllərində Sovet hakimiyyətinin "təntənəli" surətdə elan etdiyi vicdan və din azadlığı heçə endirilmişdi. Sovet hakimiyyətinin ateist ideologiyasının Azərbaycanda açıq şəkildə iflasa uğradığı görünür. Əhali arasında allahsızlıq siyasətinə qarşı daxili müqavimət, milli-mənəvi dəyərlərdə pünhanlıq və onların qorunub saxlanılması ateizmin qəbul edilməməsinin açıq sübutudur. Siyasi hakimiyyətdən çəkinən insanlar arasında dindən uzaqlaşma prosesinin getdiyi görünsə də, daxildə hər kəs Allaha olan inancını qoruyub saxlayırdı[1].

Azərbaycanda rəhbər vəzifələr tutan N.Nərimanov xalqın inancına hər zaman hörmətlə yanaşırdı. Ona görə də buyuruq qulları onu Azərbaycandan uzaqlaşdırıb, dinimizə qarşı repressiya və təcavüz maşınını işə salıb, milli-dini ziyalıları total şəkildə məhv etməyə başladılar.

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 170-171.

Sovet hakimiyyətinin zor gücünə qurulması və sosializm quruculuğu prosesində sovet adamlarının həyat tərzinin kökündən dəyişdirilməsi, habelə, din əleyhinə aparılan inzibati-ateist tədbirlər nəticəsində dini ibadət yerlərinin, ruhanilərin mövqeyi və hörməti əsaslı şəkildə sarsıdılmışdı. Üzdə də olsa, dindən uzaqlaşdırılanların sayı sürətlə artır, məscid və kilsələr tədricən bağlanırdı. Buna baxmayaraq, 1925-1926-cı illərdə Azərbaycan SSR-də hələ 1700-dək məscid mövcud idi. Bakıda 120-dən çox məscid fəaliyyət göstərirdi[1].

Sovet Rusiyasının hərbi təcavüzündən sonra Azərbaycanda məscidlərin və ruhanilərin səlis təşkilat quruluşu və ümumi struktur sistemi olmamışdır. Onlar formal olaraq mərkəzi Ufa şəhərində yerləşən Ümumrusiya Müsəlmanları Mərkəzi Ruhani İdarəsinə tabe idilər. 1943-1944-cü illərdə SSRİ-dəki müsəlman obyektlərinə və ruhanilərinə rəhbərlik etmək üçün aşağıdakı müsəlman ruhani idarələri yaradıldı:

1. SSRİ-nin Avropa hissəsi və Sibir müsəlmanlarının Ruhani İdarəsi (Ufa şəhəri).
2. Orta Asiya və Qazaxıstan müsəlmanlarının Ruhani İdarəsi (Daşkənd şəhəri).
3. Cənubi Qafqaz Müsəlmanlarının Ruhani İdarəsi (Bakı şəhəri).

1920-ci ildə hərbi təcavüz və işğaldan əvvəl Azərbaycanda 3 minədək, 1927-ci ildə 1669, 1944-cü ildə isə cəmisi 22 məscid və Gəncə imamzadəsi var idi. Yalnız 1945-ci ildən sonra dindarların Həcc ziyarətinə getməsinə icazə verildi. Qeyd etmək lazımdır ki, bütün bu vaxtlar ərzində SSRİ ərazisində, xüsusilə də Azərbaycanda xristian dini icmaları müsəlmanlara nisbətən daha sərbəst olmuş, az sıxışdırılmış və onlara dövlət tərəfindən loyal münasibət bəslənilirdi. Dinin dövlətdən ayrıldığını elan edən dekretə görə məscid, sinaqoq, digər ibadət yerləri və ruhanilər dövlətin maddi

[1]Hidayət Orucov. Azərbaycanda din,s. 172.

yardımından tamamilə məhrum olmuş, yalnız dindarların maddi yardımı ilə dolanmağa məcbur idilər. Ruhani və dindarların düşmən sinif nümayəndələri adlandırılaraq amansız təqiblərə məruz qalmaları və s. nəticəsində vicdan azadlığı prinsipləri kobud surətdə pozulmuşdu. Əhalinin qorxudulması yolu ilə dindarlıq hissi bir növ adamların daxilinə qovulub gizlədilmişdi[1]. Məscidlərin əsassız olaraq bağlanılması və dağıdılması, din xadimlərinin güllələnməsi, dindarların təqibi kimi qəddarlıqlar dindarların zahirən "azalmasına" səbəb olmuşdu. Yəni vətəndaşların böyük bir hissəsi öz dini hisslərini gizlətməyə məcbur olmuş, adamların dindarlığı onların daxilinə gömülmüşdü. Müsəlmanların dini ayinləri icra etmək sahəsindəki fəaliyyət dairəsi xeyli daralmışdı.

Sovet hakimiyyəti dövründə Azərbaycanda islamın tədqiqi, digər dinlərin araşdırılması və öyrənilməsində də ayrı-seçkilik mövcud idi. Nəticədə Azərbaycanda xristianlığın tarixinə dair xeyli ciddi elmi işlər meydana gəlmiş, islam dini haqqındakı nəşrlər isə əks təbliğat xarakteri daşıyır, sanballı elmi araşdırmalar yox idi. Həmin əsərlər islam dini və ənənələrinin tənqidinə həsr olunmaqla yanaşı, belə bir rəy də aşılanırdı ki, guya islam mentaliteti azərbaycanlılar üçün yaddır və əhaliyə ərəblər tərəfindən zorla qəbul etdirilmişdir.

Sov.İKPMK-nın baş katibi M.Qorbaçovun "yenidənqurma" siyasətindən bəhrələnərək, ermənilər yenidən "Daşnaksutyun" partiyasının rəhbərliyi altında "Böyük Ermənistan" yaratmaq planını həyata keçirmək fikrinə düşdülər. Başda Qorbaçov olmaqla Moskva hər dəfə olduğu kimi ermənilərə kömək edərək, erməni tərkibli sovet qoşununu Sovet İttifaqının bir hissəsi olan Bakı üzərinə yeritdi. Bu amansız hərbi təcavüzdə 137 nəfər azərbaycanlı qətl edilmiş, 744 nəfər yaralanmış, 841 nəfər isə

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 172.

qanunsuz olaraq həbs edilmişdi. Bu faciəli günlərdə din xadimləri, başda Şeyxülislam A.Paşazadə olmaqla xalqın yanında idilər. Şeyxülislam BMT-nin baş katibi, eləcə də bütün dövlət və din rəhbərlərinə məktub göndərərək, bu dəhşətli faciə haqda dünyaya xəbər verib Qorbaçovu ittiham edirdi. O, heç nədən çəkinməyərək, Qorbaçovu Azərbaycan xalqının qanına susamış cani adlandırırdı[1].

XX əsrin səksəninci illərində SSRİ-nin zəifləməsi şəraitində Azərbaycanda Vətənə sahib çıxmaq üçün geniş milli-azadlıq hərəkatı başladı. Bu vaxtlar din xadimləri də xalqın yanında idilər. 1988-1989-cu illərdə Azərbaycanda yüzlərlə məscid tikilmiş və bərpa edilmişdi. Vəsaiti xalq könüllü olaraq verirdi, kolxoz və sovxoz rəhbərləri də az kömək etmirdilər. Bu, xalqın öz milli inanclarına qayıtmaq həvəsini göstərirdi. Mənfur qüvvələr isə bütün bunları ekstremizm adlandırırdılar və öz məkrli niyyətlərinə don geydirirdilər.

20 Yanvar hadisəsinə görə xalqın qəzəbindən qorxan ondakı MK-nın I katibi Vəzirov Moskvaya qaçdığından ölkə başsız qalmışdı. Şeyxülislamın Qorbaçovu tənqid etməsi ilə əlaqədar, onun belə cəsarətini görüb, Moskva hiyləyə əl atdı və ona ölkəyə başçı olmağı təklif etdi ki, sonra milli-azadlıq hərəkatını dini ekstremizm adlandırsın və onu beşiyindəcə boğsun. Şeyx isə bunu qəti rədd edib, xalqın çətin günlərində onun qabağında gedirdi.

Sovet imperiyasının süqutu, sosializm sisteminin çökməsi və Azərbaycan Respublikasının Dövlət müstəqilliyinin bərpa olunması nəticəsində 1992-ci ilin 20 avqustunda Milli Məclis "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Bu Qanunla Azərbaycan Respublikası vətəndaşına 70 ildən artıq qadağan edilmiş etiqad azadlığı rəsmi şəkil-

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 179-185.

də geri qaytarılmış, ona qanuna zidd olmayan istənilən dinə qulluq etmək hüququ (hürriyyəti) bəxş edilmişdi. Bundan əvvəl isə bütün Sovet imperiyasında din amili ateizm üzərində revanş qazanaraq, onun süqutunu labüdləşdirmişdi. Sovet ideologiyasının sürətlə çökməsindən sonra Azərbaycan xalqının yenidən öz milli-mənəvi dəyərlərinə qayıdışı təbii bir prosesə çevrilmişdi və bu prosesdə islam dininin xüsusi yeri vardı[1]. "Dinimiz xalqımızın milli-mənəvi sərvətidir" deyən Ümumilli Lider H.Əliyev Azərbaycan xalqının mənəvi dəyərlərinə həm də milli gələcəyimizin təməli kimi baxırdı. O deyirdi: "İslam başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir. Azərbaycanda müsəlmanlarla yanaşı başqa dinlərə etiqad edən adamlar da onun bərabərhüquqlu vətəndaşlarıdır. Bizim dövlətimiz dünyəvi dövlətidir, lakin biz dindən ayrı deyilik"[2]. Ona görə də o, milli-hüquqi dövlət quruculuğunda və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsində islam dininin mənəvi dəyərlərindən maksimum istifadə olunmasına çalışırdı.

Din insanların şüuruna və cəmiyyətə təsir göstərmək üçün güclü vasitədir. O, cahillərin əlində xurafat, alimlərin əlində isə xurafata qarşı ən güclü silahdır. Tarix sübut edir ki, dinə söykənməyən, tərkibində dini dəyərlərə yol verilməyən ideologiyalar qısaömürlü, nəticəsiz olur. Əksinə, dini dəyərlərə söykənən ideologiyalar daha sağlam və sarsılmazdır.

XIX əsrin əvvəllərində Çar Rusiyasının Azərbaycanı işğal etməsi ilə ölkədə dini təhsilin inkişafı uzun müddət ləngidi. Son 200 ildə Azərbaycanda iri mötəbər dini təhsil ocağı olmamışdır. Hazırda Bakıda İslam Universiteti,on beş il Bakı Dövlət Universitetində İlahiyyat fakültəsi,indi isə oun yerinə Azərbaycan

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 185.
[2]Heydər Əliyev. Dövlət və Din, № 2, iyun, 2015.

İlahiyyat İnstitutu, müxtəlif mədrəsələr və dini mərkəzlər fəaliyyət göstərir. Tam qətiyyətlə demək olar ki, hazırda Azərbaycan Respublikasında İslamşünaslıq elmi inkişaf dövrünü yaşayır. Ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə QMİ-nin nəzdində Elmi-Dini Şura yaradılmışdır. Burada respublikanın görkəmli alimləri və din xadimləri bir araya gəlib, islamşünaslığın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişlər. 1993-cü ildə Məhəmməd peyğəmbərin (s) mövludu günü Təzəpir məscidində Heydər Əliyev qeyd etdi ki, islam güclü səfərbəredici potensiala, hər cür əsarətə, zülmə nifrət, azadlıq və hürriyyətə hörmət ruhuna malikdir. Mən tam əminəm ki, din xadimlərimiz də işğal olunmuş torpaqlarımızın geri qaytarılmasında bundan sonra da daha fəal iştirak edəcəklər. İslam dini heç vaxt işğalçılığa, qəsbkarlığa sövq etməmişdir. Bizim dinimiz insanlara dostluq, qardaşlıq, sülh, barışıq yolu göstərir.

Azərbaycan dünyada məscid, kilsə və sinaqoqun üçünün bir arada olduğu, eləcə də müxtəlif din mənsublarının heç bir ayrı-seçkilik halı ilə qarşılaşmadıqları nadir ölkədir. XIX əsrin sonlarına yaxın Bakıda "Qızıl kilsə" kimi tanınan "Aleksandr Nevski" kilsəsinin inşası üçün toplanmış ianənin böyük hissəsinin müsəlmanlar tərəfindən verilməsi dünya tolerantlıq tarixinin ən parlaq səhifəsidir. Roma Papasının katoliklər, ümumiyyətlə, xristianlar arasında necə böyük nüfuza malik olduğuna yəqin ki, heç kimin şübhəsi yoxdur. Məlumdur ki, özləri haqqında "yazıq, müsəlman türklərin zorakılığına və soyqırımına məruz qalmış xalq" obrazı yaradan erməni lobbisinin təbliğatının getdiyi vaxtda Roma Papası Bakıya səfərə gəlir və "Azərbaycanda dinlər arasında mövcud tolerantlıq və dözümlülük münasibətləri dünyanın bir çox ölkələri üçün yaxşı nümunə ola bilər"[1] deyir və bu fikirlər dünyanın ən nü-

[1]Hidayət Orucov. Azərbaycanda din, s. 208.

fuzlu telekanallarında, qəzetlərində yayımlanır. Bu, Azərbaycan Respublikasının Roma Papası səviyyəsində təbliğ olunması və onun Azərbaycan həqiqətlərinin təbliğatçısına çevrilməsi deməkdir. ATƏT-in İnsan Hüquqları və Demokratik Təsisatlar Bürosunun rəhbəri Jerar Ştudman isəbelə deyir: "Azərbaycanda dini dözümlülük heç də yeni konsepsiya deyil. Bu ölkə illər boyunca müxtəlif mədəniyyətlərin yanaşı yaşamasına, dözümlülüyə bariz nümunədir. Biz onu ümumi irsimizə münasibətdə nümunə göstərə bilərik"[1].

Dövlətimizin din siyasətinin əsas məqsədi ölkədə dini durumun müsbət və münaqişələrdən uzaq məcrada inkişafı üçün əlverişli şəraitin yaradılması, eləcə də cəmiyyətdaxili sabitliyin möhkəmləndirilməsindən ibarətdir.

Dini etiqad azadlığı o deməkdir ki, vətəndaş dinə münasibətindən, dini yaxud dünyəvi təşkilata mənsubluğundan asılı olmayaraq, qanun və cəmiyyət qarşısında eyni hüquq və azadlıqlara malikdir.

Ölkə başçısı Heydər Əliyev Mədinə şəhərində Peyğəmbər (s) məscidinin Şərəf Kitabına yazmışdır: "Bir daha islam mənbəyinin nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim".

İslam Əməkdaşlıq Təşkilatı dövlət və hökumət başçılarının Kasablankada keçirilən VII Zirvə Toplanışında Asiya ölkələri qrupu adından (İƏT Baş Katibinin, həmçinin bir sıra üzv dövlətlərin xahişi ilə) Heydər Əliyev çıxış etdi. Həmin çıxışı qısaca belə xarakterizə etmək olar: "Biz haqlı olaraq fəxr edə bilərik ki, İslam dünyası ümumbəşəri sivilizasiyaya öz layiqli töhfəsini vermişdir və neçə əsrdir ki, onun mənəvi inkişafına, təkmilləşməsinə kömək edir. Asiya, Afrika və Avropanın 52 dövlətini birləşdirən bu təş-

[1]Jerar Ştudman. Dövlət və Din, № 2, iyun 2006.

kilat bir milyarddan çox insana, böyük mənəvi, siyasi, iqtisadi, elmi və mədəni potensiala malikdir...”[1]

İƏT-in 1997-ci il Tehran Zirvə görüşündə isə H.Əliyev demişdi: “Azərbaycan xalqının müsəlman dövlətlərinin həmrəyliyinə, mənəvi və maddi köməyinə böyük ehtiyacı vardır. İşğalçı Ermənistan öz diasporlarının köməyi ilə həm Amerikadan, həm Avropadan,ələlxüsus Rusiyadan mənəvi, siyasi, iqtisadi, hərbi dəstək alır. 1993-1996-cı illərdə Rusiya Ermənistana qeyri-qanuni, gizli bir milyard dollar dəyərində silah, sursat və hərbi texnika göndərib. Bundan əlavə, bu il (2001) avqust ayının 29-da Rusiya ilə Ermənistan arasında güclü hərbi əməkdaşlıq bəndləri olan müqavilə bağlamışdır. Beləliklə, təcavüzkar Ermənistan dövləti hərbi cəhətdən güclənərək, nəinki Azərbaycan üçün, regionumuzun bütün dövlətləri üçün ciddi bir təhlükə yarada bilər”[2]. Bu qısa və dolğun məzmunlu çıxışda xristianların müsəlmanlara qarşı birləşib, hər vaxt hücuma hazır olduqları görünür.

Müsəlmanların sülhsevərliyi, xristianların isə məkrli olduqları haqda onların bəziləri də bunu etiraf edirlər. Kont Henri de Kastre yazır: “Müsəlmanların sülhsevərliyi və üzüyolalığı Ərəb səltənətinin yıxılmasının səbəblərindən sayılır. Belə ki, Əndəlüsdə yaşayan xristianlar müsəlmanların zəifləməsindən istifadə edib onlara hücum etdilər, qətllərlə, deportasiyalarla (ermənilər kimi) onların kökünü kəsdilər”. Fransız Etin Denye yazır: “Müsəlmanlar bir çoxunun düşündüyü kimi deyillər... İspaniyada xristianların mövcudluğu buna ən böyük dəlildir. Onlar müsəlmanların səkkiz əsrlik hakimiyyəti dövründə öz dinlərində qalmış, əmin-amanlıq içərisində yaşamışdılar. Hətta bəzi xristianlar Kordova sarayında yüksək vəzifə sahibləri idilər. Ancaq sonralar öz ölkə-

[1]Heydər Əliyev. Dövlət və Din, № 2, iyun 2006.
[2]Dövlət və Din, № 2, 2001.

lərində hakimiyyətə gələn kimi həmin bu xristianların ilk dərdi-sərləri müsəlmanları bütövlükdə yox etmək olmuşdu”[1].

Lüter Vip Stuard Osmanlı vəzirlərindən birinin Avropa dövlət xadimlərinə dediyi sözləri nəql edir: “Biz türk, ərəb ... müsəlmanlar dində hər nə qədər təəssübkeşlik göstərsək də, bu, bizi düşmənlərimizin kökünü kəsmək dərəcəsinə çatdırmayıb. Hətta onları məhv etmək qüdrətinə sahib olsaq da, bunu etməmişik... Sizlər – avropalılar isə aranızda bir müsəlmanın belə, mövcudluğunu həzm edə bilmədiniz, onlara şərt qoydunuz ki, aranızda qalmaq istəyirsə, xristian olsunlar. İspaniyada milyonlarla müsəlman var idi. Fransanın cənubunda, İtaliyanın cənubi və şimalında yüz minlərlə müsəlman yaşayırdı. Onların kökünü planlı surətdə elə kəsdiniz ki, bütün bu ölkələrdə islama etiqad edən bir nəfər də qalmayıb. Mən bütün İspaniyanı gəzmişəm, orada bir müsəlman qəbrinə rast gəlməmişəm”[2].

2005-ci ilin dekabrında İƏT-nin Məkkədəki 3-cü Fövqəladə Zirvə görüşündə müsəlman ölkələrinin üzləşdiyi problemlərdən geniş bəhs edən tədbir iştirakçıları Fələstin, İraq, Kəşmir, Kipr problemlərindən, Azərbaycanın ən ağrılı məsələsi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, habelə Somali və Sudanda baş verən hadisələrdən də danışdılar. Məruzələrdə Qərbin bəzi mətbuat orqanlarında (ABŞ, Danimarka, Almaniya, Fransa və s.) Məhəmməd peyğəmbərin (s) karikaturalarının dərc olunması və bununla bağlı yaranmış gərginlik kəskin şəkildə pislənmiş və bildirilmişdi ki, mötəbər təşkilat kimi İƏT bütün dinlərə hörmətlə yanaşır, bundan sonra da sivilizasiyalararası dialoqun genişləndirilməsi məqsədi ilə fəaliyyətini davam etdirəcəkdir.

---

[1]Kont Henri De Kastre. İslam, s. 49; İslam ölkələrində, s. 32; Etin Denye. Məhəmməd Allahın peyğəmbəridir. Tərcümə edən Məhəmməd Ə., Mahmud M.Ə. Qahirə: “Əl-Ərəbiyyə” mətbəəsi, 1959, s. 332; İslam ölkələrində, s. 32.

[2]Lüter Vip Stüard. İslam dünyasının hal-hazırı, cild III. Tərcümə edən Ecac Nüvehəri. Beyrut: “Dar əl-fikir” nəşriyyatı, 1971, s. 210; İslam ölkələrində, s. 32.

Təsadüfi deyil ki, 2008-ci il mart ayının 14-də BMT Baş Assambleyasının 62-ci Sessiyasında Azərbaycan Respublikasının nümayəndə heyətinin təqdim etdiyi "Azərbaycanın işğal altında olan ərazilərindəki vəziyyət" adlı qətnamənin qəbul edilməsində İƏT-ə üzv olan dövlətlərin mövqeyi həlledici rol oynamışdır.

Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdən sonra milli-dini dəyərlərə qayıdışda, dinin cəmiyyət həyatında yeri və roluna baxışda yeni mərhələ başlanmışdır. Uzun sürən məhrumiyyətlər və qadağalardan sonra etiqad azadlığına, dini ayin və mərasimlərin icrasına, müqəddəs yerlərə ziyarətə, ibadət ocaqlarının inşasına, dini ədəbiyyatın yayılmasına qoyulmuş məhdudiyyətlər aradan qaldırılmış, vətəndaşların öz əqidələrini ifadə və təbliğ etmək azadlığı üçün imkanlar yaradılmışdır.

XX əsrin 90-cı illərinin əvvəllərindən qonşu dövlətlərin mənsub olduqları məzhəb və təriqətləri Azərbaycanda yaymaq cəhdləri, eləcə də bir sıra qərb dairələrinin əhali arasında xristianlaşdırma siyasəti aparması, bu məqsədlə küllü miqdarda vəsait xərclənməsi dini durumu gərginləşdirirdi və belə cəhdlər indi də davam edir. Əhalinin dini məlumatsızlığından istifadə edən missioner təşkilatlar 100 mindən artıq müxtəlif mövzuda ədəbiyyat paylamışdılar. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akad. Ramiz Mehdiyevin "Qloballaşma dövründə dövlət və cəmiyyət" adlı yazısında qeyd olunur: "İncilləşdirmə 2000" proqramı təriqət missionerlərinin məqsəd və vəzifələrinin miqyasından xəbər verir. Proqramda 2000-ci ilədək Bibliyanı hər beş azərbaycanlı ailəsindən birində yaymaq, Respublikanın hər beş vətəndaşından birini xristian missioner təşkilatlarının fəal üzvlüyünə cəlb etmək nəzərdə tutulurdu"[1].

Həmin missionerlər ölkə əhalisi arasında ayrı-seçkilik salmağa çalışır, ənənəvi dini inanclarımıza həqarət edirdilər. Təlim-

---

[1]Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: XXI – Yeni nəşrlər evi, 2005.

lərini qəbul etmiş şəxslərə cəmiyyətimizin fərqli inanclarına qarşı dözümsüzlük, Vətənimizin taleyüklü məsələlərinə biganəlik hissi aşılayır, fəaliyyətlərində milli azlıqlar məsələsini şişirdirdilər.

Zərərli təbliğat aparan radikal missioner xristian təriqətlərinin və ardıcıllarının nüfuzu hazırda xeyli zəifləmişdir, lakin onlar öz niyyətlərindən əl çəkmək istəmir və qanunsuz hərəkətlərini davam etdirməyə cəhd göstərirlər, bunun da qarşısı müvafiq dövlət strukturları tərəfindən qətiyyətlə alınır. Bütün bu önəmli məsələlərlə yanaşı “Azərbaycanda din” kitabının müəllifi yazır: “Qısa müddətdə Bakı şəhərində və Respublikanın cənub bölgəsində çoxlu sayda qanunsuz mədrəsə və Quran kursları fəaliyyətə başlamışdı”[1].

Azərbaycan Respublikasının bir sıra bölgələrində vəhhabilik də yayılmışdı. Bu təriqət sahibləri islam üçün çox zərərli ideoloji fəaliyyətdə olub, hətta ekstrimizmə yol verirlər.Onlar vəhhabilikdən kənar müsəlmanların mallarını,canlarını,arvadlarını özlərinə halal etmişlər,istədikləri vaxt onları qətl edə bilərlər. Bu təlimin tətbiqi üçün böyük məbləğdə vəsaitin səxavətlə xərclənməsi vəhhabiliyin Azərbaycan Respublikasında təşviqinə əlverişli şərait yaratmışdı. Vəhhabiliyin tətbiqi ilə məşğul olan qüvvələr humanitar yardım pərdəsi altında əslində dini təbliğat aparır, xüsusi dini ədəbiyyat paylayır, onların təlimlərini qəbul edənlərə yardım göstərirdilər. Yol verdikləri qanun pozuntularına görə həmin təşkilatların böyük əksəriyyətinin fəaliyyəti dayandırılmış,rəhbərləri ölkədən deportasiya olunmuşlar.

Vəhhabiliyin Azərbaycanda geniş yayılmasında dini ənənələrin zəiflədilməsi və “islamın ilkin saflığına qayıtmaq” kimi cəlbedici fikirlərin təbliği mühüm ideoloji rol oynamışdır. Nəticədə ölkə üçün qeyri-ənənəvi sayılan bu cərəyan qısa müddət ərzində, xüsusilə gənclər arasında yayılmağa müvəffəq olmuşdu. Bakının

[1]Azərbaycanda din, s. 249.

mərkəzində "Əbubəkr" Cümə məscidinin inşası bu cərəyanın ölkəmizdə möhkəmlənməsində əsas rol oynamışdır. Əvvəllər o məscid vəhhabilərin mərkəzi hesab olunurdu. Sonradan orada ibadət edənlərin bir neçə qrupa bölünməsi və qarşılıqlı ittihamlarla çıxış etmələri, hətta məsciddə partlayış törədilməsi həmin cərəyan nümayəndələrini nüfuzdan salmış, onların dini imicinə ciddi təsir göstərmişdir.

İslamın yaşıl rəngi Azərbaycanın dövlət bayrağında öz əksini tapmışdır. Azərbaycan İƏT-in üzvüdür və bu qurum çərçivəsində bir çox müsəlman ölkələri ilə əməkdaşlıq edir.Novruz, Ramazan və Qurban bayramları dövlət səviyyəsində qeyd olunur.

1998-ci il aprelin 8-də Qurban bayramı münasibətilə Mirmöhsün Ağa ziyarətgahında Heydər Əliyev demişdi: "İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli –mənəvi dəyərləri, dinimizin adət-ənənələri və dəyərləri–hamısı bizim milli sərvətlərimizdir... Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır. Biz, bizim nəsil, hamımız birlikdə - indi yaşayan insanlar xoşbəxtdirlər ki, bu günə gəlib çatmışıq, bizim müstəqil ölkəmiz, müstəqil dövlətimiz var, öz taleyimizin sahibiyik, dini, mənəvi, milli adət-ənənələrimizi bərpa etmişik və daha da geniş təbliğ edirik"[1].

Dövlət təsisatı formasiyası yaradıldıqdan sonra dinin də dövlətin idarə olunmasında və siyasi proseslərin tənzimlənməsində xüsusi çəkisi artmışdır. Hətta bu günlərdə dünyanın müxtəlif bölgələrində əhalinin idarə olunmasında ruhanilərin köməyindən geniş istifadə edilir. Lakin xristian aləmində Böyük Xaç yürüşlərinin, Orta əsr Avropasında inkvizisiya məhkəmələrinin (düşmənləri ilə ən vəhşi və amansız üsullarla mübarizə etmək üçün katolik kilsəsinin XIII əsrin əvvəlində təşkil etdiyi məhkəmə-polis təşki-

[1]Azərbaycanda din, s. 252-253.

latı) həyata keçirdiyi antihumanist əməllərin din adından reallaşdırılması tarixi həqiqətdir və hazırda dinindən asılı olmayaraq hamıda təəssüf hissi doğurur.

Bir çox ölkələrdə hadisələrə və simalara möhtəşəmlik gətirmək üçün siyasi protokol qaydalarına dini elementlər daxil edilmişdir. Məsələn, dövlət başçısı, vəzifəsinin icrasına başlayarkən Qurani-Kərimə, yaxud İncilə and içir. Din təkcə siyasi mədəniyyətə təsir göstərmir, sivilizasiyalararası dialoqlarda cəzbedici xüsusiyyətlərlə müşahidə olunur, bir sözlə, din cəmiyyətin mentalitetində böyük izlər qoymaqla özünü biruzə verir.

Hazırda dünya dövlətlərinin böyük əksəriyyəti dünyəvi qanunlarla idarə edilir. Buna baxmayaraq, dini dəyərlərə yüksək qiymət verilir, onlara cəmiyyətin mənəvi tələbatı kimi baxılır. Hətta bir çox demokratik ölkələrdə dövlətin nəzarəti ilə ordu kimi strateji əhəmiyyət kəsb edən bir sahədə hərbçilərin mənəvi ehtiyaclarının təmin edilməsi, döyüş ruhunun qaldırılması, vətənpərvərlik hisslərinin təlqin edilməsi, əxlaqi xüsusiyyətlərin aşılanması üçün ruhanilərin köməyindən geniş istifadə olunur.

İlahiyyat elminə görə, din insanının Allahla ünsiyyəti, onun daxili aləmini zənginləşdirən, mənəviyyatını saflaşdıran, onda mərhəmət və ədalət hisslərini tərbiyə edən, nəcib duyğular aşılayan ilahi vasitədir. Dinin əsas məqsədi insanın həm bu, həm də axirət dünyasında xoşbəxtliyini təmin etməkdir. Dini dünyagörüşü mənimsəyən, ona səmimi qəlbdən etiqad edən insan dünya həyatına aludəlikdən azad olur, həyatında nəfsi istəklərə, zərərli vərdişlərə mümkün qədər az yer verməyə səy göstərir.

Digər tərəfdən,70 ildən artıq Sovet İttifaqının tərkibində yaşayan başqa xalqlar kimi Azərbaycan xalqı da ateist düşüncənin güclü təsiri altında idi. İnsanlara Allahın olmadığı, dinin mövhumat və xurafat xarakteri daşıdığı təbliğ olunurdu. Dini ayin və mərasimləri yerinə yetirən insanlar təqib edilir, repressiyalara mə-

ruz qalırdılar. Din alimləri və xadimləri həbs olunur, sürgün edilir və güllələnirdilər[1].

Müstəqilliyimizi əldə etdikdən sonra milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsinə çevrilmiş islam dininə, eləcə də digər din və mədəniyyətlərə böyük ehtiram və qayğı ilə yanaşılmağa başlandı, onların cəmiyyətin sabitliyinə və rifahına xidmət edən bütün fəaliyyəti üçün imkanlar yaradılır və bu proses bu gün də davam edir.

Heydər Əliyev hələ 1998-ci ildə Bakıda keçirilmiş "İslam sivilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq Simpoziumda çıxış edərkən islam dininin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin formalaşmasındakı xüsusi yerini, Vətənimizin dünyada qəbul olunmuş görkəmli şəxsiyyətlərinin bu mədəniyyətin inkişafındakı xidmətlərini, habelə xalqımızın digər xalqların nümayəndələrinə, inanclarına hörmətlə yanaşdığını, əsrlərin sınağından keçərək günümüzədək qorunub-saxlanmış tolerantlıq ənənələrini vurğulayaraq demişdir: "Azərbaycanda islam dini VII əsrdən yayılıb və Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsaslarını təşkil edir. Bizim çoxəsrlik islam dövrü tariximiz zəngindir.

Bu gün iftixar hissi ilə deyirik ki, Azərbaycanın islam mədəniyyəti, islam dini ilə bağlı olan dahi insanları – Nizami, Füzuli, Nəsimi, Tusi, Qətran Təbrizi və bir çox böyük şəxsiyyətləri dünya sivilizasiyasına böyük töhfələr vermiş və islam mədəniyyətini zənginləşdirmişlər...

Biz azərbaycanlılar öz tariximizlə, dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə mənsub olmağımızla fəxr edirik.

Dünyada bir çox dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz, azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərmə-

[1]Azərbaycanda din, s. 260.

mişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı öz dinimizə itaət etməyə məcbur etməmişik.

Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda, Qafqazda da öz əksini tapmışdır. Azərbaycanda islam dini ilə yanaşı, xristian dini də, yəhudi dini də əsrlərlə yaşayıb və indi də yaşayır"...[1]

Dünyəvi dövlət dedikdə dövlətin hər hansı dini, yaxud dini etiqadı inkar etməsi nəzərdə tutulmur. Əksinə, dövlət bütün dini etiqadların qanun qarşısında bərabərliyini təmin edir, hüquqlarını qoruyur, onların hər birinin sərbəst fəaliyyətinə və müstəqil inkişafına şərait yaradır. İctimai və dövlət təhlükəsizliyi nəzərə alınmaqla dini mərasimlərin və ayinlərin icra olunmasına maneə törədilmir.

Bir həqiqəti unutmaq olmaz ki, öz-özlüyündə ilahi mahiyyətili heç bir din bəşəriyyətin sülh və əmin-amanlıq şəraitində xoşbəxt yaşamasına qarşı deyildir. Əksinə, bütün dinlər insanların mehriban yaşamasını təmin etmək məqsədilə onlara bir-birinə kömək etməyi, zülmə yol verməməyi, ədalət prinsiplərini əsas götürməyi, Yer üzündə fitnə-fəsad törətməməyi, hər kəsin haqqını qorumağı, günahsız insanları öldürməməyi buyurur.

İnsanların hər hansı dinə və ya inanca məcbur edilməsi məsələsi ilə bağlı Qurani-Kərimdə bildirir: "Dində məcburiyyət (zorakılıq) yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edildi. Hər kəs Tağutu (Şeytanı və ya bütləri) inkar edib Allaha iman gətirərsə, o, artıq (qırılmaq bilməyən) ən möhkəm bir ipdən (Allahın ipindən) yapışmış olur. Allah (hər şeyi olduğu kimi) eşidəndir, biləndir" (Bəqərə, 257).

Din insan mənəviyyatının əsasında olmaqla, sosial münasibətlərin tənzimlənməsində xüsusi rol oynayır. Mahiyyətinə nəzər saldıqda dinin insanlara xoşbəxtlik gətirdiyi, ədaləti, digərlərinin

[1]Azərbaycanda din, s. 262.

hüquqlarına hörməti və hər kəsin haqqının təmin olunmasını təbliğ etdiyi açıq-aydın özünü büruzə verir.

Kommunist rejimində dinə sərt münasibət göstərilməsi,güclü ateizm təbliğatının aparılması onunla nəticələnmişdi ki, insanlar özlərini üzdə ateist göstərsələr də, əslində onu (dini) real həqiqət kimi qəbul etmişdilər. Rejimin süqutu ilə ateizmin iflasa uğraması sübut etdi ki, insan təbiətinə, fitrətinə yad olan, ona zorla qəbul etdirilən həyat tərzi subyektiv amillər aradan qalxan kimi məhvə məhkumdur.

İnsan hüquq və azadlıqlarının təmin edilməməsi, transmilli korporasiyaların və inkişaf etmiş ölkələrin eqoist siyasəti, gəlirlərin ədalətli bölüşdürülməməsi, beynəlxalq və regional mahiyyətli və qəsdən yaradılmış bir sıra münaqişələrin uzun illər həll olunmaması, yaxud yenilərinin yaradılması ekstremizm və dözümsüzlük üçün qidalandırıcı şəraitin formalaşmasına zəmin yaratmışdır. Qeyd olunanlar bütövlükdə terrorizm formasında reallaşan ekstremizmin, dözümsüzlük hallarının yaranmasını stimullaşdırır. Terrorizm müasir dünyanın ən təhlükəli bəlasıdır. Bütün dünya xalqları terrorizmin dəhşətli nəticələrinin birbaşa, yaxud dolayı yolla qurbanı olurlar. Lakin Qərb bu terrorizmi ancaq  islamla bağlayır və "islam terrorizmini" xüsusi olaraq vurğulayır.30 dekabr 2016-cı il tarixdə Kanadada məscidə hücum edib,6 nəfəri qətlə yetirən və 8 nəfəri yaralayan müsəlmanlar idimi?İlin əvvəlində elə həmin məscidin qapısından donuz başı asan müsəlmanlardımı?Elə həmin terrorizmin davamı ermənilərin hərəkətlərində müşahidə olunmurmu?

Keçən əsrdən ekstremizm və terrorçuluqları ilə məşhur olan ermənilərin bu çirkin hərəkətlərinin qarşısını alan yoxdur və əksinə onlara haqq qazandıranlar var. Buna parlaq misal olaraq O.Kuznetsovun bir cümləsini göstərmək kifayətdir: "70 illik Sovetlər vaxtı Rusiyadakı XX əsrin əvvəlləri erməni milli-dini

ekstremizmi və terrorizmi "inqilabi" hərəkatın əsas tərkibi kimi alqışlanırdı, halbuki ona heç bir aidiyyatı yox idi"[1].

Terror aktları müxtəlif zəminlərdə törədilir. Bəzən bu təhlükəli silahlı fəaliyyət müxtəlif dinlərlə əlaqələndirilsə də, əslində onun heç bir dinlə, xüsusilə də islam dini ilə əlaqəsi yoxdur. Əksinə, islam hər hansı bir terrora və ümumiyyətlə zorakılığa haqq qazandırmır, bir günahsız insanın öldürülməsini bəşəri faciə və çox ağır günah kimi qiymətləndirir. Bu haqda Allah-Təala Qurani-Kərimdə buyurur: "...İsrail oğullarına (Tövratda) yazıb hökm etdik ki, hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur..." (Maidə,32).

Dünyanın bir çox ölkələri terrorizm əleyhinə birgə fəaliyyət göstərir, onu doğuran səbəblərin aradan qaldırılması üçün əməkdaşlıq edirlər. Bəziləri isə əksinə. (Bax: Rokfellerin etirafları, "Kredo" qəzeti, 17 may 2014). Azərbaycan Respublikası da uzun illərdir silahlı terrora məruz qalan ölkələrdən olduğundan onun ağır nəticələrini daha dərindən hiss edir və bu təhlükənin aradan qaldırılması istiqamətində böyük işlər görür. Azərbaycan, terroru, onun bütün forma və təzahürlərini pisləyir, səbəb və nəticələrinin aradan qaldırılmasında beynəlxalq təşkilatlarla müntəzəm əməkdaşlıq edir.

2009-cu ilin 6-7 noyabrında Bakıda DQİDK-nin təşkilatçılığı ilə "Dinlərarası dialoq: Qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusunda konfrans keçirilmişdir. Konfransın məqsədlərindən biri müxtəlif din nümayəndələrini bir araya toplayaraq, problemin həlli yolları ilə bağlı birgə fikir mübadiləsi apar-

[1]Oleq Kuznetsov. XX əsrin əvvəllərində Rusiya imperiyasında erməni milli-dini ekstremizmi (Qafqazın dövrü mətbuatı materialları əsasında). Beynəlxalq Azərbaycan jurnalı "İrs", № 4 (70), 2014, səh. 53 (rus dil.).

maq olmuşdur. Bakı 2009-cu ildə "İslam mədəniyyəti paytaxtı" adına layiq görülmüşdür.[1]

Azərbaycan Respublikasında yaşayıb fəaliyyət göstərən digər din və konfessiya rəhbərləri də ölkədəki tolerantlıq mühitini, Respublika Prezidentinin dindarlara daim diqqət və qayğısını açıq ifadə edirlər. Respublika əhalisinin əksəriyyətinin müsəlman olmasına baxmayaraq, burada həmişə digər dinlərin də dini-mədəni abidələrinin qorunduğunu, yeni-yeni ibadət məkanlarının tikildiyini xüsusi olaraq vurğulayırlar. Eyni zamanda, Heydər Əliyev Fondu da digər dinlərə aid abidələrə böyük diqqət və qayğı ilə yanaşır. Bakı şəhərində Rus-Pravoslav Baş Kafedral və Katolik Kilsələrinin təmiri və bərpası, eləcə də Quba rayonunun Qırmızı qəsəbəsində Yəhudi Tarixi Muzeyinin yaradılması məqsədilə layihələr həyata keçirilmişdir. Qərb filosofları iki yüz ildir ki, belə bir fikir yayırlar: din – yox olmağa məhkumdur. Ancaq o, yox olmur. Çünki onun dünyəvi dövlət quruculuğu prosesində yerini və rolunu düzgün müəyyənləşdirən dövlət xadimləri var. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəhs olunan məsələlərlə əlaqədar fikri belədir: "Azərbaycanda din ilə dövlət ayrıdır. Azərbaycan dünyəvi dövlətdir. Ancaq bununla bərabər din ilə dövlət birdir. Bu birlik bizi qarşımızda duran amallar ətrafında birləşdirir. O da Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirmək, Azərbaycanda sabitliyi daim yüksək səviyyədə saxlamaq, Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün əməli tədbirlər görmək, Azərbaycanda münasibətlərin həmişə müsbət istiqamətdə inkişaf etməsini təmin etmək, Azərbaycanda yaşayan bütün xalqların hüquqlarını qorumaq amallarıdır. Baxmayaraq rəsmi qaydada dövlət dindən ayrıdır, mən hesab edirəm ki, bu məsələlərlə bağlı din ilə dövlət birdir"[2].

---

[1]Azərbaycanda din, s. 276
[2]Yenə orada, s. 291-292.

Sivilizasiyaların bir-biri ilə təmas qurmasını milli təhlükəsizliyi sarsıtmaq formatında görmək yanlışdır. Keçən əsrin totalitar diktaturalarının təbliğ etdikləri "sivilizasiyaların" təcrübəsinin bəşəriyyətə necə baha başa gəldiyi məlumdur[1].

Azərbaycan islam dininin vətəni olan Ərəbistan yarımadasından min kilometrlərlə uzaqda yerləşir. Lakin islamın meydana çıxdığı ilk əsrlərdən başlayaraq Azərbaycan nəinki müsəlmanlaşmış, hətta sonralar Peyğəmbər (s) nəslindən olan insanların pənah gətirdikləri və sığınacaq tapdıqları mübarək məkana çevrilmişdir. Raşidi xəlifələrindən sonra islam dövlətinin başında duran şəxslərin təqib və təzyiqlərinə məruz qalan Əhli-beyt – Peyğəmbər (s) nəslinin nümayəndələri sakit, təhlükəsiz həyat arxasınca xilafətin ucqarlarına gedərək daha doğrusu, könüllü sürgün həyatı yaşamağa məcbur olmuşdular. O dövrdə xilafətin ucqar ərazilərindən hesab edilən Azərbaycan bu müqəddəs insanların bir qismi üçün sığınacaq yeri, Azərbaycan xalqı isə onların himayədarı olmuşdur.

Şübhəsiz ki, Peyğəmbər (s) nəslindən olan insanların Azərbaycana pənah gətirməsində yuxarıda göstərilən amillərin, eləcə də xalqımızın Əhli-beytə sevgisinin rolu az olmamışdır. Azərbaycan xalqı islamı qəbul etdikdən sonra təkcə bu dinə mənsubluğu ilə deyil, həm də qəlbində bəslədiyi Əhli-beyt sevgisilə seçilmiş və tanınmışdır. Bu baxımdan Bakıya, Gəncəyə və digər Azərbaycan şəhərlərinə İmam Hüseyn (ə) şəhəri, burada yaşayan insanlara isə İmam Hüseyn (ə) aşiqləri deyilməsi təsadüfi deyil[2].

Yeri gəlmişkən, o müqəddəs şəxslərin adları ilə bağlı, Azərbaycanın müxtəlif bölgələrində türbələr, ziyarətgahların tikildiyi və erməni vandalları tərəfindən onların necə talan olunduqları haqqında bəzi qeydlər etmək istərdik.

---

[1] Azərbaycanda din, s. 291-292.
[2] Yenə orada, s. 296-297.

Azərbaycanın Zəngəzur mahalının Mığrı rayonunun Buğakar kəndi ərazisində (rayon mərkəzindən 12 km. şimal-şərqdə) Ələngəz dağının ətəklərində xalq arasında Sultan Seyid Əhməd məqbərəsi kimi də tanınan "Buğakar" ziyarətgahı yerləşir. Böyükhəcmli məqbərənin qapısında "Ziyarət edirəm Sultan Seyid Əhməd Ağa İmam Museyi Kazım oğlunu iləLlah" yazılıb. Buğakarla üzbəüz Qərbəzay dağının başında, "Top" deyilən yerdə, qayaların arasında eyni adla – Sultan Əhməd çeşməsi mövcuddur və çeşmə də yerli əhali tərəfindən ziyarət olunur. 1988-ci ildə bölgədəki azərbaycanlılar zorla deportasiya olunduqdan sonra "Buğakar" piri ermənilər tərəfindən dağıldılmışdır. Qədimdən Türk-Oğuz boylarının ana yurdu olmuş Mığrı rayonuna, ümumiyyətlə Zəngəzur mahalına XIX əsrin əvvəllərində ermənilərin ilk kütləvi axını başlayanda kim deyə bilərdi ki, bu müqəddəs abidə də düşmən vandalizminə tuş gələcək?!

Bakıda 1078-1079-cu illərdə inşa olunmuş Məhəmməd məscidi də vandalizmin qurbanı olmuşdur. 1723-cü ildə Xəzər sahili boyunca işğalçı yürüşlərə çıxmış Rus çarı I Pyotrun artilleriyası həmin ilin iyun ayının 26-da Bakını atəşə tutanda, şəhərin ən qədim məscidinin minarəsi zədələndi. Top atəşinə qala bürcü kimi dözən minarəyə el arasında "Sınıqqala" adı verildi.

Növbəti vandalizm nümunəsi Azərbaycanın qədim diyarı Zəngibasar mahalının, Zəngibasar rayonunun mərkəzi – Uluxanlı qəsəbəsindən 14 km. şimalda, İrəvan şəhəri yaxınlığındakı (8 km.) Cəfərabad (indiki Arqavanq) kəndindədir. Buradakı "Möminəxatun" tipli "Cəfərabad" türbəsi üzərindəki ərəbdilli kitabədə onun Əmir Səd oğlu Pir Hüseynin əmri ilə h. 816-cı il Rəcəb ayının 15-də tikildiyi bildirilir. Ermənilərsə hər dəfə olduğu kimi, "Qatıq qaradır" deyərək onu erməni maddi-mədəniyyət abidəsi kimi təqdim edərək, orada olan bir neçə başqa türbə və qəbirüstü-tarixi cəhətdən qiymətli abidələri də dağıdıb məhv etmişlər.

Vandalizm nümunələrindən biri də 1606-cı ildə Gəncədə inşa edilmiş “Şah Abbas” məscidi üzərində həyata keçirilmişdir. 1920-ci ildə rus bolşevikləri tərəfindən şəhərə və ətrafa atılan mərmilərin təsirindən minarələrin biri əyilmişdi.Sovet hakimiyyətinin apardığı ateist siyasət nəticəsində məscidin mədrəsəsi dağıdılmış və tamamilə məhv edilmişdir.

Müsəlman maddi-mənəvi abidələrinə qarşı vandalizmin biri də İrəvan “Şah Abbas” məscidində törədilmişdir. 1604-cü ildə Səfəvi hökmdarı I Şah Abbas İrəvan qalasını osmanlılardan alandan sonra Sərdar sarayının şərq hissəsində möhtəşəm bir məscid tikdirmək qərarına gəlir və bu işi gəncəli memar Şeyx Bəhaəddinə tapşırır. 1606-cı ildə İrəvan məscidləri içərisində görkəmli yer tutan və Gəncədəki “Şah Abbas” məscidinə oxşar bir məscid ucalır, o, “Came məscidi” adlandırılsa da xalq arasında “Şah Abbas” məscidi kimi tanınmışdır. İrəvan xanlığı dövründə məsciddə geniş ehsanlar verilərmiş. Təəssüflər olsun ki, erməni vandalizmi bu möhtəşəm abidəni də hələ 1918-ci ilədək xarab etmiş, 40-cı illərdə isə xarabazara çevirmişdir.

Növbəti vandalizm aktı yenə də ermənilər tərəfindən törədilmişdir. 1918-ci ildə ermənilər Naxçıvan əhalisinə divan tutarkən, top atəşi ilə “Came” məscidinin yeganə minarəsini zədələdilər. İrəvan “Göy məscid”i də bu taleyi yaşayıb. 1764-cü ildə İrəvan xanı Hüseynəli xanın şərəfinə Qacar tərəfindən inşa edilən bu məscidə Hüseynəli xan məscidi də deyirlərmiş. Məsciddə din xadimləri üçün yaşayış otaqları, yay və qış salonları, mədrəsələr, kitabxana, fəvvarəli hovuzu olan iç həyət, hündürlüyü 24 m. olan 4 minarə və s. varmış. Sovet dönəmində minarələrin üçü dağıdılmışdı. Ermənilərsə bu gözəl abidəni iki dəfə - 1918 və 1955-ci illərdə yandırmışlar. Sonradan məscidin bir hissəsi planetariyə, bir hissəsi isə tarix muzeyinə döndərilmişdir. Məscidi İran tikinti şirkəti təmir edib, o, İranın Ermənistandakı mədəniyyət mərkəzlə-

rindən birinə çevrilmişdir. O, xəbislik qanlarında olan ermənilər tərəfindən dünyaya "Fars məscidi" kimi təqdim edilir .

Şəkinin Kiş kəndidə müqəddəs Yelisey Qafqazda ilk xristian kilsəsini tikdirdi. Rəvayətə görə, onu oraya İsa peyğəmbərin (ə) din qardaşı müqəddəs Yakov xristianlığı yaymağa göndərmişdi. Vaxtilə məbədin üzərində onun müqəddəs apostol Yelisey kilsəsi olduğunu və 1244-cü ildə Alban kilsəsinin arxiadiakonu Serafim tərəfindən yenidən qurulduğunu bildirən kitabə olmuşdur. XIX əsrin 30-cu illərində Alban kilsəsi Sinodun qərarı ilə rəsmən ləğv edildikdən sonra bir çox Alban məbədləri kimi bu məbədin də kitabəsi tamamilə pozulmuşdur. 1864 və 1930-cu illərdə kilsə erməni ustaları tərəfindən təmir olunmuş və nəticədə onun görünüşü əsaslı şəkildə dəyişdirilmişdir. Güman edilir ki, bu yenidənqurma işləri 1836-cı ildə Rusiya hakim dairələrinin qərarı ilə Albban kilsəsinin ləğv olunmasından sonra "Kiş" məbədinin erməni kilsəsi memarlığına uyğunlaşdırılması məqsədilə aparılmışdır.

V-VI əsrlərə aid olan Alban monastrı "Ağoğlan" məbədi Laçın rayonu ərazisində, Ağoğlan çayının sahilində yerləşir. Məbəd kifayət qədər böyük ölçülərə malikdir və daxili divarları yonulmuş iri, qara daşlarla üzlənmişdir. 1922-ci ildə erməni qəsbkarları ərazini işğal etdikdən sonra "Ağoğlan" məbədini özününküləşdirməyə başlamışlar. Onlar məbədi təmir etmək adı altında abidənin divarları üzərində bir neçə kitabəni, həmçinin xeyli sayda alban dövrünə aid ornament və rəmzləri tamamilə qırmış, formalarını dəyişdirmişlər. Məbədin guya xristianlığın qriqoryan məbədinə məxsusluğunu göstərən 26 lövhəsini abidənin divarlarına bərkitmişlər. Saxtakarlıqlarına davam edən ermənilər kompleksin ümumi giriş qapısının önündə İrəvandan gətirilmiş xaçdaşlar basdırmış, binanın fasadını söküb kirəmid və dəmirlə əvəzləmişlər.

2007-ci ildə İrəvan şəhərində Ermənistan hökumətinin tapşırığı ilə erməni yepiskopları daxili qərarla abidəyə Erməni-Qri-

qoryan Kilsəsi statusu verməklə işğal olunmuş ərazilərdə Azərbaycan mədəniyyətinə və tarixinə qarşı soyqırım siyasəti yürütdüklərini bir daha əyani şəkildə göstərdilər[1].

Ermənilərin “özəlləşdirdikləri” (özününküləşdirdikləri) növbəti abidə Kəlbəcər rayonunda yerləşən Alban məbədidir. VI-VII əsrlərdə inşa olunmuş “Xudavənd” monastrı doqquz tikilidən ibarətdir və sonradan bir neçə dəfə təmir olunmuşdur. Torpaqlarımız işğal olunduqdan sonra “Xudavənd” məbədi də dəfələrlə ermənilərin təcavüzünə məruz qalmışdır. Onlar abidədəki Alban kilsəsinə aid xaç və kitabələri qırıb tökmüş, beləliklə, tarixi saxtalaşdırmağa çalışmışlar. Onlar öz təbliğatlarında ustalıqla bu məbədi erməni kilsəsi kimi təqdim edir, xalqımızın maddi-mədəni irsini özününküləşdirirlər.

Alban-türk xristian məbədi olan “Tatev” məbədi Qərbi Azərbaycanın Zəngəzur mahalının Gorus rayonunda, Tatev kəndi yaxınlığında yerləşir. “Tat” sözü qədimdən Qərbi Azərbaycanda oturaq türklərə şamil olunmuşdur,”tatev”- “türk evi” mənasını vermiş, sonralar “böyük ev” mənasını kəsb etmişdir. “Tatev” monastrı 1837-ci ildə Eçmiədzin (Üç müəzzin) sinodunun qərarı ilə İrəvan yepiskopuna tabe edilsə də, onun Alban-türk məbədi olduğu unudulmamışdır. Məbəd 1931-ci il zəlzələsində ciddi zədə alsa da, uçmamışdı. Lakin ermənilər tərəfindən guya bərpa edilərkən tamamilə erməniləşdirilmiş və dünya ictimaiyyətinə erməni monastrı kimi təqdim olunmuşdur.

“Müqəddəs Jen Mironosets” Baş kafedral kilsəsi 1909-cu ildə memar M.F.Verjbitskinin layihəsi əsasında Hacı Zeynalabdin Tağıyevin maddi yardımı və ianələr hesabına tikilmişdir. 1920-ci ildə Sovet hakimiyyəti dönəmində kilsə ilk bağlanan ibadət yerlərindən biri olmuş, onun Baş keşişi isə güllələnmişdir. Məbəd

[1]Hidayət Orucov, yenə orada, s. 349.

kommunist rejimi vaxtı anbara çevrilmiş, bir müddət sonra isə idman zalı kimi istifadə olunmuşdur[1].

İslam dininin yayılması, müxtəlif xalqlar arasında əsas inam mənbəyinə çevrilməsi işində Osmanlı və Səfəvi imperiyalarının din siyasətlərinin rolu danılmazdır. XI əsrdən başlayaraq türklərin Kiçik, Ön, Mərkəzi Asiyada, Qafqazda siyasi hakim qüvvəyə çevrilmələri, onların ideoloji silah olaraq islam dinindən istifadə etmələri, beləliklə, Avropa və Asiya ölkələrini birləşdirən beynəlxalq tranzit ticarət yollarını nəzarət altına almaları xristian dünyasını, xüsusilə də Roma papalarını daim həyəcan içində saxlayırdı.

Buna görə də Qərbdə "yalançı islam qorxusu" yarandı. Bu onlarda "Qara məni basmamış, mən qaranı basım" fikrini yaratdı. Bu "qorxunu" görün necə büruzə verirlər. 25 sentyabr 2014-cü il tarixdə Avstraliyanın Melburn şəhərinə gedən qatarlardan birinə əyləşən müsəlman qadın hücuma və irqçi təhqirlərə məruz qalıb. O, vaqonun qapısı yanında sakitcə dayandığı halda ucaboylu bir qadın əvvəlcə ona qarşı təhqiramiz ifadələr işlədib, sonra isə onun başını vaqonun divarına döyməyə başlayıb. Və növbəti stansiyada müsəlman qadın qatardan vaqondakılar tərəfindən bayıra atılıb. Maraqlıdır ki, polis cinayət edən qadını "Qafqaz milliyyətindən olan, şabalıdı saçlı, möhkəm bədənli qadın" (O tərəflərə kimlərin gedib çıxdığı hamıya məlumdur!) kimi təsvir edib.

Avstraliya polisi guya ölkə ictimaiyyətinə müraciət edərək baş verən bütün islamofob hücumlar haqqında məlumat verməyə çağırıb.

Qeyd etmək lazımdır ki, son vaxtlar bu ölkədə islam dininin təhqiri və müsəlmanlara hücum halları çoxalıb. Avstraliyada 200 il bundan əvvəl məskunlaşmağa başlayan müsəlmanlar hazırda əhalinin 1,7 faizini təşkil edirlər[2].

---

[1]Azərbaycanda din, s. 362.

[2] Almaniyanın Drezden şəhərində, ABŞ-ın Kaliforniya ştatında, Fransada, Avstriya, Danimarka və başqa Qərb ölkələrində tez-tez islama qarşı çıxışlar olur, Məhəmməd peyğəmbərin (s) karikaturalarının sərgisi keçirilir.

Dünyada xristianların sayı çox, haramdan qazandıqları sərvət bol olduğuna görə bəzi satqın, alçaq,rəzil Salman Rüşti kimilər xristianlardan haram “sədəqələr” almaq məqsədilə islama qara yaxır, vicdan, inanc, namuslarını pula sataraq, bütün dünyada ehtiramla qarşılanan, yüzdən çox dildə, milyardlarla nəşri olan Qurani-Kərimi “Şeytan ayələri” adlandırırlar. Həmçinin Avropa ölkələrində islam Peyğəmbərinin (s) karikaturalarının çəkilməsi xristianların əməlləri deyilmi? Bunun müqabilində müsəlmanlar ancaq karikatura çəkəni cəzalandırmağı tələb etdilər. İŞİD-in üzvləri isə onun başçısı Əbubəkr əl-Bağdadinin karikaturasını çəkəndən (dərc edəndən) iki saat sonra jurnalın ofisinə girib 12 işçisini ördürdülər və rahatca çıxıb getdilər.Əgər müsəlmanlar belə bir iş tutsaydılar Qərb “dünyanı dağıdardı”.Peyğəmbəri məsxərəyə qoymaq, Allahın Kitabını təhqir etmək hansı insanın ağlına gələ bilər, vəhşidən başqa. Allah-Təala axırıncı peyğəmbər kimi Məhəmmədi rəsul təyin etdi. Axırıncı olaraq da ona göndərdiyi islamı tam din olaraq göndərdi və ona nazil etdiyi Qurani-Kərimi də tamamladı. İncilə baxaq. Müasir 4 incil var. Niyə dörd, bəlkə də altıdır. Bunlar hamısı sonradan Matfey, Luka, Mark və İohan tərəfindən yazılmış nüsxələrdir (Allahın nazil etdiyi İncilin təhrifi ilə). Amerikada nəşr olunan “Avake” (Oyan) jurnalının 8 iyul 1975-ci il tarixli nömrəsində Karl Ceymsin yazdığı məqalədə göstərilir ki, “Kitabı Müqəddəsdə” (İncildə) 20 min xəta var. Hətta Qərbdə etiraf olunan bu həqiqət İncillərin necə bir təhriflərə uğradıqlarını göstərir. Əlbəttə, Allah-Təala bəndənin onun işinə qarışmağını sevməz. Və ona görə də Qurani-Kərimi tam nazil etmiş, Məhəmmədi isə axırıncı peyğəmbər kimi təyin etmişdir. Məhəmməddən (s) sonra peyda olan yalançı peyğəmbərlər isə ümmi (savadı olmayan) Peyğəmbərə nazil olan Qurana bənzər bir şey əmələ gətirə bilmədilər.

# II FƏSİL
# MÜASİR DÜNYADA İSLAMOFOBİYA

## 2.1. İslama qarşı çıxışlar, Quran, dövlət, din xadimləri və alimlərin onlara tutarlı cavabları

Müasir islamofobiya Qərbdə yaranmış məfhum olub, 20 ildən artıqdır ki, dünyanın bir çox ölkələrində geniş və dar çərçivələrdə davam edir. Birinci Körfəz müharibəsi və SSRİ-nin dağılmasından sonra Qərb dünyasına Şərq-Qərb tarazlığını saxlamaq üçün yeni düşmən lazım idi. Bu düşməni yaratmaq üçün isə dini duyğular ön plana çəkildi. 1992-2001-ci illər ərzində bu plan müəyyən mənada zəif templə inkişaf etsə də, sağlam köklərə malik idi. Hələ 1997-ci ildə "Runnymed Trust" adlı Britaniya tədqiqat mərkəzi "İslamofobiya – hər kəsə çağırış" adlı məruzə yayımladı. Layihənin rəhbəri Q.Korney islamofobiyanı "islama və müsəlmanlara qarşı qorxu və nifrət, mətbuat vasitəsilə cəmiyyətə təzyiq" kimi qiymətləndirmişdi[1].

2001-ci il 11 hadisələrindən sonra islamofobiya geniş-miqyaslı və təhlükəli xarakter aldı. Sonrakı üç ildə Əfqanıstan və İraq dağıdıldı, Balkan yarımadasında vəziyyət xeyli kəskinləşdi. ABŞ, Kanada, Avstraliya və bir sıra Avropa ölkələrində müsəlmanlara qarşı hədsiz təzyiqlər başlandı. Fransa sekulyar siyasətini daha da genişləndirdi. Rusiyada çeçen xalqının müsəlman olduğu dərhal xatırlandı. Bundan digər Qafqaz və müsəlman

---

[1] Gabriele Marranci: "Multikulturalism, İslam and the closh of sivilisations theory: rethinning İslamophobia", Culture and Religion: An İnterdisciplinary Journal, Vol. 5, № 1 (2004), p. 116 f; Novruz Nuriyev.İslamofobiya… 48.

bölgələri əziyyət çəkməyə başladı. Hətta Çində və Hindistanda da müsəlmanlara qarşı ictimai mübarizə başladı. KİV-də bu sahədə geniş təbliğat kampaniyası başlandı. Müsəlman və terrorist məfhumları yaxın, hətta eyni məna kəsb etməyə başladı. Bu cür təzyiqlər dünyanın bir sıra təşkilatlarını narahat etməyə bilməzdi. 2004-cü ilin dekabrında BMT-də qurumun Baş katibinin sədrliyi ilə "İslamofobiya ilə mübarizə" mövzusunda konfrans keçirildi. Avropa Şurası da islamofobiyanı pislədi. 2008-ci ilin martında Rusiya Federasiyasının beynəlxalq məsələlər üzrə Ali Şurasının sədri M.Marqelov bu problemə toxunaraq, Rusiya və Avropada problemin həlli yollarını təklif etdi. Rusiyanın bir sıra bölgələrində - Tümen, Nijnevartovsk və Çitada müsəlmanlara qarşı təzyiqlər xeyli artmışdı[1].

İslamofobiyanı təbliğ edən vasitələrdə (Məsələn Qirt Vildersin "Fitnə" filmi) terrorun şəhidlik, cihad anlayışıyla bağlı olduğu iddia edilir. Məhz beynəlxalq cəmiyyətə də kütləvi informasiya vasitələri ilə islamın müharibə, savaş dini olduğu düşüncəsi aşılanır. Hər müsəlmanın haqq uğrunda, yalnız müdafiə olunmaq məqsədi ilə vuruşması və malı, qanı, dini, ailəsi uğrunda şəhid olmağı şərəf bilməsi terror və zülm mənbəyi kimi təqdim edilir.

Qeyd etmək lazımdır ki, müsəlman cəmiyyəti içərisində bəzi radikal və ekstremist cərəyanlar Qərbin bu işinə daha yaxından yardımcı olurlar. Əfqanıstan və İraqda, Fələstin və digər Yaxın Şərq ölkələrindəki terror hadisələrində, Madrid və Londondakı metro, Rusiyadakı metro və hava limanı partlayışlarında islamın adı çəkilir, terrorçular sonuncu səmavi dinin adından çıxış edirlər.

Dünyanın bir sıra ölkələrində baş verən hadisələr- Fransada mətbəəyə hücum, Almaniyada "LEGİDA" adlı təşkilatın mühacir

---

[1] Abdul Qatar Tash. Islamophobia in the West (The Washington Report.November/December, 1996) p. 28; Novruz Nuriyev, İslamofobiya..., s. 48.

müsəlmanlara qarşı yürüşləri, habelə müsəlman ölkələrin bir çoxunda baş verən vətəndaş müharibələri, ekstremist qüvvələrin fəallığı həm siyasi-iqtisadi, həm də sosial-mədəni dəyərlərə böyük zərbədir. Müxtəlif diskriminasiya halları və müsəlmanlara qarşı ictimai təzyiqlər günümüzün daha dəyərli bir məfhumuna – tolerantlıq və dini dözümlülüyə, cəmiyyətlərdəki əmin-amanlığa qarşı yönəlmiş fəaliyyətlərdir. Bu dalğanın son təzahürləri isə Yaxın Şərqdə din adı ilə baş verən hərbi münaqişələr, islam adına dövlət qurulması və bu qurumun geniş terror fəaliyyətidir.

Bu müxtəlifliyə görə islamofobiyaya qarşı mübarizə metodlarının daha böyük təsir gücünə malik olması üçün tədricilik prinsipinə əsaslanmalı və o, yalnız maarifləndirmə yolu ilə aparılmalıdır. Sülh və barışıq dini olan islamın zorakılıq və terror dini kimi qələmə verilməsi maarifləndirmə prosesinin yeganə çıxış yolu olmadığını bir daha sübut edir. Antisemitizm kimi anlayışların da mövcud olduğu müasir dövrdə insanlara dininə görə təzyiq göstərmək cinayət tərkibli bir anlayışdır və istənilən cəmiyyəti məhvə sürüklüyə bilər[1].

"Cümə xütbələrində"(Bakı, 2006) bu mövzu barədə belə deyilir:

"İlahiyyat elminə görə, Qurani-Kərim Allahın bütün kainata nazil etdiyi risalədir və məqsədi irqi, etnik və digər mənsubiyyətindən asılı olmayaraq bütün insanları birləşdirməkdir. Quran bildirir ki, Məhəmməd (s) Allahın istisnasız olaraq bütün insanlara göndərdiyi peyğəmbərdir (Əl-Əraf, 158)".

Eyni zamanda, islam ayrı-ayrı xalqların mədəniyyətləri arasındakı fərqləri silib atmır, mədəniyyətləri bir-birinin dəyərlərinə və haqlarına təcavüz etmədən bir-birindən qarşılıqlı surətdə təsirlənməsi üçün açıq olmağa çağırır. Bu gün təbii sərvətlərimiz mü-

[1]Novruz Nuriyev. İslamofobiya..., s. 50.

qabilində bəzi xarici qüvvələrin xalqımıza saxta demokratiyanı qəbul etdirmək cəhdlərinin şahidiyik. Bu cür “demokratiyanı” onlar artıq Əfqanıstan, İraq, Liviya, Misirə gətirmiş, burada insanlara vəd olunan azadlıq və bərabərlik əvəzinə onlar əzab-əziyyətlərə və məhrumiyyətlərə düçar olmuşlar. İraqda, Misirdə anarxiya və qatma-qarışıqlıq baş alıb gedir, hər gün onlarla dinc əhali qırılır. Gürcüstan və Ukrayna xalqlarına da Qərb özünə sərf edən demokratiyanı artıq qəbul etdirmişdir. O cümlədən, Borçalıdan olan soydaşlarımızın da insan və əqidə haqları kobudcasına pozulur. Qərbin “demokratları” özlərini elə aparırlar ki, sanki bütün bu neqativ halları görmürlər və üstəlik bu azmış kimi sabitlik və demokratiya yolu ilə inkişaf edən ölkəmizin ayrı-ayrı bölgələrində böyük ciddi-cəhdlə guya insan haqlarının pozulması ilə bağlı “faktlar” axtarıb tapmağa çalışırlar. Qırğızıstanda demokratiya dərsləri onunla başa çatmışdır ki, Mərkəzi Asiyanın nisbətən inkişaf etmiş respublikalarından biri indi başını bir təhər qoruyub saxlamaq sisteminə keçməyə məcbur olmuşdur.

Xalqa bir tərəfdən, saxta demokratiya qəbul etdirməyə səy göstərir, digər tərəfdən də iman yerimiz olan islamı terrorizmlə eyniləşdirmək istəyirlər. Halbuki islam yer üzünə sülh və birlik gətirmək üçün nazil olunmuş dindir. Qurana görə bu din universal bir din olub, bütün zamanlar və bütün xalqlar üçün yararlıdır. islamın gəlişi ilə haqq batildən, doğru yalandan fərqlənmişdir. Allahın kitabında bu barədə belə deyilir: “De: Haqq gəldi, batil yox oldu. Çünki batil yoxluğa məhkumdur” (əl-İsra, 81).

Müsəlmanlar milli qürurlarını yadellilərin işğalından qorumalı, o cümlədən ideoloji ekspansiya cəhdlərinə qarşı barışmaz olmalıdırlar. Eyni zamanda Quran öyrədir ki, Vətən düşməndən təmizlənməli, düşmən işğal etdiyi ərazilərdən qovulmalıdır (Ey möminlər!) “Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın, Allah həddi aşanları sevməz!” (əl-

Bəqərə, 190). “Onlar sizi çıxartdıqları yerdən siz də onları çıxardın” (əl-Bəqərə, 191). “Zülmə məruz qaldıqlarına görə vuruşanlara izn verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir! O kəslərə ki, haqsız yerə ancaq “Rəbbimiz Allahdır!” dediklərinə görə yurdlarından çıxarılmışlar” (əl-Həcc, 39-40). Savaş haqqında Peyğəmbərimiz (s) də dəyərli sözlər demişdir: “Ey insanlar! Düşmənlə qarşılaşmağı təmənna etməyin və Allaha dua edin ki, sizi bundan qorusun. Amma elə ki, düşmənlə qarşılaşdınız, mətanətli olun və bilin ki, Cənnət qılıncların kölgəsi altındadır.”[1]

Yuxarıda Roma Papası XVI Benediktin 2001-ci il 11 Sentyabr hadisəsi ilə bağlı çıxışında müsəlmanları necə təhqir etdiyi haqda fikrimizi söyləmişik. İndi isə onun Ramazan bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə göndərdiyi məktubunu təqdim edirik:

“Yenicə bitmiş Ramazan ayı şübhəsiz ki, dualar oxunan və hal-hazırda dünyada mövcud olan vəziyyətə diqqət göstərmək məqamıdır. Allahı zikr etməyiniz gözəldir, amma bu məqamda yaşadığımız zəmanəyə təsiri olan haqsızlıq, yoxsulluq və istər ölkələr daxilində, istərsə də ölkələrarası münaqişələr kimi ciddi problemləri nəzərə almamaq qeyri-mümkündür. Zorakılıq və terrorizm xüsusi ağır cəzadır. Bir çox insan həyatı məhv olur, bir çox qadınlar dul qalır, bir çox uşaqlar valideynlərini itirib, kimsəsiz qalırlar. Fiziki və mənəvi sarsıntıların sayı çoxalır. Çox illər ərzində böyük əmək və qurbanlar nəticəsində qurulanlar bir neçə dəqiqə ərzində məhv olur. Məgər biz, müsəlman və xristian möminlər olaraq, bu ciddi problemlərin həllinə öz köməyimizi göstərə bilmərik?! (Göstərmirsiniz də! Qulağınızın dibində bir ovuc yəhudi, ərəbləri, xüsusilə də fələstinliləri əsir-yesir edib. Nə iş görmüsüz bu barədə? Budur, Ramazan ayında (2014) İsrail

---

[1]Azərbaycahda din, s.17-19, 38.

Fələstində dinc əhaliyə necə divan tutur?!). Şübhəsiz ki, dinlərin, din rəhbərlərinin və bütövlükdə möminlərin kömək etmək imkanı bir-birindən asılıdır. Mömin olaraq, biz bu prosesdə öz rolumuzu oynamasaq, dinin yararlı olduğu və Allaha ibadət edənlərin səmimi olduqları şübhə doğurar". Görürsünüzmü XVI Benediktin əvvəlki çıxışı və bu məktubdakı sözləri arasındakı fərqi?

(DQİDK-nin bülleteni, 10-11 oktyabr № 6, 2002-ci il, ATƏT-in Bakı Konfransında) AR Prezidenti Heydər Əliyevin bu mövzu ətrafında nitqindən:

"Qeyd etmək istərdim ki, dünya birliyinin terrorizmə qarşı apardığı mübarizədə fəal iştirak edən Azərbaycan xalqı 15 ildən artıqdır ki, terrorizmə və ayrı-ayrı terrorist təşkilatlarının qanlı aksiyalarına məruz qalır. 1987-ci ildən başlayaraq Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafında cərəyan edən hadisələr zamanı minlərlə insan qətlə yetirildi, uşaq, qadın və qoca məhv edildi, məcburi köçkün və qaçqına çevrildi. Onların yeganə günahı azərbaycanlı (müsəlman) olduqlarından ibarətdir[1].

Həmin dövrdə SSRİ rəhbərliyi Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün mərkəzin yeritdiyi məqsədyönlü siyasətə qarşı çıxmağa cəsarət edən Azərbaycan xalqına açıq-aşkar divan tutmaq yolunu seçdi. Sovet ordusunun böyük kontingentinin, çoxu ermənilərdən ibarət xüsusi təyinatlı bölmələrin və daxili qoşunların 1990-cı il yanvarın 20-də fövqəladə vəziyyət elan olunmadan Bakını işğal etməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklərlə müşayiət edildi. 137 nəfər günahsız insan qətlə yetirildi, 611 nəfər müxtəlif dərəcədə xəsarət aldı.

Azərbaycan xalqının inamını və iradəsini qırmaq, sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə ermənilərə hə-

[1]"Dövlət və Din" ictimai fikir toplusu. Mart, 2007, s. 9.

diyyə kimi törədilən 20 Yanvar faciəsi totalitar kommunist rejiminin xalqımıza qarşı dəhşətli cinayəti idi.

XX əsr tarixində totalitarizmin həyata keçirdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsi mahiyyət etibarilə həm də bəşəriyyətə, humanizmə, insanlığa qarşı yönəldilmişdi.Bunu da müsəlmanlarmı etmişdi? Bu da islam terrorudurmu? Təəssüf ki, bu cinayətin təşkilatçıları da, icraçıları da indiyədək cəzasız qalırlar, çünki müsəlman deyillər.

20 Yanvar hadisələrindən sonra Azərbaycan ərazisinə Ermənistandan terrorçu dəstələr göndərilməsi prosesi gücləndi, Azərbaycana qarşı silahlı təcavüzü həyata keçirmək üçün əməliyyat meydanı yaradıldı.

Erməni yaraqlılarının Qazax rayonunun bir sıra kəndlərində dinc əhalini qırması, Azərbaycanın Naxçıvan bölgəsinin kəndlərinə hücumları artıq sübut edirdi ki, əslində terrorçu dəstələr bütün sərhəd boyu Azərbaycanın dinc əhalisinə divan tutur. Xristianların müsəlmanları bu cür vəhşicəsinə qırmasına nə ABŞ, nə Qərbi Avropa nə də Rusiya reaksiya verir. Əksinə, islam terrorizmi haqqında bar-bar bağırırlar.

Azərbaycanı Naxçıvan ilə birləşdirən dəmir yolunun 130 kilometrlik sahəsində Dağlıq Qarabağ münaqişəsinin ilk çağlarından fasiləsiz terror aktları başlandı və bunun nəticəsində dəmiryol əlaqəsi kəsildi. Naxçıvan əslində tam təcrid olundu, blokada vəziyyətinə düşdü.

BMT-nin Təhlükəsizlik Şurası öz qətnamələrində Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmətin, ərazilərin ilhaq edilməsi üçün zor işlədilməsinin yolverilməz olduğunu təsdiq etdi, bütün işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş rayonlardan dərhal, tamamilə və qeyri-şərtsiz çıxarılmasını tələb etdi. Təhlükəsizlik Şurasının bütün tələblərinə baxmayaraq, Ermənistan Azərbaycan ərazisinin 20

faizini hələ də işğal altında saxlayır və orada özünün hərbi qüvvəsini artırır.Azərbaycanın bir milyondan artıq vətəndaşı məcburi köçkün və qaçqındır. Onların hər biri əslində terrorun qurbanıdır. Xüsusi vurğulamaq lazımdır ki, əgər Dağlıq Qarabağda yaranmış bu terrorçu dəstələrin əməllərinin qarşısı vaxtında alınsaydı, iki qonşu xalq böyük bir faciənin nəticələrinin aradan qaldırılması problemləri ilə üzləşməzdi.

Təəssüf ki, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağda və onun ətrafında terrorçu birləşmələr bu gün də fəaliyyət göstərirlər. İşğal olunmuş və nəzarətdən çıxmış ərazilərin mövcud olması terrorçu və cinayətkar qrupların fəaliyyəti üçün münbit zəmin yaradır. Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin 2001-ci il üçün məruzəsində qeyd olunduğu kimi, bu gün də Azərbaycanın işğal olunmuş ərazisində silah və narkotik maddələr tranziti, çirkin pulların yuyulması ilə məşğul olan müxtəlif beynəlxalq terrorçu təşkilatların üzvləri sığınacaq tapırlar. Buna son qoymaq bizim borcumuzdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında ATƏT-in Minsk qrupunun, digər qurumların və qüvvələrin bütün səylərinə baxmayaraq, məsələ hələ də öz həllini tapmayıb.

Azərbaycan, əhalisinin mütləq əksəriyyəti islama etiqad etdiyinə görə müsəlman ölkəsidir. Biz qürur hissi ilə qeyd edirik ki, Azərbaycan, onun alim və mütəfəkkirləri tarixdə böyük iz qoyan möhtəşəm islam sivilizasiyasına öz layiqli töhfələrini vermişdir. 1998-ci ildə Bakıda "İslam sivilizasiyası Qafqazda" mövzusunda keçirilmiş geniştərkibli Beynəlxalq Simpoziumda müxtəlif ölkələrin nümayəndələri tərəfindən bu barədə ətraflı söhbət aparılmışdır".[1]

ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun direktoru Jerar Ştudmanın bu mövzu barədə məruzəsindən:

[1]Heydər Əliyev. DQİDK-nin bülleteni, 10-11 oktyabr, № 6, 2002-ci il, s. 5-7.

"Dünyanın müxtəlif yerlərində, ayrı-ayrı dövlətlərdə, eləcə də 1970-80-ci illərdə, ötən il sentyabrın 11-də baş vermiş qanlı hadisələr din azadlığı məsələsini, dinin cəmiyyətdəki rolunu bir daha nəzərdən keçirməyin vacibliyini irəli sürmüşdür.

Terrorçular, bəzən terrorizmi din və mədəniyyətlər arasındakı mübarizə, islamı terrorizmin bir vasitəsi kimi qələmə verməyə çalışırlar. Bu fikir hamı tərəfindən rədd edilmişdir. Bir qədər tarixin dərinliklərinə müraciət etmək lazımdır. Keçmiş zamanda terrorçular və siyasətçilər öz şəxsi münasibətləri üçün xristian dinindən də istifadə etməyə cəhd göstərmişlər. Bir çox əsrlər bundan əvvəl, XIV əsrdə belə hadisələr baş vermişdir. Ona görə də heç kəs zəmanət verə bilməz ki, terrorçuların, yaxud da kimlərinsə maraqları üçün hansısa dindən istifadə edilməyəcəkdir.

Terrorizmə qarşı mübarizə insan haqlarını qorumaq məqsədi daşıyır. Terrorizmə qarşı mübarizədə Buxarest prinsiplərindən çıxış edərək, söyləmək olar ki, terrorizmin hər hansı bir millət və din ilə əlaqələndirilməsi qəti şəkildə rədd edilir.

Biz 11 Sentyabrdan sonra insan haqlarının qorunması ilə bağlı sənədə imza atmışıq. ATƏT-in üzvü olan bütün ölkələr, bizim hamımız bu beynəlxalq təşkilatın təhlükəsizlik konsepsiyasını əldə əsas tuturuq. Bu konsepsiya insanlar arasında hər hansı qarşıdurma yaranmasının əleyhinə çıxır.

Həm Qərbdə, həm də Şərqdə insanların dini ənənələrinə hörmət bəslənməlidir. Azərbaycanda dini dözümlülük heç də yeni konsepsiya deyildir. Bu ölkə yüz illər boyunca müxtəlif mədəniyyətlərin yanaşı yaşamasına, dözümlülüyə bariz nümunə ola bilər. Biz onu ümumi mədəni irsimizə münasibətdə nümunə kimi götürə bilərik"[1].

---

[1]Jerar Ştudman. DQİDK-nin bülleteni, № 6, 2002-ci il, s. 8-9.

Azərbaycan Respublikası DQİDK-nin sabiq sədri Rafiq Əliyevin bu mövzu barədə məruzəsindən:

"2001-ci ilin 11 Sentyabrından dərhal sonra terroru və ümumiyyətlə terrorizmi birbaşa islamla bağlayanlar çox oldu. Hətta islamı terror dini adlandıranlar da tapıldı (Bəs Bakıda ermənilərin metroda, avtobusda, qatarda törətdikləri terrorları kimin ayağına yazaq, onlar da müsəlmandırlar?). Dəhşətli terror aktından bir il keçib. Lakin heç kəs cəsarət edib dinlə, dini əqidə ilə terrorun və ekstremizmin əlaqəsinin olub olmadığına aydınlıq gətirmək istəmir. Bəziləri dinlə terrorun və ekstremizmin əlaqəsinin olduğuna ehtiyatla işarə edir, bəziləri dini əqidə ilə terrorun və eksrtemizmin qətiyyən əlaqəsi olmadığını sübuta yetirməyə, dini, dini təşkilatları tamamilə sığortalamağa cəhdlər göstərirlər.

Erməni Apostol kilsəsi Azərbaycan-Ermənistan münaqişəsinin sülh yolu ilə həlli sahəsində görülən işləri sözdə dəstəkləsə də, bu münaqişənin Ermənistanın işğalçılıq siyasətinin nəticəsi olduğunu bugünədək etiraf etməyib və 1988-1989-cu illərdə Qarabağ ermənilərinin separatçı ideyalarını dəstəkləmişdir"[1].

DQİDK-nin keçmiş sədri Rafiq Əliyevin "Heydər Əliyev və dini-mənəvi dəyərlər" adlı çıxışından: "70 illik sovet rejimi dövründə insanların zehnindən dini sıxışdırıb çıxarmaq məqsədilə çox iş görülmüşdür. İfrat dərəcədə ideolojiləşdirilmiş stereotiplər bütövlükdə materialist dünyagörüşünə əsaslanan əxlaqi tərbiyə sistemi yaradılmasına yönəldilmişdi. Bu sistem insanlara öyrədir ki, Allah yoxdur, din mövhumat və xurafatdan başqa bir şey deyildir, axirət inancı yanlış inancdır, ancaq dünya həyatı var və insan öləndən sonra hər şey bitir. Sovet dövründə yaşayıb böyümüş insan bu vaxta qədər alışmış olduğu ictimai yönümünü yeni dövrdə itirdi, çaşıb qaldı, nə edəcəyini bilmədi. Ölkədə qeyri-

[1]Rafiq Əliyev. DQİDK-nin bülleteni, № 6, 2002-ci il, s. 10-11.

ənənəvi dinləri, destruktiv sektaları yaymaq məqsədi güdən bir sıra xarici missioner təşkilatlarının fəaliyyəti geniş vüsət aldı. Erməni təcavüzü nəticəsində ölkə ərazisinin böyük bir hissəsinin işğal edilməsi, bir milyonluq qaçqın və köçgünlər ordusunun yaranması ilə bağlı sosial gərginlik şəraitində bu hal həqiqətən cəmiyyətimizin, xalqımızın gələcəyi, onun müasir millətlər toplusuna daxil olması yolunda ciddi əngəllər törədirdi. Əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, müxtəlif missioner təşkilatları "Dini etiqad azadlığı haqqında" qanundan istifadə edərək insan haqları və azadlıqlar adı altında hətta milli təhlükəsizlik və ictimai asayiş tələblərinə belə cavab verməyən dini firqələrin yad inanclarını ölkəmizə və millətimizə yaymağa, təlqin etməyə başladılar. Bir çox dini icma xaricdəki dini mərkəzlərin və missioner təşkilatlarının ölkəmizdə təbliğçilərinə çevrilmişdi. Azərbaycanda dərin köklərə malik olmayan qeyri ənənəvi dinlər geniş təbliğ edilirdi. Dini durumda tam aşkar olmasa da qeyri-stabillik meyilləri özünü göstərir, radikallaşma prosesi canlanır və beləliklə ümumi stabillik və hətta dövlətçilik üçün təhlükə notları səslənirdi.

Lakin buna baxmayaraq H.Əliyev qeyd edirdi: "İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli-mənəvi dəyərləri, dinimizin adət ənənələri bizim sərvətimizdir. Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır". Bakının ən böyük məscidi olan Təzəpir məscidinin, qədim tarixə malik Bibi Heybət məscidinin, Mir Möhsün ağa ziyarətgahının bərpası bilavasitə onun himayəsi ilə həyata keçirilmişdir. Böyük Britaniyanın Lordlar Palatasında keçirilən seminarın mövzusu (Dünyəvi dövlətdə dinlərin birgə yaşayışı: Azərbaycanın pozitiv təcrübəsi) bir daha sübut edir ki, ölkəmiz 10 illik müstəqil inkişaf dövründə dini tolerantlıq və dözümlülük nümunəsi imicini qazanmışdır. Azərbaycanda qonaq olan Roma patriarxı I Varfolomey də ölkəmizdə tolerantlığın canlı olduğunu demişdir. Təkcə

onu qeyd etmək kifayətdir ki, son aylarda Bakıda iki yəhudi sinaqoqu və Jen Mironostes Kafedral kilsəsi bərpa edilərək dindarların istifadəsinə verilmişdir. Avropanın göbəyində yerləşən bəzi ölkələr dini dözümsüzlükdən əziyyət çəkdikləri halda biz Azərbaycanda yəhudilər, xristianlar və müsəlmanlar arasında qarşılıqlı hörmət və sıx əməkdaşlığın daha da möhkəmləndiyini görürük. Roma papası İoan II Pavel 2002-ci ilin mayında Bakıda olarkən demişdir: "Azərbaycan üç müxtəlif dinin dinc yanaşı yaşadığı nadir bir ölkə və dini dözümlülük baxımından sabit cəmiyyətdir". Bu sabitlik gərgin əməyin, ölçülüb-biçilmiş çox incə bir siyasətin və möhkəm iradənin nəticəsidir"[1].

Ulu öndərimiz Heydər Əliyev islam dinini və Azərbaycan xalqının keyfiyyətini təsvir edərək deyirdi: "Hesab edirəm ki, Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan əhalisinin çox hissəsinin etiqad etdiyi islam dinində, onun kökündə də tolerantlıq var. Ancaq təəssüf ki, son zamanlar dünyanın müxtəlif regionlarındakı müsəlmanları ekstremist, təməlçi, tolerantlıq prinsiplərini tapdalayan insanlar kimi qələmə verirlər. Nə qədər acı olsa da, belələrinə və islamı humanizmdən uzaq kimi qələməvermə hallarına bəzi xristian ölkələrində tez-tez rast gəlmək mümkündür. Bu, islam dininə, bütün müsəlman dünyasına və onun tərkib hissəsi kimi Azərbaycan xalqına qarşı ədalətsizlikdir"[2].

Bakıda keçirilən dəyirmi masada ABŞ-ın Azərbaycandakı səfiri xanım Enn Dersi qeyd etdi ki, əsl islamda terrora və zorakılığa yer yoxdur. Orada yalnız sülh və anlaşma var. İslam yer üzündə milyardlarla insana rahatlıq gətirən bir dindir (Bu səfirin dediyi. Amerika alimləri və siyasətçiləri isə tamam başqa hava çalırlar).

---

[1]DQİDK-nin bülleteni, № 10, 2004-cü il.
[2]"Dövlət və Din" ictimai fikir toplusu. Mart, 2007.

"İslamda dözümlülük və müasir dünya gerçəkliyi" adlı məqaləsində Şeyxülislamın birinci müavini Hacı Salman Musayev qeyd edir: "Allah peyğəmbərlərdən: "Sizə verdiyim kitab və bilikdən sonra sizdə olanı təsdiq edən bir peyğəmbər gəldikdə ona mütləq inanıb yardım edəcəksiniz" – deyə əhd almışdır (Ali İmran, 81). İslam, müsəlmanları öyrədir ki, Quranla yanaşı, İbrahimə, İsmailə, İshaqa və onun övladlarına, Musaya və İsaya nazil olan Kitablara da iman bəsləsinlər" (Bəqərə, 136). Belə iman olmadan müsəlmanın imanı kamil sayılmır.

Bu prinsipi təbliğ edən Quran dini dözümsüzlüyün bütün təzahürlərini pisləyir. Yəmən məliki Zu Nuvas Nəcran xristianlarını dinlərindən döndərmək üçün xəndək qazdırıb onları seçim qarşısında qoymuşdu: ya öldürüləcək ya da dininizdən dönəcəksiniz. Xristianlar ölümü seçmişdilər və 20 min nəfər öldürülmüşdü, yalnız bir nəfər nicat tapmışdı.[1]Quran günahkarları lənətləyərək onların cəzası barədə belə xəbər verir: "Xəndək sahibləri qətl edildilər. O xəndəklər ki, çırpı ilə alovlandırılmışdı. O zaman onlar (xəndəklərin) kənarında oturub möminlərin başlarına gətirdiklərinə tamaşa edirdilər" (Buruc, 4-7). Xristian bizanslılar və həbəşlər intiqam almaq üçün Yəməni işğal edir və burada xristianlığı yayırlar, sonra isə ərəbləri Məkkədən (islamdan) döndərib, Sənada tikdirdikləri yeni kilsəyə çəkmək fikrinə düşürlər, həbəş ordusu Kəbəni dağıtmaq üçün fillərlə Məkkənin üstünə gedir. Allah dini dözümsüzlüyə yol vermir, Əbabil quşlarını göndərib ordunu məhv edir: "Məgər Rəbbinin fil sahiblərinə nələr etdiyini görmədinmi?! Onların hiyləsini boşa çıxartmadımı?! Onların üstünə qatar-qatar quşlar göndərdi ki, onlara bişmiş gildən daşlar atırdı. Onları yeyilmiş əkin yarpağına döndərdi" (Fil, 1-5).

[1]İbn Kəsir. Təfsir əl-Quran, c. IV, s. 528.
3.Tarix ət-Təbəri,c.2,s.139-142.

İslam insanlar arasındakı etiqad müxtəlifliyini ilahi hikmətin nəticəsi hesab edir: “Rəbbin istəsəydi bütün insanları (eyni dində olan) tək bir ümmət edərdi, halbuki onlar hələ də müxtəlifdirlər” (Hud, 118). Deməli, etiqad müxtəlifliyi Allahın işidir, bu işə insanın müdaxilə etməsi düzgün deyildir. Allah yalnız özünə məlum olan hikmətə görə istəmişdir ki, insanlar arasında dində, dildə, dərilərinin rəngində müxtəliflik olsun. Əlbəttə, hər bir səmavi dinin təbliğ edilməyə haqqı var. Lakin bu təbliğ hikmət, gözəl öyüd-nəsihət əsasında aparılmalıdır: “İnsanları hikmətlə, gözəl öyüd-nəsihətlə Rəbbinin yoluna dəvət et” (Nəhl, 125).

İman daxili qənaət əsasında olmalıdır. İslam öyrədir ki, “Dində məcburiyyət yoxdur” (Bəqərə, 256). Quranda Allah öz Peyğəmbərinə (s) buyurur: “Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi, yoxsa sənmi onları iman gətirməyə məcbur edəcəksən?!” (Yunus, 99). O ki, qaldı Quranın “Qılınc ayəsinə” (ayət əs-Seyf) və Peyğəmbərin (s) “Mən qılıncla göndərilmişəm ki, qiyamətədək yalnız Allaha ibadət edilsin” hədisinə - islamın qılınc gücünə yayıldığı barədə iddialara, onların heç bir əsası yoxdur. Əvvəla, ona görə ki “Qılınc ayəsinin” konkret olaraq hansı ayə olduğu mübahisəlidir. İkinci, Peyğəmbərə (s) aid edilən hədisin də səhihliyi şübhəlidir, çünki həm istinadları zəifdir, həm də Quranda əsası yoxdur, yəni heç bir Quran ayəsində Peyğəmbərin (s) qılıncla bəsət edildiyinə işarə edilməmişdir, əksinə, Quran Peyğəmbərin (s) aləmlərə rəhmət olaraq göndərildiyini (Ənbiya, 107), möminlərə şəfqətli və mərhəmətli olduğunu vurğulayır (Tövbə, 128). İslamın cihad haqqında təlimi də bu dinin qılınc gücünə yayıldığı barədə iddialara əsas vermir, çünki islam, cihadı hər şeydən əvvəl insanın öz nəfsi ilə mücadiləsi, mənəvi kamillik yolunda mübarizəsi kimi izah edir. Silahlı mübarizə kimi cihad isə özünümüdafiə və ədaləti bərpa etmək yolu kimi göstərilir”.

Bu və digər prinsiplər müsəlmanları başqa səmavi dinlərə münasibətdə dözümlü olmağa öyrətmişdir. Orta əsrlərdə bütün müsəlman cəmiyyətlərində Əhli-Kitaba hörmətli münasibət bəslənilmiş, xəlifələrin, sultanların, şahların saraylarında yəhudi və xristianlar məsul vəzifələr tutmuşlar, halbuki heç bir Avropa ölkəsində dini dözümlülük bu səviyyədə olmamışdır. Əgər nə vaxtsa, haradasa ayrı-ayrı dinlərin və məzhəblərin ardıcılları arasında münaqişələr yaranmışsa da, bunun səbəbi dində yox, siyasətdə axtarılmalıdır[1].

İslam dininin terrorla heç bir əlaqəsi olmadığı barədə Azərbaycan Respublikası DQİDK 20-21 dekabr 2001-ci il tarixdə Bakıda "İslamın terrora münasibəti: həqiqi anlam və təhrifli şərh" mövzusunda beynəlxalq konfrans keçirmişdir.

XX əsrin 80-ci illərindən başlayaraq terrorizm Qərbdə tez-tez neqativ hadisə və islama sinonim anlayış kimi işlədilir. Dinlərarası dialoqu genişləndirmək məqsədilə dünya dövlətlərinin rəhbərləri dəfələrlə dinlərin, xüsusilə də islamın sülhsevər xarakterini, bu dinin terrorçuluqla müqayisəsinin qeyri-düzgünlüyünü qeyd etsələr də, Nyu-York və Vaşinqtonda baş vermiş 11 Sentyabr 2001-ci il dəhşətli terror hadisələri məhz islamın terrorizmdə günahlandırılmasına yeni təkan verdi və bu sahədə aparılan qərəzli təbliğat dünyanı xristian-müsəlman qarşıdurması probleminin reallaşması ilə üzləşdirdi.

İslam sülh dinidir. O, terrorizmin, hər hansı bir məcburiyyətin və zorakılığın əleyhinədir, ekstremizmi rədd edir. Bu, müsəlmanların müqəddəs kitabı Qurani-Kərimdə də öz əksini tapmışdır. Lakin Quran ayələrinin şərhi bəzən Qərb alimləri tərəfindən təhrif edilir.

Konfransda terrorizmin tarixi, onun yayılma arealı, islamın zorakılığa qarşı münasibəti, haqq dini ilə terrorizmin bir araya

[1]Адам Мец. Мусульманский ренессанс. М. Наука, 1996, s. 97-98.

sığmaması və s. mövzularda fikir mübadiləsi aparılmış, maraqlı mülahizələr irəli sürülmüşdür.

DQİDK-nın sabiq sədri Rafiq Əliyev öz məruzəsində bildirdi ki, terrorizmin səbəblərini dində axtarmaq, bu hadisəni hər hansı bir dinlə bağlamaq cəhdləri perspektivsizdir, çünki heç bir dində terrorizmə səsləyən, onu açıq-aşkar dəstəkləyən çağırışlara rast gəlmək mümkün deyil. Bütün haqq dinlər, xüsusilə də islam, insanlar arasında barışıq, qarşılıqlı dözümlülük tərbiyə edir (Bəzi insanlar onu öz xarakterlərinə uyğun əyintilərlə eyniləşdirilər). Din adı altında terrora bəraət qazandıranlar olub, var və yəqin ki, olacaqdır. Bu isə dinin ruhunu, onun əsas imkanlarını təhrif etmədən mümkün deyil. İslama münasibətdə belə təhriflərdən biri müasir şəraitdə bu səmavi dinin cihad prinsipinə verilən şərhlərdə öz əksini tapır. Rafiq Əliyev terrorçuların milli və dini mənsubiyyətindən danışmağı mümkün hesab etsə də terrorizmi bütövlükdə bu və ya başqa dinə aid etməyi əsassız sayır[1].

Konfransda tanınmış şərqşünas Tariyel Həsənov islamın cihad prinsipinin təhlilinə geniş yer verərək qeyd etdi ki, bu prinsip müxtəlif təkamül mərhələləri keçmiş, ayrı-ayrı tarixi dövrlərdə müxtəlif məna daşımışdır. “Allah yolunda silahlı mübarizə” mənası bu mənalardan birini təşkil edir. O, cihadın müdafiə məqsədilə mübarizə, əxlaqi kamilliyə yetişmək yolunda ciddi cəhd, yaxşılığa əmr etmək və pislikdən çəkindirmək işində əzmkarlıq və digər mənaların müfəssəl təhlilini verərək, bütövlükdə “cihad” prinsipinin terrorizmlə əlaqələndirilməsinin yolverilməz olduğunu bildirdi[2].

İranlı Doktor Cavad Heyət (İran) islam mədəniyyətinin dünya xalqlarının mədəniyyətinə göstərdiyi güclü təsirdən danışaraq qeyd edir ki, belə bir mədəniyyətin ideya əsasını, mahiyyətini təşkil edən islamın terror kimi arzuedilməz və nifrət doğuran bir

[1]Rafiq Əliyev. DQİDK-nin bülleteni, № 10, 2004.
[2]Tariel Həsənov. DQİDK-nin bülleteni, № 10, 2004.

hadisə ilə heç bir əlaqəsi ola bilməz, əsl köklü müsəlman şüuru terroru qəbul etmir.

Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfiri cənab Əli Həsən Cəfər bildirdi ki, onun ölkəsi bütün beynəlxalq forumlarda məqsədindən, yerindən, habelə kim tərəfindən törədilməsindən asılı olmayaraq terrorun bütün təzahürlərini, xüsusən də 11 Sentyabr terror aktını qətiyyətlə pisləyir, terrorun bütün formalarına qarşı mübarizədə beynəlxalq səylərin birləşdirilməsini zəruri hesab edir. Eyni zamanda Krallıq beynəlxalq terrorizmə qarşı mübarizənin islam və ya terrorla heç bir əlaqəsi olmayan günahsız müsəlmanlara qarşı çevrilməsinə, sivilizasiyalar arasında mübarizə kimi qələmə verilməsinə qəti etirazını bildirir. Ölkə İKT (İslam Konfransı Təşkilatı) və BMT xətti ilə hazırlanmış "terrora qarşı mübarizə" sazişlərinə də qoşulmuşdur (səh. 20-22). Faktlar isə Səudiyyə Ərəbistanının terrorçuluğu –istər 11 Sentyabr,istərsə də İŞİD terrorçularını dəstəkləyir.

Dinlərin tarixi: yəhudilik, xristianlıq, islam haqqında DQİDK-nin Bülleteni 2004, № 10-da qeyd edilir:

"Hər şeydən əvvəl qeyd edilməlidir ki, yəhudilik, xristianlıq və islam səmavi dinlərdir. İkincisi, hər üç din eyni bölgədə - yaxın Şərqdə təşəkkül tapmışdır. Üçüncüsü, bu dinlərin üçü də eyni dini ənənədən – İbrahim peyğəmbərin (ə) hənifilik, təkallahlıq ənənəsindən doğmuşdur" (səh. 56).

"Din və insan hüquqları" mövzusunda 17 yanvar 2007-ci il tarixdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilliyi (Ombdusman) və DQİDK-nin təşkilatçılığı ilə keçirilən dəyirmi masada QMİ-nin Elmi-Dini Şurasının sədr müavini hacı Abutalıb Məmmədov "İslamın sülhsevər din kimi əsas dəyərləri" adlanan məruzəsində dinlə bağlı fikrilərini açıqlayıb, dinin özünü ancaq sülh şəraitində gerçəkləşdirə bildiyini qeyd edir. O, ekstremizmi, terrorizmi islamla bağlayanlardan söz açır. O, islamın

təkcə Allaha ibadətə çağıran din kimi deyil, onun həm hüquq, həm özünümüdafiə, həm də dinə çağırış, fəal hərəkata çağırış olduğunu bildirir: "İslamın sülh konsepsiyasına görə Allahını tanıyan heç kəs başqasına zülm etməz, insana zülm etməyən cəmiyyətə zülm etməz, yəni sülh şəraiti mövcud olar. Bunu bizi düşmən kimi tanıyanlar bilmir". Bir sufi filosof deyib: "Mənim azadlığım qulluğumdadır" – yəni mən, Allahın köləsiyəm. İslama qədər qız uşaqlarının öldürülməsi, diri-diri torpağa gömülməsi hər kəsə məlumdur. İslam buna son qoydu. "Canı verən də, alan da Allahdır"[1].

Mətbuat Şurasının sədri Əflatun Amaşov qeyri-islami qurumların Azərbaycanda fəaliyyətinin azad olduğunu diqqətə çatdıraraq qeyd etdi ki, Nyu-Yorkda baş verən terror hadisəsində müxtəlif ölkələrdə islama qarşı münasibət dəyişdi. Rusiyada dərc edilən qəzetlərdə də bu barədə yazılar verilmişdi. Orada "Rusiyanın bütövlüyü hansı məsələlərdən asılıdır?" sorğusu keçirilmişdi, 80% insan cavab vermişdi ki, milli məsələlər gərginləşərsə, ölkənin bütövlüyünə son qoyular. Rusiya bundan sonra bəzi tədbirlər gördü (s. 48-50).

16 noyabr 2007-ci il Beynəlxalq Tolerantlıq günü münasibətilə "Tolerantlıq örnəyi-Azərbaycan" mövzusunda keçirilən Dəyirmi Masada Şeyxülislam Hacı Allahşükür Paşazadənin dediyi kimi islam özündən əvvəlki dinlərə nəinki qadağa qoymamış, əksinə ayrı-ayrı dinlərə etiqad edən insanların vicdan azadlığının, öz məbədlərində dini ayin və mərasimlərini sərbəst icra etmək haqqının toxunulmaz olduğunu elan etmişdir. Nəticədə İslam dünyasına qovuşan Azərbaycanda bütün xalqlar öz dini etiqadlarını qoruyub saxlaya bilmişlər. Bütün bunlar ölkədə güclü tolerantlıq ənənələrinin təşəkkül tapmasına və ictimai şüurda bərqərar olmasına gətirib çıxartmışdır.[2]

[1]"Dövlət və Din" ictimai fikir toplusu. Mart, 2007.
[2] Dəyirmi masanın materialları,s.54-56.

Heydər Əliyev dinimizin dövlət məsələlərinin həllində mühüm rol oynadığını qeyd edərək demişdir:

"Bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik. İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir. Azərbaycanda müsəlmanlarla yanaşı başqa dinlərə etiqad edən adamlar da yaşayır. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdırlar. Çalışmalıyıq ki, dini, milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eynihüquqlu olsunlar və onların hamısının birliyini, vəhdətini təşkil edək. Bu da Allah-Təalanın buyurduğu bizim yolumuzdur. Heç vaxt inamımızdan, dinimizdən uzaqlamayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq. Azərbaycan öz Konstitusiyamıza görə də dünyəvi dövlətdir. Dövlət ilə Dini Qurumlar arasındakı münasibətlər Konstitusiya və "Dini etiqad azadlığı haqqında qanunla" tənzimlənir. Biz dini ilk növbədə mədəniyyətin, tarixi irsin, milli mentalitetimizin bir fenomeni və ayrılmaz bir hissəsi kimi qəbul edirik. Azərbaycan çoxkonfessiyalı bir ölkədir. Bu baxımdan o, dünyada dinlərarası, mədəniyyətlərarası əlaqələrin genişlənməsi və möhkəmlənməsi işinə öz layiqli töhfəsini verəcəkdir"[1].

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev dünyada baş verən hadisələrdən narahat olaraq qeyd edir: "İslam sülh, mehribanlıq, dözümlülük dinidir. İlk növbədə, bəzi ölkələrin KİV-də və müəyyən siyasi dairələr tərəfindən islamı terrorizmlə eyniləşdirmək cəhdləri bizi çox üzür, narahat edir və hiddətləndirir. Biz buna heç cür imkan verə bilmərik. İslamı terrorizmlə eyniləşdirmək olmaz. İslam sülh dinidir, mehribanlıq dinidir, dözümlülük dinidir. Azərbaycan özü terrorun qurbanıdır. Erməni terrorist təşkilatları bizə qarşı 30-dan çox terror aktı törətmişdir.

[1]Heydər Əliyev. Dövlət və Din, № 2, iyun, 2002.

Bu terror aktları nəticəsində 2 mindən çox azərbaycanlı həlak olmuşdur. Ancaq biz bu terrorist təşkilatları hər hansı bir dinə bağlamırıq. Bu düzgün deyildir. Terrorizmin nə dini var, nə də milliyyəti. Ona görə, biz bu məsələlərə öz etirazımızı daha da inamla bildirməliyik, öz sözümüzü deməliyik. Eyni zamanda, gərək bütün təbliğat imkanlarımızdan istifadə edərək, çox böyük narahatlıq doğuran bu mənfi meyilə öz münasibətimizi bildirək, öz hərəkətlərimizlə bunun qarşısını alaq.

Bizi narahat edən digər məsələ bəzi ölkələrdə islama nifrətin güclənməsidir. (13 yanvar 2015-ci ildə Almaniyanın Drezden şəhərində 25 minlik islamofoben nümayişçi islama qarşı şüarlarla küçələrə yayılmışdılar. Onlar özləri bunun üçün zəmin yaradırlar. İslam Peyğəmbərinin karikaturasını çəkir, müsəlmanlar buna etiraz edəndə küçələrə axışırlar. 10 fevral 2015-ci ildə ABŞ-ın Kaliforniya Ştatında vəhşinin biri bir ailənin üç üzvünü – bacı, qardaş və qardaş arvadını müsəlman olduqları üçün güllələyib və özündən razı şəkildə özünü polisə təhvil verib. Vəhşiliyə bax!). Biz indi sivilizasiyalar arasında dialoqdan çox danışırıq, amma əslində, real həyatda bunun əksini görürük. Müxtəlif ölkələrdə dini zəmində ayrı-seçkilik halları artır, islam dininə mənsub olan insanlara münasibət lazımi səviyyədə deyil və bu dini ayrı-seçkiliyə heç cür yol verə bilmərik. İndi biz qloballaşmadan söhbət açırıq, sivilizasiyalar arasında dialoqdan söhbət açırıq, demokratik dəyərlərə daha da sürətlə yiyələnirik. Belə olan halda, biz hər hansı bir zəmində dini yaxud da ki, milli zəmində ayrı-seçkiliyin olması, yaxud da hansısa bir dinin nümayəndələrinə mənfi münasibət göstərilməsi ilə heç cür barışa bilmərik”[1].

O, fikrini İKT-nın üzvü olan ölkələrin XİN Şurasının 33-cü sessiyasındakı çıxışında davam etdirərək qeyd edir ki, Azərbay-

[1]İlham Əliyev. Dövlət və Din, № 2, iyun, 2006.

can regionda nadir ölkələrdən biridir, biz burada qarşılıqlı hörmət, ehtiram, anlaşma müşahidə edirik. Bütün dinlər arasında anlaşma var. Azərbaycanda tarix boyu dinlərarası heç bir münaqişə və yaxud toqquşma olmamışdır və mən əminəm ki, bu dostluq və qardaşlıq ruhu gələcəkdə daha da möhkəmlənəcəkdir. Mən hesab edirəm ki, ölkəmizin bu sahədəki təcrübəsi dünyanın müxtəlif güşələrində də öyrənilə bilər[1].

YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın mövzu ilə bağlı çıxışından:

“Azərbaycan çox yüksək tolerantlığa malik ölkə kimi bütün dünyaya nümunə ola bilər. Əsrlər boyu karvan yolları üstündə yerləşən bu diyar digər millətlərin və dinlərin nümayəndələri ilə təmas qurmağı bacarır. Bu gün də bizim ölkədə məscid, sinaqoq, katolik və pravoslav kilsələri mövcuddur. Torpağımızda yaşayan hər bir millətin təmsilçisi eynihüquqlu Azərbaycan vətəndaşıdır. Başqa dinə dözümlülük və hörmət var. Elə bilirəm ki, bunlar hamısı bütün dünya üçün mesaj ola bilər”[2].

Araşdırdığımız mövzu ilə bağlı Davud Aydüzün “İslamda dinlərarası dialoqun əsasları” adlı məqaləsində deyilir:

“Kainatın mayası sevgidir. Sərtliklə, qabalıqla heç bir nəticə əldə edilməyəcəyi və edilmədiyi açıq-aşkar ortadadır. Sevgi, qayğı və məhəbbətlə bir adamın qapısının zəngi basılanda dialoq yolları açılır, həmin şəxsin təmsil etdiyi dəyərləri qarşısındakılara anlatmaq imkanı ortaya çıxır.

Dinlərarası dialoq dinləri birləşdirmək və ya bir yerdə əridib “yeni bir din” istehsal etmək təşəbbüsü deyil. Dinlərarası dialoq bütün təriqətləri qoruyaraq, heç bir məcburiyyətdən istifadə etmədən səmimiyyət və anlayış daxilində ortaq məsələləri müzakirə

[1] İlham Əliyev. Dövlət və Din, № 2, iyun, 2006.
[2] Yenə orada, s. 7.

etmək, danışmaq və birgə həll yolları axtarmaq cəhdidir. Daha islamın üstünə düşüb, onu terrorizmdə günahlandırmaq yox!

Dialoq güzəştə getmək və ya nəsə qoparmaq hərəkatı da ola bilməz. Həmçinin dialoqda iştirak edən bir dindarın da öz imanı təcrübəsini başqası ilə bölüşmək istəməsi çox vacibdir. Yığıncaqlarda bəzi məsələlərə, xüsusilə tərəflərin bir-birini incidəcək mövzulara heç girilməməsi lazımdır, əksinə müştərək məsələlərdə dialoq qurulmalı, ortaq məsələlər bir yerdə müzakirə edilib, həll yolları tapılmalıdır.

Dinlərarası dialoqun əleydarı olan bəzi adamlar bunun faydasız, bəziləri isə zərərli olduğunu desələr də, dialoq görüşlərinin gözlə görə bildiyimiz faydaları və səmərələri vardır. Bunların bir qismi keçmişdə görülmüş, bir qismi indi görülür.

Dialoq iki tərəf arasında sülhə yol açır, çünki dinlər arasında sülh olmasa millətlər arasında barış ola bilməz. Həmçinin dinlər arasında dialoq olmasa dinlərin arasında sülh meydana gələ bilməz”[1].

Qurana nəzər salsaq orada əfv, dialoq və hamıya könlünü açmaqla bağlı onlarla ayə tapmaq olar. Bu məsələ islam dininin hər kəsi qucaqlayan tərəfini göstərir.

Qurani-Kərimə görə, bütün dinlər əsas prinsiplərdə eynidir. Hz. Məhəmməd (s) bir hədisində deyir: “Biz peyğəmbərlərin dinləri təkdir” (Buxari, Ənbiya, 48). Ona görə də müsəlman Allaha, Onun mələklərinə, göndərdiyi Kitablarına inandığı kimi həmin Kitabları öyrədən peyğəmbərlərə də heç bir ayrı-seçkilik salmadan inanır (Bəqərə, 285; Ali-İmran, 84). Lakin xristianlar bunun tamam əksinə edirlər. Qurani-Kərimdə Hz. Məhəmmədə (s) keçmiş peyğəmbərlərin yolu ilə getmək əmr edilir (Ənam, 90, Nəhl, 123). Bu yol Qurani-Kərimdə bütün açıqlığı ilə bildirilmiş-

[1]Davud Aydüz. İslamda dinlərarası dialoqun əsasları. Dövlət və Din, № 2, iyun, 2006.

dir (Maidə, 48). Çünki əvvəlki ilahi Kitablar sonrakı dövrlərə qusurlu şəkildə gəlib çıxmışdır. Aşağıdakı ayə də Kitab əhli ilə hansı ortaq məqsəddə yaxınlaşması lazım olduğuna işarədir: "Söylə, ey Kitab əhli, sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf gəlin. Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub, bir-birimizi Rəbb qəbul etməyək!"... (Ali İmran, 64).

İslama görə sevginin və xoşməramlılığın mənbəyi Qurandır. Bu düşüncə çoşqun çay halında Quranın təbliğatçısı Hz. Məhəmməddən (s) axıb gəldiyi üçün bir müsəlmanın (deməli Əhli-Kitabın da) bu mövzuda fərqli düşünməsi mümkün deyil. Çünki zidd bir fikir Quranı və rəsulullahı tanımamaq deməkdir. Buna görə də dialoq və xoşməramlılıq Qurana və sünnəyə əsaslandığından müsəlmanın təbii əxlaqıdır. Allah rəsulunun (s) Mədinəyə hicrət etməsindən sonra Mədinədə yəhudilər də daxil olmaqla şəhər əhalisi arasında bağladığı hüquqi və ictimai müqavilə həqiqətən də diqqətəlayiq bir sənəddir. Hazırda nə Lahey, nə Strasburq, nə də Helsinki İnsan Haqları Bəyannamələri rəsuləllahın (s) 15 əsr əvvəl ortaya qoyduğu hüquqi və insani əsaslar səviyyəsinə çata bilməmişlər. Rəsulullah (s) Mədinədə Əhli-Kitabla da birgə yaşamışdır.

Peyğəmbər (s) Rəbbindən aldığı tərbiyə ilə müsəlman, xristian və yəhudi demədən demək olar ki, hər insana dəyər vermişdir. O, bir gün yoldan yəhudi cənazəsi aparılarkən ayağa qalxır. Ona deyirlər ki, ya Rəsuləllah, o yəhudidir. Hz. Məhəmməd (s) isə: "O, bir insandır", cavab verir"[1].

Rafiq Əliyev mövzu barədə "İslamda əsas insan hüquqları və azadlıqları" adlı məqaləsində bunları həm dünya, həm də axirət qanunları ilə təmin etməyə çalışmışdır.

---

[1]Davud Aydüz. İslamda dinlərarası dialoqun əsasları. Dövlət və Din, № 2, iyun, 2006.

İslama görə insan, hər şeydən əvvəl, yaşamaq hüququna malikdir. İnsan həyatı müqəddəs və toxunulmazdır. Bu həyat insana Allah tərəfindən bəxş edilmişdir və Allahın iradəsi olmadan ona heç kim qəsd edə bilməz (Müsəlmanları terrorist elan edib, onları təqib etmək xristianların istəyidir). Allah buyurur: "Dirildən də, öldürən də Bizik, varis olan da Bizik" (Hicr, 23). Hər bir fərdin həyatına haqsız təcavüz bütün cəmiyyətə qarşı təcavüz sayılır. İslam ümumiyyətlə, insanın haqsız yerə öldürülməsini qadağan edir: "Allahın haram qıldığı cana qıymayın" (Ənam, 151). İslam insanın həyat haqqına o qədər böyük əhəmiyyət verir ki, insanları intihar etməkdən də çəkindirir. "Özünüzü öldürməyin" (Nisə, 29). İslamın bu hökmünə əsasən özünü öldürən adam cəhənnəmlikdir.

İnsanın azadlıq hüququ vardır və bu hüquq təbii hüquqdur. İnsan azad yaradılmışdır və onun azad yaşamaq hüququna qəsd edilməməlidir. İnsan Quranda heç bir insanın qulu kimi vəsf edilmir, o, yalnız Allaha qulluq-bəndəlik edir. İnsanın öz vətənində, xalqın öz yurdunda azad yaşamaq hüququ vardır və əgər bu hüquqa təcavüz edilərsə, insan da özünü müdafiəyə qalxmalıdır. İslam azadlığın insanların təbii bir hüququ olduğunu elan etmişdir"[1].

İslam etiqad məsələsində təqlidçiliyi rədd edir, şüurlu seçimə üstünlük verir, eyni zamanda bildirir ki, "Dində məcburiyyət yoxdur" (Bəqərə, 256). "Quranda Peyğəmbərə (s) xitabən "Əgər Rəbbin istəsəydi, yer üzərində olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?" (Yunus, 99) deyilir. Bəs niyə bütün Avropa, Rusiya və Amerika daxil olmaqla müsəlmanları xristianlasdırmaq üçün dəridən-qabıqdan çıxırlar? Məgər onlar təkallahlı deyillər? Bəlkə onlar Allahı unudublar?! Onun əvəzinə qərar verirlər?!

---

[1]Rafiq Əliyev. Dövlət və Din, № 2, iyun, 2006.

İslam insanlar üçün geniş bir vicdan azadlığı tanımışdır. İnsan istədiyi kimi düşünməkdə, istədiyi kimi inanmaqda, istədiyi din və məzhəbi seçməkdə sərbəstdir.

İslam başqasına zərər verməyi və zülm etməyi qadağan etmişdir (Belə olan təqdirdə müsəlmanlar necə terrorçu elan edilə bilər? Əgər belədirsə, onda onları buna təhrik, məcbur edən var! Əsil müsəlman terror edə bilməz). Bu prinsip, dövlət rəhbərləri də daxil olmaqla, hər kəsə aiddir. İslam hər bir şəxsin şərəf və heysiyyətini qoruyur. İslama görə müsəlmanlar, insanlar bir-birilərinə qardaşdırlar, insanlar bərabərdirlər.

İslam insana insan olduğu üçün dəyər vermişdir. Kişi-qadın, qara-ağ, güclü-zəif, yoxsul-varlı olmasından asılı olmayaraq, əsil-nəcabət, qəbilə, millət fərqi qoymadan hər kəs şərəfli, heysiyyətlı, ləyaqətli və bir varlıq olaraq hörmət edilməyə layiq görülmüşdür.

"İslam hər kəsin canını, izzətini, namusunu, şərəfini, heysiyyətini, haqqını, azadlığını, malını və evini qorumuş, bunların toxunulmazlığını bəyan etmişdir. Beləliklə, həm fərdin, həm də cəmiyyətin asayiş toxunulmazlığı islamda mühüm sayılmışdır. Bunu təmin etmək üçün də islam insanların bir-birinə sevgi, hörmət və qardaşlıq duyğuları ilə münasibət göstərmələrini istəmişdir. Bu, Quranda və hədislərdə bildirmişdir"[1]. Belə olduğu halda xristianların islama qarşı bu qədər nifrəti hardandır?

Bəhsolunan mövzu barədə Aqil Hacıyev "Sovet Azərbaycanında din və dini təsisatlar" adlı məqaləsində deyir:

"Hər kəsə məlum olduğu kimi marksist-leninçi ideyalarını əsas tutmuş Sovet hökuməti müxtəlif zamanlarda dinə qarşı birmənalı münasibət bəsləməmişdir. Bir sıra qanunlarla, guya dini etiqad azadlığı üçün şərait yaratmış hökumət əslində bir çox vaxtlarda dinə qarşı amansız münasibət nümayiş etdirmiş, sırf

[1]Rafiq Əliyev. Dövlət və Din, № 2, iyun, 2006.

ateist bir cəmiyyət qurmaq üçün dəridən-qabıqdan çıxmışdır. Həmin dövrdə dinin tədrisi bütün təhsil müəssisələrindən yığışdırıldı, elmi ateizm isə hər yerdə mühüm fənn kimi tədris olunurdu. Din haqqında qəbul olunan bir sıra qanunlar isə əsasən dinin insanların həyatından uzaqlaşdırılaraq kiçik bir çərçivədə məhdudlaşdırılmasına şərait yaradırdı"[1]. Bütün bunlar islama qarşı mübarizə, çıxış, hücum kimi qiymətləndirilə bilər.

İnqilabın qələbəsi nəticəsində və sosializm quruculuğu prosesində sovet adamlarının həyat tərzinin kökündən dəyişməsi, habelə din əleyhinə aparılan inzibati-ateist tədbirlər nəticəsində dini məkanların, ruhanilərin mövqeyi və hörməti əsaslı surətlə sarsıdıldı, məscid və kilsələrin çoxu bağlanıldı. Lakin buna baxmayaraq Azərbaycanda gizli-açıq islam dini inkişaf etdirildi. Bakının Buzovna qəsəbəsindəki məscidin keçmiş axundu molla Məzahir Qasımov 30-cu illərdə məxfi surətdə Məşhədə gedib, orada dini təhsil alıb qayıtmışdı. 1933-cü ildə qadağaya baxmayaraq Zaqatala və Balakən rayonlarında bir neçə gizli mədrəsə fəaliyyət göstərirdi. Nəriman Nərimanovun təşəbbüsü ilə Azərbaycan Xalq Maarif Komissarlığının 15 may 1920-ci ildə verdiyi "Vicdan azadlığı Dekretinin" xüsusi rolu var idi. Dekret mövcud Dini Etiqad Nazirliyini ləğv edib, dinin dövlətdən və məktəbin dindən ayrılığını elan etdi. Sovet Azərbaycanı vətəndaşları istədikləri dinə etiqad edə bilər, yaxud heç bir dinə etiqad etməyə bilərdi. Lakin Azərbaycan ruhaniliyi başlı-başına qalmamışdı. Müsəlman dindarlar "Təzəpir", "Hacı Pirverdi" məscidlərinə, yaxud Axund Şeyx Qəni Molla Abdulla oğlu, Molla Murad Axundov və başqa hörmətli din xadimlərinin evlərinə yığılıb, dini məsələləri həll edirdilər[2].

[1]Aqil Hacıyev "Sovet Azərbaycanında din və dini təsisatlar".
[2]Hidayət Orucov. Azərbaycanda din, s. 166-167.

Azərbaycanın dini məsələləri dövlətin (Rusiya) qərarı ilə mərkəzi, Ufada olan Müsəlman Ruhani idarəsi tərəfindən idarə olunurdu və artıq bunu yerinə yetirə bilmirdi. 14 aprel 1944-cü il tarixli 17 nömrəli qərarla SSRİ Ali Soveti Rəyasət Heyəti Zaqafqaziya Müsəlmanlarının Ruhani idarəsini təşkil etdi. Mayın 25-28-də isə Zaqafqaziya müsəlmanlarının I qurultayı çağırıldı. Qurultay Axund Ağa Əlizadəni ZMRİ-nin sədri seçdi və ona şeyxülislam dini rütbəsini verdi.

Sosialist inqilabının qələbəsindən əvvəl Azərbaycanda 3 minə qədər "1927-ci ildə 1669, 1944-cü ildə isə 22 məscid və müqəddəs məkan "Göy imam", 70-ə qədər din xadimi fəaliyyət göstərirdi.

Zaqafqaziyanın Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarında olan müsəlmanlarının şiə və sünni cərəyanlarına mənsub dindarların sayı nisbəti nəzərə alınaraq ZMRİH-nin 7 üzvündən 4-ü şiə, 3-ü isə sünni cərəyanının nümayəndələri olmuşlar. İdarənin sədri vəzifəsini çoxluq təşkil edən şiələrin nümayəndəsi tutmuş, ona şeyxülislam rütbəsi verilmişdir. Sünnilərin nümayəndəsi isə Ruhani İdarəsi sədrinin müavini vəzifəsini tutmuş, ona müfti rütbəsi verilmişdir. Onun müavinliyi yalnız maliyyə-təsərrüfat işləri üzrədir. Dini-məzhəb məsələlərində müfti tam müstəqildir.

Sosialist inqilabından sonra Azərbaycandakı dini təşkilatların əmlakının milliləşdirilməsi (dövlətin malı elan olunması) nəticəsində bu təşkilatların və ruhanilərin maddi vəziyyəti çox pisləşmişdi. Məscid, kilsə və ruhanilər dövlətin yardımından tamamilə məhrum olmuş, yalnız dindarların yardımı ilə dolanmağa məcbur olmuşdular. Əhalinin qorxudulması yolu ilə dindarlıq bir növ adamların daxilinə qovulub gizlədilmişdi. Artıq, din onların əməli işlərində çox vaxt təzahür etmirdi. Məscidlərin, kilsələrin əsassız olaraq bağlanması və dağıdılması, din xadimlərinin güllələnməsi,

dindarların təqibi kimi qəddarlıq dindarlığın zahirən həddindən artıq "azalmasına" səbəb olmuşdu, yəni vətəndaşların böyük bir hissəsi öz dini hisslərini gizlətməyə məcbur olmuş, insanların dindarlığı onların daxilinə qovulmuşdu. Belə bir siyasət sayəsində əhalinin dini bilikləri olduqca məhdudlaşmışdı. Onlara din haqqında təhrif olunmuş məlumatlar təlqin edilirdi. Müsəlmanların dini ayinləri icra etmək imkanı xeyli aşağı düşmüşdü.

Sovet İttifaqının dağılması ərəfəsində Azərbaycan da öz müstəqilliyinə qovuşdu. Dinsiz rejim aradan qalxmaqla əhali öz dinini öyrənməyə girişmiş, ölkədə etiqad azadlığı bərpa olunmuşdur. Lakin insanların öz dinini öyrənmək istəyi çox vaxt pərakəndə şəkildə, müxtəlif yollarla yerinə yetirildi. Bir çox hallarda bu istək onları gizli missioner təşkilatları və ya xarici kəşfiyyatçıların caynağına salırdı, onlar vəhhabilik, bəhailik, nurçuluq və başqa cərəyanların təsirinə məruz qalırdılar. Bu kimi neqativ halların aradan qaldırılması üçün həqiqi dini biliklərin əhaliyə sistemli şəkildə çatdırılması lazımdır.

Fransız Anadolu Araşdırmaları İnstitutunun Bakı Filialı, DQİDK, Fransanın Azərbaycandakı səfirliyi və Bakı fransız Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə 2006-cı il mart ayının 6-da Fransa Mədəniyyət Mərkəzində "Dövlət və dünyəvilik" mövzusunda konfrans keçirilmişdir. Konfransda Fransanın məşhur Sorbonna Universitetinin tədqiqatçısı, Dini Tədqiqatlar Bürosunun rəhbəri prof. Jon Boberon "Qloballaşma kontekstində fransız dünyəviliyi" mövzusunda çıxış etmişdir. Qonaq çıxışında 1905-ci ildə Fransada qəbul edilmiş dünyəviliyin 100 illiyinə hazırlaşdıqlarını bildirmişdir.

Fransanın dünyəviliyinin tarixindən və günümüzdəki təzahürlərindən danışan tədqiqatçı dünyəviliyi həndəsi üçbucağa oxşadır: "Bu üçbucağın tərəflərindən birincisi dinin siyasətdən ayrılması, ikincisi din və məzhəb azadlığının təmin edilməsi və

üçüncü tərəfi isə müxtəlif dinlər arasında bərabərliyin qorunub saxlanılmasıdır. Bu, XX əsrin əvvəllərində Fransız dünyəviliyinin qəbul etdiyi variantır". Ancaq Fransa həmişə xristian erməniləri müsəlman azərbaycanlılardan üstün tutur. Qanunda bir şey, işdə isə başqa şey. Fransada islamofobiya baş alıb gedir.İslam Peyğəmbərinin (s) karikaturası durmadan çəkilir. Almaniyada (Drezden, 02.03.2015) islama qarşı yürüş edirlər, ABŞ-da (Kaliforniya Ştatında) Məhəmməd peyğəmbərtin (s) karikaturaları sərgilənir.

Konfransda DQİDK-nin sədri Rafiq Əliyev "Azərbaycanda Din və Dövlət" mövzusunda çıxış edərək dünyəviliyin Fransada 1905, Azərbaycanda 1918, Türkiyədə 1924-cü ildə qəbul edildiyini qeyd etmişdir. Azərbaycanda başqa ölkələrdən fərqli olaraq "Dini Etiqad Azadlığı haqqında Qanun" və onun həyata keçirilməsi üçün xüsusi Dövlət Komitəsi yaradılmışdır. Fransada isə belə bir şey hələ yoxdur. Heç başqa Avropa ölkələrində də yoxdur. Ancaq Qərbdə müsəlman ölkələrində vətəndaşların hüquqlarının pozulması haqda durmadan danışırlar. Rafiq Əliyev Konstitusiya vasitəsi ilə dini dövlətdən ayırmağın qeyri mümkünlüyünü söyləyərək "Din dövlətin dəstəyi olmadan inkişaf edə bilməz. Bu Amerikanın, Avropanın və Azərbaycanın da timsalında görünür" deyə qeyd etmişdir[1].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu mövzu barədə çox təəssüflə qeyd edir ki, dünyanın bəzi dairələrində islamı terrorla eyniləşdirmək istəyirlər. Biz bu cəhdləri pisləyirik. Müsəlman ölkələri tarix boyu bir neçə dəfə terror təşkilatlarının törətdikləri terror aktlarına məruz qalmışdır. Bu cəhdlər uğursuzluğa məhkumdur. İslam sülh, qardaşlıq, dözümlülük, tolerantlıq dinidir[2].

---

[1]Rafiq Əliyev. Dövlət və Din, № 2, iyun, 2006.
[2]İlham Əliyev. Dövlət və Din, № 1, fevral, 2006, s. 17.

Azərbaycan İlahiyyat İnstitrutunun rektoru,şərqşünas alim Ceyhun Məmmədov “Müasir Azərbaycanda dinə münasibət” adlı məqaləsində bu mövzu haqqında qeyd edir ki, Konstitusiyada və “Dini etiqad azadlığı haqqında” Qanunda dini mərkəzlərin, idarələrin, qurumların, icmaların və tədris müəssisələrin fəaliyyəti tənzimləndi.

Lakin Bakıda mərkəzlərini yaradan dini təmayüllü humanitar təşkilatlar Azərbaycanın böyük şəhərlərindən başlayaraq regionlarda da qeyri-islami dini təbliğat aparmağı qarşılarına məqsəd qoymuşdular. XX əsrin sonu XXI əsrin əvvəllərində xüsusilə, Gəncə və Sumqayıtda, Zaqatala, Quba, İsmayıllı və Xaçmazda geniş antiislam meylinin güclü olmasını nəzərə alan humanitar təşkilatlar bu bölgədə fəal dini təbliğat aparmaqdan çəkinsələr də, yerli dayaqlar yaratmaq məqsədilə müəyyən tədbirlər həyata keçirmiş və bəzi cənub rayonlarında xristian təmayüllü dini icmalar yaratmışlar.

2001-ci ildə DQİDK-nin yaradılması ilə ölkədə dini sahədə yeni bir mərhələ başladı. Ölkədə 1000-ə qədər dini icma fəaliyyət göstərir, bunlardan 406-sı dövlət qeydiyyatından keçmişdir. DQİDK-də ötən il (2005) 335 dini icma yenidən qeydiyyatdan keçirilib, onlardan 28-i qeyri-islam təmayüllüdür[1].

Azərbaycan hökuməti bütün dinlərin nümayəndələrinə dini ayinləri yerinə yetirmək üçün bərabər imkan yaradıb. Onların fəaliyyətinə yersiz müdaxilələr edilmir. İcmalara münasibətdə ayrı-seçkilik yoxdur. Ölkə rəhbərliyi mütəmadi olaraq dini icmaların rəhbərləri ilə görüşür, xristian və yəhudi icmalarını əsas dini bayramları münasibətilə təbrik edir. Xristian ölkələrində isə müsəlmanlar sıxışdırılır, islam müqəddəsatı təhqir edilir.

---

[1]Ceyhun Məmmədov. Müasir Azərbaycanda dinə münasibət. Dövlət və din, № 1, fevral, 2006.

Hazırda Azərbaycanda 1300 məscid (1927-ci ildə 1600-dək, 1917-ci ildə isə 3000-dən çox idi), 40 kilsə, sinaqoq və digər ibadət yerləri vardır. Yəhudi, pravoslav, katolik, protestant, bəhai və krişna dini icmaları qeydiyyata alınmışdır. 1920-ci ildə bağlanmış Cen Mironosets Baş kilsəsinin binası Rus Pravoslav kilsəsinin istifadəsinə verilmişdir. Kilsənin açılışında Azərbaycanın dövlət başçısı və hökumət üzvləri də iştirak etmişdir. 2001-ci ildə Bakıda daha bir pravoslav məbəd – Müqəddəs Məryəmin Baş kilsəsi bərpa olunub istifadəyə verilmişdir. Roma Katolik icmasının Azərbaycanda fəaliyyəti üçün şərait yaradılmış, icmaya kilsə inşa etmək məqsədilə torpaq sahəsi ayrılmışdır. 2003-cü ildə Bakıda yeni sinaqoqun açılışı olmuşdur. Tikintinin maliyyələşdirilməsində yəhudi təşkilatları ilə birlikdə QMİ, Rus Pravoslav Kilsəsinin Qafqaz və Xəzəryanı Yeparxiyası da yaxından iştirak etmişdir. Bu ildə Alban-udi xristian dini icması dövlət qeydiyyatına alınmışdır. Şəkinin Kiş kəndindəki qədim Alban kilsəsi təmir olunaraq udilərin istifadəsinə verilmişdir. 1836-cı ildə o, Rusiya çarı tərəfindən ləğv edilmiş və bütün əmlakı erməni apostol kilsəsinə verilmişdir.DQİDK-də Azərbaycandakı bütün icmaları öz ətrafına cəm edən “Sülh və barışıq naminə” Azərbaycan Dini İcmaları Birliyi yaradılmışdır[1]. Gördüyümüz kimi Azərbaycanda bütün dinlər və məzhəblərə yaxşı şərait yaradılır, xristianlar və yəhudilər isə islamı  təhqir edir, ərazilərimiz xristianların birgə səyləri nəticəsində işğal olunur.

Dövlət və Din (№ 1, fevral, 2006) araşdırdığımız mövzu barədə qeyd edir:

“Söz azadlığı təhqir deyil” deyə Qərb nümayəndələri Məhəmməd (s) peyğəmbərin karikaturasının çəkilməsinə haqq qa-

[1]Ceyhun Məmmədov.Müasir Azərbaycanda dinə münasibət.Dövlət və din,№ 1,fevral,2006.

zandırırlar. Bəzi avropa rəsmiləri hadisələrin bir jurnalistin səhvi üzündən baş verdiyini iddia edirlər. Amma məsələnin kökündə siyasi elementlərin daha çox olduğunu deyənlər də var. Lakin bu belə deyil. Bu, başqa Avropa ölkələrində də dəstəklənir. Almaniya, Norveç, Fransa və başqa ölkələrin mətbuatı da bunu dərc edib. ABŞ-da – Kaliforniyada karikaturaların sərgisi keçirilib. Deməli, avropa cəmiyyətində müsəlmanların təhqir edilməsinə müsbət yanaşma var. Dini amillər özü-özlüyündə heç vaxt belə hadisələrə gətirib çıxarmır. Din yalnız siyasətçilərin əlində bir alətə çevriləndə belə hadisələrə, çox vaxt da müharibələrə gətirib çıxarır. Tarixdə olan müharibələrin əksəriyyəti də belə səbəblərdən olub. Xaç yürüşləri, avropalıların öz ölkələrində və Şərqdə törətdiyi müharibələrin hamısı insanları özlərinə tabe etdirmək, müstəmləkə siyasəti yürütmələri ilə bağlı olub.

Şərqşünas alim Rafiq Əliyev qeyd edir ki, Roma Papası ilə yanaşı bir çox ölkələrin din xadimləri bu hadisənin pis əməl olduğunu bildirdilər. Lakin müsəlmanlar üçün təkcə pisləmək kifayət deyil. Burada söhbət qərardan gedir. Avropa Şurası, yaxud Avropa Birliyi səviyyəsində bir qərar olmalıdır, islama qarşı olan təhqirlər qadağandır. Avropa ölkələri bu barədə ciddi düşünməlidirlər. Məhəmməd peyğəmbər (s) bütün millətlərə peyğəmbər kimi göndərilmişdir. Onlar Peyğəmbəri (s) təhqir etməklə öz müqəddəsatlarını da təhqir etmiş olurlar, həm də müsəlmanları qıcıqlandırıb, araya nifaq salırlar. Belə hərəkətlərlə problemə münasibət bildirmək olmaz. Bu, vəziyyəti gərginləşdirə bilər. Bizdə olan icmalar bu barədə öz münasibətlərini bildiriblər. Biz həmin müraciətləri və Avropa Birliyinə ünvanladığımız məktubu XİN-ə təqdim etmişik. Biz bu məsələ ilə bağlı Avropa qurumlarından birinin qərar qəbul etməsini istəyirik. Onlar buna görə müsəlman dünyasından üzr istəməlidirlər.

“Azərbaycanda islam inqilabı təhlükəsi yoxdur” adlı məqaləsində R.Əliyev yazır:

“Uzun müddət ateist rejimi dövründə yaşadığımız üçün xalqımızın sərbəst şəkildə dinini öyrənməsi qeyri-mümkün olmuş, dini maariflənmə prosesi şüurlu, planlı şəkildə əngəllənmişdir. Ölkəmizdə dinlərarası və məzhəblərarası münasibətlərdə dözümlülük və dini tolerantlıq səviyyəsi bütün qonşu ölkələrlə müqayisədə daha yüksək və davamlıdır. DQİDK ölkədəki dini durumu öyrənir və ona nəzarət edir. Ölkədə inanclı insanlara, müxtəlif dinlərin və məzhəblərin mənsublarına təzyiqlərin göstərilməsi haqda heç bir ciddi fakt nəzərə alınmayıb. Bu barədə dini icmalar və ayrı-ayrı insanlar tərəfindən şikayətlər də yoxdur. Əksinə, qanunvericiliyə əsasən hər kəsin hər hansı bir dinə etiqad etmək və dini mərasimləri yerinə yetirmək hüququ ardıcıl şəkildə həyata keçirilir. Bir sıra beynəlxalq təşkilatların Azərbaycandakı dini duruma dair hesabatlarında bütün bu məsələlər öz əksini tapmışdır. Xarici ölkələrdə də Azərbaycanı dini tolerantlıq və dözümlülük nümunəsi kimi tanıyırlar.

Baş örtüyü və hicaba gəlincə bu hər kəsin şəxsi əqidə problemidir. Heç kim hicabla bağlı heç kimin etiqad azadlığına müdaxilə etməməlidir[1].

Şeyxülislam Allahşükür Paşazadə islamofobiya mövzusu barədə çox ətraflı olaraq öz əsərində belə yazır:

“Hazırda ayrı-ayrı ölkələri vaxtaşırı lərzəyə salan irqi, milli, dini münaqişələr və əqidə ixtilafları rəhm nə olduğunu bilməyən dəhşətli yoluxucu xəstəlik kimi müxtəlif ərazilərə yayılır. İnsanın həyatından sanki çoxdan silinib getmiş vəhşilik və barbarlıq təzahürləri yenə də haradasa özünü göstərir. Bu qorxunc kabus böyük

[1]Rafiq Əliyev. Azərbaycanda islam inqilabı təhlükəsi yoxdur. Dövlət və Din, № 1, fevral, 2006.

maddi və zehni imkanları xeyirxah yaradıcılıq məqsədlərindən ayırmaqla yanaşı, həm də qadir Allahın bəşəriyyətə bəxş etdiyi ən əziz neməti-həyatın özünü belə təhlükə qarşısında qoymuşdur. Bir sıra hadisələrdə bəzən islamı günahlandırmaq cəhdlərinə də rast gəlmək olur. Mətbuat səhifələrindəki müəyyən yazılarda Dağlıq Qarabağ hadisələrini tamamilə əsassız olaraq Quranın "Ey o kəslər ki, iman gətirmişlər! Yəhudiləri və nəsraniləri, xristianları özünüzə dost tutmayın" (Maidə, 51), yaxud "Ey iman gətirənlər! Özünüzə özünüzdən savayı dost tutmayın" (Ali-İmran, 118) çağırışları ilə əlaqələndirməyə cəhd edənlər də olmuşdur. Bəzi hadisələrdə "müsəlman təəssübkeşliyi" təzahürləri axtarmaq istəyənlər də az deyildir.

Çox vaxt unudulur ki, islam bütün səma dinlərinin mahiyyət etibarilə bir olması barədə fikri qəbul etməklə yanaşı, həm də öz ardıcıllarını başqa dinlərə ehtiramla yanaşmağa çağırır. Qurandakı "Həqiqətən, möminlər qardaşdırlar" (Hücürat, 10) kəlamı hər bir müsəlman üçün əziz və müqəddəsdir.

Son bir neçə onillik ərzində Azərbaycan respublikasında xalqın ictimai fikrinin, fəlsəfəsinin, tarixinin, mədəniyyətinin öyrənilməsi sahəsində aparılan tədqiqatlarda islam çox vaxt nahaqdan, əsası olmadan geriçilik meyli ilə əlaqələndirilir, onun ümumi-mədəni və əxlaqi dəyərləri heçə endirilirdi. Yaradıcı fikir dühalarının əzəməti, nəhəngliyi, görkəmliliyi əksər hallarda islama qarşı çıxıb-çıxmamaları ilə ölçülürdü. Unudulurdu ki, uzun əsrlər boyu xalqın ictimai fikrini, mədəni ənənələrini, yüksəlişini, birliyini din müəyyən etmişdir, alimin, maarifin, təhsilin ziyası dini mədrəsələrdən işıq saçmışdır. Dində baş verən donuqluğa, durğunluğa qarşı mübarizə heç də dinə qarşı mübarizə deyildir. Dində ehkamçılığa, atilliyə, ölgünlüyə qarşı Peyğəmbər (s) özü də mübarizə aparıbmış. Mədəniyyət tarixində dinin yerini danmaq isə tarixin özünü danmaq deməkdir. QMİ özündə şiə və sünni müsəlman ic-

malarını birləşdirir. Bu idarənin başçısı kimi mən hər iki islam təriqətinin ardıcıllarının dini hisslərinə, əqidə azadlıqlarına hörmət edirəm və zənn edirəm ki, onlar islamdan eyni dərəcədə bəhrələnəcəklər. Qəti əminəm ki, bir islam vardır. Bu islam mərhəmətli Allahın öz rəsulu Məhəmməd (s) vasitəsilə bütün bəşər övladına nazil etdiyi Quranın islamıdır. Orada deyilir: "Hamınız sülhə girin və şeytanın addımları ardınca getməyin, çünki o, sizin üçün aşkar düşməndir"! [1] (Bəqərə, 208).

İslam mədəniyyətinin Avropa mədəniyyətinə göstərdiyi güclü təsirə baxmayaraq, Avropa ictimai rəyində uzun müddət islama qarşı qərəzli, onun bir az uzaq olması ilə əlaqədar olaraq avropalılar üçün əlçatmazlığı, ərəb dilindəki mənbələrlə tanışlığın zəifliyi, tarix elmində hamılıqla məqbul sayılan tədqiqat üslublarının naqisliyi, tarixçilərin, əsas diqqəti müstəsna olaraq xristian Avropasına vermələri və qədim dünya tarixində xristianlığın yerini müəyyən qədər şişirtmələri də bu cür təsəvvürlərin yaranmasına öz təsirini göstərmişdir.

Orta əsr xristianları VII-VIII yüzilliklərdən başlayaraq müsəlmanların qeyri-adi uğurlarını açıq-aydın görsələr də, bunun necə və nəyin sayəsində baş verdiyini anlamağa cəhd göstərmirdilər: haqqında aydın olmayan bir surətdə eşitdikləri yeni dinin ardıcılları tərəfindən təhlükə əsaslı olmasa da, Məhəmməd peyğəmbəri (s), onun təlimini və müsəlmanları onlar üçün qorxu qarışıq nifrət və ikrah hədəfinə çevirmişdi. Kilsə xadimi də "dəhşətli düşmən"i hər vəch ilə ləkələməyə səy göstərirdi. Nəticədə islam haqqında belə bir təsəvvür yaranmışdı ki, guya din "Şeytan alətidir". Səlib yürüşləri ədəbiyyatı islama nifrət ruhu ilə doludur. Akvinli Foma Hz. Məhəmmədi (s) "zorakılıq həvarisi" adlandırmışdır. Dante Peyğəmbəri (s) "çox xalqları xristianlıqdan ayırdı-

---

[1]Allahşükür Paşazadə. Qafqazda islam: tarix və müasirli k.Bakı,1991,s.6-11.

ğı üçün cəhənnəmin doqquzuncu qatında" yerləşdirməklə orta əsrlər xristian əhvali-ruhiyyəsini əks etdirmişdir[1]. Xristianlar və yəhudilər müsəlmanları,onların müqəddəsatlarını təhqir etməyi özləri üçün şərəfli iş hesab edirlər.

Türklər Konstantinopolu (İstanbulu) təslim etdikdən sonra əsrlər boyu təşəkkül tapan "düşmən surəti" daha da gücləndi.

XIV-XV əsrlər xristian ədəbiyyatı dini ehtirasların təsiri altında islam haqqında müxtəlif uydurma fikirlər və böhtanlar yayırdı. Covanni Andreanın 1545-ci ildə Venetsiyada nəşr olunmuş kitabı XVI əsrdə islama dair Qərb ədəbiyyatının istiqamətini çox aydın göstərir. Bu kitabda müsəlmanların Peyğəmbəri (s), onun səhabələri yalançılıqda, qətllərdə, şan-şöhrət və mal-dövlət düşkünlüyündə, soyğunçuluqda, qarətçilikdə və başqa cəfəng və cəhalətlikdə uydurulmuş (özlərinə xas olan) günahlarda ittiham olunurlar.

Qəribə burasındadır ki, bu ittihamlar səlib yürüşləri vaxtı işğal edilmiş bir sıra müsəlman ölkələrində (Suriyada) yəhudi icmalarının kökünü kəsmək siyasəti yürüdən, reformasiya dövründə isə "kim idarə edirsə, dini də o müəyyən edir" fikrini əsas tutan xristian Avropasında eşidilirdi.

Avropa ölkələrində Şərqin tarixinin öyrənilməsinə protestant tədqiqatçılar maraq göstərdilər. İslam tarixi bisavad tacirlərin natamam şifahi xəbərləri əsasında deyil, Şərq məxəzlərinin səhih məlumatlarına istinadən 1651-ci ildə çıxan İ.H.Hottingerin "Şərq tarixi" kitabıdır. Ancaq burada da Quran "təhlükəli əqidə mənbəyi", islam təlimi isə "mənasız fikirlər yığnağı" kimi səciyyələndirilirdi.Belə alimləri bütün xristian aləmi yüksək qiymətləndirir.

XIX yüzilliyin ortalarına kimi islamı bu cür, bəzən mübahiləsi, bəzən bədxəhlıqla izah etmək meyli Avropada öz gücünü saxlamaqda davam edir: bu dinə həsr olunmuş əsərlərdə Allahın

[1]Qafqazda islam,s.16-25.

Rəsulu (s) kobud, kinli və hissə qapılan bir şəxsiyyət, islam isə özündən əvvəlki bütpərəstlikdən heç də fərqlənməyən yanılma və zəlalət kimi təsvir edilirdi, yaxud o,(Peyğəmbər) qəddar və rəhimsiz, haqqın qatı düşməni kimi qələmə verilirdi. "Məhəmməd yaxud təəssübkeşlik" faciəsində Volter özünün etirafına görə tarixi olduğu kimi qələmə almağa o qədər fikir verməmiş və Avropa ictimai fikrində ümumən qəbul olunmuş qənaətə əsasən Peyğəmbəri(s) "dini təəssübkeşlik mücəssəməsi" surətində canlandırmağa çalışmışdır.[1] Volter kimi yazıçının dediklərindən onun özünün təəssübkeş olduğu açıq görünür.

XIX əsrin ortalarından "İslam təhlükəsi" haqqında köhnə cəfəng uydurmalar tədricən yığışdırılmağa və onların yerini xeyirxah maraq və Şərqi müqəddəm qərəzli mövqe seçmədən başa düşmək cəhdi tutmağa başladı. Lakin, bu o demək deyil ki, Qərbin Şərqə münasibəti keçmiş şərhlərin buxovundan xilas olmuşdur. Bu baxımdan əslən hindli olan ingilis yazıçısı, çox güman pula satılan Səlman Rüşdinin islam dinini, Məhəmməd peyğəmbəri (s) alçaltmaq, Quranı təhqir etmək məqsədi güdən "Şeytan ayələri" kitabı buna tutarlı sübutdur və islama qarşı qərəzçiliyin hələ də davam etdiyini göstərir. Həm də qeyd etmək lazımdır ki, bu qərəzçilik, "islam təhlükəsi" haqqında uydurmalar İranda islam inqilabı qələbə çaldıqdan sonra daha da artmışdır[2].

İrəli sürülən nəzəriyyələr bir-birindən fərqlənsələr də, zahirən aralarında uyğunluq olmasa da, mahiyyət etibarı ilə bir məqsədə xidmət edirdilər: İslamın Peyğəmbərin (s) vətəni hüdudlarından kənara çıxması kimi qanunauyğun bir hadisə bu nəzəriyyələrdə qəribə təsadüfün nəticəsi, bir növ "tarixin gözlənilməz hadisəsi"

---

[1]Qafqazda islam,s.29-32.

[2] Адам Мец. Мусульманский ренессанс. М.1961, s. 41; Alcorani Texfus Universus. Padova, 1968; Gadnich İ. Vie de Mohommed, 1732; Voltarie. Mahomet au le Fanatisme, 1742;  Allahşükür Paşazadə. Qafqazda islam, s. 29-32.

kimi qiymətləndirilirdi. Diqqətlə baxsaq, E.Renanın, L.Masinyonun, H.Lammensin, L.Kaetaninin və bir çox başqalarının da irəli sürdükləri nəzəriyyələrin həmin qəliblər əndazəsində olduğunu aydın görərəik. H.Lammensə görə islamın yayılması bədəvi ərəblərin quldurcasına basqınlara və qarətlərə meyli nəticəsində mümkün olmuşdur. L.Kaetaninin "geoloji" fərziyyəsində isə islam fütuhatının əsas səbəbi "Yer kürəsinin böyük bir ərazisində iqlimin dəyişməsi ilə" əlaqələndirilir. Belə nəzəriyyələr olduqca çoxdur və mənasızdır.

Biz hər hansı qəbildən olan müqabil tərəflə eyni səviyyədə, təhqirə yol vermədən, həm də elmi dəlillər əsasında mübahisə aparmağa hazırıq və deməyə sözümüz də var. Allah-Təala buyurmuşdur: "Rəbbinin yoluna hikmətlə və gözəl öyüdlə dəvət et! Onlarla mübahisəni ən gözəl nədirsə, onunla et (ən-Nəhl, 125)[1].

İnsan şüuru öz təbiəti etibarı ilə azaddır və bu azadlıq Əbədi Yaradanın öz məxluquna bəxş etdiyi ləyaqət və vüqarın bir hissəsidir. İnsan şüuru elə qurulmuşdur ki, kənardan onu bir şeyə məcbur etmək mümkün deyildir. İnsanı məcbur etmək olar ki, o, özünü qane etməyən bir hökmü, yaxud əqidəni qəbul etsin və o, çıxılmaz vəziyyətdə qalıb aşkar, hamının gözü qabağında bunu qəbul edə bilər. Lakin, onu zorla inanmağa məcbur etmək olmaz. Allah-Təala özü də bir işi başqa cür deyil, istədiyi kimi görməyə qadirdir, vicdan azadlığı məsələsində isə O, heç kimi məcbur etmək istəmir: "Əgər Rəbbin istəsəydi, yer üzündə kim varsa, hamısı bütövlükdə iman gətirirdilər. Aya sən insanları məcbur edəcəksən ki, onlar mömin olsunlar" (Yunus, 99) deyə, Peyğəmbərə (s) müraciət edir.

İslam qoşunlarının Məvaraənnəhrdə Ərməniyyənin, Şirvanın, Muğanın və s. əhalisi ilə bağladıqları müahidələrdə yerli sakinlərin təkcə əmin-amanlığının təmin edilməsi,onların mülkiyyətinin

[1]Allahşükür Paşazadə. Qafqazda islam, s. 33-34.

qorunub-saxlanılması deyil, həm də dini etiqad azadlığının, öz məbədlərində və səcdəgahlarında dini ayin və mərasimləri sərbəst icra etmək haqqının toxunulmazlığı xüsusi bəndlə qeyd olunurdu[1].

İslam dünyasının müahidə dünyası qarşısında təəhhüdləri: xarici hücumlardan müdafiədə kömək göstərmək, əhalinin siyasi hüquqlarının və etiqad azadlığının qorunub-saxlanılmasını təmin etmək, onların daxili həyatlarına və dini işlərinə qarışmamaq, mal-dövlətlərinə, ev-eşiklərinə, şəxsiyyətlərinə hörmət etmək və s.

Müahidə dünyasının İslam dünyası qarşısında təəhhüdləri: islam təlimini tətbiq etmək, bu dinin ayin və mərasimlərini icra etmək, ona etiqad etmək azadlığının təmin edilməsi, İslam dünyasına və onun müttəfiqlərinə qarşı müharibə aparmamaq, onlara qarşı müharibələrdə iştirak etməmək, vergi (xərac) vermək. Xəracın bütün müahidələrdə nəzərdə tutulması hökm deyildi. Məsələn, Nubiya əhalisi ilə bağlanmış müahidədə xərac nəzərdə tutulmamışdı, əvəzində isə ticarət mübadiləsinin inkişaf etdirilməsi tələbi irəli sürülmüşdü[2].

Raşidi xəlifələri dövründə yüksək mənsəb, ali rütbə aşağı aləmdəki möminlik və əməlisalehlik nüfuzu qarşısında heç bir məna daşımır, öz əhəmiyyətini itirirdi. Xəlifə Ömər ibn əl-Xəttabın həyatın irəli sürdüyü bir çox məsələlərin həllinə dair məsləhət almaq üçün imam Əli ibn Əbu Talibə (ə) müraciət etməsi barədə kifayət qədər məlumat vardır. Doğrudur, bu dövrdə icmaya başçılıq etməyə layiq olanlara qarşı müəyyən haqsızlıq edilmişdi və bu, islamın tarixini az-çox bilən hər bir adama yaxşı bəllidir. Lakin icmanın birliyini qorumaq zərurətinin dərk edilməsi və ancaq Allah qarşısında məsuliyyət hissi o vaxt hər cür mənəmlik iddiasını arxa sıraya keçirmişdi.

[1]Allahşükür Paşazadə.Qafqazda islam, s.53-55
[2]Yenə orada, s. 62.

İslam tarixində əqidə ayrılığına görə təqiblər də olurdu. Xəlifə Hişam ibn Əbdülməlikin vaxtında (724-743) iradə azadlığına dair fikirləri üstündə Qəylan əd-Dəməşqinin qol-qıçı vuruldu[1].

Orta əsrlərdə qeyri-ərəb müsəlman xalqlarının İslam dünyasında ictimai ədalət, bərabərlik, azadlıq uğrunda və milli ayrı-seçkiliyə qarşı mübarizə hərəkatı şüubilik adlanırdı. Dini zəmin üstündə keçdiyindən bu hərəkat islama qarşı hərəkat kimi qiymətləndirilir və haqsız olaraq pislənirdi.

Misir mütəfəkkiri Zəki Nəcib Məhfuz belə hesab edir ki, ərəblərin məvalilərə təhqiramiz münasibəti qeyri-ərəb müsəlmanların islam haqqındakı təsəvvürlərinin dəyişməsinə səbəb oldu: məvalilər islama münasibətlərinə yenidən nəzər saldılar və öz islamaqədərki dinlərinə qayıtmaq üçün yollar axtarmağa başladılar. Ancaq ərəblərin onlara divan tutacaqlarından ehtiyat edən məvalilər öz niyyətlərini açıq elan etmirdilər, zahirən islama sadiq qaldıqlarını göstərməyə çalışsalar da, xəlvətdə ondan uzaqlaşmaq fikrində idilər. Nəticədə güclü zındıqlıq (allahsızlıq) hərəkatı yarandı[2]. İslamı qəbul etmiş ermənilər və gürcülər də bu qəbildən idilər.

Əgər zülm edən tərəf islama arxalanırsa, deməli, din təhrif olunmuşdur və məzlum tərəf dini bu təhrifdən azad etməli, onun azadlıq, bərabərlik, ədalətə dair ilkin qayələrini bərpa etməlidir.

İlahiyyat elminə görə axırıncı səma kitabı olan Quranın nazil edilməsindən məqsəd bütün bəşəriyyətə yol göstərmək, ilahi həqiqəti insanların nəzərinə çatdırmaq olmuşdur, odur ki, burada müəyyən fəlsəfi fikirlər öz əksini tapmaya bilməzdi[3].

Azadlıq hərəkatı şiə şüarları altında aparılırdı. Bu hərəkatın məfkurə və əqidə təməli kimi təşəkkül tapmış şiəliyin ardıcılları

---

[1] Allahşükür Paşazadə.Qafqazda islam, 69-70.
[2] Zəki Nəcib Mahmud. Təcdid əl-fikr əl-arabi. Beyrut, 1971, s. 145-146; Qafqazda islam, s. 72-73.
[3]Qafqazda islam, s. 74.

on iki imamı etiraf edib, on birinci imam Həsən əl-Əsgərinin oğlu, Allahın göstərişlərini icra edəcək imam Məhəmməd əl-Mehdi Sahibəzzamanın zühuruna etiqad əsasında birləşdilər[1].

İslamın köhnəldiyini, VII əsrdə qaldığını deyənlərə peyğəmbərin (s) kəlamını xatırlatmaq kifayətdir: "Bu dünyada elə yaşayın ki, sanki həyat sizə əbədi verilmişdir və axirət dünyası üçün elə çalışın ki, sanki günü sabah öləcəksiniz".

Sovet İttifaqında dövlət-din münasibətlərində əsasən üç mərhələni fərqləndirmək daha doğru olardı. Birinci mərhələni qarşılıqlı etinasızlıq və ehtiyatlı siyasət mərhələsi kimi səciyyələndirmək mümkündür. Bu mərhələdə, xüsusilə 1917-1920-ci illərdə cəmiyyətin yenidən qurulması sahəsində bu vaxta kimi misli görünməmiş qaydaların bərqərar olmasının başlanğıc dövründə dövlət-din münasibətləri son dərəcə ziddiyyətli olmuşdur.

II mərhələdə dövlət tərəfindən dinə münasibətdə ehtiyatlı və bir qədər təbliğat məqsədi güdən siyasət yürüdülsə də, həyata keçirilən yenidənqurma tədbirlərində dini amilin iştirakı nəzərdə tutulmurdu. Doğrudur, ölkədə dini icmalarla dövlət arasındakı münasibətləri qaydaya salmaq işində vicdan azadlığı məsələsinin qanuni yolla təsbit edilməsinin, nisbətən ardıcıl şəkildə həyata keçirilməsinin, dindar vətəndaşların öz dini tələbatlarını ödəyə bilmələri üçün müvafiq şəraitin yaradılmasının və nəhayət, dövlət tərəfindən dini birliklərə qarşı hüquq pozuntularına yol verilməməsi məqsədilə görülən tədbirlərin böyük əhəmiyyəti olmuşdu. Dövlətin qəbul etdiyi ilk sənədlər – "Rusiya xalqlarının hüquq bəyannaməsi", "Rusiyanın və Şərqin bütün müsəlmanlarına" Sovet hökumətinin müraciəti Müqəddəs Quranın xəlifə Osman tərəfindən üzü köçürdülmüş əlyazması nüsxəsinin müsəlmanlara qaytarılması haqqında xüsusi hökumət qərarı, "Vicdan azadlığı,

[1]Qafqazda islam, s. 91.

kilsə və dini təşkilatlar haqqında" qanun bu dövrdə dövlət ilə din arasındakı münasibətləri nizama salmaq əzmini nümayiş etdirirdi. Lakin, bütün bu tədbirlər dövlət-din münasibətlərini ölkədə baş verən mühüm hadisələrdə dinin iştirakı olmadan qaydaya salmaq məqsədi güdürdü. Bu isə dindarların ictimai fəallığını zəiflədir, onların ictimai həyatdan uzaqlaşmalarına səbəb olurdu.

Sovet İttifaqında dövlət-din münasibətlərinin ehtiyatla, zor işlədilmədən cərəyan etdiyini iddia etmək həqiqəti danmaq olardı, çünki bu dövlətin daxilində elə bir mərhələ də olmuşdu ki, bu vaxt bütünlükdə dövlət-cəmiyyət münasibətlərində pozuntulara, ilkin dəyərlərin təhrif edilməsinə, təqibə və cəza tədbirlərinə yol verilmişdi. Sovet cəmiyyətinin tarixinə cəza tədbirləri və durğunluq dövrü kimi daxil olmuş bu bir qədər sürəkli mərhələdə həyatın bütün sahələrində olduğu kimi din sahəsində də adamların başı üzərində "qılınc oynadılmışdır". Sovet hakimiyyətinin ilk illəri ilə müqayisədə bu dövrdə dövlətin dinə münasibətində böyük təzad vardı: din başdan-ayağa "cəhalətpərəstlik", "geriçilik" və "donuqluq" mücəssəməsi elan edilir, dindarlar isə "cahil" və "mühafizəkar" kimi qələmə verilirdi[1].

Həmin illərdə qanun pozuntuları, sosializmin mahiyyətini təşkil edən ən mühüm qayələrdən uzaqlaşmaq halları xüsusilə geniş intişar tapmışdı. Dövlətin əsas qanununun ziddinə olaraq kilsə və məscidlər bağlanır, din xadimləri və ayri-ayrı dindarlar heç bir əsas olmadan sosializmə düşmənçilikdə günahlandırılıb, amansız cəza tədbirlərinə məruz qalırdılar.

İlahiyyatçılar müxtəlif cəza tədbirlərinə məruz qalırdılar, danışıqsız Sibirə sürgün edilirdilər. O illərdə bizim nə qədər yüksək rütbəli din xadimlərimiz, alimlərimiz, din məsələlərini tədqiq edib öyrənən islamşünaslarımız, axundlarımız, hacılarımız,

[1]Allahşükür Paşazadə. Qafqazda islam, s. 153-156.

şeyxlərimiz nahaqdan məhv edildilər, güllələndilər! Onların bir qisminin əsərləri bu gün də yaşayır. Bu əsərlərin aşkar edilməsi, araşdırılması, dindarlara çatdırılması vətəndaşlıq naminə atılan ən müqəddəs addımlardan olardı. Azərbaycan xalqına vurulan ən ağır zərbə isə onun min ildən artıq bir müddət ərzində istifadə etdiyi ərəb əlifbasının 1929-cu ildə latın, 1939-cu ildə isə rus-Kiril qrafikası əsasında yaradılmış əlifba ilə əvəz edilməsi oldu. Nəzərə alsaq ki, yüzilliklər boyu xalq öz tarixini, ədəbiyyatını, ictimai fikrini, dinini bu əlifba ilə yazıb-yaratmışdır, itkinin nə qədər böyük olduğunu təsəvvür etmək olar[1].

Xalqın mədəniyyətinə, dininə belə düşünülməmiş münasibətə indinin özündə də rast gəlinir. Keçmişin nöqsanlarını düzəltmək əvəzinə hələ də bəzi yerlərdə məscidləri muzey, sərgi salonu kimi istifadə edirlər. Söhbət xalqımızın tarixi-memarlıq abidələrindən, müqəddəs yerlərindən, səcdəgahlarından, mənəvi və maddi sərvətlərindən gedir. Bunları uçurub dağıtmaq olmaz! Xalq qarşısında, din qarşısında günah işlətməkdən ağır nə ola bilər?!

Mövzular arasında ən vaciblərindən biri də islamda insan azadlığı problemi məsələsidir.Erkən islam dövründə qadınlara da azadlıq hüquqları verilmişdi.[2] İnsan azadlığı məsələsi əhəmiyyətinə görə islam fikri tarixində nisbətən daha kəskin şəkildə qoyulmuşdur. Təsadüfi deyil ki, Peyğəmbər (s) öz hədislərində bu məsələyə dönə-dönə toxunmuşdur, insan iradəsinin azadlığı Qurani-Şərifin kəlamlarına əsaslanır: “O kəslər ki, iman gətirmişlər və yaxşı işlər görmüşlər bağışlanacaq və böyük əcr onlar üçündür” (Fatir, 17); “Kim zərrə qədər bir xeyir etsə, onu(n səvabını) götürəcək və kim zərrə qədər bir şərr etsə, onu(n cəzasını) çəkəcək” (əz-Zəlzələ, 7-8); “De: “Hə-

[1]Allahşükür Paşazadə. Qafqazda islam, s. 157-158.
[2]Əbdülhəlim əbu Şəqqə.Peyğəmbər dövründə qadın azadlığı. Bakı, 2014, s. 3 Ərəb dilindən təcümə, E.Məmmədov.

qiqət (Quran) Rəbbinizdən (gəlmiş)-dir: Kim istəsə iman gətirsin, kim istəsə, kafir olsun" (əl-Kəhf, 29)[1].

İslamda insan mövcud olan imkanlardan birini seçməklə nəinki özü üçün bu dünya yolunu, həm də axirət aləmindəki əbədi aqibətini müəyyən edir. Kim ki, bu dünyada zülm etmiş, başqalarını istismar etmişdir, o, bu dünyanın müvəqqəti firavanlığını cəhənnəm aqibətinə satın almışdır: "Elə ki, onlar, hansılar ki, əzabı gördülər, onlar üçün o nə yüngülləşəcək, nə də onlara möhlət veriləcək" (ən-Nəhl, 85)[2].

Lakin bu o demək deyildir ki, insan daim onu didib-parçalayan şübhələrə mübtəla olmuşdur. Allah-Təala öz peyğəmbərləri və elçiləri vasitəsilə müqəddəs kitabları insanlar üçün nazil etmişdir ki, onlara düzgün yol göstərsin və onların nəyi seçmək, nədən imtina etmək məsuliyyətini yüngülləşdirsin[3].

Bir baxın. Başqa xalqları və dövlətləri qorxutmaq üçün guya sadəlövhlükdən və ya biclikdən "sülhü müdafiə məqsədilə" qorxunc, dağıdıcı silahlar (nüvə-atom, neytron, hidrogen və s.) yaradan və istehsal edən (guya müharibələrə son qoymaq istəyən) kimyaçı-mühəndis, isveçrəli A.Nobel və U.Çörçill kimi siyasətbazlar dünyaya nə qədər zərər vurdular? Peyğəmbər (s) isə buyurub: "Kim islamı qəbul etməmiş, ancaq müsəlmanların ərazisində müşahidə əsasında yaşayan bir adamı öldürsə belə, o, heç vaxt Cənnətə düşməyəcək". İslamla başqa din mənsubları arasındakı fərq aydın görünür.

Quranda insanlar arasındakı münasibətlərdə barışıq, dinclik ruhunu gücləndirməyə çağıran son dərəcə qiymətli göstərişlər vardır. İslamın başlıca qayəsi hamı üçün sülh, dinclik təmin etməkdir

[1]Yusif Talıbzadə. İslam və məzahib. Bakı, 1324 h.q.; Allahşükür Paşazadə. Qafqazda islam, s. 165-166.
[2]Allahşükür Paşazadə. Qafqazda islam, s. 167-168.
[3]Yenə orada, s. 168.

və bu hər cür zorakılığı rədd edir. Rəzil Salman Rüşdi isə onu "Şeytan ayələri" adlandırır. Kökləri Xaç yürüşlərinə gedib çıxan və müsəlmanları hərbə meyl göstərməkdə günahlandıran, islam haqqında isə "qılınc və zorakılıq" dini kimi qəliblənmiş təsəvvürlər yayan qədim Avropa ənənəsinin təsiri altında olanlar bu gün də vardır. Orta əsrlərdə bu cür təsəvvürlərin yaranması tarixi haqqındakı məsələ aydındır. Müstəmləkə işğalı dövründə hərbi və elmi-texniki sahələrdə olduqca qüvvətlənmiş Avropa üçün "mübariz islama" qarşı "müqəddəs müharibə" öz məcazi mənasını itirmişdir. Bu vaxt müstəmləkəçilik siyasətinə əxlaqi cəhətdən haqq qazandırmaq məqsədilə bəşəriyyətin iki "zidd qütbünün" – "mədəni" Qərb ilə "qeyri-mədəni" Şərqin "əzəli qarşıdurması" fikri ortaya atıldı. Elə bu "yeni" fikir də orta əsrlərdə islamın tarixini və mahiyyətini saxtalaşdıranların köhnəlmiş uydurmalarına əsaslanırdı. Görünür, çətin qarşılıqlı anlaşma yolu axtarmaqdansa, "ağla əsaslanan" Qərb ilə "tez hissə qapılan" Şərq arasında nəzəri bir uçurum qazımaq daha asan idi[1]. XX əsrin əvvəllərində, birinci dünya müharibəsindən sonra A.Spenqler bu "qarşıdurmanı" əsaslandırmaq üçün mötəbər mədəni-fəlsəfi dəlillər də tapmışdı: o, müxtəlif mədəniyyətlərin – Qərbin "faustpərəst" mədəniyyəti ilə Şərqin "sehrbaz" mədəniyyətinin "ruhən uyğunsuzluğu" müddəasını irəli sürmüşdü. A.Toyinbi ilk vaxtlar bu təhqiramiz müqayisəni qəbul etsə də, sonralar xalqların əməkdaşlığını, bir-birini tanımasının və başa düşməsinin zəruri olduğunu etiraf etmişdi.

İndi isə bəziləri müsəlmanların "terrorçuluğu", "təəssübkeşliyi", "özünütəcridetməsi" barəsində əllaməlik edirlər. Beləlnəri öz müddəalarını Quranın "Ey o kəslər ki, iman gətirmişlər! Yəhudiləri və nəsraniləri özünüzə dost tutmayın..." (əl-Məidə, 51), yaxud: "Ey o kəslər ki, iman gətirmişlər! Özünüzə özünüzdən savayı dost tutma-

[1]Allahşükür Paşazadə. Qafqazda islam, s. 194.

yın" (Ali-İmran, 113-120) və sairə ayələrinə istinadən öz fikirlərini əsaslandırmağa çalışırlar, ayəni axıradək oxumağa tənbəllik edirlər. Əslində bu "islam üzrə mütəxəssislərin" bədxah niyyətləri odur ki, dini təfriqəçiliyi qızışdırmaqla xalqlar arasında zəhərli düşmənçilik toxumu səpsinlər[1].

Sülh müsəlmanların ən ülvi, ən müqəddəs qayəsidir. Quranda sülh sözü xoş xəbər, müjdə kimi qiymətləndirilir. Təkcə bir namaz vaxtı müsəlman sülh – "salam" sözünü 24 dəfə təkrar edir. Bu söz müsəlmanın, qardaşı müsəlmanla, ümumiyyətlə, bütün insanlarla görüşdüyü vaxt işlətdiyi ilk sözdür – əs-səlamu aleykum! – üstünüzdən sülh əksik olmasın – üzərinizə sülh olsun! Sülh çağırışı olmasaydı islam da islam olmazdı, çünki sülh – "Salam" Allahın adlarından biridir. Quranda deyilir: "O, elə Allahdır ki, Özündən savayı heç bir ilahi yoxdur (Yaratdıqları haqqında əmrə və nəhyə) Sahibdir. (Hər eyibdən uzaq) Müqəddəsdir. (Əmin-amanlıq bəxş edən) Salamdır" (əl-Həşr, 23)[2]. (Qərb isə islamı terrorizm adlandırır). Adından tutmuş hərəkətlərinə qədər sülh olan islamı Qərb terrorizm adlandırır.

İslamın gerilikçi din olduğunu deyənlərin əksinə olaraq hətta elmin, maarifin inkişaf etdiyi ölkələrdə belə, bu din özünə daha çox tərəfdar tapır. Bir vaxtlar çoxları üçün şəksiz görünən, indi isə artıq özünü doğrultmayan belə bir nöqteyi-nəzərin yanlış olduğunu tarixdən və müasir dövrdən götürdüyünüz iki misal aydın sübut edir: birincisi, ərəb-müsəlman orta əsr alimləri: Məhəmməd əl-Xarəzmi, İbn əl-Heysəm, əl-Bəttani, əl-Biruni, Ömər Xəyyam, Nəsirəddin Tusi və b. kimi dünya elminə şöhrət gətirmiş görkəmli alimlər eyni zamanda mömin olmuşlar; ikincisi, müasir dövrdə də elm ilə dinin ahəngdar yanaşı mövcudluğu ba-

[1]Allahşükür Paşazadə.Qafqazda islam, s. 194-195.
[2] Yenə orada, s. 198.

rədə misallar çoxdur. Adları elm tarixində ən möhtəşəm dönüş çağları ilə bağlı olan Nyutonu, Koperniki, Eynşteyni, Pavlovu xatırlatmaq kifayətdir. Bu alimlərin dinə mənəvi ehtiyacı olmuşdur. Kopernik təqribən 30 il Fromborqdakı xristian kilsəsinin qüllələrinin birində təchiz etdiyi rəsədxanada çalışmışdır.

XX yüzilliyin birinci yarısında Avropa şərqşünaslıq ədəbiyyatında belə bir təsəvvür hökm sürürdü ki, guya islam, elmi axtarışları məqbul saymır, bu dində elmə dünyagörüşü yönümlərinin aşağı mərtəbəsində əhəmiyyətsiz bir yer ayrılmışdır, müsəlmanlar isə, ümumiyyətlə, elmi idraka yabançı ruhda tərbiyə almışlar. Şərq fəlsəfəsinin, Şərq dinlərinin Renan, Masinyon, Harde, Veber və bu qəbildən olan başqa tədqiqatçılarının bu barədə fikir və rəyləri hamıya məlumdur.

Yaxın və Orta Şərq xalqlarının mənəvi irsinin əhəmiyyətini kiçiltməyə yönəlmiş belə Avropa mərkəziyyətçiliyi müddəalarının ən fəal təbliğatçılarından biri fransız şərqşünası Ernest Renan idi. O, iddia edirdi ki, müsəlman ölkələrinin elm və texnika sahəsində geridə qalmalarının başlıca səbəbi "elmi biliklərə düşmən olan" islam dinidir. Alman ictimaiyyətşünas alimi Maks Veber isə "Protestant əxlaqı və kapitalizmin ruhu" əsərində Qərbin yeni mədəni inkişaf üçün zəmin yaratmış kapitalistcəsinə inkişafını xristianlığa xas olan əqlə və idraka əsaslanmaq meyli ilə əlaqələndirir, bu xüsusiyyətlərin islam üçün səciyyəvi olmadığını iddia edirdi. Veberin fikrincə, islam ilahi qəza-qədərə inam təbliğ etdiyi üçün öz ardıcıllarını təşəbbüskarlıqdan yayındırır, xristianlıq isə öz tərəfdarlarını fəaliyyət, işgüzarlıq ruhunda tərbiyələndirir. O, belə hesab edirdi ki, islam ağla-zəkaya əsaslanmağın puçluğunu və Allaha təvəkkül ruhunu təbliğ etməklə tərəqqiyə mane olur, xristianlıq,ələlxüsus protestantlıq isə öz ardıcıllarına elə

əxlaqi dəyərlər aşılayır ki, bu dəyərlər cəmiyyətin inkişafı və çiçəklənməsi işində əsas amil kimi çıxış edir[1].

Biz Şərqin "tədqiqatçıları" sayılan, lakin Şərqə xas olan hər şeyə nifrət edən bu avropamərkəzçiliyi fikri havadarlarının ancaq bəzi "mötəbər" müddəaları üstündə dayandıq. Bu "tədqiqatçılar" arasında fransız şərqşünası Lefevr kimiləri də az deyil. Onun "Ərəb ağılı" kitabında Şərq barəsində elə təhqiramiz fikirlər vardır ki, hətta Qərb şərqşünaslarının özləri belə onun ərəb-müsəlman mədəni irsinə irqi ədavət bəslədiyini qeyd edirlər.

Təəccüblü olsa da, islamın elm ilə "bir araya sığmazlığı" barədə heç bir əsası olmayan fikirlərə elə tədqiqatçılar qoşulurlar ki, (onların zatında nəsə var) onların islamçılığına şübhə edirsən. Məsələn Livan-Fələstin filosofu Sadiq Cəlal əl-Əzm özünün "Dini fikrin tənqidi" xitabında göstərir ki, ərəb xalqlarının bütün uğursuzluqlarının, o cümlədən 1967-ci il böhranının əsas səbəbləri bu xalqların dini təfəkkür tərzi, Allaha təvəkkül etmələri və qeybə inanmaları ilə əlaqədardır. Onun fikrincə, müsəlman, xarici aləmi fövqəltəbii qüvvələr haqqında əsrlər boyu təşəkkül tapmış və gerçəkliyi təhrif edən təsəvvürlər baxımından dərk edir və bu təsəvvürlər onun dünyaduyumunun ayrılmaz hissəsini təşkil edir.

Bu müddəanı müdafiə edənlərin nəzəri mühakimələrinin məğzini öz əhəmiyyətinə və mənasına görə "səviyyəcə bərabər" dünyaduyumu tərzləri arasında "təsir dairəsinin bölünməsi" barədə zəka nöqteyi-nəzərindən bihudə, məntiqi cəhətdən isə əsassız olan belə bir fikir təşkil edir ki, "dinin öz sahəsi, elmin də öz sahəsi olmalıdır".

Əlbəttə, bu fikirlə razılaşmaq olmaz. Elm və dinin, xüsusilə islam dininin mövqelərinin uyuşmazlığına dair müddəa heç bir məntiqə sığmayan uydurmadır.

---

[1]Sadiq Cəlal əl-Azm. Naqd əl-fikr əd-din. Byerut, 1968; Allahşükür Paşazadə. Qafqazda islam, s. 201-203.

İslam tarixi üzrə hər hansı bir vicdanlı tədqiqatçı üçün aydındır ki, islamda elmlə din Peyğəmbər əleyhissəlamın dövründən bəri müsəlmanların şüurunun və varlığının bir-birini ahəngdar şəkildə tamamlayan ünsürləri olmuşlar. İndi də müsəlmanların həyatının elə bir sahəsi yoxdur ki, burada biliyə ülvi dəyər kimi insanın özünütəsdiq meyarı kimi baxılmasın, elmə Xudavəndi-Aləmin əzəli nəsihəti ilə işıqlandırılmış münasibət bəslənilməsin[1].

Son dövrdə müsəlman ölkələrində bəzi tədqiqatçıların guya xeyirxah niyyətlə səma Vəhyini "müasirləşdirmək", Allahın kitabına «yeni» təfsirlər vermək, Əziz Kitabda nisbilik nəzəriyyəsi, atom nüvəsi fizikası, ən müasir təbiətşünaslıq nəzəriyyələri ilə "uyğunluq" tapmaq cəhdlərinin artması diqqəti cəlb edir. Bu tədqiqatçılar kobud təftişçiliyə yol vermədən Quran ayələrində elə dəlillər axtarıb tapır və bu dəlilləri elə izah edirlər ki, Kitabın bir sıra müqəddəs kəlamları ən yeni elmi kəşflərlə eyni səsləşir və bu əsas üzərində Quranda həmin kəşflər haqqında əvvəldən xəbər verildiyini iddia edirlər. Səma  Kitabı kimi Quran Allahın öz peyğəmbərlərinə və elçilərinə göndərdiyi vəhyin məcmusudur. Odur ki, burada elmi kəşflərlə ziddiyyət təşkil edən bircə işarə belə ola bilməz. Lakin Allah-Təalanın mərhəməti sayəsində elmin kəşf etmiş olduğu həqiqətlərlə ziddiyyət təşkil etməsə də, Qurandakı müqəddəs mənaları müasir elmi fərziyyə və nəzəriyyələr əsasında izah etməyin məqbul olduğunu iqrar etmək də yanlışdır[2].

İslamın və elmin aləmşümulluğu onları ümumbəşəri dəyərlər kimi birləşdirir. Məgər İbn Sinanın XII əsrdə kremonalı Herald tərəfindən latın dilinə tərcümə edilmiş və XV əsrdə Avropada kitab çapı başlanarkən ilk çap edilmiş kitablar sırasında olan "Təbabət elminin qanunu" Şərqin və Qərbin təbabət alimləri üçün əsas məxəz olmamışdırmı? Bu kitab bütünlüklə, yaxud hissə-hissə 40 dəfə çap edilmişdir.

---

[1]Allahşükür Paşazadə. Qafqazda islam, s. 203-204.
[2]Yenə orada, s. 209-210.

Avropada riyaziyyat elminin müstəqil bir sahəsi kimi cəbrin inkişafı riyaziyyatçı və astronom Məhəmməd əl-Xarəzminin adı ilə bağlıdır. Əl-Xarəzmin əsaslandırmış olduğu cəbr (əl-cəbr) elmi sonralar Avropada algebra, müəyyən faydalarla hesablama sistemi isə onun adı ilə "alqoritma" kimi tanınmışdır. Ptolomeyin "Almagesta"sına şərh yazmış əl-Bəttani ilk dəfə tətbiq etdiyi triqonometrik funksiyaların köməyi ilə Ptolomeyə nisbətən daha dəqiq astronomik müşahidələr aparmışdır. İbn əl-Heysəmin optika, Əbu Reyhan əl-Biruninin riyaziyyat, coğrafiya, fizika və nəbatat sahəsindəki axtarışları uzun müddət Avropa alimləri üçün tədqiqatda həvəsləndirici bir amil olmuşdur. Müsəlman alimləri hətta aerodinamika tarixində də müəyyən iz qoyub getmişlər.Türkiyə tədqiqatçısı Terzioğlu III/IX əsrdən başlayaraq müsəlman ölkələrində texnikanın inkişafı və ilk uçuş cəhdləri haqqında məlumat verən əlyazmaları araşdırmış və aşkar etmişdir ki, artıq o vaxt uçuşun fiziki əsaslarını müəyyən etmək məqsədilə quşun qanadlarının səthi ilə çəkisi arasındakı asılılıq olduğu barəsində təsəvvürlər var idi. 401/1010-cu ildə fərablı Cövhəri havaya qalxmaq üçün cəhd edibmiş. IV/X əsrdə Əndəlüsdə Abbas ibn Tirnəs icad etdiyi qanadların köməyi ilə az da olsa uça bilmişdi. Təqribən 160/776-cı ildə Kufədə yaşayan Cabir ibn Həyyan süni yolla canlı varlıqların icad edilməsinin mümkünlüyü barədə fikir söyləmişdi[1].

## 2.2.Ərəb alimlərinin islamofobiyaya münasibəti

Dünyanın inkişaf etdiyi, ən müasir silahların ixtira edildiyi hazırkı vaxtla dinlərin və ya onların mənsublarının bir-birinə hücumu ağılsızlıqdır. Daha doğrusu bunu Qərb, xristianlar edir, hər pis şeyi, geriliyi, ekstremizmi, terrorizmi müsəlmanların, islamın üzərinə yıxırlar. Məgər yığışıb, qaranlıq məsələləri dialoq

[1]Allahşükür Paşazadə. Qafqazda islam, s. 219-220.

yolu ilə müzakirə, məsləhət yolu ilə həll etmək olmazmı? Sağlam dialoq kimin haqlı, kimin haqsız, yanlış olduğunu aşkar edər.

Elə bu barədə Məhəmməd Xəlifə Həsən özünün "Dialoq mədəniyyəti və metodologiyası" adlı əsərində [1] qeyd edir ki, Hantinqtonun "Sivilizasiyaların toqquşması" nəzəriyyəsi Qərblə İslam dünyası arasında siyasi, dini və mədəni qarşıdurmaya gətirib çıxarıb. Çünki sözügedən nəzəriyyə islamı Qərbi və Qərb mədəniyyətini təhdid etməkdə təqsirləndirir; xüsusilə də Sovet İttifaqının süqutundan sonra Qərb yeni düşmən yaratmaq fəaliyyətinə başlayıb və "düşmən islam" nəzəriyyəsini ortaya atıb. Bu islamofobiyadır. Müsəlmanları "özgə" adlandırıb, hərtərəfli sıxışdırırlar.

Müasir və yeni dinlərarası dialoqun meydana çıxdığı şərait bilavasitə icazə vermir ki, dialoqdan yalnız dəvət (təbliğ) sahəsində istifadə edilsin. Şübhə yoxdur ki, Vatikan dinlərarası dialoqu "əzizləməkdə" missionerlik məqsədi güdür. Özü də hədəfdə ənənəvi üsullarla xristianlaşdırılması çətin olan, yüksək əqli, dini-mədəni səviyyələrinə münasib rasional vasitə və mexanizmə ehtiyac hiss edən din alimləri və xadimləridir. Məgər bu vasitə rolunu dialoq oynaya bilməz?!

Hişam əl-Məkki bu təhlükəni belə izah edir: "Müasir dövrdə dinlərarası dialoq və ya xristian-islam dialoqu adı altında aparılan dialoq əslində dini dialoq olub, Qərb tərəfindən idarə edilir və xristianlaşdırma məqsədi güdür. Müsəlmanlara görə isə dialoq dinlərarası dialoqdur. Habelə, Qərbin məntiqi tabeetdirici məntiqdir və dialoq da xristianlığın "minik heyvanıdır". Qərbin dinlərarası dialoqu digər dinlərin bərabərhüquqluluğunu təmin etsə də, yalnız xristianlığın təbliğinə xidmət göstərir.[1]

---

[1]MəhəmmədXəlifəHəsən. «Dialoq mədəniyyəti və metodologiyası», Bakı, 2011 (Tərcümə və redaktə Elvüsal Məmmədovundur).

[1]Hişaməl-Məkki. Sivilizasiyalararası dialoqa baxış… Əl-Kəlimə jurnalı, Beyrut, 2003, № 39, səh. 155-156.

Dəvət məqsədli (xristianlaşdırma dialoqu) və dinlərarası dialoq növlərinin arasındakı əlaqələr mühüm məsələdir. Dini-mədəni sahələrdə dialoqun siyasiləşdirilməsində Vəcih Kövsəraniyə görə bu, xüsusilə də Ərəb-İslam dünyasına münasibətdə ABŞ-ın siyasi strategiyasının fonunda, ya da ümumi siyasət kursunun amerikasayağı təsəvvürləri prizmasında baş verəcəkdir.[2]

Əhməd əl-Mosuli isə bu qənaətdədir ki, sivilizasiyalararası dialoq ABŞ-ın siyasi məqsədlərinə xidmət edir: "Bu gün ABŞ siyasi-iqtisadi sistemlər, hətta sivilizasiyalararası dialoq hesabına hərbi faktor vasitəsilə öz strategiyasını cızaraq yeniləşdirmə əngəllərini artırıb".[3]

Dialoqun siyasiləşdirilməsi xalqlar arasında anlaşma və birgəyaşayışın zəminində uğursuzluğa aparıb çıxaracaq, mədəni yaxınlaşmağa son qoyulacaqdır. Dialoqa siyasi don geydirmənin sivilizasiyalara qəbul etdirdiyi təcridlilik nəticəsində mədəni gerilik və deqenerasiya baş verəcəkdir.

Məlum 11 Sentyabr hadisəsindən sonra müsəlman dünyası ilə Qərbin münasibətlərində yeni dövr başlandı. Nəinki müsəlman dünyasının, hətta bütün dünyanın siyasi həyatında bu hadisə yeni tarixi mərhələnin əsasını qoydu. Bu hadisədən qabaq Qərblə dialoq ruhu yüksək idi. Ancaq hadisədən sonra bu ruhun üstündən çəpəki xətt çəkildi, Qərblə İslam dünyasının dialoqunu təmin etmək üçün XX əsrin ikinci yarısındakı cəhdlər, çəkilən zəhmətlər hədər getdi. Halbuki 1962-ci ildə Vatikan xristianlığın digər dinlərlə münasibətlərinin tənzimlənməsi deklarasiyasını elan etdikdən sonra dini müstəvidə dialoq təşəbbüsləri irəli sürülmüşdü. Əhməd əl-Mosulinin rəyincə qloballaşmanın mədəni əks-sədası da islam mədəniyyətinə yönəlmiş birbaşa təhlükədir. Əslində bu, qərb müstəmləkəçiliyinin vaxtı

---

[2]Vəcih Kövsərani. Fukuyama, Hantinqon və İslam. əl-İctihad jurn. Beyrut, 2001, № 49, səh. 178.

[3]Əhməd əl-Mosuli. Müasirdövr İslam dünyasında novatorluq və təhlükələr. Hivar əl-Ərəb jurn. Beyrut, 2005. № 2, səh. 63.

ilə yürütdüyü mədəni işğal siyasətini xatırladır. Ancaq bu, fiziki güc vasitələri ilə, ordularla, top-tüfənglə baş tutan işğal deyildir. Bu işğal qloballaşmanın, beynəlxalq ticarətin böyük hissəsinə nəzarət edən nəhəng şirkətin genişlənməsi nəticəsində baş vermişdir. Bu da öz növbəsində qərb dəyərlərinin yayılmasına səbəb olur, ənənəvi islam həyat tərzi və mədəniyyəti üçün təhlükə yaradır.

"Mədəniyyətlərin (sivilizasiyaların) toqquşması" nəzəriyyəsi 11 Sentyabr hadisəsindən qabaq irəli sürülsə də, həmin hadisədən sonra siyasi münasibətlərdə o, hegemon nəzəriyyəyə çevrildi.Deməli, 11 Sentyabrsız da Qərb Şərqə dişlərini qıcamışdı. Nəzəriyyə Qərbin siyasi diqqətini müsəlman dünyasına yönəltdi. Nəticədə islam ölkələri böhranlı vəziyyətə düçar oldu. Bu isə Qərblə münasibətlərdə dialoq və toqquşma arasında seçim böhranıdır.

Sovet İttifaqının süqutundan sonra müsəlmanların Qərbin yeni düşməni kimi təqdim edilməsində 11 Sentyabr hadisəsindən sui-istifadə Hanqtinqtonun"Mədəniyyətlərin toqquşması" nəzəriyyəsinin "müvəffəqiyyətini" təmin etdi.[1] Müsəlmanlar bilavasitə terrorda ittiham edildilər. Qərb İslam dünyasında siyasi vəziyyəti dəyişmək üçün bütün siyasi təsir vasitələrinə əl atdı, müsəlmanlara terrorçu kimi yanaşdı. Sonuncular isə bu ittihamlar qarşısında özlərini müdafiə etməli oldular. Bu, yalnız və yalnız Qərblə dialoq aparmaqla mümkün ola bilərdi. Ancaq əvvəlkindən fərqli olaraq indiki dövrdə Qərblə dialoq çətin oldu. Bu çətinlik öz növbəsində Qərbə diktə edir ki, müsəlman dünyası ilə ciddi dialoqa laqeyd yanaşsın, müsəlmanların ciddi-cəhdlə göstərdikləri dialoq fəaliyyətlərini heçə endirsin.

"Mədəniyyətlərin toqquşması" nəzəriyyəsi adi vərəq üzərindəki nəzəriyyədən Qərbin müsəlman dünyasına qarşı yürütdüyü sabit ideologiyaya çevrilib. Qərbin bu ideologiyası, heç şübhəsiz,

[1]Rəsul Məhəmməd Rəsul.Mədəniyyətlərarası toqquşmadan dialoqa:Hantinqton konsepsiyasının tənqidi təhlili.Əl-Kəlimə jurn.1999,№ 24,s.93

hegemonluq siyasəti ilə bağlıdır. O siyasət ki, müstəmləkə dövrü bitsə də, Qərb ondan vaz keçməmiş, əksinə ona yeni don geydirmişdir.

Şübhəsiz, "Mədəniyyətlərin toqquşması" nəzəriyyəsi vasitəsilə "İslam təhlükəsi", "Yaşıl təhlükə" kimi uydurma məfhumların nəzəri və əməli cəhətdən əsaslandırılmasına, islamofobiyanın genişləndirilməsinə cəhd göstərilir[1].

11 Sentyabr hadisəsindən sonra bu nəzəriyyə Qərbin İslam dünyasına qarşı yürütdüyü siyasi kursa istiqamət verməyə başlayıb. Yəqin ki, sözügedən nəzəriyyə gələcək bir neçə nəsil boyu Qərb və Amerika siyasətinə hakim kəsiləcəkdir. Bunun ən mühüm səbəbləri aşağıdakılardır:

a) Qərbdə islam əleyhinə təmayülün güclü olması, müsəlmanlarla bir stol arxasında əyləşməmək zehniyyəti. İslam əleyhinə təmayülə rəhbərliyi müasir Qərb-Amerika fikrində söz sahibi olan nəzəriyyəçilər edirlər. Habelə, bu solçu təmayül İslam dünyası üzrə mütəxəssislər sayılan şərqşünaslarla təmsil olunur. Onlara misal olaraq Bernard Luisi, Samuel Hantinqtonu, Frensis Fukuyamanı, Daniel Babisi göstərmək olar. Con Espozitonun, Con Ful və başqalarının təmsil etdiyi dözümlü təmayül isə Qərbdə və ABŞ-dakı qərar sahiblərinə öz mötədil mövqeyini izah etməkdə çətinlik çəkir.[2]

b) Müsəlmanlara və ərəblərə düşmən münasibət bəsləyən qüvvələrdən istifadə.

Bu, bir sıra dini və siyasi amillərlə bağlıdır. Nəticədə, Qərbdə Şərqə qarşı ədavət şüuru aşılanır, müsəlman-ərəb dünyasına qarşı nifrət təbliğ edilir. Belə qüvvələr, məsələn, Fələstin Müqavimət Hərəkatını terror fəaliyyəti kimi qələmə verməyə çalışır, Fələstin problemini bir kənara atsınlar deyə ərəb-müsəlman ölkələrinə

---

[1] Əmir Tahiri.Avropanın ekstremist partiyaları Qərbə islamofobiya şüuru aşılayır.Əş-Şərq əl-Ovsət qəz.28.05.2002,s.22.

[2] Ömər Zərqavi.Sivilizasiyaların toqquşması: nəzəriyyə,yoxsa ideologiya?Əl-Kəlimə jurn.Beyrut,2003,№ 39,s.138.

siyasi və hərbi təzyiqin göstərilməsinə çağırır, onların problemə münasibətini bitərəf hala gətirmək istəyirlər.

c) Qərb mediası islamın stereotipinin saxtalaşdırılmasında, islam haqda məlumatların təhrifində,müsəlman və ya ərəb olan hər kəsə qarşı təhqirçilikdə, müsəlmanların terrorçular kimi təqdimində böyük canfəşanlıq göstərir. Bu media imkan vermir ki, baş verənlərdən və terrora müsəlmanların həqiqi münasibətindən dünya ictimaiyyəti xəbər tutsun. Qərbin media və mətbuat vasitələri bütün imkanlardan istifadə etməklə müsəlmanlara və ərəblərə qarşı ədavətli Qərb zehniyyətini formalaşdırır. Belə saxtalaşdırmanın nəticəsində toqquşma nəzəriyyələri Qərb cəmiyyətində qərar və söz sahibləri tərəfindən qəbul edilir. Çünki dediyimiz kimi, media və mətbuat islam və müsəlman həqiqətlərini saxtalaşdırmaqla məşğuldur və islama dair obyektiv informasiyanın nəqlinə mane olur. Saxtalaşdırılmış mənfi informasiya Qərb mediası və mətbuatı tərəfindən dünya ictimaiyyətinə təqdim olunur. Cəhd göstərilir ki, ərəblər və müsəlmanlar haqqında filmlərin standartlığı pozulmasın.[1]

Yeri gəlmişkən… XX əsrin 70-80-ci illərində televiziya ilə Rusiyadan göstərilən bir filmdə yöndəmsiz bir kişi heç günahı olmayan bir nəfər haqqında sözü yaramaz halda tələffüz edərək dedi: "Во всем этом виноват этот бусурман". Burada da bəzi xristianların müsəlmanlara təhqiramiz münasibəti görünür."Sivilizasiyaların toqquşması" nəzəriyyəsi soyuq müharibədən sonrakı dövrdə ideoloji mübarizəni mədəni mübarizə müstəvisinə çıxarıb. Hantinqton öz nəzəriyyəsi vasitəsilə Qərb və dünyanın digər hissəsi arasında münaqişənin baş verəcəyi ehtimalını istisna etmir. O vurğulayır ki, münaqişə Qərblə müsəlman və konfessional dövlətlər arasında baş verəcəkdir.[2]

[1]ÖmərZərqavi, yenəorada.
[2]Hussein Mutolib. Beyond Pride and Prejudice; Western Perceptions of Islam and Muslims, in Muslims and the West: Encounter and Dialoque, ads.7-Z Ansari and

Mədəniyyətlərin mübarizəsinin bu cür təsviri islamı Qərblə mübarizədə sabit tərəf kimi təqdim edir. Vəcih Kövsərani yazır: "Bu təsvir vasitəsilə islam Qərblə mübarizədə dəyişməz tarix kimi təqdim olunur".[1]Bu zaman Kövsərani İslamla Qərbin mübarizəsinin əbədiliyi haqqında Hantinqtonun fikirlərindən iqtibaslar gətirir: "İslam və Qərb mədəniyyətlərini bir-birindən ayıran xəttə uyğun olaraq münaqişə 1300 ildir ki, davam edir… Bu mübarizə səngiməyəcək, əksinə, daha təhlükəli forma alacaqdır… İslam həm dünyada, həm də öz hüdudları daxilində digər mədəniyyətlərlə, məsələn, balkan yarımadasında pravoslav serblərlə, İsraildə yəhudilərlə, Hindistanda hindlilərlə, Birmada(Myanmada) buddistlərlə, Filippində katoliklərlə toqquşacaqdır… İslam qanlı sərhədlərə malikdir".[2]Bir tərəfdən bunu düz deyir. İslam hər tərəfdən qanlı sərhədlərlə əhatələnib, hamısı islam üzərinə hücuma, onu parçalamağa hazırdır.

Bu deyilənləri iki cür başa düşmək olar. Birincisi, islam pisdir. İkincisi, islamı hər yerdə süngü ilə qarşılayırlar.

"Sivilizasiyaların toqquşması" nəzəriyyəsinə uyğun olaraq mübarizəni əbədi qəbul etmək Qərblə dialoqu çətinləşdirir. Əgər qərblilər əzəli mübarizə və "qanlı" islam haqqında gümana qapılırlarsa, deməli dialoqa hazır deyillər. Habelə bu cür güman İslam dünyasında da dialoqa inamı sarsıdır.

"Mədəniyyətlərin toqquşması" nəzəriyyəsi Avropa mədəniyyətini ən üstün mədəniyyət hesab edib, onu digər mədəniyyətlərə, xüsusən də islam mədəniyyətinə qarşı qoyduğu zaman problem daha da qəlizləşir. Bu səbəbdən, Qərb mədəniyyətinə müsəlman

---

Jonn Esposito, Islamic Research Institute, Islamabad and Center for Muslim-Christani Understanding Georgetown University, W.D.C.2001, P. 97-98.

[1]Vəcih Kövsərani. Fukuyama, Hantinqton və İslam əl-İctihad jurnalı. Beyrut, 2001, № 49, s. 169.

[2]Samuel-Hantinqton. Sivilizasiyaların toqquşması və yeni dünya mənzərəsinin yaradılması. Tərcümə: Tələt Şayb. Qahirə, 1998, s. 243-244.

mədəniyyətinin düşmən münasibəti təbiidir. Hantinqton iddia edir ki, bu mədəniyyətin mənsubları olan müsəlmanlar liberal-demokratik mədəniyyətə qarşıdırlar. Eyni şeyi Fukuyama da özünün "Dünyanın sonu" nəzəriyyəsində təkrarlayır. Hər iki şəxs Qərb zehniyyətində islamın qaniçən düşmən stereotipini yaradırlar. Fukuyama SSRİ dağıldıqdan sonra hər şeyin, mübarizənin bitdiyini qeyd edirsə, Hantinqton "nə qədər ki, müsəlmanlar var, islam var, mübarizə davam edir" deyir. Onlara görə Qərblə islamın mübarizəsi sivilizasiyaların toqquşmasına ən əyani misaldır. Müsəlman dünyası milli, etnik, ideoloji və məzhəb çəkişmələrinin baş alıb getdiyi coğrafiyadır. İslam tarixi, mübarizələr tarixidir, gücdən istifadənin qanuniləşdirilib sülh və əmin-amanlıq məfhumlarının yox edildiyi tarixdir.[1]

Sözügedən iki nəzəriyyədə islamın və müsəlman mədəniyyətinin bu cür təsviri dialoq qapısına kilid vurur. Axı Qərb qaniçən düşmən kimi təsvir edilən bu dinlə, mədəniyyətlə necə dialoq apara bilər? Çox təəssüf ki, Hantinqton və Fukuyamanın nəzəriyyələri indiki dövrdə Qərbin, xüsusilə də ABŞ-ın beynəlxalq siyasət kursuna hakim kəsilib. ABŞ-ın dövlət siyasəti indiki dövrdə siyasi böhranları tənzimləmək üçün bu iki nəzəriyyədən istifadə edir. Bu onu göstərir ki, siyasət aləmində anlayışlar doğru-dürüst tətbiq edilmir; anlayışlar dedikdə Fukuyamanın tarix fəlsəfəsi, Hantinqtonun isə mədəniyyətlər nəzəriyyəsindəki məfhumlar başa düşülür.[2]Ən pisi isə odur ki, islam dini və mədəniyyəti haqda təsəvvürlər saxtalaşdırılır; iddia edilir ki, islam dini və mədəniyyəti liberal-demokratik mədəniyyətə, Qərb sivilizasiyasına qarşıdır, özü də bunu

---

[1]Samuel-Hantinqton. Sivilizasiyaların toqquşması və yeni dünya mənzərəsinin yaradılması. Tərcümə: Tələt Şayb. Qahirə, 1998,s. 243-244.

[2]Vəcih Kövsərani. Fukuyama, Hantinqton və İslam əl-İctihad jurnalı. Beyrut, 2001, № 49, səh. 169.

islamın ana ehkamları, müsəlman mədəniyyətinin xüsusiyyətləri də diktə edir. Bu isə ağa qara yaxmaqdan başqa bir şey deyil!

Belə hegemonluq arzusu Sovet İttifaqının süqut edib liberal-demokratiyanın, Qərbin, daha doğrusu ABŞ düşüncə tərzinin qələbə çalmasından sonra ortaya çıxdı. Qərbdə hesab edirlər ki, SSRİ-nin yıxılmasından sonra liberal-demokratiya beynəlxalq ideyaya çevrilib. Əslində, hegemonluq nəzəriyyəsi Frensis Fukuyamanın açıq şəkildə ortaya qoyduğu nəzəriyyədir. Bu ideya onun "Tarixin sonu nəzəriyyəsi"nin əsas hissəsini təşkil edir. Onun nəzəriyyəsi … "yeni dinin yaranacağı haqda bizə müjdə verir. Bu, qloballaşmadır. Qloballaşma zəminində Qərb bitərəf siyasətdən imtina etməklə dürüstlüyün və insan haqlarının üstündən xətt çəkib; elə bir zorakı qəlibə düşüb ki, heç kəs onun sarsılmaz qanunlarına "Gözünün üstündə qaşın var deyə bilməz"[1].

Qloballaşma əslində klassik müstəmləkəçiliyin Amerika (Qərb) ekvivalentidir. Qloballaşma dünyanın birtərəfli iqtisadi standartıdır; "dini, mədəni fərqlərdən xoşlanmaz, milli maneələri dəf edər ki, bununla da milli, irqi və dini şüarlara ehtiyac qalmasın"[2].

Beləliklə, qloballaşma yeni hegemonluq strategiyasıdır, başqalarını həzmi-rabedən keçirən tamahkar "Öz"ün ətrafında təmərküzləşmədir.[3]

Qərblə dialoqun problemləri tarixi köklərə malikdir. Bu problemlərin yaranması 11 Sentyabr hadisəsi ilə əlaqəli deyil və bunun dini, mədəni və siyasi səbəbləri vardır. Ancaq məlumdur ki, o hadisədən sonra dialoqun problemləri daha da artaraq qəlizləşib ki, bu da onun gələcəyini sual altında qoyur. Hazırkı dövrdə

[1]Xüzeyr Cəfər. Biz, Fukuyama və tarixin sonu. Əl-Müctəmə-əs-Səqafi jurn. Beyrut, 1998, № 1313, s. 45.
[2]ÖmərZərqavi. Sivilizasiyaların toqquşması: nəzəriyyə, yoxsa ideologiya? Əl-Kəlimə jurn. Beyrut, 2003, № 39, səh. 143.
[3]Yenə orada, səh. 145.

Qərblə dialoqun büdrəmə səbəblərindən danışarkən 2001-ci il 11 Sentyabr hadisəsinin doğurduğu təsirlərə, ab-havaya toxunmamaq mümkün deyil. Bu hadisə fonunda Qərblə dialoqun axsama səbəblərini siyasi, dini və psixoloji olmaqla üç növə ayırmaq olar.

## Siyasi səbəblər

11 Sentyabr hadisəsi Qərblə İslam dünyası arasında ciddi siyasi böhran yaratdı. Bununla da Qərb islamla dialoqa hazır olmayan tərəfə çevrildi. Qərblilər 11 Sentyabr hadisəsinin nəticəsini aradan qaldırmaq üçün zəruri hesab etdikləri siyasi mexanizmləri işləyib hazırladılar. Bu mexanizmlər Qərbin qarşı tərəflə münasibətlərində bir çox problemə səbəb oldu. Bu mexanizmlər terror, siyasi demokratik islahat, insan haqları, bir tərəfdən qloballaşma, digər tərəfdən isə siyasi islahatçılıqla əlaqəli iqtisadi islahatçılıq problemləri əsasında qurulmuşdu.

### a) Terror problemi

Terror problemi İslam dünyası ilə münasibətlərində Qərbə hakim kəsilmiş əsas problemdir.[1]Bütün beynəlxalq siyasi münasibətlərdə terror mövzusu gündəlik mövzudur. Hətta bu problemə görə dünya amerikasayağı olaraq iki “Kim bizimlədir”, “Kim bizimlə deyildir?” hissələrinə bölünüb. Qərb ABŞ-ın terrorla mübarizə adı altında aparılan bütün əməliyyatların iştirakçısına çevrilib. Bütün bu əməliyyatlar indiyədək bir neçə müharibəyə səbəb olub. Avropa-ABŞ koalisiyası Əfqanıstan, İraq, Liviya və s. ilə müharibə aparıb və buna davam edir.

---

[1]Abdullah əs-Seyyid Vələd Əbah. “11 Sentyabr» hadisəsindən sonra Qərbin İslamla bağlı xitab tərzi. Təsamüh jurn. Oman: “Vəqflər və dini işlər Nazirliyinin”nəşrləri, 2004, № 7, s. 118-119.

Terrorla mübarizə siyasəti beynəlxalq münasibətlərdə özünü bir nömrəli prioritet məsələ kimi təsdiqləməyə nail olub; dünyanı bu məsələdə hərbi ortaqlığa sövq edib. "Əl-Qaidə" və terrorda ittiham olunan digər təşkilat və cəmiyyətlərlə daimi müharibə başlanıb.

Qərblə müsəlman dünyasının münasibətlərindəki ciddi siyasi dəyişiklik hətta Fələstin probleminə belə birbaşa təsir edib. Fələstin probleminin terrorla əlaqələndirilməsi kimi köklü dəyişikliklər baş verib. Artıq Fələstin problemi Qərbin nəzərində terrorla mübarizə çərçivəsində həll ediləcək problemə çevrilib. Bəli, Fələstindəki müqavimət hərəkatı terror hərəkatı kimi təqdim edilir. Deməli, belə çıxır ki, mən səni qırım, çatım, məhv edim, sən isə özünü müdafiə etmə, etsən terrorçusan. İsraillilər Qərbi və ABŞ-ı inandıra biliblər ki,(sanki onlar belə düşünmürdülər) onların fələstinlilərlə "mübarizəsi" terrorla birbaşa əlaqəlidir. İsrail fundamentalizm və terrorla mübarizədə özünü Qərb və ABŞ-a strateji tərəfdaş və vuran qol kimi təqdim edir.[1]

İslam dünyası Qərbin terrorla "mübarizəsinin zərurət olması" məsələsində "razı salınıb". Bəzi müsəlman ölkələrində çoxsaylı terror hadisələrinin baş verməsi terrorla mübarizənin zəruri olduğu beyinlərə aşılanır. Həqiqət budur ki, Qərb öz siyasi dünyagörüşü formasını hamıya qəbul etdirib, hamını məcbur edib ki, yalnız terror və onunla mübarizə haqda düşünsünlər. Bütün bunlar təbii ki, mədəni-dini dialoqa da təsir göstərir. Qərb slam dünyasını ittiham edir ki, müsəlmanların dini sistemi və mədəni zehniyyəti terror "istehsal" edir; İslam mədəniyyəti terror mədəniyyətidir.Bəs 2015-ci il iyunun ortalarında ABŞ-da 21 yaşlı oğlanın atasının bağışladığı tapança ilə o, qara dərili din xadimi və senatoru qətlə yetirməsi və s. bu kimi qanlı hadisələr kimin ayağına yazılmalıdır? Bu səbəbdən, Qərb dini və mədəni dialoqu deyil, islam mədəniyyəti və dini zeh-

[1]Əhməd əl-Mosuli. Qeyd edilən məqalə, s. 64.

niyyətin kökündən dəyişdirilməsini, “sülh” mədəniyyətinin təbliğini tələb edir. Qərb BMT-yə təsir göstərir ki, İslam dünyasındakı dini-mədəni vəziyyətin dəyişdirilməsi məqsədilə müvafiq dini-mədəni proqram hazırlasın, dəyişikliklərin lazımi səviyyədə getməsi üçün müsəlman ölkələrinin təhsil sisteminə müdaxilə etsin.

Avropa və ABŞ-ın slam dünyasının mədəni sisteminə müdaxiləsi terrorla mübarizə planının bir parçası kimi baş tutub. Samuel Hantinqton bu məsələni açıq şəkildə belə bildirir: Qərb üçün ən mühüm problem islam fundamentalizmi deyil, islamın özüdür, islam Qərbə yad mədəniyyətdir. Oxucuya indi hər şey güzgü kimi aydındır. Müsəlmanlar inanırlar ki, onların mədəniyyəti ən kamil mədəniyyət olub, universallığa, cahanşümulluğa malikdir. Bu da öz növbəsində həmin mədəniyyətin dünyada təbliğini zəruri edir. Məhz bu, Qərblə islam arasındakı mübarizəni “qidalandıran” başlıca ünsürdür.[1]

**b)** Sentyabr hadisəsindən sonra Qərblə slam dünyasının münasibətləri əsasən siyasi islahatçılıq ətrafında təmərküzləşib. İslahatların içdən, yoxsa çöldən aparılması müzakirə mövzusuna çevrilib. Görəsən islahatlar Əfqanıstan, İraq və Fələstində olduğu kimi güc tətbiqi ilə, yoxsa vaxtı ilə Liviyaya, indi də İrana tətbiq edilən embarqo vasitəsilə aparılmalıdır? Ya da Misirə vaxtilə vəd verib, Sudana hədə-qorxu gəlməklə islahatlar aparmaq lazımdır? Biz siyasi islahatların artıq baş tutduğunu iddia etmirik, əksinə, demək istəyirik ki, Qərb slam dünyasının siyasi işlərinə müdaxilə edir, siyasi vəziyyəti dəyişməyə can atır. Can atır ki, müsəlman dünyası siyasi islahatlar adı altında ABŞ və Qərbin siyasi kursuna uyğunlaşdırılsın. Əfqanıstan və İraqın işğalı qəti şəkildə göstərir ki, Qərblə müsəlman dünyası arasında siyasi dialoq çoxdan bitib[2].

---

[1]Samuel Hantinqton. Sivilizasiyaların toqquşması, yenə orada, s. 352.
[2]Ömər Zərqavi, yenə orada, s. 147.

**c)** Demokratiya probleminin "qovluğu" ənənəvi "qovluq"dur. Ancaq bu qovluq 11 Sentyabr hadisəsindən sonra xüsusi şəkildə açılıb, gündəmə gətirilib. Demokratiya slam dünyasının işlərinə müdaxilə etmək üçün siyasi bəhanəyə çevrilib. Müsəlmanlara elan edilən müharibələr də demokratiya bayrağı altında aparılır, Əfqanıstan və İraq müharibələrində olduğu kimi. Demokratiya bəhanədir, qayə və məqsəd deyildir. Çünki müsəlman ölkələrində demokratik dəyişikliklərə Qərbin reaksiyası müsbət olmamışdır. Əlcəzairdəki demokratik islahatlara, Fələstində HƏMAS-ın qanuni demokratik seçkilərlə hakimiyyətə gəlməsinə Qərbin münasibəti hamıya məlumdur. Qərbin demokratik uğurlara dözülməz münasibətinin nəticəsi idi ki, bütün Fələstin xalqına embarqo tətbiq edildi, demokratik dəyişikliklər tanınmadı, fələstinlilər aclığa məhkum edildi; demokratik hökumət istefa versin deyə HƏMAS-a və Fələstin Administrasiyasına ciddi təzyiq göstərildi (Niyə?) Bir sözlə, Qərb indi demokratiya uğrunda dialoq aparmır, əksinə, demokratiya adı altında müharibələrə imza atır, demokratiyanı əldə bayraq edərək müsəlmanların işlərinə qarışır. Əgər müsəlmanların siyasi vəziyyəti Qərbin islam coğrafiyası ilə bağlı planlarına və mənafeyinə uyğun gəlmirsə, qərblilər onu dəyişməyə çalışırlar. Məsələ dialoq olmadan zor tətbiqi ilə başa çatır[1].

Qərb özünün ikili standart siyasətinə, əxlaqi tənəzzülünə görə heç bir vicdan əzabı çəkmir. Halbuki, "… dialoq ikili standartlara əsaslanmamalıdır".[2]Qərb cəmiyyəti beynəlxalq qanunlarda ikili mövqedən, hüquqdan çıxış edir. Təbii ki, bu ikili standartlığın fonunda heç bir uğurlu dialoqdan söz gedə bilməz.[3]Bunu Ermənistan-Azərbaycan münasibətlərində açıq-aşkar görürük.

---

[1]Yenə orada, s. 147.
[2]Əhməd əl-Mosuli. Müasir dövr İslam dünyasında novatorluq və təhlükələr. Hivar əl-Ərəb jurn. Beyrut. 2005, № 2, s. 64.
3.Yenə orada

**ç) İnsan haqları və etiqad azadlığı hüququndan sui-istifadə problemləri**

Heç də yeni olmayan bu problemlər 11 Sentyabr hadisəsindən sonra növbəti dəfə xüsusi şəkildə gündəmə gətirilib. Gətirilib ki, İslam dünyasının işlərinə siyasi və hərbi müdaxilədə əsas vasitələrdən birinə çevrilsin. Doğrudur, bu cür müdaxilə halları hələ 11 Sentyabr hadisəsindən qabaq da baş vermişdi. Bosniya-Herseqovina, Somali hadisələri buna misaldır.

İnsan haqları problemi Qərbin siyasi maraqları ilə əlaqəli problemdir. O, hər hansı bir ölkədə insan haqlarının vəziyyəti ilə bağlı problem deyildir. Başqa sözlə desək, insan haqları probleminə siyasi don geyindirilib ki, Qərbin siyasi-strateji maraqlarının təmini üçün siyasi və hərbi müdaxiləyə imkan yaransın. Burada heç kimi hansısa ölkədə insan problemləri, insan haqlarının vəziyyəti qətiyyən maraqlandırmır.

Digər məsələ isə bundan ibarətdir ki, slam dünyasının daxili işlərinə siyasi müdaxilə vasitəsi kimi istifadə edilən insan haqları problemi BMT-nin tam nəzarəti altında nəzərdən keçirilmir. Əslində bu problem 11 Sentyabr hadisəsindən sonra Qərb strategiyası ilə əlaqəli müstəqil siyasi qərarların nəticəsi kimi ortaya çıxıb. Bu məsələdə BMT-nin razılığı alınmayıb. İşdir, əgər bu məsələdə BMT-nin razılığı alınarsa, bu yalnız hüquqi don geyindirilmə ehtiyacının təmininə xidmət edir. Zənn etməyin ki, bu, insan haqlarına hörmətdən və ya BMT-nin səlahiyyətlərinə boyun əymək arzusundan irəli gəlir, əsla belə deyildir!

Eyni hal etiqad azadlığı məsələsinə münasibətdə də müşahidə olunur. Belə ki, bu mövzuda da beynəlxalq qanunlardan sui-istifadə edilir. ABŞ özünü elə aparır ki, sanki beynəlxalq vəziyyətə nəzarət etmək yalnız onun işidir və o, beynəlxalq problemlərin həllində yalnız Amerika qanunları əsasında qərar çıxarmaq haqqına sahibdir. Belə olduğu halda, ABŞ-ın getdiyi yol haqq yolu kimi təqdim edilir ki, heç kimə bu yolda amerikalılarla bir-

likdə addımlamaq imkanı verilmir. Bir sözlə, beynəlxalq cəmiyyətin rəyi, mövqeyi nəzərə alınmadan təkbaşına mənəm-mənəmlik təmayülü özünü göstərir.[1]

11 Sentyabr hadisəsindən bir neçə həftə sonra Əfqanıstana müharibə elan edildi. Birinci müharibə başa çatmamış ikinci başlandı – İraq müharibəsi. Bu müharibə də birincisi kimi ədalətsiz müharibə idi. Çünki o, artıq doğru olmadığı təsbit edilən iddialar əsasında aparılırdı. Bu iddiaların ən mühümü İraqın kütləvi qırğın silahlarına maliklik iddiası idi.

Tez-tələsik, terroru törədənlərin kim olduğunu bilmədən intiqam almaq istəyi baş verən hadisənin ciddi şəkildə araşdırılmasına mane oldu. Bəlkə də, baş verənlərin səbəbkarları hadisənin başvermə səbəblərini araşdırmamaq qərarına gəlmişdilər. Çünki belə hadisələr zamanı araşdırma və təhqiqat işləri uzun çəkir ki, bunun da nəticəsində intiqam hissi yumşalmış olur.

Aparılan hər iki müharibədə insanlıq duyğusu yox idi. Çünki hər iki müharibə nizami ordulara deyil, dinc sakinlərə qarşı aparılır, bu, öz növbəsində Əfqanıstan və İraqın infrastrukturuna böyük zərbə vurub, çoxlu sayda sivil insan öldürülüb və yaralanıb, böyük həcmdə dağıntılar var; nəinki məhəllələr, hətta bütöv kənd və şəhərlər xarabazara çevrilib; indi də İŞİD-i ortaya atıblar, islam dövlətlərini məhv etmək istəyirlər; dinc vətəndaşların yaşadığı ərazilərə iqtisadi və ərzaq embarqosu təbliğ edilib; sərbəst dolaşmaq qadağan edilib; qadınlar, uşaqlar və qocalar yaralanıb, qətlə yetirilib. Bütün bunlar tez-tələsik və qəddarcasına intiqam almaq istəyinin təmsil etdiyi psixoloji amilin zehniyyətə hakim kəsilməsinin nəticəsində baş verir. Belə bir intiqam istəyi müharibə və işğal zamanı insan haqlarının, xüsusilə də dinc əhalinin hüquqlarının kobud şəkildə və kütləvi formada pozulmasına səbəb oldu.

---

[1]Samir Mərqis. "Qoruma və cəzalandırma. Qərb və Yaxın Şərqdə din məsələsi: Məzhəb qayğıkeşliyi qanunundan dini sərbəstlik qanununadək" kitabına yazılmış ön söz. Qahirə: "əl-Qipti" Sosial Araşdırmalar Mərkəzi, 2003, s. 148-149.

Müttəfiq qüvvələri Əfqanıstan, İraq və digər regionlarda inşa etdikləri, xüsusilə də "Əbu Qüreyb", "Quantanoma" həbsxanalarındakı əsirlərə olmazın əzablar verirlər. Əsirlərə qarşı əxlaqsız hərəkətlərə yol verirlər. Belə hərəkətləri özündə əks etdirən fotoşəkillər mövcuddur. Həbsxanalardakı əsirlərə cinsi təcavüz edilir, onlar bir-biri ilə cinsi əlaqəyə məcbur edilir. Bütün bu halların koalisiya əsgərləri tərəfindən fotoşəkilləri çəkilib, videoçarxları hazırlanıb. Bu, onu göstərir ki, məsələ koalisiya qüvvələri üçün əyləncə vasitəsinə çevrilib. İslama nifrətlərini bu yolla da büruzə verirlər. Əslində isə bu, ifrat formada intiqam almaqdır (Nəyin intiqamını? 11 Sentyabrı da onlar özləri təşkil etməmişdilərmi?), hərbi, psixoloji və informasiya "yüklənməsi" nəticəsində əsgərlərin psixoloji halının ifadəsidir, psixoloji müharibənin bir hissəsidir.

Qərb və İslam dünyası münasibətləri tarixində əvvəllər görünməmiş formada islam və müsəlmanlar haqqında təsəvvürlər saxtalaşdırılır. Bu məsələ də psixoloji halın ifadəsidir. Çünki müsəlman dünyası ilə Qərb arasında əvvəlki uzun-uzadı çəkişmələr zamanı bu hala rast gəlinməyib. İndi isə islam haqda təsəvvürlərin saxtalaşdırılması olduqca məqsədəuyğun və planlı formada aparılır. Qərb bunun üçün bütün imkanlarından, o cümlədən əsas silahdan – mediadan istifadə edir. Fransa hökuməti bu günlərdə hicabı qadağan edib, hicablı qadınlar, əlbəttə ki, müsəlmanlar cərimə olunacaqlar.

İslama ən böyük və amansız iftira onun terrorla eyniləşdirilməsidir. Dünya dinləri arasında yalnız islamın adı bu məsələdə "qaralanır" və o, terror dini kimi təqdim edilir.

Qərb ölkələrində müsəlmanlar davamlı şəkildə təhqir edilir. Bu da islamofobiyanın növbəti təzə halıdır. Qərbdə müsəlmanları ciddi nəzarətdə saxlamaq, məhkəmə qarşısına çıxmadan ittiham etmək geniş vüsət alıb ("Axı onlar müsəlman və potensial terrorçulardır!"). Odur ki, onlarla bu cür davranmaq lazımdır. Belə təhqirin ən dözülməz forması dinə yönəlib; Qurani-Kərim kitabları murdarlanır, yandırılır, təhqir edilir, məscidlərə hücumlar

olunur, namaz qılanlara qarşı təcavüz edilir, müqəddəs islam dəyərləri təhqiramiz formada cılızlaşdırılır, hicaba qarşı təhrikçi aksiyalar keçirilir… Nəhayət, ən böyük təhqirə əl atılır. Məhəmməd peyğəmbərin (s) karikaturaları çəkilir. Müsəlmanlar buna qarşı etiraz səslərini ucaltdıqda onlara terrorçu damğası vurulur. Budur, dekabr 2014 və yanvar 2015-ci ildə Fransada, İsveçrədə, Almaniyada məscidlər yandırılır, murdarlanır, müsəlmanlar təhqir edilirlər. İslama qarşı çıxışlarda Qərb ölkələrinin başçıları da çıxış edirlər. Bütün bunlar Qərbin hal-hazırda düçar olduğu psixoloji haldan, mənəviyyat böhranından xəbər verir.

Qərblilərin düşdükləri psixoloji vəziyyət bir çox yazılarda, kitablarda xüsusi termin və təbirlərlə açıq şəkildə ifadə olunur. Yəqinliklə bildirilir ki, islam qərb insanının psixoloji xəstəliyinə çevrilib. Odur ki, əlaqədar ədəbiyyatlarda tez-tez "islamofobiya" (islam qorxusu), "ksenofobiya" (insanın əcnəbilərdən, yaxud özündən fərqli olan insanlardan yalandan qorxması və onlara nifrət etməsi), "İslam təhlükəsi", "Yaşıl təhlükə", "Müsəlmanlar gəlirlər", "İslamın qaniçənliyi" və digər terminlərə, təbirlərə rast gəlinir. Bütün bu termin və təbirlər o dərəcədə dəqiqliklə ifadə edilir ki, qərb insanında asanlıqla psixoloji narahatlıq və gərginlik yaradır. Müsəlman tərəfi müəyyən məsələlərdə ittiham edildiyi üçün özünə haqq qazandırmaq, Qərbin bəraət təsdiqinə nail olmaq, ya da ən azından üzrxahlığının qəbul edilməsi üçün dialoqa can atır. Müsəlman tərəfi çalışır ki, 11 Sentyabr və digər hadisələrdə axan qanların məsuliyyətindən müsəlmanları qurtarsın. Qərblilər isə intiqam almadan üzrxahlığı qəbul etmək fikrində deyillər,alıblar da.İraq,Liviya,Suriya buna sübutdur.Onlar dialoqdan qabaq Qərbin strateji maraqlarının təminini istəyirlər.

Heç kəsə gizli deyil ki, Qərb 11 Sentyabr hadisəsini özünəməxsus şəkildə təhlil etdikdən sonra İslam dünyasının qarşısında bir sıra dini və mədəni tələblər qoyub. Bunlar tələblərdir, dialoq zamanı müzakirə ediləcək mövzular deyil. Çünki, Qərb məsələyə hər şeydən əvvəl siyasət prizmasından baxır. Qərbdə düşünürlər

ki, məhz islam dini terrorun ilk səbəbkarıdır. Məhz islam siyasi və iqtisadi islahatlara əngəl törədir; insan haqları məsələsində geriliyin əsas baisi də məhz islamdır. Elə isə müsəlman dünyasında dini və mədəni dəyişikliklər aparılmalıdır. Özü də bu dəyişikliklər ixtiyari deyil, icbari aparılmalıdır. Hətta bunun reallaşdırılması üçün gücdən istifadə də istisna edilmir; əgər bu, daxildən baş verməzsə, onu kənardan idxal etmək lazımdır. Bununla da dialoqun üzərindən iri, çəpəki bir xətt çəkilmiş olur.

Müsəlman dünyası qarşısında Qərb aşağıdakı dini tələbləri qoyur:

*1. Dini təhsilin ləğvi, dini məktəblərin bağladılması.*

Bu hala Əfqanıstan və Pakistanda rast gəlinir. Qərb tələbində israrlıdır ki, bütün dini universitet və institutlar bağladılsın, vahid təlim-təhsil proqramı hazırladılsın, dini və dünyəvi təhsil anlayışı ləğv edilsin.[1]

*2. Qərblilərə görə dini təəssübkeşliyə rəvac verən, ya da digər dinləri (xristianlığı, yəhudiliyi...) tənqid edən dini mətnlərin "ləğvi"* (Amma özləri islamı təkcə tənqid deyil, təhqir də edə bilərlər).

Quranın bəzi ayələri ləğv olunmalı, qüvvədən salınmalı, müsəlmanların həyatlarında tətbiq edilməməlidir.

*3. Dini xitab tərzinin təkmilləşdirilməsi.*

Qərblilərə görə təəssübkeş dini xitab tərzi təkmilləşdirilməli, tolerantlıq mədəniyyətini aşılayan dini xitab növünə çevrilməlidir. Başqalarına zülm edən, onları kafirlikdə təqsirləndirən, təəssübkeşliyi yayan bütün dini xitab mövzuları ləğv edilməlidir.

*4. Cihad təsisatının və Qurandakı cihad ayələrinin "ləğvi"*(Qurana müdaxilə!).

[1]Məhəmməd Əmarə. Dini xitab tərzinin yeniləşdirilməsi. "Qərb müdaxiləsi və islahatçılıq zərurəti prizmasından dini xitab tərzinin yeniləşdirilməsi "simpoziumun materialları.Qahirə Universiteti, 15-16 iyun 2005-ciil. "Mənar əl-islam" jurnalı, № 371, dekabr 2005, s. 53; Əhməd Şihab.Qloballaşmadan sonra media. "Əl-Kəlimə" jurnalı, Beyrut, 2003, № 39, s. 119.

Qərblilər tələb edirlər ki, Allah yolunda şəhid olmağı haram və cinayət sayan fitvalar verilsin (Bu Allahın işinə qarışmaq deməkdir). Bu fitvalara görə Allah yolunda şəhid olanlar kafir hesab edilməlidirlər. Fitvaların mətnində konkret şəkildə göstərilməlidir ki, qərblilərin nəzərində "intiharçılar" hesab olunan şəhidlər kafirdirlər, onların gördükləri işlər də şəhadət olmayıb, intihardır. Belə şəxslər Cənnətə daxil olmayacaqlar. Həmçinin elə fitvalar da verilməlidir ki, işğala qarşı silahlı mübarizəni qadağan etsin, bunun cinayət olduğunu bildirsin.Bundan belə çıxır ki,mən səni qırım-çatım,sən isə başını qaldırma,yoxsa cinayət edərsən!Bu səlahiyyəti Qərbə kim verib?

Fələstin problemi məsələsində antisemitizmi cinayət hesab edən qanun çıxarılmalı, antisemitizm dedikdə yəhudilərə, sionistlərə və İsrailə qarşı çıxmaq başa düşülməlidir.

*5. Beynəlxalq İslam xeyriyyə cəmiyyətlərinin, təşkilatlarının bağlanması əsas şərt kimi.*

Qərb tələb edir ki, beynəlxalq səviyyəli müsəlman xeyriyyə təşkilatları bağladılsın, onların fəaliyyətinə və maliyyə dövriyyəsinə nəzarət edilsin, maliyyə vəsaitləri müsadirə olunsun, istifadəsinə qadağa qoyulsun.Məgər Qərb dünyaya ağalıq etməyə təyin olunub?!

*6. Ümumi dini islahatçılıq.*

Qərb islamın və dini xitab tərzinin, dini leksikanın yeniləşdirilməsində, dini təəssübkeşliyin aradan qaldırılmasında, məscidlərə yeni funksiyaların yüklənməsində israrlıdır.

*7. Dini çoxnövlülüyün qəbulu və etiqad azadlığına imkan yaratmaq.*

Etiqad və din seçmə sərbəstliyi adı altında müsəlman ölkələrində xristianlığı yaymaq[1], bir müsəlmanın digər dini qəbul etmə-

[1]Artıq bu tələb təkcə müsəlmanların deyil, həm də xristianların arasında xristianlaşdırma işinin aparılması tələbi kimi səslənməyə başlayıb. Samir Mərqis bu barədə yazır: "Amerikanın planı budur ki, heç bir dövlət amerikalı

sinə qadağa qoyan hökmləri ləğv etmək də əsas tələblərdəndir. Qərb həmçinin tələb edir ki, müsəlman qadınların qeyri-müsəlmanlarla evlənmələrinə icazə verilsin, dönüklüklə bağlı hökmlər aradan qaldırılsın, müsəlman ölkələrindəki qeyri-müsəlman azlıqlara qarşı dini zülmə son qoyulsun.Hansı müsəlman ölkəsində bu zülm müşahidə olunur? Deyəsən qərblilər özləri ilə müsəlmanların yerlərini səhv salıblar. İslam ölkələrində məbəd və kilsələrin inşasına, sapıq dini konsessiyaların fəaliyyətinə imkan yaradılsın.

*8. Ailə təsisatı ilə bağlı şəriət hökmlərinə müdaxilə etmək.*

Qərbə görə beynəlxalq demoqrafik konfranslarda, xüsusilə də nəsil artımı ilə bağlı qəbul edilmiş bütün qərarlara "hə" demək, çoxevliliyi ləğv etmək, homeseksuallığa, nikahdankənar və nikahqabağı cinsi əlaqəyə, cinslərarası dostluğa, "boy-frend" və "göl-frend" münasibətlərinə şərait yaratmaq lazımdır.Belə iyrənc qərarlar insanlığa sığmır.

*9. İqtisadiyyat sahəsində Qərbin əsas tələbi budur ki, banklarda faiz sistemləri tətbiq edilsin, faizli investisiya şəhadətnamələri tərtib olunsun, islam bankları, ya da islam iqtisadiyyatı əsasında fəaliyyət göstərən bank filiallarının fəaliyyətinə son qoyulsun, beynəlxalq bank sistemi qeyd-şərtsiz həyata keçirilsin.*

*10. İnsan haqlarına riayət etmək, hüquq pozuntularının qarşısını almaq.*

Burada söhbət, xüsusən də qadınların, uşaqların və heyvanların hüquqlarından gedir. Heyvanların hüquqlarının təmini üçün qərbdəki bəzi insan haqları təşkilatları tələb edir ki, qurban

---

missionerlərin fəaliyyətinə əngəl törətməsin. Təbii ki, bu, xristianlığın ənənəvi qollarının taleyi baxımından hətta Kilsəni belə narahat etməyə başlayıb". Bax: Samir Mərqis. "Qoruma və cəzalandırma. Qərb və Yaxın Şərqdə din məsələsi: "Məzhəb qayğıkeşliyi qanunundan dini sərbəstlik qanununadək" kitabına yazılmış ön söz. Qahirə: "Əl-Qipti" Sosial Araşdırmalar Mərkəzi, 2003, s. 149.

bayramında heyvanların kəsilməsinə son qoyulsun.Amma özləri müsəlmanları hər cür məhv etməkdən çəkinmirlər.

*11. İnsana fərdi azadlıqların verilməsi.*

Tələb olunur ki, fərd dinə, əxlaq sisteminə təhkim edilməsin, qərbdə olduğu kimi, fərdi azadlıq ideyalarının təbliği aparılsın. Yəni insan başqalarına zərər vermədiyi müddət ərzində azaddır.

Qərb dini tələblərlə yanaşı, mədəni tələblərinin də siyahısını hazırlayıb. Qərbin mədəni tələbləri dindən və əxlaqdan ayrı, əlahiddə tələblərdir. Bu tələblərin ən mühümləri aşağıdakılardır:

1.Təəssübkeşlik, zorakılıq və pedantizm mədəniyyətinin əvəzinə tolerant dünyagörüşü ideyalarını təbliğ etmək.

Müsəlman mədəniyyətini qeyri-tolerant mədəniyyət hesab edən Qərb müsəlmanlardan qarşı tərəfə nifrət, onun hüquqlarına hörmətsizlik təmayüllərinin aradan qaldırılmaması tələbini irəli sürür.

2.Sülh mədəniyyətinin təbliği özünəməxsus şəkildə həyata keçirilir.

"Mədəniyyətlərarası toqquşma" nəzəriyyəsi ədavət ruhunu aşılayır. Qərbin bu nəzəriyyəni əsas götürməsi nəticəsində o, siyasi ideologiya məzmunu kəsb etmiş, ABŞ və Avropadakı mühafizəkar sağların əlində şüara çevrilmişdir; onlar 11 Sentyabr hadisəsi faktından ikiəlli yapışaraq, onu böyük toqquşmaya – Samuel Hantinqtonun irəli sürdüyü və müsəlman dünyası ilə qarşıdurmada ABŞ-ın strateji kursuna çevrilmiş "Sivilizasiyaların toqquşması" nəzəriyyəsinə dəlil kimi təqdim etmişlər.[1]

Qeyd etmək lazımdır ki, "Sivilizasiyaların toqquşması" nəzəriyyəsi yalnız İslam dünyası ilə mübarizədə tətbiq edilir. Çünki bu nəzəriyyə siyasi cəhətdən yalnız islam ölkələrinə, hökumətlərinə, icma və xalqlarına tətbiq olunub. Bu nəzəriyyədə

[1]Əbdülsəttar İbrahim əl-Heyti. Fərdin öz-özü və başqası ilə dialoqu. Qətər: Vəqflər və Dini İşlər Nazirliyinin nəşrləri, 2004, s. 164; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 134.

Çin mədəniyyəti Qərb üçün təhlükəli mədəniyyət hesab edilsə də, real siyasət aləmində bu nəzəriyyənin Çinlə münasibətdə siyasi rolu və əhəmiyyəti yoxdur; Çinə qarşı (hələlik) heç bir təcavüzkar addım atılmayıb, Çin mədəniyyəti siyasi və mədəni səviyyədə heç bir konkret sanksiyalara məruz qalmayıb. Düzdür, ortada iqtisadi rəqabət və Çinə qarşı iqtisadi siyasətyürütmə faktı var. Ancaq buna səbəb Çinin yüksək iqtisadi qüdrətidir, Çin hökumətinin, iqtisadi siyasət kursunda dempinq əməliyyatlarına üstünlük verməsidir, təkcə ABŞ və Avropanı deyil, həm də bütün dünyanı Çin iqtisadiyyatının "işğal etməsidir".

ABŞ və Böyük Britaniyada yəhudi fundamentalizminin təsiri altında xristian fundamentalizmi Fələstini fundamentalistlərinin mübarizə beşiyinə çevirib. Birləşmiş Ştatlarda İsrailə hamilik edən hərəkatların əksəriyyəti xristian fundamentalistlərinin qurduğu hərəkatlardır. Bu hərəkatlar yəhudi fundamentalizmi ilə birlikdə fundamentalist peyğəmbərlik xəbərdarlıqlarını və qeybi ideyalarını reallaşdırmaq məqsədilə bütün yəhudiləri Fələstinə cəm etməyə can atırlar. Çünki onların etiqadına görə dağınıq halda olan yəhudilər Fələstində cəm olduqdan sonra İsa Məsih (ə) ikinci dəfə yer üzünə qayıdacaqdır.[2]

Hal-hazırda Qərbdə islam əleyhinə yeni hücum dalğası özünü göstərir. Bu hücumlar həm əvvəllər müşahidə edilməmiş dərəcədə kəskin dini xarakter daşıyır, həm də bu, islam ölkələrinə, xalqlarına siyasi və hərbi təcavüzlə müşayiət olunur. Bunun nəticəsində iki müsəlman ölkəsi – Əfqanıstan və İraq işğal edilib,

---

[2]Yusif əl-Həsən. Ərəb-sionist mübarizəsinə münasibətdə Amerika siyasətində din faktları: Amerika-xristian fundamentalizmi hərəkatı haqda araşdırma. Beyrut, "əl-Vahdə əl-Ərəbiyyə" Tədqiqatlar Mərkəzi, 1990. Eləcə də bax: Ricina əş-Şərif. Sionizm yəhudilik deyildir. Qərbdə sionizmin tarixi kökləri. "Aləm əl-mərifə" jurn. Küveyt, 1995, № 96; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 135; Həm də bax: "Rokfellerin etirafları".

Liviya darmadağın edilib, Misir iflic vəziyyətə düşüb, Fələstinin işğalı faktını da burada qeyd etmək lazımdır.

İslam həm din və həm də mədəniyyət olmaq etibarı ilə Qərbin amansız hücumuna məruz qalır. Əslində, bu hücum yeni dövrdə Qərbin yeni müstəmləkəçiliyinin müsəlman dünyasına qarşı həmlələrinin davamıdır. Qərb öz həmlələrində daha çox şərqşünaslıq silahından istifadə etmişdir;bəzi şərqşünaslıq "tədqiqatları"nda islam müsəlmanların geriliyinin səbəbkarı kimi təqdim edilir; bu səbəbdən müsəlman ölkələrində dünyəviliyin tətbiqi və Qərb mədəniyyətinin yayılması zərurətindən söz açılır. Yəni Qərbin mədəni qəsbkarlığına şərait yaradılmalıdır.[1]

Şübhəsiz, bu məqsədlər hələ də qüvvədədir, hücumlar da davam edir. Ancaq Qərbin islam əleyhinə yeni həmlələrinin əsas xarakterik cəhəti ittiham etməkdir. İslam terrorla ittiham olunur! İslam terror dini olmaqda ittiham olunur, siyasi, mədəni və dini cəhətdən Qərbə təhlükə kimi təqdim olunur. Bu ittiham bütövlükdə islama qarşı yönəlib, onun hansısa məzhəbinə, ideyasına və ya icmasına qarşı yox.

Qarşıdurmaya səbəb olmuş digər amil iki müsəlman ölkəsinin – Əfqanıstan və İraqın (sonra da Liviyanın) işğal edilməsi, digər islam ölkələrinin – Suriya, İran, Sudan və Livanın işğal təhlükəsi ilə üz-üzə qalmalarıdır. Fələstinin İsrail tərəfindən işğalının davam etməsi, 11 Sentyabr hadisəsinin birbaşa təsiri altında Fələstin probleminin həllinin "dalana dirənməsi" də bu qarşıdurmaya rəvac verən amillərdəndir.

11 Sentyabr hadisəsi Qərbdəki müsəlman azlıqların vəziyyətinə bilavasitə təsir göstərmiş, bəzi terror aktları – Londondakı 7 iyul hadisələri, Madriddəki aktlar isə bu təsiri gücləndirmişdir.

[1]Rizvanəs-Seyyid. İslamla mübarizədə şərqşünaslıqdan antropologiyayadək. "Təsamüh" jurn. Oman. "Vəqflər və Dini İşlər Nazirliyi"nin nəşrləri, 2004, № 7, s. 80-81; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 136.

İslama hücum Qərbə daha yaxın müsəlmanların "başında çatlayıb". Bunlar Qərbdə yaşayan müsəlmanlardır ki, məlum hadisələrdən sonra qərblilərin gözündə dinc vətəndaşlardan potensial terrorçulara çevriliblər. Odur ki, onlara sanksiyalar tətbiq edilmiş, nəzarət altına alınaraq, zülmə və dözülməz münasibətə məruz qalmışlar. Bu müsəlmanların fəaliyyətini məhdudlaşdıran, onları öz vətənlərinə qayıtmağa məcbur edən qərarlar, qanunlar çıxarılmışdır. Artıq onların xeyli hissəsi öz ölkələrinə qayıdıb. Qalanları isə gərgin və təhlükəli şəraitdə yaşayırlar; iş şəraitləri dözülməzdir, işsizdirlər, daima nəzarət altındadırlar.[1]

Qloballaşmanın mədəni qəsbkarlığı həqiqi mənada İslam dünyası üçün bir təhlükədir. Elə isə qloballaşmanın mədəni qəsbkarlığı ilə mübarizə aparmaq müsəlmanlar üçün olduqca zəruridir. Zəruridir ona görə ki, mədəni islam dəyərlərinin, müsəlman identikliyinin, daxildə və xaricdə islam mədəniyyətinin (kimliyinin) qorunması mümkün olsun. İslam dünyası ya qloballaşmanı şər hesab edərək, ondan xilas olmağın zəruriliyini düşünməli[2], ya da onu bir reallıq kimi qəbul etməklə onunla münasibət qurmalıdır.[3]

Gözlənilir ki, 11 Sentyabr hadisələrinin nəticəsi olaraq dialoqdakı axsamaların psixoloji səbəbləri zaman keçdikcə dəyişəcəkdir. Ümid edək ki, bu psixoloji böhranın kəskinliyi azalmağa başlayıb, hər dəfə zaman etibarı ilə bu hadisədən uzaqlaşdıqca onun təsiri də azalır. Ancaq əsas problem hələ də mövcuddur. Bu, yuxarıda adı çəkilmiş üç nəzəriyyənin doğurduğu siyasi, dini və mədəni problemlərdir. Bu nəzəriyyələr hələ də yaşayır və onlar

---

[1] Entoni Sullivan. Qərb və İslam dünyası: yeni başlanğıc axtarışı, s. 7; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 138.

[2] Əhməd Şihab. Qloballaşmadan sonra media. "Əl-Kəlimə" jurnalı Beyrut, 2003, № 39, s. 121; Məhəmməd Xəlifə Həsən. Dialoq, yenə orda.

[3] Məhəmməd Faruq ən-Nəbəhan. Sivilizasiyalararası dialoq metodologiyasına İslamın baxışı. "İslam və sivilizasiyalararası dialoq" simpoziumunun materialları, cild II. Riyad: "Məktəbə əl-Məlik Əbdüləziz" nəşriyyatı, 2004, s. 331; Məhəmməd Xəlifə Həsən. Dialoq, yenə orada.

islamofobiyanın vüsətində əhəmiyyətli rola malikdirlər, bu nəzəriyyələr hamıya diktə edir ki, müsəlmanlar yadellidirlər, yad məxluqlardırlar, yəhudilər və xristianlardan pis tərəfə fərqlənirlər, özünü yeganə (hegemon) sayan Qərbə düşməndirlər. Bu barədə İftixar Malik yazır: "Həm Hantington, həm də Fukuyama "Sivilizasiyalararası toqquşma" və "Tarixin sonu nəzəriyyələri" ilə Qərbdə təntənəli surətdə qarşılandılar. Çünki onlar Qərbə yeganə əsas (baza) kimi baxmış, qeyri-qərb cəmiyyətlərini, xüsusilə də müsəlmanları "başqalarını təmsil edənlər" kimi nəzərdən keçirmişdilər. Bu nöqteyi-nəzərə görə müsəlmanlar nəinki xristian və yəhudi qərbindən fərqlənirlər, həm də ona düşməndirlər. Qərb özünün üstünlüyünü qəbul etməklə bu nöqteyi-nəzəri təsdiqləmiş olur. Qərb və qeyri-Qərb arasındakı əlaqə üstünlə üstün olmayanın (fəzilətli ilə rəzilin) əlaqəsidir".[1]

Şeyx Raşid əl-Qənnuşi bu problemi islamofobiyanın əsas mənbəyi hesab edir: "İslama və müsəlmanlara qarşı ədavətin və şübhələrin bir çox səbəbi olsa da, Fələstindəki ərəb-İsrail müharibəsi həmin ədavətin əsas "yanacağı" olaraq qalır. Bu ədavət isə getdikcə kəskinləşir. Çünki islamda Avropanın Fələstin uğrundakı mübarizəsi dinlərin və mədəniyyətlərin mübarizəsidir…"[2]

Ərəb-İsrail probleminin həlli Qərbdə yəhudiliklə xristianlığın "dini-mədəni birliyi" nəticəsində daha da çətinləşmişdir. Belə birlik yəhudiliyə imkan vermişdir ki, xristianlıqla yanaşı, o da Qərbin mədəni irsinə ortaq olsun. Bununla da yəhudilik protestantlığın "əsas müqəddəs bünövrəsinə" çevrilmiş, "sionizm layihəsinin həyata keçirilməsində xristianlığın razılığını almışdır,

[1]Iftikhar H.Malik. Crescent between Cross and Star: Muslims and The West after 9/11, Oxford Univ. Press, 2001, p.10-11; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 140.
[2]Şeyx Raşid əl- Qənnuşi. Avropada İslam. "Hivar əl-Qərb"jurnalı.Beyrut 2006, № 21, s. 45.

çünki yəhudilərin Fələstinə sahib olub, Süleyman məbədini inşa etmələri İsa Məsihin qayıdışı üçün zəruridir”.[1]

Bu təmayülün yəhudi-sionist və xristian-sionist rəhbərləri islama qarşı düşməncəsinə mövqe nümayiş etdirirlər. Yevangelist-missioner amilin xristian-sionist rəhbərlərə təsiri böyükdür. Nəticədə bu liderlər islam ölkələrinin və Qərbdəki müsəlman azlıqların əleyhinə zorakı siyasət kursunun qəbulunu özlərinin dini-əxlaqi vəzifəsi hesab etdilər.[2]

Təbii məsələdir ki, məlum “birlik” xristian-yəhudi irsi anlayışı vasitəsilə müsəlmanların və islamın daha da təcridinə səbəb olmuşdur. Bu anlayış islamla Qərbin münasibətlərindəki başlıca maneənin aradan qaldırılmasına əngəl yaradır. Qənnuşiyə görə bu maneə “sionizm maneəsi”dir. Müəllif qeyd edir ki, sionizm islama və “Qərbdəki müsəlman azlıqlara qarşı təhrikçiliyə rəvac verir”.[3]

İslamofobiyaya rəvac vermək məqsədilə məlum vəziyyətlərin səbəb olduğu ikinci problem müsəlman azlıqları və Qərbdə islamın varlığının genişlənməsi fenomeni problemdir. Bu fenomen Qərb üçün potensial təhlükə mənbəyi kimi nəzərdən keçirilir və belə bir iddia irəli sürülür ki, müsəlman azlıqlar Qərb cəmiyyətinə inteqrasiya üçün hazır deyil, bu azlıqlar öz müsəlman identikliyinə mühafizəkarcasına bağlı olduqlarından daima təcrid vəziyyətindədirlər ki, bu da onların Qərb həyat tərzindən uzaqlaşmasına səbəb olur. Həmçinin bu müsəlman azlıqların mütəmadi immiqrasiya və təbii artım sayəsində genişlənməsi Qərbə kabus kimi görünür. Genişlənmə isə öz növbəsində bir tərəfdən demoqrafik problem yaradır, digər tərəfdən isə kəmiyyət və keyfiyyətdə

---

[1]Şeyx Raşid əl-Qənnuşi. Avropada İslam. Hivar əl-Qərb jurn. Beyrut, 2006, № 21, s.45-46; M.X.Dialoq, s.140

[2]Iftikhar H.Malik. Crescent between Cross and Star: Muslims and The West after 9/11, Oxford Univ. Press, p.20-21.

[3]Şeyx Raşid əl-Qənnuşi. Yenə orada, s. 49; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 141.

nüfuzun artması ilə gələcəkdə müsəlmanların siyasi və iqtisadi vəziyyətə təsir göstərə biləcəkləri təhlükəsindən xəbər verir.

Sovet İttifaqının süqutu ilə kommunist təhlükəsinin aradan qalxması yeni nəzəriyyənin yaranmasına ehtiyac yaratdı. Bu, "İslam-növbəti düşmən" nəzəriyyəsidir. Kommunizm təhlükəsinin can verdiyi andan islam Qərb üçün yeni təhlükə mənbəyinə çevrilmişdir. Hantinqton, Bernard Luis, Kapell "Düşmən" islam ideyasını inkişaf etdirərək, onu Berlin divarının yıxılması ilə süqut edən kommunizm təhlükəsinin varisi kimi təqdim etdilər. İddia edildi ki, nəinki islam fundamentalizmi, hətta islamın özü belə Qərb dəyərləri ilə səsləşmir, onunla toqquşur.

11 Sentyabr hadisəsi Avropadakı müsəlman azlıqları haqqında təhlükəlilik şübhələrini artırdı. Odur ki, bəzi dairələr bu azlıqlarla ehtiyatlı davranmağa çağırırdılar.[1] Habelə, Avropanın müsəlman varlığı qarşısında Qərb dəyərlərinin "qorunmasının" vacibliyi haqda car çəkənlər də tapıldı. Müsəlman azlıqlarla ehtiyatlı davranma, təbii ki, "biz" və "onlar" arasında fərqi dərinləşdirəcək, daxildə "özgə" anlayışını yaradacaqdır. Qeyd edək ki, avropalı identikliyi məsələsinin yenidən gündəmə gəlməsində müsəlman varlığının təsiri nəzərə alınmalıdır. Nəticədə müsəlmanlar "özgə"nin təmsilçiləri kimi cəmiyyətdən kənarda saxlanılmış və məlum identiklik yenidən müəyyənləşdirilmişdir.[2]

Con Espozito bildirir ki, müasir dövrdə islama və müsəlmanlara Qərbin hücumu bu din barədə məlumatsızlıqla, qərəzli həll yolları ilə, qeyri-obyektiv təhlillə əlaqəlidir. Qeyri-obyektiv təhlil islama dair bilikləri artırmır, əksinə, təhrif edir və göstərir ki, xaç yürüşlərindənqalma nifrət hələ də qərblilərin qəlblərində mövcuddur. Bu təhlil onu da göstərir ki, Qərb yenə də qorxu

---

[1] Yunas Samad and Kasturi sen, Islam in the European Union, Transnationalism Youst and the war on Terror/ Oxford Univ/ Press.2007, p. 3; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 142.

[2] Yunas Samad and Kasturi sen, Islam in the European Union, s.4.

içərisindədir. Bu qorxu isə bir sıra islamçı ünsürlərdən – "əl-Qaidə"dən, talibilər və Səddamdan irəli gəlirdi Səddamı vəhşicəsinə məhv etdilər, İraqda heç bir kimyəvi silah da tapmadılar. Terrorçunun Səddam yox, ABŞ və Qərb olduğu aydın olur. Sonra isə 11 Sentyabr hadisəsi törədildi və bu, islamofobiyanı daha da kəskinləşdirdi.[1] Ben Ladeni kim terrorçu etmişdi. Şərq və ya ABŞ?

"İslamofobiya" yeni fenomen olub "islamdan əsassız formada, xəstə"cəsinə (yalandan) qorxma mənasına gəlir. Bu, elə bir xəstəlikdir ki, pasientinə islamdan ehtiyatlanıb çəkinməyi diktə edir.[2] Bu xəstəlik təxminən 26 milyon müsəlmanın yaşadığı Avropada avropalıların özlərini təhlükəsiz hesab etmələrinə "mane olur". Bu "qorxunun" nəticəsində iddia edilir ki, Avropada müsəlman varlığı bu qitənin "həyat tərzinə xələl gətirir", onu dəyişdirir, mədəniyyətinə zərbə vurur. Odur ki, müsəlmanların Avropadan qovulması məsələsi vaxtaşırı olaraq gündəmə gəlir, onların Avropaya immiqrasiyasına əngəllər törədilir; müsəlmanlara zülm edilir, adi həyatda və işdə onlara təzyiq göstərilir. Qərb informasiya vasitələri də islamofobiyanı gücləndirir, islam adına nə varsa, avropalılarda ondan "qorxma" hissi yaradır, mütəmadi şəkildə islamı terrorla eyniləşdirir.

İslama və müsəlmanlara dair belə təsəvvürə heç kim şübhə etmir. İslamofobiya və ksenofobiya Qərb insanının ağlına və ruhuna ağalıq edir. Bu da onlara diktə edir ki, islamla bağlı hər şeylə, hər kəslə əlaqəni məqsədli şəkildə kəssinlər. Təbii ki, bu, Qərblə dialoqa təsir edir, dini qurumlar (Vatikan və s.) və ya sosial-mədəni təsisatlar çərçivəsində dialoq fəaliyyətinə zərbə vurur.

---

[1] Con Espozito. İslam təhlükəsi: həqiqət yoxsa mif? Tərcümə edən Qasim Əbduh Qasım. Qahirə: "Dar əş-Şüruq", 2001; Habelə bax: Camal Müəvvəz. Samuel Hantinqton və Con Espozitoya görə müasir dövrdə Qərb üçün islam təhlükəsi. "Dəyişən dünyada mədəniyyətlərin təması dialoqdur, yoxsa toqquşma?"konfransının materialları, Qahirə, 2003, s. 204-205; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 143.

[2] Səid əl-Ləvəndi. İslamofobiya: Qərb nə üçün İslamdan qorxur? Qahirə, 2006, s. 9; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 143.

"Sivilizasiyaların toqquşması" nəzəriyyəsi siyasi islamofobiyanın formalaşmasına səbəb olmuşdur. Bu nəzəriyyəyə görə islam "qaniçən dindir", "Qərb üçün problemdir". Hantinqton yazır: "Qərb üçün ən böyük problem islam fundamentalizmi deyil, islamın özüdür. İslam (Qərbə) yad mədəniyyətdir. Müsəlmanlarsa inanırlar ki, onların mədəniyyəti ən kamil mədəniyyət olub, universal, cahanşümul təbiətə malikdir".[1]

Koqnitiv cəhətdən islam və müsəlmanlar barədə məlumatsızlıq islamofobiyanı gücləndirir. İnsan təbiəti etibarı ilə bilmədiyinin düşmənidir. Qərblilərin böyük əksəriyyəti islam və müsəlman ictimaiyyəti haqda heç nə bilmir. Məsələn, Ərəb-İngilis Qarşılıqlı Anlaşmasının İnkişafı Şurasının mətbuat katibinin hesabatına görə britaniyalıların 78%-i islam haqda heç bir məlumata malik deyildir.[2] Bu göstərici haradasa digər bütün Qərb ölkələri üçün də eynidir. İslamofobiyanın yayılmasında bu cəhətin rolundan danışan almaniyalı islamşünas Anna Mari Şimel yazır: "Cahillik (məlumatsızlıq) nifrət və qəzəbə səbəb olur. Cəhalətin qorxuya səbəb olması bir həqiqətdir, – bunu "Fərdlərarası əlaqələr və dövlətlərarası münasibətlər"in tədqiqatçıları yəqinliklə bilirlər. Bu, əsrlər boyu belə olmuşdur. Bu qaranlığı aydınlatmaq istəyənlər, ola bilsin ki, bir tərəfin hesabına digər tərəfi islah etsinlər. Onlar müəyyən həqiqətlərlə maraqlanmırlar. Nəticədə, hansı isə bir mədəniyyətin adı ləkələnir, ya da onun barəsində saxta təsəvvürlər formalaşdırılır. Bununla da həssas ideoloji çəkişmələr özünü göstərir".[3] Daha sonra o, bu vəziyyəti islama şamil edir: "İslam hə-

---

[1]Samuel Hantinqton. Sivilizasiyaların toqquşması və yeni dünya mənzərəsinin yaradılması. tərc. Tələt Şaybindir. Qahirə, 1998, s. 352; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 144.

[2]Səid əl-Ləvəndi. İslamofobiya: Qərb nə üçün İslamdan qorxur? Qahirə, 2006, s. 202; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 145.

[3]Anna Mari Şimel. İslam bəşəriyyətin dinidir. Tərc. Salah Məhcub. İslam tədqiqatları silsiləsindən, № 60. Qahirə: İslam məsələləri Ali Şurası, 2000, s. 22; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 146.

min ədalətsiz, saxta yozumların qurbanına çevrilmiş standart misaldır. XIX əsrdə Qərb sənətkarlarının sənət tablolarında müsəlmanlar vəhşilər, barbarlar, müharibə hərisləri və qılınc həvəskarları, şəhvətlərinin əsirləri, əyləncəbazlar kimi təsvir edilmişlər. Həmçinin indiki dövrdə islamdan danışarkən ağıla saqqallı, pedant fəqihlər, alçaq terrorçular gəlir… Əslində bu təsvir səhv və ədalətsiz yozuma, müqəssir izaha əsaslanır. İslam mədəniyyətini araşdıran hər bir kəs bu səhvi düzəldə, yanlışlığı aşkarlaya bilər».[1]

Qərbə anlaşılmaz odur ki, nə üçün islam yəhudilik və xristianlığın fonunda ortaya çıxıb? (Deməli, onlar nə öz dinlərinə, nə də Allaha inanırlar. Məgər islamı müsəlmanlar yaradıblar? Elə hər üç dini Allah nazil etməyibmi?) Məhz bu məchulluq (cahillik) ucbatından islama yad din kimi baxırlar. İddia edirlər ki, o, (islam) “Allah” adlandırılan Tanrıya ibadət edən ərəblərin arasında meydana çıxmışdır. Ərəblər bu Tanrını elə atributlarla təsvir etmişlər ki, nəticədə O, yəhudilik və xristianlıqdakı tək Tanrıdan fərqlənmişdir (Daha başqa söz tapa bilmirlər!). Bəzən islamın yad din olması o dərəcədə şişirdilir ki, guya müsəlmanlar Məhəmmədə (s) və ya Kəbəyə, ya da ki, Qara daşa ibadət edirlər (Məgər o daşı Allah özü nazil etmiyibmi?). Bu cür digər iddialarla da çıxış edən qərblilər çalışırlar ki, islamı dünyaya yad və ibtidai din kimi tanıtsınlar.[2]Onlara görə müsəlmanların Tanrı anlayışı Qərb dinlərinin tək Tanrı etiqadından fərqlənir.

İslamı daha da təcrid etmək məqsədilə “Yəhudi-xristian irsi” (Judeo-Christian Tradition) anlayışı ortaya atılıb. Bu anlayışa görə Qərb irsi, mənbə baxımından xristianlığa və yəhudiliyə əsaslanır; Qərb mədəniyyəti mənbələrinə görə o, (Qərb irsi) həm Yunan-Roma, həm də yəhudi-xristian mədəniyyətidir.

---

[1]Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 9-10.

[2]Tom Wallace-Murphy. What Islam did for us.Watkins Publishing, London, 2006, p. 216; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 150.

Yəhudilik və xristianlıq da elə Şərqdə yaranmayıbmı? Elə isə onların Qərbə aidlikləri yoxdur. Yaranmaları ilə heç bir əlaqəsi olmayan səbəblərə görə yəhudilik və xristianlıq Qərb dinləri kimi təqdim edilir. Çünki bu dinlər Qərbdə yayılıb və onların inkişafı daha çox Qərblə əlaqəlidir. Məsələn, protestantlıq Almaniyada, müxtəlif katolik və protestant qruplar isə ümumilikdə Qərbdə formalaşıb.

Mədəniyyətə müxtəlif baxışlara rəğmən yeni Qərb mədəniyyətinin formalaşmasından qabaq islam mədəniyyəti ilə Avropa mədəniyyəti arasında sıx münasibətlər mövcud olmuşdur; islam mədəniyyəti yunan mədəniyyəti ilə təmasda keçmişdi. Müsəlmanlar qədim yunan irsini itməkdən qorumuşlar; onlar bu irsin böyük hissəsini (Aristoteli, Herokliti) ərəb dilinə tərcümə etmiş, araşdırmış, əlavələrlə onu zənginləşdirmişlər (İbn Rüşd). Sonralar islam mədəniyyətinin kölgəsində yaranmış tərcümə evləri (mərkəzləri) vasitəsilə bu irs ərəb dilindən latın və müasir Avropa dillərinə tərcümə edilmişdir.

Müsəlman və qərb mədəniyyətinin ikinci dəfə təması müsəlmanların elmi irsinin (İbn Sina və s.) şərqşünaslar tərəfindən latın və müasir Avropa dillərinə tərcümə edilməsi nəticəsində baş vermişdir. Bu tərcümələr sayəsində Qərb o dövrün müasir və mütərəqqi elm sahələri ilə tanış olmuşdur. Məhz bu, imkan vermişdir ki, Avropada intibah yetişsin, yeni dövr başlasın.

Tom Vəllas Morfi yazır: "Avropa mədəniyyəti müəyyənləşdirilməyəcək dərəcədə İslam dünyasına borcludur. Belə ki, müsəlman alimləri yunan elmlərini qoruyub-saxlamış, yeni elmin, təbabətin, astronomiyanın, əkinçiliyin əsasını qoymuşlar. Onlar bir çox mədəni nailiyyətlərimizin ilham mənbəyi olmuşlar".[1]

Son iki əsr ərzində bu iki mədəniyyət üçüncü dəfədir ki, mədəni təmasa keçir. Müsəlmanlar anlayırlar ki, onlar elmi

---

[1]Tom Wallace-Murphy. What Islam did for us.Watkins Publishing, London, 2006, p. 216; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 216.

tərəqqi ilə islam cəmiyyətini də inkişaf etdirməlidirlər. Bunun üçün Qərbin elmi nailiyyətlərindən faydalanmaq lazım gəlir.

Mədəni yaxınlıq göstərir ki, islam mədəniyyətini qərb mədəniyyətindən ayrı hesab etmək bu mədəniyyətlərin tarixi ilə ziddiyyət əmələ gətirir. Müsəlman mədəniyyətini bəşər sivilizasiyasının inkişaf mərhələlərindən biri kimi qəbul etməmək məntiqsizlikdir. Xüsusilə də onu Qərb mədəniyyətinə töhfə vermiş mərhələ kimi tanımamaq daha dəhşətlidir. Onsuz da Qərb mədəniyyətini öyrənən tarixçilər Avropa mədəniyyətinin tarixindən danışarkən yunan mədəniyyəti mərhələsindən birbaşa Yeni dövr Avropa mədəniyyətinə keçirlər. Onlar müsəlman mədəniyyətinə laqeyd nəzərlərlə baxır və iddia edirlər ki, müsəlmanlar yunan mədəni irsini yalnız və yalnız və bir mərhələdən digərinə daşımırlar, heç bir yeniliyə imza atmamışlar. Sanki (həmin mədəniyyət) Qərbə itmiş əşyası kimi qaytarılıb, –bu, olduqca ədalətsiz və qərəzli mühakimədir.

Qərbin bəzi vicdanlı mütəfəkkir və alimləri məlum mədəni yaxınlığın mövcudluğunu etiraf etmişlər. Onlardan biri də Tom Vəllas Morfidir. O yazır: "Biz qərblilər İslam dünyasına o qədər borcluyuq ki, onu ödəməyimiz qeyri-mümkündür. Ortaq dini-mənəvi köklərə baxmayaraq, biz müsəlmanların borcunu onlara inamsızlıq əsərləri ilə, vəhşi səlib yürüşləri ilə, müstəmləkə siyasəti ilə "ödədik". İstismar etdiyimiz xalqların ehtiyaclarının təminində laqeydlik və saymazyanalıq göstərməklə bu müstəmləkəçiliyi davam etdirdik".[1]

Yeni dövrdə müsəlman mədəniyyətindəki və siyasətindəki nisbi zəiflik səbəblərindən biri islam ölkələrinin Qərb müstəmləkəçiliyi və düşüncə qəsbkarlığı altına düşməsi olmuşdur. Qərbin düşüncə qəsbkarlığı islam mədəniyyətinin adını bədnam etmiş, bütün mənfilikləri onun ayağına yazmışdır. Özünəqapılma, başqalarına açıq olmama, zorakılıq, laqeydlik və təəssübkeşlik mədə-

[1]Tom Wallace, yenəorada, s. 215.

niyyətinin hegemonluğu, dözümsüzlük və sair belə mənfiliklərdən hesab olunur. Qərb bütün bu mənfilikləri hər yerdə səsləndirir, qarşı tərəflə münasibətlərində danışıq obyektinə çevirir. Müsəlmanlar isə onlarla ünsiyyət qurduqları zaman əsasən üzrxahlıq və müdafiə üslubu danışıq formalarından çıxış edirlər, təbii ki, bu, dialoq üslubundan uzaqdır.

İslamı terrorçuluqda günahlandıranlara Allahın nazil etdiyi ayələr sərrast cavabdır: "(Ya Rəsulum!)" İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (islama) dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) mübahisə et. Həqiqətən, Rəbbin yolundan azanları da, doğru yolda olanları da daha yaxşı tanıyır!" (ən-Nəhl, 125); "Kitab əhlinin zülm edənləri (sizinlə vuruşmaq istəyənləri) istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin! (Onlarla xoş rəftar edib, ürəklərini ələ alın və özünüzdən incitməyin). Onların kobudluğuna nəzakətlə, qəzəblərinə soyuqqanlılıqla cavab verin. Nalayiq işlər gördükdə nəsihət edib düz yola çağırın. Yox, əgər üstünüzə silah qaldırsalar, siz də silahlanıb onlarla vuruşun və onları təslim olmağa məcbur edin!..." (əl-Ənkəbut, 46).

Dialoqun səmərəsidir ki, İslam Vatikan tərəfindən xristianlıqdan ayrı müstəqil din kimi təsdiqləndi, etiraf edildi. Halbuki ona qədər xristian Qərbində islama ümumi baxış şərqşünasların təsvir etdiyi kimi idi. İslam müstəqil din deyil, yəhudilik və xristianlığın təhrif edilmiş formasıdır. Məhz belə nöqteyi-nəzərə görəislam ya qiyamçı yəhudi (və ya xristian) firqəsidir, ya da xristian (və ya yəhudi) bidətçi təriqətidir, ən yaxşı halda isə bu din yəhudilik və ya xristianlığın təhrif edilmiş variantıdır (Niyə demək istəmirlər ki, hər üç dini Allah nazil edib, əvvəl yəhudiliyi, xristianlığı, sonra isə onlar təhrif olunduğu üçün mükəmməl bir din –islamı nazil etdi və Quranda "Allah yanında din islamdır" deyib təsdiq etdi). Sonuncu nöqteyi-nəzərə görə ərəb zehniyyətinə uyğun

gəlməsi üçün guya yəhudilik və ya xristianlıq (ərəblər tərəfindən) təhrif edilib və islam ortaya çıxıb. Hətta Quranı “ərəblərin Tövratı”, “ərəblərin İncili” kimi xarakterizə edənlər də tapılmışdı. Bununla da islamın sözügedən iki dinin təhrifə uğramış variantı hesab edilməsi iddiasının möhkəmləndirilməsi məqsədi güdülmüşdür.[1]

İslam Qərbin keçmişi və hüququnun bir hissəsidir. Oksfordda 2001-ci ildəki çıxışında islam irsini Qərb irsinin bir hissəsi kimi xarakterizə edən Britaniya vəliəhdi şahzadə Çarlz islam dinini bütün sahələrdə “Qərbin keçmişi və indisinin ayrılmaz parçası” adlandırmışdır. Çarlza görə müasir Avropanın formalaşmasında islamın özünəməxsus payı vardır; “Islam mötədillik dinidir. Terror isə bir fenomen olaraq bütün dinlərin, o cümlədən xristianlığın bəzi mənsublarında mövcuddur”.[2]

Müsəlman-xristian dialoqu haqda Roman Hertsoq yazır: “Həm islam, həm də xristianlıq Tək Allah etiqadında birdirlər. Hər ikisi oxşar əxlaq təlimlərinə malikdirlər. Onların mübarizəsini zəruri edəcək heç bir amil mövcud deyildir… Biz indiki dövrdə dünyaya xatırlatmalıyıq ki, islam böyük mənəvi ənənələrin mənbəyidir və o, sosial-mədəni həyatda böyük paya malikdir”.[3]

---

[1] ŞeyxYusif əl-Qərdavi. Müsəlman-xristian dialoqu. «əl-Müslim əl-Müasir» jurnalı. Qahirə, 1997, № 86, s. 155; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 169.

[2] Camal Müəvvəz. Samuel Hantinqton və Con Espozitaya görə müasir dövrdə Qərb üçün İslam təhlükəsi «Dəyişən dünyada mədəniyyətlərin təması dialoqdur, yoxsa toqquşma», konfransının materialları. Qahirə, 2003, s. 286; Məhəmməd Xəlifə Həsən. Dialoq, s. 187.

[3] 2001-ci ilə – mədəniyyətlərin dialoqu ilinə hazırlıq işləri. “Kəlmə” jurnalı. Beyrut, 1999, № 24. s. 188.

# NƏTİCƏ

Beləliklə, belə ümumi nəticəyə gəlmək olar ki, islama şər atıb, onu qaralamağa, ləkələməyə çalışmağın bir mənası yoxdur. Onsuz da həqiqət əvvəl-axır üzə çıxır, yalanlar, böhtanlar, qərəzli günahlandırmalar batil olur. Bütün bu mənasız hücumların əvəzinə dialoq stolu arxasına oturub, bu islamofobiya, ksenofobiya, yalandan islamı günahlandırmaqdan əl çəkib, bütün millətlərin, dinlərin inkişafına çalışmaq lazımdır. Çünki hər üç səmavi dini – yəhudi,xristian,islam dinlərini Tək Allah nazil edib,necə ki, bəzi vaxtlar bu din nümayəndələri bir-birinə arxa olublar.İmam Əli ən-Nəği,Həsən əl-Əskəri və Mehdinin əhli-əyalı Hökümə,Nərgiz və Mariya xanımları xəlifə Mötəmidin əsgərləri təqib edərkən, onlar İranda keçmiş Rəşt ətrafında “Bədri kilsəsi” kimi tanınan və “Pavelin kilsəsi” kimi dilə-dişə düşən kilsəyə sığınırlar.Müqəddəs Ata Pavel ölümü gözləri önünə alsa da, bir dəyirmançının köməyi ilə onları Bəndər Ənzəlidə gəmiyə midirib,xəlifə məmurlarından uzaqda yerləşən və imam əhli-əyalını məhəbbətlə qarşılayan Bakıya göndərir.[1]

Ona görə də BMT-nin sabiq baş katibi Kofi Annan Ümumdünya əxlaq sisteminin yaradılmasında mədəniyyətlərarası dialoqun əhəmiyyətini xüsusi vurğulamışdır. İslam “dünyanın ən böyük dinlərindən biri olmaqla yanaşı, həm də yol göstərmədə ən əzəmətli mədəniyyətdən daha üstün məşəldir”. Kofi Annan tələb edirdi ki, dialoq insanlar arasındakı müxtəlifliyin ləğvinə deyil, qarşılıqlı ehtirama əsaslanmalıdır; bu müxtəliflikləri qoruyub saxlamaq lazımdır. Əbəs yerə deyildir ki, Məkkədə İslam Dünyası Birliyi Baş Katibliyi xüsusi bəyanat verərək, Kofi Annanın

[1]Rövşən Novruzoğlu.Əsrin imamı... Kredo qəzeti, 25 aqust, 28 sentyabr 2018

islam və müsəlman mədəniyyəti haqda dediklərini təsdiq etmişdir. Bəyanatda bildirilir ki, Annanın fikirləri obyektivdir, mədəniyyətlərin dialoqunu təsdiqləyici mahiyyətdir və bu, dünyadakı zorakılığın, gərginliyin azaldılmasına imkan verir.

Qərb və islam arasındakı dialoqu qorumaq lazımdır, çünki, onların münasibətlərinin normallaşdırılması olduqca zəruridir. Anna Mari islamla münasibətlərin korlanmasında Qərbi ittiham edir, münasibətlərdəki problemlərə görə Qərbi təmsil edən şərqşünasların üzərinə əxlaq məsuliyyəti yükləyir. Mariyə görə baş verənlər Qərb şərqşünaslığını çulğamış əxlaqi çöküşün nəticəsidir.

Həmçinin Anna Mari islamın Qərbə və qərb mədəniyyətinə təhlükə olmasını iddia edən nəzəriyyələri tənqid atəşinə tutur və bildirir ki, islam Qərbin intibahın, mədəniyyəti, incəsənəti və ədəbiyyatının çiçəklənməsində böyük rol oynayıb. Çünki Qərblə müsəlman dünyası arasında mədəni qarşılıqlı təsir mövcud olmuşdur. Anna Mari qeyd edir ki, bir şey haqda məlumatsızlıq ona qarşı nifrət oyadır, ondan qorxmağa səbəb olur (ancaq əksinə olmalıdır, ona maraq artmalıdır ki, onda nəyin olduğu aydınlaşsın) – bu, islama münasibətdə Qərbin düşdüyü vəziyyətdir.

Əgər Qərb (xristian) ictimaiyyətinin "İslam Qərbin təbii düşmənidir" düşüncəsi doğrudursa – bu, Hantinqtonun mövqeyidir – onda müsəlmanların əks-reaksiyası belə olacaqdır: Qərbin müsəlmanlara təcavüzü hər an mümkündür. Odur ki, müsəlmanlar Qərbə qarşı vahid düşmənçilik mövqeyindən çıxış etməyə məcburdurlar… Hantinqton əslində "xristianlarla müsəlmanların bir-birinə nifrət bəsləmələrinin nəzəri konturlarını cızıb".

Dinlərin bütün növ münaqişələrə yol açacaq dərəcədə qarşı-qarşıya gəlməsi qeyri-mümkündür. Ona görə dialoq həll deməkdir. Əgər münaqişələrin baş verməsini istəmiriksə, qarşılıqlı fəhmə şərait yaratmalıyıq, müxtəlif dinlərin mənsubları üçün

müştərək baza axtarıb-tapmalıyıq; dini don geydirilmiş münaqişələrin yaranmasına rəvac verən siyasi bloklardan uzaq durmalıyıq.

Dinlərdə dialoq üçün baza mövcuddur ki, bunun da kökü tarixi əlaqələrə gedib çıxır. Bu tarixi əlaqələr həmin dinləri bir-biri ilə əlaqələndirir, peyğəmbərlərin atası – Həzrəti İbrahimə (ə) onların aidliyini təsdiqləyir. Həmçinin bu dinlərdə müştərək tövhid inancı mövcuddur. Xristianlıq yəhudiliyin Müqəddəs Kitabını, islam da həm yəhudiliyin, həm də xristianlığın Müqəddəs Kitablarını tanıyıb qəbul edir. Tarix boyu bu üç dinə inananların arasındakı sıx əlaqələr onların fikirlərinin təfsilatı müzakirəsinə, təcrübə mübadiləsinə səbəb olmuşdur.

Hər bir hadisəni tarixi aspektdə araşdırmaq olduqca vacibdir. Mühakimə və dərketmənin qeyri-tarixi yolları təshih edilməlidir. Belə qeyri-tarixi yollara aludə olan Hantinqton özünün ən böyük xətasını edib – "Mədəniyyətlərin toqquşması" nəzəriyyəsini yaradıb.

Con Espozito Qərbdə "Sivilizasiyaların toqquşması" nəzəriyyəsinin və "İslam Qərb üçün təhlükəlidir" konsepsiyasının sərt tənqidçilərindən hesab edilir. Onun qələmə aldığı kitablar Qərbdə islam əleyhinə böhtan xarakterli hücumlara, "Müsəlmanlar gəlirlər!", "İslam təhlükəsi" və digər anlayışlara qarşı sanballı ədəbiyyat qəbilindəndir. Espezitoya görə islam əleyhinə bütün kampaniyaların səbəbi kimi bu din haqda məqsədli məlumatsızlıq, Qərbdə islamı öyrənənlərin qərəzli mövqeyi və subyektiv təhlilləri çıxış edir. Həmçininislama qarşı kampaniyalara səlib müharibələri və Qərb müstəmləkəçiliyi dövründənqalma ənənəvi nifrət hissi stimul verir. Espozito Qərbin islama baxış tərzini tənqid edərək göstərir ki, bu baxış tərzi siyasi, ideoloji və qərəzli xarakter daşıyır, standart qəliblərdən çıxır. Belə olan təqdirdə islama potensial düşmən gözü ilə baxılır və o, kommunizmdən sonra yeni rəqib kimi təqdim edilir; (Halbuki islam birinci olaraq o biri dinlər kimi kommunizmin düşməni kimi qələmə verilirdi). İslam

xristianlıq, yəhudilik və qərb mədəniyyəti üçün təhlükə hesab olunur. Espozito "Mədəniyyətlərin toqquşması nəzəriyyəsi"nin mənəvi atası sayılan yəhudi islamşünas Bernard Luisi sərt tənqid edərək bildirir ki, onun "İslam qərb mədəniyyətinin təhlükəli düşmənidir" ideyası qərəzli ideyadır. O, sonuncunun "İslam qəzəbinin kökləri" konsepsiyasını islama və müsəlmanlara qarşı təhrikedici konsepsiya kimi xarakterizə edir. Espozito bildirir ki, "İslam təhlükəsi" nəzəriyyəsi siyasətçilərin uydurduqları mifdir. Bu siyasətçilər Sovet İttifaqına münasibətdəki səhvi yenidən təkrarlayırlar; onlar "düşmənin" və onun təmsil etdiyi təhlükənin təsvirində standart qəliblərə malikdirlər. Espozito Qərbi ittiham edir ki, bu,"Mədəniyyətlərin toqquşması nəzəriyyəsi"ni yaradanların və onu yayanların zehinlərində ancaq şər imperiyası yaradır.

Espozito əsas diqqəti siyasi maraqların mübarizəsinə, iqtisadi-sosial münaqişələrə yönəldir və hesab edir ki, bunlar islamla mübarizənin "həqiqi səbəbkarları"dır.

O, "Düşmən islam nəzəriyyəsi"nin tənəzzülə uğradılmasının zəruriliyini bildirir, müsbət qarşılıqlı təsir və yaradıcı dialoq vasitəsi ilə islamla, müsəlman mədəniyyəti ilə əlaqələrin bərpasının vacibliyini vurğulayır.

Misir alimi Asim əd-Dəsuqi də bu fikrə şərik çıxır: "Bu, iqtisadi maraqların müharibəsidir. Bununla da Qərb Beynəlxalq ticarət təşkilatı adı altında ümumdünya bazar sistemini və yeni sistemə rəhbərliyi zəmanət altına almaq istəyir".

Deyilənlərin hamısından aydın olur ki, islamofobiya, ksenofobiya, islamofaşizm və s. bu kimi ibarələrlə (öz siyasi məqsədlərinə çatmaq üçün) xalqları qızışdırıb bir-birinin üzərinə salmaq müharibələrə, qırğınlara gətirib çıxaracaq, bu isə mədəniyyətlərin məhvinə səbəb olacaq. Sağlam yol, sağlam düşüncə dialoq masası arxasına oturub, sülhlə gələcəyi qurmaq daha faydalıdır.

## İstifadə edilmiş ədəbiyyat


1. Abdullah əs-Seyyid Vələd Əbah. “11 Sentyabr” hadisəsindən sonra Qərbin İslamla bağlı xitab tərzi. Təsamuh jurn. Oman: “Vəqflər və Dini işlər Nazirliyinin” nəşrləri, 2004, № 7, s. 118-119.
2. Abdullayev Şakir, folklorşünas. Adəmdən Xatəməcən. Kredo qəzeti, 26.11.2016, s.15.
3. Abutalıb Məmmədov .“İslamın sülhsevər din kimi əsas dəyərləri”. “Dövlət və Din” ictimai fikir toplusu. Mart, 2007.
4. Адам Мец. Мусульманский ренессанс. М. Наука, 1996.
5. Aqil Hacıyev. “Sovet Azərbaycanında din və dini təsisatlar”. “Dövlət və Din” jurn.№ 2, iyun, 2006.
6. Aqil Şirinov. Azərbaycanda tolerantlıq ənənəsi. Nurlar, Bakı, 2015.
7. Allahşükür Paşazadə. Qafqazda İslam. Bakı, 1991.
8. Alcorani Texfus Universus. Padova, 1968.
9. Anna Mari Şimel. İslam bəşəriyyətin dinidir. Tərcümə edən Salah Məhcub. İslam tədqiqatları silsiləsindən, № 60. Qahirə: İslam məsələləri Ali Şurası, 2000, s. 22.
10. Artur Stenli. İslama görə zimmilər. Tərcümə edən Həsən Həbəşi. Qahirə: Dar əl-məarif nəşriyyatı, 1967.
11. Aslan Həbibov. Azərbaycanın cənubunda dini tolerantlıq və ya birlikdə yaşama mədəniyyəti. Azərbaycanda tolerantlıq ənənəsi. Nurlar, Bakı, 2015.
12. “Awake” (Oyan) jurn. 8 iyul 1975.
13. “Azadlıq” qəzeti, 2 oktyabr, 2014.
14. Beyazit Akmak. Moral Dünyası, yanvar, 2011.

15. Camal Müəvvəz. Samuel Hantinqton və Con Espozitoya görə müasir dövrdə Qərb üçün İslam təhlükəsi. "Dəyişən dünyada mədəniyyətlərin təması dialoqdur, yoxsa toqquşma?" konfransının materialları. Qahirə, 2003, s. 204-205.
16. Ceyhun Məmmədov. "Müasir Azərbaycanda dinə münasibət". Dövlət və Din jurn. № 1, fevral, 2006.
17. Con Espezito. İslam təhlükəsi: həqiqət yoxsa mif? Tərcümə: Qasim Əbduh Qasim, Qahirə: "Dar əş-Şüruq", 2001.
18. David Rokfeller. Yüz ilin etirafları. Türkiyə, 2013 ("Kredo" qəzeti, 14 may, 2014).
19. Davud Aydüz. İslamda dinlərarası dialoqun əsasları. Dövlət və Din jurn. № 2, iyun, 2006.
20. Э.Ю.Гасанова. Идеология буржуазного национализма в Турции. Баку, 1966.
21. Эсмеральда Гасанова. Критика богословами современной Турции попыток искажения Ислама на Западе. Azərbaycan şərqşünaslığı. jurn. № 1 (15) 2011.
22. Etyen Dinye. Məhəmməd Allahın peyğəmbəridir. Tərcümə edən Məhəmməd Ə., Mahmud M.Ə., qahirə, əl-Ərəbiyyə mətbəəsi, 1959.
23. Entoni Sullivan. Qərb və İslam dünyası: yeni başlanğıc axtarışı. Tərcümə edən Mərvan Həmdan, Əmman, 2002, Dini Tədqiqatlar Krallıq İnstitutunun bülleteni № 32.
24. Əbdülhəmid əbu Şəqqə.Peyğəmbər dövründə qadın azadlığı.Bakı,2014,tərcü-mə Əlvüsal Məmmədovundur.
25. Əbdüsəttar İbrahim əl-Heyti. Fərdin öz-özü və başqası ilə dialoqu. Qətər: Vəqflər və Dini İşlər Nazirliyinin nəşrləri, 2004, s. 164.
26. Əhməd əl-Mosuli. Müasir dövr İslam dünyasında novatorluq və təhlükələr. Hivar əl-Ərəb jurn. Beyrut, 2005. № 2, səh. 63.

27. Əhməd Şihab. Qloballaşmadan sonra media. "Əl-Kəlimə" jurnalı, Beyrut, 2003, № 39, s. 119.
28. Əhməd Xəlifə Həsən. Dialoq mədəniyyəti və metodologiyası. Bakı, 2011. Tərcümə və redaktə Elvüsal Məmmədovundur.
29. Əli Rza oğlu Fərhadov. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şimali Azərbaycanda islami maarifçilik və islahatçılıq hərəkatı (Mir Məhəmməd Kərim Mircəfər əl-Bakuvinin "Kəşfül-həqaiq" əsəri haqqında dissertasiya, Bakı, 2016, səh. 3-10).
30. Əmir Tahiri. Avropanın ekstremist partiyaları Qərbə islamofobiya şüuru aşılayır. "Əş-Şərq əl-Övsət" qəzeti, 28.05.2002, s. 22.
31. Fritz Şteppat. İslam ortaq kimi: İslam və müsəlmanlar haqda tədqiqatlar. Tərcümə edən Əbdülqəffar Məkavi. "Aləm əl-Mərifə" jurn. Küveyt, 2004, № 302, s. 68.
32. Fritz Şteppat. İbrahimi dialoq sistemi: "Qərb və dünya mədəniyyətlərinin toqquşması və dialoqu arasında" kitabından. Beyrut: "Araşdırmalar, Strategiya və Leqallaşdırma Mərkəzi"nin nəşri, 2000, s. 188.
33. Gabriele Marranci: "Multikulturalism, İslam and the closh of sivilisations theory: rethinning İslamophobia", Culture and Religion: An İnterdisciplinary Journal, Vol. 5, № 1 (2004).
34. Gagnieh İ. Vie de Mohomed, 1732.
35. Heydər Əliyev. Dövlət və Din jurn, № 2, iyun, 2001.
36. Hidayət Orucov. Azərbaycanda din. Bakı, 2012.
37. Hasan Onat. "Papanın sözleri dini degir siyasi", s. 14, "Türk Yurdu" Ekim, 2006, cilt 26, sayı 230, Sözleri Ömer Bekeç-Mehmet Ekiz.

38. Hussein Mutalib. Beyond Pride and Prejudice; Western Perceptions of Islam and the Muslims, in Muslims and the West: Encounter and Dialoque, eds.7-Z. Ansari and Jonn Esposito, Islamic Research Institute, Islamabad and Center for Muslim-Christian Understandig Georgetown University, Washington, D.C.2001, s. 97-98.
39. Hişam əl-Məkki. Sivilizasiyalararası dialoqa baxış. "Əl-Kəlimə" jurnalı, Beyrut, 2003, № 39, səh. 155-156.
40. Xüzeyr Cəfər. Biz, Fukuyama və tarixin sonu. "əl-Müstəmə əs-Səqafi" jurn. Beyrut, 1998, № 1313, səh. 45.
41. İbn Abdilbərr. İstiab. 2002, IV c.
42. İbn Kəsir. Təfsir əl-Quran, c. IV.
43. İlham Əliyev. "Dövlət və Din" jurn., № 2, iyun, 2006.
44. Iftikhar H.Malik. Crescent between Cross and Star: Muslims and The West after 9/11, Oxford Univ. Press, 2001.
45. İnternet saytı az.wikipedia.org.
46. İslam: Təhriflərə cavab. Bakı, 1997.
47. "İslam maarifçiliyi və müasir dövr" mövzusunda Beynəlxalq Konfransın Kommünikesi. Bakı, 17 aprel, 2015.
48. Qurani-Kərim.
49. Kredo qəzeti,Bakı,25 avqust,28 sentyabr
50. Lüter Vip Styuard. İslam dünyasının hal-hazırı. Tərcümə edən Ecac Nüvehəzi. III c. Beyrut: "Dar əl-fikir" nəşriyyatı, 1971.
51. Mehriban Əliyeva. "Dövlət və Din" jurn. № 2, 2006.
52. Məhəmməd Əmarə. Dini xitab tərzinin yeniləşdirilməsi. "Qərb müdaxiləsi və islahatçılıq zərurəti prizmasından dini xitab tərzinin yeniləşdirilməsi" simpoziumunun materialları. Qahirə Universiteti, 15-16 iyun 2005-ci il. "Mənar əl-islam" jurnalı, № 371, dekabr 2005, s. 53.

53. Məhəmməd Faruq ən-Nəbəhan. Sivilizasiyalararası dialoq metodologiyasına İslamın baxışı. "İslam və sivilizasiyalar-arası dialoq" simpoziumunun materialları, cild II. Riyad: Məktəbə əl-Məlik Əbdüləziz" nəşriyyatı, 2004, s. 331.
54. Əbulfəth əl- Şəhristani.Əl-Miləl va-n-nihəl. 1 cild.
55. Kredo qəzeti
56. Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Çapa hazırlayanlar: K.Şərifli, A.A.Ramazanzadə. Bakı, 1993.
57. Oleq Kuznetsov. XX əsrin əvvəllərində Rusiya imperiya-sında erməni milli-dini ekstremizmi (Qafqazın dövrü mət-buatı materialları əsasında). Beynəlxalq Azərbaycan jurnalı "İrs", № 4 (70), 2014, səh. 53 (rus dilində).
58. Ömər Zərqavi. Sivilizasiyaların toqquşması: nəzəriyyə, yoxsa ideologiya? "Əl-Kəlimə" jurnalı. Beyrut, 2003, № 39, s. 138.
59. Rafiq Əliyev. İslamda əsas insan hüquqları və azadlıqları. "Dövlət və Din" jurn. № 2, iyun, 2006.
60. Ramiz Mehdiyev. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, XXI – Yeni Nəşrlər evi, 2005.
61. Ramiz Mürsəlov. Dini dözümlülük (tolerantlıq): mahiyyəti və əsas prinsipləri. "Hikmət" elmi araşdırmalar toplusu, № 14, 2009-cu il.
62. Ramiz Mürsəlov. Radikal İslam xarici müdaxiləyə cavab reksiyası kimi. AMEA, "Azərbaycan şərqşünaslığı" jurn., № 2, 2014.
63. Rəsul Məhəmməd Rəsul. Mədəniyyətlərarası toqquşmadan dialoqa: Hantinqton konsepsiyasının tənqidi təhlili. "əl-Kəlimə" jurn. 1999, № 24.
64. Ricina əş-Şərif. Sionizm yəhudilik deyildir. Qərbdə sionizmin tarixi kökləri. "Aləm əl-mərifə" jurn. Küveyt, 1995, № 96.

65. Rizvan əs-Seyyid. İslamla mübarizədə şərqşünaslıqdan antropologiyayadək. "Təsamuh" jurn. Oman. "Vəqflər və Dini İşlər Nazirliyi"nin nəşrləri, 2004, № 7, s. 80-81.
66. Rövşən Novruzov.Əsrin imamı..."Kredo" qəzeti,25 avqust,28 sentyabr 2018
67. Sadiq Cəlal əl-Azm. Naqd əl-fikr əd-din. Beyrut, 1968.
68. А.В.Сагодеев. Гуманистические идеи в исламе и классической мусульманской культуре. Газ. "Бакинский рабочий", 06.06.1991.
69. Saleh ibn Hüseyn əl-Ayid. İslam ölkələrində qeyri-müsəlmanların hüquqları. Bakı – 2010. Tərcümə edən və redaktoru Elvüsal Məmmədov.
70. Samir Mərqis. "Qoruma və cəzalandırma. Qərb və Yaxın Şərqdə din məsələsi: Məzhəb qayğıkeşliyi qanunundan dini sərbəstlik qanununadək" kitabına yazılmış ön söz. Qahirə: "əl-Qipti"SosialAraşdırmalarMərkəzi, 2003, s. 148-149.
71. Samuel Hantinqton. Sivilizasiyaların toqquşması və yeni dünya nəzəriyyəsinin yaradılması. Tərcümə edən Tələt Şayb. Qahirə, 1998.
72. Səid əl-Ləvəndi. İslamofobiya: Qərb nə üçün İslamdan qorxur? Qahirə, 2006.
73. Steven Kepnes. İslam as our other İslam asour self. / İgbal Reviwe, journal of the Igbal Academy. Special, Spesial Issue, Studing the Religions other? Ed. By M/S/? Lahore? October? 2005/
74. Şeyx Raşid əl- Qənnuşi. Avropada İslam. "Hivar əl-Qərb" jurnalı. Beyrut 2006, № 21, s. 45.
75. SələməŞeyx ət-Tayyib Sələmə. Bəstə an Hayət əl-muslimin fi asr Fəxr əd-Din ər-Razi. Faslə min ən-nəşra əl-ilmiyyə lil-kulliyyə əz-Zeytuniyyə fi-ş-şəria va usul əd-din, 1984, № 47, s. 232.

76. ŞeyxYusifəl-Qərdavi. Müsəlman-xristiandialoqu. “Əl-Müsliməl-Müasir”jurnalı. Qahirə, 1997, № 86, s. 155.
77. Tom Wallace-Murphy. What Islam did for us.Watkins Publishing, London, 2006.
78. Uol Dyurant. Sivilizasiya hekayəsi. Tərcümə edən Məhəmməd Bədran. Qahirə, 1964-1967.
79. VəcihKövsərani. Fukuyama, Hantinqtonvəİslam. “əl-İctihad”jurnalı. Beyrut, 2001, № 49.
80. Yaşar Nuri Öztürk. Türkiyeyi kemiren ihanet Allah ilə aldatmaq (35 baskı). İstanbul, 2008, s. 70-71. “Cumhuriyyət” qəz. 24 may, 2000-ci il.
81. Yunas Samad and Kasturi sen, Islam in the European Union, Transnationalism Youth and the war on Terror. Oxford Univ. Press. 2007.
82. Yusifəl-Həsən. Ərəb-sionist mübarizəsinə münasibətdə Amerika siyasətində din faktları: Amerika-xristian fundamentalizmi hərəkatı haqda araşdırma. Beyrut, “əl-Vahdəəl-Ərəbiyyə” Tədqiqatlar Mərkəzi, 1990.
83. Yusif Talıbzadə. İslam və məzahib. Bakı, 1324 h.q.
84. Voltarie. Mahomet au le Fanatisme, 1742.
85. Zəki Nəcib Mahmud. Təcdid əl-fikr əl-arabi. Beyrut, 1971.

Əmmar Abbasov

# Müasir dünyada islamofobiya və onun təzahür formaları

Çapa imzalanmışdır: 02.05.2018
Kağız formatı: 60x84 1/8
Həcmi: 73 ç.v.; Sifariş:18
Sayı:500

Kitab "Papirus Nəşriyyat və Poliqrafiya" MMC-nin
mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.